# Azərbaycanın birinci vitse prezidenti

Bakı-2017

*Tərtibçi müəllif:* **Asəf Novruzov,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Prezident təqaüdçüsü*
*"Cəmiyyət" İnformasiya Agentliyinin rəhbəri*

*Redaktor:* **Sabir Hüseynov,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Asəf Novruzov, "Azərbaycanın birinci vitse prezidenti", Bakı, 196 səhifə.**

*Mehriban xanım sadə adamların güvənc yeridir. Onun sadə adamlara, onların dərdi-sərinə səmimi müdaxiləsi, qayğısı insanların ən böyük etibarını və ümidini qazanıb. Onun ana məhəbbəti, dövlətçi şəfqəti tükənməzdir. Bu zərif ana qəlbində xalqının, elinin, obasının tükənməz məhəbbətini daşıyır. Biz bunu da unutmayaq, Mehriban xanımı sevək və qoruyaq! Özümüz üçün qoruyaq, müstəqil dövlətimiz və xoş gələcəyimiz naminə qoruyaq.*

İSBN: 5-8020-2080-6

## M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının $103^1$ -ci maddəsinin I hissəsini rəhbər tutaraq **qərara alıram:**

Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 fevral 2017-ci il.*

## Prezident İlham Əliyev: Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır

"Bu gün mənin Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Təhlükəsizlik Şurasının iclasında Mehriba Əliyevanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi təqdim edərkən səsləndirib.

Prezident İlham Əliyev qeyd edib ki, Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

"2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir" – deyə, Prezident İlham Əliyev qeyd edib.

Azərbaycanın dövlət başçısı Mehriban xanımın beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu bildirib: "Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni za-

manda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir".

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

"Sadaladığım bütün bu amilləri nəzərə alaraq mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram" - deyə, Prezident İlham Əliyev qeyd edib.

# Birinci vitse-prezident Mehriban Əliyeva: Prezidentin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam

"Hörmətli cənab Prezident, mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, Sizin, cənab Prezident və bütün mənə inanan insanların etimadını doğrultmağı bacaracağam".

Mehriban Əliyeva bildirib: "Mənim fəaliyyətim haqqında dediyiniz sözlər, verdiyiniz qiymətlərə görə təşəkkürümü bildirirəm. Belə bir qiymətə layiq olmaq böyük bir şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, dəstəyiniz durur. Keçmiş illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi, bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə, hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır".

Birinci vitse-prezident qeyd edib ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondu artıq 13 ildir öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub:

"Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman bu 13 il ərzində ayrı-ayrı insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu, bütün dövlət qurumlarında çalışan insanların əsas borcudur və vəzifəsidir".

Mehriban Əliyeva qeyd edib ki, gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır, əksinə, məhz bu mənəvi dəyərləri yüksək tutaraq ən yüksək qələbələri əldə etmək olar, ən böyük zirvələrə qalxmaq olar:

"Hörmətli cənab Prezident, hörmətli Təhlükəsizlik Şurasının üzvləri, sizi əmin edirəm ki, mən öz gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam, ölkəmizin və xalqımızın maraqlarını hər bir şeydən üstün tutacağam, Azərbaycana layiqli xidmət etməyə çalışacağam. Bir daha göstərdiyiniz etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm".

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

**Hörmətli Mehriban xanım,**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik!

Dövlətimizin başçısı cənab İlham Əliyevin bu qərarı xalqımız tərəfindən minnətdarlıq duyğuları ilə qarşılanıb. Çünki Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti kimi həyata keçirdiyiniz dəyərli işlər, geniş ictimai və xeyriyyəçilik fəaliyyətiniz, səmimiliyiniz, sadəliyiniz, əhalinin qayğılarına həssas münasibətiniz Sizə insanların dərin inamını, hörmət və məhəbbətini qazandırıb.

Biz bu cür yüksək dövləti vəzifədə öz həmkarımızı görməkdən sonsuz qürur hissi keçiririk. Parlamentin fəaliyyətinə Sizin verdiyiniz töhfələr, xüsusən qanunvericilik təşəbbüsü hüququnuzdan səmərəli istifadə edərək on minlərlə insanı yenidən azadlığa qovuşdurmağınız Milli Məclisin tarixində və xalqımızın yaddaşında həmişəlik qalacaq.

Müasir dövrün çağırışları dövlətimiz qarşısında hər gün yeni vəzifələr qoyur. Belə bir şəraitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət ölkəmizin geosiyasi təlatümlərə sinə gərərək, sabit və ardıcıl inkişafını təmin edir. İnanırıq ki, Sizə xas olan yüksək işgüzar və mənəvi keyfiyyətlər, dərin bilikləriniz, təşkilatçılıq qabiliyyətiniz dövlətimizin başçısı tərəfindən həvalə edilən vəzifələri yüksək səviyyədə yerinə yetirməyinizə kömək göstərəcək.

Hörmətli Mehriban xanım, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi bir daha səmimi qəlbdən təbrik edir, şərəfli və məsuliyyətli dövləti fəaliyyətinizdə Sizə böyük uğurlar arzulayırıq!

Dərin ehtiram hissi ilə,

***Azərbaycan Respublikasının Milli Məclisi adından***
***Milli Məclisin Sədri Oqtay Əsədov***
***Bakı şəhəri, 22 fevral 2017-ci il.***

# Mehriban Əliyeva bu etimadı da şərəflə doğruldur

Şərqlə Qərb mədəniyyətlərinin bir araya gətirildiyi Azərbaycan yenə də dünyanın nəzər nöqtəsindədir. Ana Vətənimizdən uzaqlarda bu, özünü daha qabarıq göstərir. Son illər Azərbaycana marağın coğrafiyası genişlənir. Bunun səbəblərinin sayı artmaqdadır. Müstəqilliyinin 25 illiyini arxada qoyan Azərbaycan bu qısa dövrdə bir çox uğurlara imza atıb ki, bunlar da müstəsna xidmətləri ilə xalqımızın qəlbində əbədi yaşayacaq böyük dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin layiqli davamçısı, Prezident İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ümumbəşəri ideya və təşəbbüslərinin reallaşması ilə mümkünləşib.

Azərbaycanın humanitar sahədəki təcrübəsi isə xüsusilə dünya xalqlarının marağına səbəb olub. Mədəni dəyərlərin öyrənilməsinə və onlardan istifadə edilməsinə son illər daha çox diqqət ayrılmasının səbəbləri az deyil. Deyirlər ki, mədəniyyətin dili daha çox anlaşıqlıdır, nəinki siyasətin. Buna görə də mədəni əlaqələrin daha da genişlənməsində xalqlar arasında ünsiyyətin qurulması, qarşılıqlı hörmət, tolerantlıq və multikulturalizm vacib faktor kimi ortaya çıxarılıb.

Azərbaycanın bu gün dünyada özünə layiqli yer tutması ilk növbədə onun müstəqil dövlət kimi tanınmasında və yerləşdiyi regionda əsas söz sahibi olmasındadır. Əlbəttə, buna nail olmaq o qədər də asan məsələ deyil. Müstəqilliyini bərpa etdikdən sonra hər tərəfdən edilən təzyiq və hücumlar, süni surətdə yaradılan qarşıdurma, nəhayət, Qarabağın Azərbaycandan qoparılması uğrunda aparılan mübarizələr xalqımızın tarixində iz buraxmaya bilməzdi. Lakin şükürlər olsun ki, Heydər Əliyev o zamanlar - Azərbaycanın müstəqilliyinin başı üzərini yenidən təhlükə alanda özünü yetirdi, hakimiyyətin necə idarə edilməsini anlatdı və dünya azərbaycanlılarının birliyinə nail oldu.

Həmin keşməkeşli illərdən bizi heç də uzaq tarix ayırmır. Ötən illər qədim tariximizin səhifələrinə acılı-şirinli və sevindirici hadisələrlə yazıldı. Budur, yenə də tarixi hadisə hesab edilən günləri yaşayırıq. Budəfəki tarixi hadisə də dövlətimizin siyasi, iqtisadi, humanitar sahələrdə dünyada qazandığı nüfuzunun təsdiqidir.

Ömrümün arxada qalan illərini Vətəndən uzaqlarda keçirsəm də, hər an Azərbaycanla nəfəs almış, onun acılarını duymuş, uğur və nailiyyətlərinə sevinmişəm. Vətənimdə nəinki elmi nailiyyətlər, eyni zamanda sosial-mədəni inkişaf da artıq dünya üçün nümunəyə çevrilib. Burada bır sıra yaddaqalan beynəlxalq elmi, mədəni və kütləvi idman tədbirlərinin keçirilməsi heç də təsadüfi deyil. Bu, ilk növbədə dövlətimizin inkişafı ilə sıx bağlı məsələlərdir. Neçə-neçə təşəbbüslərə imza atan Azərbaycanda müsəlman və İslam dünyasının həmrəyliyini beynəlxalq aləmə təqdim etməsi barədə təşəbbüsü də məni çox qürurlandırıb. IV İslam Həmrəyliyi Oyunları təkcə beynəlxalq miqyaslı idman tədbirlərinə növbəti dəfə evsahibliyi etmək kimi anlaşıla bilməz. Yenə də I Avropa Oyunlarında olduğu kimi, bu dəfə də tədbirin yüksək səviyyədə keçiriləcəyinə əminlik ya-

radan amillər çoxdur. Oyunlarda iştirak edəcək İslam ölkələri idmançılarının Azərbaycanda bir araya gəlməsi Avropada və digər məkanlarda süni surətdə yaradılan anti-islam əhvali-ruhiyyəsini dəyişmək missiyası daşıyır.

Beynəlxalq idman tədbirindən öncə Azərbaycan Prezidentinin sərəncamı ilə 2017-ci il Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunub. Bu da, öz növbəsində, keçiriləcək Oyunların əhəmiyyətini gücləndirir. Birinci vitse-prezident, IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın aprelin 21-də hazırlıqlarla bağlı yekun iclasında bildirdiyi fikirlər də göstərir ki, bu Oyunlar adi, sıradan bir idman yarışı deyil. Bu Oyunlar həm böyük idman bayramına çevriləcək, həm də müsəlman aləmində dostluq, həmrəylik, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə öz töhfəsini verəcək. Əminəm ki, Mehriban Əliyeva bu etimadı da şərəflə doğruldacaq.

***Lütfi Zadə,***
***ABŞ-ın Kaliforniya Universitetinin***
***professoru, Çevik Hesablamalar üzrə***
***Berkli təşəbbüsünün direktoru***

# Mehriban xanım Əliyevanın adı dünyanın görkəmli lider qadınları sırasındadır

Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin xalqımız üçün miras qoyduğu ən böyük dəyərdir. Həm də bu dəyər sadəcə söz deyil. Müstəqillik xalqımızın nəbzi ilə vuran həyatı və fasiləsiz tərəqqi prosesidir. Axı, dövlət də canlı bir orqanizmdir, bütün xalqın əlbir və gündəlik işidir. Məhz işidir, çünki dövləti sevmək, ilk növbədə onu qorumaq və güclü etmək mənasına gəlir.

Hər kəs dövlətimizə öz imkanı və qabiliyyəti dairəsində xidmət göstərir. Bu işin böyük-kiçiyi yoxdur, bir şərtlə ki, içində yaşadığın bütöv cəmiyyəti, onun dərdi-sərini, problemlərini, hətta sıravi nəfərlərini də sevəsən, ona ürəkdən çiyindaş olasan. Onda hamımızın taleyi və güvənc yeri olan müstəqil Azərbaycanımız da qol-budaq atıb ucalacaq. Təsadüfi deyil ki, son on beş illik həyatımız müstəqilliyə səmimi xidmətin canlı timsalını da yaradıb. Bu timsal həm də bir Azərbaycan anasıdır.

Hesab edirəm ki, analıq bu timsalın dəyərə gəlməyən bir zinətidir. Bu xanımın ən böyük məziyyəti bağlı qapılar açan, talesizlərə tale bəxş edən gücü, qüdrəti, qəlbindəki qədərsiz sevgidir. Bu sevginin kökləri dərindədir. Özü də əzizlərinin, doğmalarının və onu sevənlərin sonsuz məhəbbətindən yaranıb ərsəyə gəlib. O biri tərəfdən, bu örnək bütün cəmiyyətimizin misilsiz məhəbbətini fəth edən, onun zərif vücudunda özünə yer edən əfsanəvi sevginin bəhrələridir. Əlbəttə, burada zəka da, zəhmət də, ardıcıllıq da, rəftar və inandırma mədəniyyəti də var, amma bunların hamısını mən elə o insani məhəbbətin qətrələri və təzahürləri kimi görürəm.

**Mehriban xanım örnəyi...**

Siyasət, onun uğurları bu yöndə çalışanların şəxsi nüfuzu, siyasi ustalığıdır. Mehriban xanım Əliyeva ölkənin birinci xanımı olaraq böyük humanitar və ictimai fəaliyyət göstərib. Onun bu qədərsiz zəhməti insanların gözü qabağında olub, insanlarla təmaslar, görüşlər və yerlərdə vəziyyətin səbirlə öyrənilməsi, onların ağrılı problemlərinə səmimi müdaxilə və hər cür yardımlar formasında keçib. Getdikcə bu, cəmiyyətimizin və dövlətimizin böyük bir ümummilli reallığına çevrilib. Dövlət və dövlətçilik maraqları bu amildən, nəhəng şəxsiyyət amilindən istifadə etməli idi və etdi. Mehriban xanım Əliyeva insanlarımız naminə böyük və çoxcəhətli fəaliyyət miqyasına uyğun rəsmi kürsü qazandı. Bu, ilk növbədə, indiyədək onun gördüyü real işlərin, geniş fəaliyyətin, böyük zəhmətin ədalətli nəticəsi olaraq başa gəldi.

Bunun ümdə səbəbini Mehriban xanımın insanlara münasibətində, onlarla dil tapmaq bacarığında görürəm. Bunun əsli - sadə insanlara məhəbbətdir, onlara bağlılıqdır. Belə bağlılığın nəticəsində rəsmi mövqeli bir ananın hər bir işi, hətta bu işlərin ən xırda görünəni də sosial təsir yaradır, insanların qəlbində, yaddaşında iz qoyur. Deyərdim ki,

ilkin niyyət olmadan bunlar sosiallaşır və cəmiyyət üçün vəzn kəsb edir. Bu ananın obrazı adamların qəlbində yuva salır, doğmalıq və güvənc yaradır. İnsanlar onu yaxın himayədar, ümid yeri, səmimi bir dayaq, köməkdaş kimi görürlər. Xalq, sadə insanlar, xüsusilə cəmiyyətimizin problemli məqamları ilə ünsiyyətdə yaranan belə münasibət populyar insana sosial rəğbətin ən güclü şəklidir. Belə sosial rəğbət bütün sahələrdə müsbət bəhrələr verir, bizi insani dəyərlər ətrafında birləşdirir. Sosial güvənc hissi yaradır, bir sözlə, həm də fərdlərə və topluma yaşamağa, sabaha ümidlə baxmağa, öz cəmiyyətinə daha sıx bağlanmağa kömək edir. Son nəticədə cəmiyyətlə dövlətin münasibətlərində qarşılıqlı təsir amilinə də çevrilə bilir.

Mehriban xanımın taleyində də belə oldu. İnanıram ki, o heç zaman özünü siyasətdə görməyib və buna can atmayıb. Amma onun insanlara böyük məhəbbəti, onların taleyində və problemlərində səmimi iştirak etmək istəkləri öz-özünə onun gördüyü böyük və kiçik işləri siyasiləşdirdi, insanların nəzərində onun böyük sosial güvənc obrazını yaratdı və Mehriban xanımın siyasi işlərlə birbaşa məşğul olması ilə nəticələndi.

Bu, bəlkə bəziləri üçün gözlənilməz bir nəticədir. Amma Mehriban xanımın son on beş illik fəaliyyətini birər-birər araşdıranda aydın olur ki, onun taleyindəki dönüş - böyük həvəs və məhəbbətlə gördüyü işlərin, xalqımızla və insanlarımızla gündəlik təmasların, ürək səsi ilə irəlilədiyi yolun qanuni və təbii bir hissəsidir. Bu hissə yoxuşdur, üzü yuxarıdır. Yükü və məsuliyyəti daha ağır və şərəflidir. Bu gün daha böyük uğurlara Mehriban xanıma rəğbət bəsləyən milyonlarla insanın heç birində şübhə yoxdur. Bir hədisdə deyildiyi kimi: məhəbbətlə get, ürəyini eşit. Ölkəmizin birinci xanımı həmişə belə gedib həyat yolunu. Bundan sonra da belə gedəcək, qanad verən el məhəbbəti ilə, ürəklərə təpər bağışlayan böyük lütfkarlıq və sonsuz inamla!

Bu, əlbəttə, cəmiyyətimizin, insanlarımızın, böyüklü-kiçikli problemlərimizin həlli xeyrinədi və biz bunu getdikcə daha böyük miqyasda görəcəyik. Adi bir gerçəyi araşdırmaq olar: öz problemləri ilə məhz Mehriban Əliyevaya müraciət edən insanların sayı insan hüquqları ilə məşğul olan qurumlara müraciətlərdən heç də az deyildir. Bu nədir və niyə belədir? Mən qəlbimlə bunu çox yaxşı anlayıram, bu, insanların misli-bərabəri olmayan etimadı, onun əli ilə minlərlə insanın ülvi inamıdır. Amma sosial fenomen kimi bunu izah etmək mütəxəssislərin üzərinə düşür. Yəqin ki, böyük Allahımız da sevdiyi bəndəsinə bundan daha böyük heç nə bəxş edə bilməz. Buna Allah payı da, tale payı da demək olar. Səni görməyən, tanımayan on minlərlə insan sənə inanır, sənə pənah aparırlar. Bu, bəlkə də mistik görünə bilər. Lakin gözlərimiz önündə baş verən reallıq və gerçəklikdir. Bu gün həmin gerçəklik vətəndaşla dövlət arasında etimadın güclü amilinə, mən deyərdim ki, sosial nikbinlik mənbəyinə, sadə adamların öz dövlətinə güvənc yerinə çevrilib.

Vətənpərvər insanlar taleyin töhfələrindən özləri üçün deyil, xalq üçün, toplumlar və dövlət üçün istifadə edirlər. Çünki onların tale missiyası, ömür hədəfi adamlara xidmət-

dir, ehtiyacı olanlara əl tutmaqdır. Bizim birinci xanım təkcə taleyin qismətləri ilə kifayətlənsəydi, o, əsl Mehriban Əliyeva olmazdı. O, yaradıcı və qurucu bir iradə sahibidir. Bütün titullar, adlar, vəzifələr də əslində ona bu iradəni gerçəkləşdirmək, insanların xidmətinə vermək üçün gərəkdir.

Mehriban xanımın işgüzarlığı ulu öndər Heydər Əliyevin ideyalarından güc alır, iş üslubunu xatırladır. Əlbəttə, onların dövlətçi simaları fərqlidir. Amma daxilən onların xalq üçün işləmək, azərbaycançılıq bayrağını ucaltmaq əzmkarlığında böyük bir bənzərlik vardır. Bu bənzərliyin ən görünən tərəfi dövlət quruculuğunda, firavan gələcək naminə ən müasir təhsilə və mədəniyyətin tərəqqi potensialına əsaslanmaqdır. Xalqın tərəqqisi - müasir məzmunlu təhsildən və qədimlərdən gələn mədəniyyətimizin mənəvi potensialından güc alır, bunların vəhdətindən ərsəyə gəlir.

Heydər Əliyev Fondunun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi var: bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər əslində xalqımızın gələcəyini qurmağın və yaratmağın əsas istiqamətləridir və aydındır ki, hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur. Texnoloji və informasiya sıçrayışları cəmiyyətlərin fəaliyyətini get-gedə mürəkkəbləşdirir. Bu da öz növbəsində keyfiyyətli təhsil və sosial tərbiyə prosesini mürəkkəbləşdirir, dövlətin daha böyük və daha səmərəli müdaxiləsinə ehtiyacı artırır. Bu ehtiyac bütün dövrlərdə böyük olub, amma qloballaşan və informasiya texnologiyalarına daha çox əsaslanan müasir cəmiyyətdə buna ehtiyac qat-qat artır. Ona görə ulu öndərin başladığı təhsil reformalarını əzmlə davam etdirmək zəruridir. Heydər Əliyev Fondu bu işə neçə illərdir nadir töhfələr verir. İlk növbədə, təhsilin maddi bazasına, onun keyfiyyətinə və dünya ilə əlaqələrinə diqqət yetirir.

İnformasiya texnologiyaları müəyyən mənada, dünyada təhsili də vahid meyar və proqramlara tərəf təmərküzləşdirir. Bu istiqamətdə də Heydər Əliyev Fondu bizim elm və təhsilimizə, mən deyərdim ki, bütün ictimai düşüncəmizə dünya ilə informasiya mübadiləsi aparmağa istiqamət verir. Digər tərəfdən, qabaqcıl informasiya və innovasiya sahələrinə inteqrasiya üçün elmi, yaradıcı, ictimai fikrimizə misilsiz yardım göstərir. Müasir humanitar, mədəni və sosial düşüncənin ən aktual problemlərinə dair beynəlxalq tədbirlər, forum və seminarlar, dialoq meydançaları yaradır və buna misilsiz enerji sərf edir. Bu, uzaqgörən və son dərəcə gərəkli bir fəaliyyətdir. Ona görə ki, cəmiyyətlərin, dövlətlərin tərəqqisi konkret insanlardan və təzə ideyalardan başlanır. Qabaqcıl informasiyanın dövlətin gücünə çevrilməsi müasir bilik və təcrübədən istifadə yolu ilə gerçəkləşir. Heydər Əliyev Fondu səs-küysüz, amma təkidli bir ardıcıllıqla ölkəmizin informasiya və bilik açıqlığını yaradır, mədəniyyətlərin dialoqundan zənginləşməsini təmin edir. Güman edirəm ki, bu da sosial tərəqqinin və quruculuğun bir sahəsidir. Və Mehriban xanımın bu sahədəki işləri bizim ictimai rəyi və sosial tərbiyə təsisatlarımızı qabaqlayır və arxasınca aparır. Biz təhsil işçiləri buna görə ona minnətdarıq.

Heydər Əliyev irsinin ən önəmli tərəfi olan belə quruculuq üslubu xarici siyasətdə də

işləyir. O mənada ki, dünyaya inteqrasiya bircə dövlətin iqtisadi və siyasi gücü ilə etiraf oluna bilmir. Xalqlar və dövlətlər birliyinə indiki mərhələdə çoxəsrlik mədəniyyət yaratmış tarix kimi, bu mədəniyyətin gerçək daşıyıcısı kimi daxil olmaq və etiraf olunmaq olar. Həm də milli mədəniyyətlərin, əslində, etirafa ehtiyacı yoxdur, o, həmişə bəşəri dəyərlərin bir hissəsi və halqəsidir. Və bunun görünməsi, nümayişi xalqların ən böyük etirafıdır. Ona görə Mehriban xanım Qərb ölkələrindən hansına getsə, ondan əvvəl, ondan qabaq sərhədləri aşan Azərbaycan mədəniyyəti olur. Onun xarici səfərlərinin söz sahibləri mədəniyyətimizin nailiyyətləri, onun humanist, bəşəri məzmunu, korifeyləri olur. Onlar da diplomat işi görürlər, amma mədəniyyət dəyərlərimizdən istifadə edərək görürlər. Milli mədəniyyətin məşhur olması elə dövlətin və onun xalqının tanınan olmasıdır. Azərbaycanın UNESCO xətti ilə Fransada, Vatikanda qurduğu əlaqələr, onların əməkdaşlıq potensialı xarici siyasətimizin nailiyyətləridir. Deyərdim ki, tarixi nailiyyətləridir. Paris Qərb mədəniyyətinin mədəni paytaxtıdır: Azərbaycan mədəniyyətini orada təqdim edən hər bir tədbir, layihə, təqdimat inteqrasiyada bir addımımızdır. Bunun qədrini bilmək, bunu davam etdirmək lazımdır. Bunların milli-tarixi mənasını anlamaq bəzən sarı mətbuat, onun qərəzli qələmçiləri üçün çətin olur. Xalqı qaldırmaq, dövləti ucaltmaq asan bir şey olsaydı dünyada bu qədər problem olmazdı. Həm də tarixin yaddaşı möhkəmdir, orada böyük işlər və nəticələr heç vaxt itmir və itməyəcək. Xalqımızın sağlam düşüncəsi də bunun təminatı olacaq həmişə. Bütün bunlar Azərbaycanın yeni mədəni və siyasi xəttinin əsas strategiyasıdır. Və nəticələrə diqqət yetirərkən Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın xarici mədəniyyət siyasətinin heyranedici və möhtəşəm təqdimatının ürəkaçan reallığı görünür. Bu reallıq doğma Vətənimizin yeni beynəlxalq incisidir! Bu, azad, müasir çoxmədəniyyətli dövlət incisidir. Ölkəmizin Avropanın ayrılmaz hissəsinə çevrilməsi faktıdır! Bu faktın yaranmasında Birinci vitse-prezident Mehriban Əliyevanın ardıcıl fəaliyyəti, misilsiz mədəniyyət səfiri olmaq bacarığı həlledici rol oynamışdır.

Mehriban xanım Əliyevanın adı dünyanın görkəmli lider qadınları sırasındadır. Birinci vitse-prezident sivilizasiyaların qlobal dialoquna həqiqətən müstəsna töhfələr verir. Mehriban xanım Qərbdə Şərqin qeyri-rəsmi elçisidir, Avropanı Asiyada və öz vətənində təmsil edir. Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Avropada islam-xristian dialoqunda böyük rol oynamağa başlayıb. Vatikanın tarixində ilk dəfədir ki, müqəddəs xristian abidələrinin bərpasına müsəlman ölkəsində fəaliyyət göstərən bir təşkilat yardım edir. Azərbaycanın özündə Heydər Əliyev Fondunun təşəbbüsü ilə məscidlər, sinaqoqlar, katolik və pravoslav kilsələri təmir edilir.

Digər tərəfdən, Mehriban xanım Prezident İlham Əliyev tərəfindən aparılan zəruri islahatları fəal himayə edir. Həyat göstərir ki, buna da ciddi ehtiyac var. Xüsusilə ən ağır olan sosial sahələrdə. Buradakı işlər insan amili, müxtəlif təbəqələrin və qrupların maraqları ilə bağlıdır. Digər tərəfdən, sosial problemlər həyatın özüdür, daim yeni problem-

lərin ortaya gəlməsi prosesidir. Burada həmişə külli miqdarda görülməli iş var. Amma bu işlər o vaxt uğurla görülür ki, onları xoş məramla, insanlara qayğı ilə, onların dərdi-sərini nəzərə alaraq həll edəsən, sosial ədalət prinsipini gözləyəsən. Mehriban xanımın bu sahədə təcrübəsi də, səriştəsi də kifayət qədərdir. Üstəlik, insanlarımızın ona etimadı da, ədalətinə inamı da mühüm amildir.

İslahatları başlamaq və sona çatdırmaq misilsiz dövlətçilik bacarığı tələb edir. Bu dünyanın bütün ölkələrində belədir. Həyat çox sürətlə dəyişir və dövlət də bunlara vaxtında reaksiya verməli, ortaya gələn problem və çağırışlara vaxtında münasibət göstərməlidir. Bu, milli tərəqqimizin fasiləsizliyi və sürəti üçün zəruridir. Mehriban xanımın təşkilatçılıq bacarığı, insanların problemlərinə həssaslığı, ardıcıllığı onun bu prosesdə iştirakını çox səmərəli edir. Digər tərəfdən, onun adı ilə bağlanan işlərə insanlarda rəğbət və etimad da kifayət qədərdir. Bu, ölkə həyatının bütün sahələrində gedən yeniləşmə proseslərinin cəmiyyətdə uğurla başa çatacağına inam yaradır.

Azərbaycanın Birinci vitse-prezidenti bu qənaətdədir ki, qadın hüquqlarının qorunması hər bir cəmiyyətin inkişafı və sağlam gələcəyi baxımından son dərəcə vacibdir. Güclü qadın övladının mənəvi tərbiyəsində, cəmiyyət üçün layiqli insan və kamil şəxsiyyət kimi yetişməsində, dünyaya yetkin baxışının formalaşmasında mühüm rol oynayır. Bu baxımdan qadınlara geniş hüquqların verilməsi, onların cəmiyyətdə layiqli yerinin təmin edilməsi, ilk növbədə, sağlam nəslin formalaşması, xalqın genetik saflığının qorunub saxlanması baxımından vacibdir. Qadınlara özünütəsdiq imkanı yaratmaq, onların qabiliyyət və bacarığından səmərəli şəkildə istifadə etmək sağlam gələcəyini düşünən hər bir dövlətin əsas vəzifəsidir.

Bu gün YAP-ın sədr müavini kimi Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də Azərbaycan qadınının üzləşdiyi problemlərin, çətinliklərin aradan qaldırılmasına, onların cəmiyyətdə öz layiqli yerlərini tutmasına yönəlmişdir. Bu fəaliyyət qadınlarımız tərəfindən böyük rəğbətlə, ehtiramla qarşılanır, onların YAP-a, ölkə iqtidarına, Prezident İlham Əliyevə inamını daha da artırır.

Qarabağ problemi dövlətimizin ən ağrılı fəaliyyət sahələrindən biri olaraq qalır. Prezident İlham Əliyevin bu məsələdə dəyişilməz mövqeyi qətidir: problem Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalıdır. Bu, dövlətimizin dəyişməz rəsmi mövqeyidir. Prezident İlham Əliyevin siyasəti xalqı dövlət ətrafında yumruq kimi birləşdirməkdir. Bu birlik həm xalqın təhlükəsizliyi ilə bağlıdır, həm də kəmfürsət düşmənə qarşı zəruridir. Aprel döyüşlərində bu yumruğun gücü də ortaya qoyuldu və yarılmış düşmən cəbhəsində indiyəcən davam edən çaşqınlığa səbəb oldu. İndi ermənilər yeni müttəfiqlər, "ittifaqlar" və qarantiyalar gəzirlər. Böyük dövlətlər onlara şirin vədlər verir. Bu vədlər həmişə olub. Amma aprel döyüşləri göstərdi ki, Ermənistan gec-tez öz cinayətlərinin cəzasını alacaq. Heç bir müttəfiq bunun qarşısını ala bilməyəcək. Dara düşmüş Ermənistan Azərbaycanın iq-

tisadi və hərbi qüdrəti qarşısında öz acizliyini getdikcə daha yaxşı anlayır. İndi hər cür fitnəkarlığa əl atır. Amma bu fitnələr Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti qarşısında gücsüzdür.

Dağlıq Qarabağ problemi və onun nəticələri dövlətimizin ən çox diqqət və maddi vəsait sərf etdiyi məsələdir. Söhbət təkcə hərbi işə, orduya qayğıdan getmir. Konfliktin səngiməsindən iyirmi ildən artıq vaxt keçir. Amma bir milyonluq qaçqın və məcburi köçkünlər ordusunun problemləri dövlətimizin daimi diqqət mərkəzindədir. Fikir verin: Prezident İlham Əliyev 2003-2017-ci illərdə bu haqda 55 fərman və sərəncam imzalayıb!

Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunandan sonra keçirdiyi ilk iri müşavirə də qaçqın və köçkünlərin problemlərinin həlli ilə bağlı idi. Həmin müşavirədə xatırlandı ki, son on beş ildə qaçqınlar üçün 95 qəsəbə salınıb, 151 məktəb, 58 mədəniyyət müəssisəsi, 59 səhiyyə ocağı və digər infrastruktur obyektləri tikilib. Amma Birinci vitse-prezident kürsüsünə təzəcə gəlmiş Mehriban Əliyeva ilk müşavirəni elə bu məsələyə həsr etdi. Nə üçün? Ona görə ki, söhbət bir milyon sadə insanın dərdi-sərindən gedir. Mehriban xanım qaçqınların problemlərini daxildən bilir, insanlarla konkret ünsiyyətdən anlayır. Hələ nə qədər işlər görülməli olduğunu rəqəmsiz və kağızsız da dərk edir. Və görüləcək işlərin əsas istiqamətini də çox düzgün təyin edir.

Dövlət adamının, xalq adamının nüfuzu da buradan yaranır. Həqiqəti görməkdən və deməkdən yaranır. Yığıncaqlarda Mehriban xanım bütün hesabatları səbirlə dinləyir, amma bütün hallarda onun özünün vəziyyət haqqında məlumatı daha konkret və dəqiqdir. İlk sualından, qeydindən, ilk məsləhətindən bu görünür. Böyük səlahiyyətli rəsmiləri dinləyib öz sözünü deyir: Görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşayır. Prezidentin göstərişi ilə hər il Dövlət Neft Fondundan yeni qəsəbələrin salınması üçün vəsait ayrılır. Bu il də həmin məqsədlərə vəsait ayrılıb. Lakin bu sahədə işlərin sürətləndirilməsi üçün əlavə və təxirəsalınmaz addımlar atılmalıdır. Bakı və Sumqayıtda yararsız, qəzalı binalarda yaşayan köçkünlər tezliklə yeni mənzillərə köçürülməlidir. Buna əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün ərazi müəyyənləşdirilməlidir və tezliklə onların tikintisinə başlanmalıdır. Müşavirənin hədəfi elə budur, insanlara konkret işləri təşkil etməklə yardımçı olmaq.

Bəli, konkret işlər təşkil ediləndən sonra yerli icra orqanlarının imkanlarına da baxmaq olar və lazımdır. Ona görə Mehriban xanım tələb edir ki, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınsın. Qarşımızda duran məqsəd qəzalı binalarda yaşayan bütün köçkünləri bu il və gələn il ərzində yeni mənzillərlə təmin etməkdir.

Birinci vitse-prezidentin ilk müşavirələrindən biri də aprel döyüşlərində iştirak edən, yaralanan əsgərlərimizin problemlərinə həsr olunmuşdu. Bu, bizim ictimai rəyimiz üçün

köklü əhəmiyyəti olan bir məsələdir. Həm əsgər ailələri, həm bütün gəncliyimiz, həm ordumuzun şəxsi heyəti cəmiyyətin və dövlətin səmimi qayğısını, şəhidlərimizin müqəddəs ruhuna ümumi pərəstişi hər addımda hiss etməlidir. Onlar bizim qürur yerimizdir. Hər azərbaycanlı övladı onlara pərəstişlə böyüməlidir və böyüyür. Qisas qiyamətə qalmaz və qalmayacaq. Gec-tez biz torpaqlarımızı geri alacağıq və bu qələbənin bayraqdarı şəhidlərin qalib ruhu olacaq.

Bu gün, bir sözlə, Mehriban xanım Əliyeva görkəmli yazıçı Mir Cəlal Paşayevin təməlini qoyduğu "Bir gəncin manifesti" missiyasını davam etdirərək xoşbəxt Azərbaycan gəncliyinin manifestini yazır. Bütün əsgərlərimizə, ümumiyyətlə, gəncliyimizə mənəvi ucalıq aşılayır ki, buna qarşı da dünyada hələ heç bir silah yoxdur. Bir daha xatırlayaq: 2016-cı ilin aprel döyüşlərində bunun canlı şahidi olduq. Bu rəşadət erməni işğalçılarına qarşı yeni bir gücün meydana çıxdığını göstərdi. Bu güc şəhidliyi mübarək bir ucalıq kimi qəbul edən Azərbaycan əsgərinin iradəsi idi. Hər bir döyüşçümüzün hərbi potensialı, gücü ermənilər üçün ölümdən də qorxuludur. Çünki bu potensialı yaradan cəmiyyətdə milli-mənəvi dünyamızın şərəfli, fəxarət gətirən ünvanı - Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da mövqeyi aydın görünür.

Adamlar hər şeyi görürlər, dövlət adamının hər sözünü eşidirlər və qiymətləndirirlər. Xalqın, elin sağlam düşüncəsi tükənməzdir. Ölkəmizdəki birlik və sabitliyin bir şərti də budur! Bu yaxınlarda Prezident İlham Əliyevin göstərişi ilə 255 jurnalistə, ziyalıya mənzillər hədiyyə edildi. Bu, Azərbaycanın tarixində misilsiz, böyük miqyaslı addımdır. Dünyanın heç bir yerində milli ziyalılığa bu dərəcədə qayğı göstərilmir. Bu, dövlətimizə və onu sevən, quran fəal insanlara qayğıdır. Mənası da odur ki, kim öz dövlətini uca tutursa, dövlətimiz də onu həmişə uca tutacaqdır. Yadlara "xidmətlə" himayədar axtaranlar qoy papaqlarını qabaqlarına qoyub düşünsünlər!

Mehriban xanım sadə adamların güvənc yeridir. Onun sadə adamlara, onların dərdisərinə səmimi müdaxiləsi, qayğısı insanların ən böyük etibarını və ümidini qazanıb. Onun ana məhəbbəti, dövlətçi şəfqəti tükənməzdir. Bu zərif ana qəlbində xalqının, elinin, obasının tükənməz məhəbbətini daşıyan insanın özü də bizdən birimizdir, onun da qayğıya, əsl insani qayğıya və şəfqətə ehtiyacı var. Biz bunu da unutmayaq, Mehriban xanımı sevək və qoruyaq! Özümüz üçün qoruyaq, müstəqil dövlətimiz və xoş gələcəyimiz naminə qoruyaq.

O zaman xalqımız sabaha daha inamla baxar, həyatımız daha sürətlə firavanlaşar. Dayağımız, istinadgahımız daha qüdrətli olar. Cəmiyyətdə birlik və şəfqətin, etimad və sabaha inamın meydanı daha geniş olar.

Əsl xoşbəxtlik də elə budur!

***Nurlana Əliyeva,***
***Slavyan Universitetinin rektoru, professor***
***YAP Qadınlar Şurasının sədri***

# Mehriban Əliyeva xalqın inam, etimad ünvanıdır

Taleyinə ulu öndər Heydər Əliyevin soyadını daşımaq, milli dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, tədqiqi və təbliği kimi müqəddəs vəzifələr yazılan Azərbaycanın Birinci xanımı Mehriban Əliyevaya Tanrı üç müqəddəs soyun işığından pay verib. O, iki böyük müəllim və alimin, yazıçı Mir Cəlal Paşayevin və jurnalist Nəsir İmanquliyevin ocağında dünyaya gəlib. Atası, AMEA-nın həqiqi üzvü Arif Paşayev fizika, texnika və kosmonavtika sahəsində qüdrətli alim, Azərbaycanda ilk Milli Aviasiya Akademiyasının qurucusudur. AMEA-nın Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru olmuş anası, görkəmli alim, pedaqoq və ictimai xadim Aida xanım İmanquliyeva ərəb-məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısıdır.

Ustad dərsini Zərifə xanım Əliyevadan alan Mehriban xanımın həyat yoldaşı dünyanın tanınmış siyasətçisi və diplomatı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Bütün bunlar onun alın yazısı, Tanrıdan tale payı olsa da, həyat yolunu və fəaliyyət dairəsini o özü müəyyənləşdirib. İctimai-siyasi fəaliyyətinə və Birinci xanım kimi xidmətlərinə, qloballaşan dünyaya, ümumbəşəri dəyərlərə töhfələrinə görə o, Azərbaycanın və dünyanın bir sıra mükafatlarına layiq görülüb.

Sivilizasiyaları dialoqa, bəşəriyyəti birliyə, dostluğa çağıran, Şərqlə Qərbi İpək Yoluna səsləyən Mehriban xanım Əliyeva 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və 1996-cı ildə Azərbaycan, ingilis və rus dillərində işıq üzü görən "Azərbaycan-İrs" jurnalının təməlini qoyub. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti, 2004-cü ildə Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin və Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildə isə partiya sədrinin müavini seçilib. 2017-ci ildə Azərbaycan Respublikasının I Vitse-prezidenti təyin olunub. Mehriban xanım Əliyeva bu etimadlara böyük hörmət və məsuliyyətlə yanaşdığından, qısa zaman kəsiyində fəaliyyətinin bütün istiqamətlərində çox böyük uğurlar və nailiyyətlər əldə edib.

2004-cü ildə Şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsinə görə UNESKO-nun, çoxşaxəli, genişmiqyaslı fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə və islam dəyərlərinə verdiyi töhfələrə görə isə 2006-cı ildə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Mehriban xanım Əliyeva 2005 və 2010-cu ildə iki dəfə dalbadal 14 saylı Əzizbəyov seçki dairəsindən Milli Məclisə deputat seçilib. 2005-ci ildə müdafiə etdiyi "Eftanaziya və təbabətdə humanizm problemi"nə həsr olunan namizədlik dissertasiyası ilə elmi humanizmin əsasını qoyub.

Azərbaycanın Birinci xanımının dövlət və xalq qarşısında ən böyük xidməti 2004-cü

ildə təsis etdiyi Heydər Əliyev Fondu ilə bağlıdır. Onun rəhbərlik etdiyi fond dünya şöhrətli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə çatdırılması və inkişaf etdirilməsi istiqamətində misilsiz işlər görür. Mehriban xanım Əliyeva eyni zamanda Azərbaycan-Amerika, Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri, "Muğam" jurnalının təsisçisidir.

Heydər Əliyev Fondunun xətti ilə sənəti və mədəniyyəti himayə edən Mehriban xanım Əliyeva çağdaş Azərbaycandan əski çağlara cığır açdı. UNESKO-nun xətti ilə Azərbaycanın tarixi abidələri, muğamlar, qopuz yaddaşımızın nişanəsi olan saz, tar dünyanın maddi-mədəni inciləri sırasına yazıldı. Ötən əsrin 20-ci illərində "Oxuma, tar" qadağası ilə öz yaddaşına qənim kəsilənlər böyük Üzeyir bəy Hacıbəyovun, Müslüm Maqomayevin və Mikayıl Müşfiqin, 50-ci illərdə isə Azərbaycanın Birinci xanımının babası, professor Nəsir İmanquliyevin "Oxu, tar, səni kim unudar" nidası, Sadıqcanın, Əhsən Dadaşovun dizinin üstündən ürəyinin başına qaldırdığı tarın yaddaş harayı ilə baş-başa qaldı. Tarın dünyanın maddi-mənəvi irs siyahısına yazılması, əsl sahibinin möhürünün vurulması faktı isə Heydər Əliyev Fondunun prezidentinin adına yazıldı. Mehriban xanım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və UNESKO-nun Baş katibi Koişiro Matsuuranın xeyir-duası ilə Dənizkənarı Milli Parkda Muğam Mərkəzinin təməlini qoydu. Muğamın inkişafı və təbliği istiqamətində atılan bu möhtəşəm addım "Azərbaycan muğamları" layihəsi ilə müşayiət olundu. Layihə çərçivəsində işıq üzü görən "Qarabağ xanəndələri" albomu ölməz muğam ifaçılarını yenidən dünyaya təqdim etdi. Cabbar Qaryağdıoğlu, Seyid və Xan Şuşinski, Keçəçioğlu Məhəmməd, Zülfü Adıgözəlov, Bülbül kimi qüdrətli sənətkarlarla yanaşı, bu gün muğam dünyamızı zinətləndirən Şərqin bənzərsiz muğam ifaçıları Qarabağ həqiqətlərini muğamın dili, səsin sehri ilə dünyaya sübut edib yatmış ruhları oyatdı. "Muğam — Dəsgah" layihəsi çərçivəsində muğam dəsgahları birbaşa konsertlərdən lentə yazılır. Mehriban xanım "Muğam Ensiklopediyası" layihəsinin də gerçəkləşdirilməsinə, onun elektron variantının hazırlanmasına nail oldu. "Muğam portalı"nın yaradılması, "Muğam İnternet" layihəsinin, muğamla bağlı beynəlxalq konfransların, festivalların, simpoziumların həyata keçirilməsini nəzərdə tutan "Muğam dünyası" layihəsi, Beynəlxalq Muğam Festivalı, Televiziya Muğam müsabiqələri Heydər Əliyev Fondunun Azərbaycana, eyni zamanda sənətşünaslığa və musiqişünaslığa bəxş etdiyi ən möhtəşəm töhfələrdir.

XII-XVI yüzillərdə dəyərli sənət əsərləri və risalələr yaradan Səfiyəddin Urməvi və Fətullah Şirvani kimi qüdrətli sənətşünasların kitablarının "Muğam Antologiyası" layihəsi çərçivəsində işıq üzü görməsi Azərbaycan muğamlarının himayədarının nüfuzunu təkcə vətənində deyil, dünyada artırır. Gənc istedadlara, muğam ifaçılarına daim diqqətlə yanaşan Azərbaycanın Birinci xanımı müxtəlif muğam müsabiqələrini dəstəkləməklə onların dostuna çevrilir.

Şərqin, türk dünyasının və Azərbaycanın ən qüdrətli şəxsiyyətləri, sərkərdə-xaqanları pirlərə, övliyalara, Tanrı evlərinə, üləmalara ehtiram göstərib. Saraylarında fikir və

düşüncə sahiblərini himayə etdikləri kimi, onların şərəfinə türbələr, məqbərələr ucaldıb. Bu gün Azərbaycanın ayrı-ayrı bölgələrində bir çox abidələrin, dini məbədlərin bərpa olunması da məhz Heydər Əliyev Fondunun adı ilə bağlıdır. Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi hökmdarlarının, Əfşar sülaləsinin, Osmanlı sultanlarının, Şirvan şahlarının dinlərin dialoquna göstərdiyi ehtiram hissi Mehriban xanım Əliyevanın əməli fəaliyyətində gerçəyə çevrilir.

Raşidi xəlifəsi Ömərin Fələstin torpağına ayaq basarkən Süleyman peyğəmbərin məşhur məbədinin xarabalığında namaz qılması, Əmir Teymurun kilsələrə Tanrı evi kimi baxması yüz illər sonra Heydər Əliyevin dövlətçilik ideologiyasında yaşadı. İkinci dəfə hakimiyyətə qayıdışından sonra ölkənin kompleks inkişafı üçün islahatlar proqramı müəyyənləşdirən ulu öndər 1934-cü ildə Şura hökumətinin yerlə-yeksan etdiyi Bibiheybət ziyarətgahını xalqa qaytarmaqla, Əhli-Beyt nişanəsi Həkimə xanımın və onun doğmalarının, xidmətində dayananların məzarı üzərində ziyarətgah kompleksini ucaltmaqla adını islam tarixinə qızıl hərflərlə yazdı. Ulu öndərin müqəddəs yerləri, müqəddəs şəxsiyyətləri ziyarəti zaman-zaman dininə, imanına qarşı Səlib yürüşü olunmuş xalqı yaddaşına qaytardı. Ölkə başçısı cənab İlham Əliyevin sərəncamları ilə dinimizə, islam dəyərlərinə münasibət də varislik xarakteri aldı. Hörmətli Mehriban xanımın rəhbərlik etdiyi fondun bir çox layihələri də bu istiqamətə yönəldi. Müqəddəs yerlər, ziyarətgahlar, məscidlər təmir, bərpa olunaraq dindarların ixtiyarına verildi.

Heydər Əliyev ideyalarının carçısı və davamçısı olan, məscidlər, minarələr ucaldan Mehriban xanım kilsələrə, sinaqoqlara da diqqət və qayğı ilə yanaşır. Onlarca türbələrin, məscidlərin təməli qoyulub. Azərbaycanın bütövlük və azadlıq rəmzi olan Cavad xanın məzarı üstə məqbərənin ucaldılması, adı deyil də, müqəddəs adı əməlində yaşayan Comərd Qəssabın məzarı üzərində "Comərdi Qəssab" türbəsinin yapılması, Peyğəmbər əleyhissəlamın əsahabəsinin uyuduğu Gəncə İmamzadəsinin və Gəncənin maddi-mədəniyyət incilərinin bərpa etdirilməsi, Gəncə Qalasının darvazasının yaddaşlara qaytarılması, Gəncənin 2500 illiyinin təntənə ilə qeyd edilməsi, Gəncə xanlığının bayrağının yenidən dalğalandırılması, "Cavad xan" filminin yaradıcı heyətinə dəstək verilməsi Mehriban xanım Əliyevanın milli dövlətçilik tariximizin qızıl səhifələrinə yazılmış xidmətlərindəndir. Bu, həm də sinəsinə Sisianovun oğul və ər dağı çəkdiyi Bəyim xanımın ruhuna ehtiramdır.

Zamanı gələndə silahları kitabların, hərbçiləri alimlərin əvəz edəcəyinə inanan Mehriban xanım xalqın mənəvi zənginliyini onun tarixi keçmişi, milli-mənəvi dəyərləri ilə bağladığındandır ki, sənətin və mədəniyyətin himayədarına çevrilir. 2006-cı ildə Azərbaycan-ABŞ parlamentlərarası dostluq qrupunun rəhbəri kimi Amerikaya səfəri zamanı Vaşinqton Tekstil Muzeyində Azərbaycanın maddi-mədəniyyət incilərindən olan, lakin İran xalçası kimi təqdim edilən Şeyx Səfi xalısının yaranma tarixindən, onun Azərbaycan xalqı və dövlətçilik tarixi ilə bağlı məqamlarından muzey əməkdaşına məlumat verən Mehriban xanım həqiqət carçısı, mənəviyyat elçisi kimi yaddaşlara yazıldı. Onun etiraz səsi əslində "Gülüstan" və "Türkmənçay" müqavilələri ilə ikiyə parçalanan Azər-

baycanın haqq səsi idi. Bu səs 500 illik tarixi dövlətçilik ənənəsi olan Səfəvilər dövlətinin səsi, inciləri Sankt-Peterburqa, Ermitaja və dünyanın bir çox muzeylərinə sürgün edilən Şeyx Səfi kitabxanasının, Səfəvilər sarayının gileyi idi.

Bu gileyə birdəfəlik son qoymaq, dünyaya fars, erməni xalqları adında təqdim olunan sənət incilərimizin xalı deyil də, analarımızın, nənələrimizin hana üzərindən gələcəyə ünvanladıqları "sevgi məktubları" olduğunu, bu incilərin sahiblərininsə Azərbaycanlılığını sübut, onu intizardan xilas üçün Xəzərin ətəyində, Muğam Mərkəzi ilə üzbəüz Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin təməlini qoydu. Bu həm də Birinci xanımın Təbrizdən, Ərdəbildən, Savalandan qopub Bakıya gələn "Bir gəncin manifesti" romanı ilə Azərbaycan xalçasına, "Yusif Züleyxa"ya baş qəhrəmanının, Sonanın diliylə sahib çıxan "itə ataram, yada satmaram", deyib haray qoparan babası, yazıçı Mir Cəlala övlad, nəvə borcu, mənsub olduğu xalqın yaddaşına sədaqət hissi idi. Muzeyə bütün həyatını Azərbaycan incilərinə həsr edən xalçaçı-rəssam professor Lətif Kərimovun adının verilməsi isə həyatını milli-mənəvi dəyərlərimizin tədqiqinə və təbliğinə həsr edən onlarca istedadlı alimə və sənətkara ehtiram idi.

Bütün varlığı, ruhu, duyğuları ilə Azərbaycanın, Şərqin və türk dünyasının bir parçası olan Mehriban xanım bəşəri ideallara sədaqət hissi ilə dünya insanı, dünya vətəndaşıdır! Dinlərə və sivilizasiyalararası dialoqa töhfələri, fikir və düşüncə azadlığına, insan şəxsiyyətinə, milli-mənəvi dəyərlərə ehtiramı ilə o, həm də yeni minillikdə əski dəyərlərin hamisi, klassika ilə müasirliyin körpüsüdür! Sivilizasiyalararası dialoqda gənclərin, elmin və elm adamlarının, sənətin, mədəniyyətin rolunu dəyərləndirən Heydər Əliyev Fondunun prezidenti Şərqlə Qərbin qovuşduğu Azərbaycanda beynəlxalq konfranslar, forum, sammit, simpozium və festivallar təşkil edir.

"UNESKO—Azərbaycan: gələcəyə körpü", "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bugünü", "Orta əsr əlyazmalarında tibb və əczaçılıq", "Gənclər sivilizasiyaların alyansı", "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək", "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş "Seyid Yəhya Bakuvi: Tolerantlığın ifadəsi" konfransları, "Muğam aləmi" Beynəlxalq Festivalı çərçivəsində elmi simpozium, "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" mövzusunda forum, Heydər Əliyevin milli dövlətçilik təliminin, beynəlxalq aləmə inteqrasiya istiqamətində tutduğu əsas prinsiplərin davam etdiyini bir daha təsdiq edir.

Beynəlxalq münasibətlərin, sivilizasiyalı cəmiyyətin qurulmasında ziyalıya, dünyəvi dəyərlər tarixini yaradan şəxsiyyətlərə daima ehtiram bəsləyən, onlara milli, dini, siyasi mənsubiyyətinə görə deyil, istedadına görə dəyər verən Heydər Əliyev "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir" nidası ilə bəşəri dəyərlərə xidmətdə bulunan hər bir tarixi şəxsiyyətə, ziyalıya, sənətkara ehtiram nümayiş etdirdi. İllərlə yaranan, formalaşan, yaddaşdan yaddaşa ötürülən sənət incilərinə diqqətlə yanaşan Heydər Əliyev Fondunun gerçəkləşdirdiyi ge-


Azərbaycanın
siyasi simvolu


Tərəqqi və
uğur yolu


BAKU
AZERBAIJAN
EXPO 2025
World Expo 2025
Candidate














XOŞ GƏLMİŞSİNİZ













nişmiqyaslı layihələr içərisində sənət, mədəniyyət, incəsənət faktına özəl münasibət də, şübhəsiz ki, fondun adını daşıdığı şəxsiyyətə, onun duyğu və düşüncələrinə diqqət, ehtiram əlamətidir.

Sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, mənəvi dəyərlərin dialoquna bu gün daha çox ehtiyac duyan dünya sanki yenidən xeyirlə şərin, yaxşı ilə pisin, işıqla qaranlığın mücadiləsindədir. "Soyuq" və "isti" müharibənin yer üzünü cənginə aldığı bir dövrdə, qloballaşan dünyada indi təkcə silahlar döyüşmür. Mədəniyyətlər, sivilizasiyalar üz-üzə gəlir. Qılıncını qınından sıyıran dünyanı isə ancaq düşünən beyinlər, ədalətə tapınan ictimai-siyasi xadimlər, silahların dil açdığı masalarda kitabların, sənətin və sənətkarların dili ilə düşünüb danışmaq istedadı olan liderlər qalib gələcək.

D ünyada qüdrətli şəxsiyyətlərin adını daşıyan fondlar çoxdur. Onların vasitəsilə xeyriyyə aksiyaları keçirilir, sənət, mədəniyyət himayə olunur. Osmanlı sultanlarının, xatunlarının qurduğu vəqflər, Nobel fondu, Tereza Ana fondu, İhsan Doğramacı fondu məşhur fondlardandır. Və bunların hər biri bəlli bir müddət, daha doğrusu, uzun illər ərzindəki fəaliyyətləri ilə cahanda sülhə, sabitliyə, əmin-amanlığa, xeyriyyəçilik məqsədləri ilə təşkil olunan tədbirlərə töhfələr veriblər.

Görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi, mədəni inkişafını, sivilizasiyalı cəmiyyətə inteqrasiyası, xalqımızın min illər boyu yaratdığı, yaşatdığı dəyərlərin qorunması, maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, ölkənin tərəqqisi naminə milli liderin zəngin irsindən bəhrələnərək genişmiqyaslı proqram və layihələrin gerçəkləşməsinə çalışan, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya ilə bağlı silsilə tədbirlər reallaşdıran, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutan, "insanların yaradıcı" potensialının, bilik və bacarığının nümayişinə, inkişafına, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı atılan hər bir addıma, görülən hər bir uğurlu layihəyə dəstək verən, uşaq və gənclərin maariflənməsi, mükəmməl bir şəxsiyyət, vətəndaş kimi formalaşmasına, Vətənimizin beynəlxalq nüfuzunun artmasına, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, respublikamızın elm, təhsil, mədəniyyət xadimlərinin, ziyalıların xarici ölkələrin təhsil və elmi mərkəzləri ilə əlaqələrinin möhkəmlənməsinə, uşaq müəssisələrinin, səhiyyə obyektlərinin infrastrukturunun qurulmasına, ekologiya sahəsində mühüm tədqiqatların və layihələrin dəstəklənməsinə, ölkəmizdə və ondan kənarda aktual mövzulara dair konfrans və simpoziumların, yaradıcı gənclərin və incəsənət xadimlərinin sərgilərinin təşkilinə, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanmasına dəstək vermək kimi müqəddəs missiyanı öz üzərinə götürən Heydər Əliyev Fondu və onun hörmətli rəhbəri, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkəmizin I Vitse-prezidenti Mehriban xanım Əliyeva tarix üçün o qədər də böyük olmayan on ildə sübut etdi ki, qısa vaxt, zaman kəsiyində də milli və bəşəri dəyərlərə misilsiz töhfələr vermək, bu yolda möhtəşəm uğurlar, nailiyyətlər əldə etmək

mümkündür!

İslam Həmrəyliyi Oyunları 2005-ci ildən bəri keçirilir. Burada İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdən idmançılar iştirak edir. Dörd ildən bir keçirilən bu Oyunlar ilk dəfə Səudiyyə Ərəbistanında - Məkkə, Mədinə və Ciddə şəhərlərində təşkil olunub. 2009-cu ildə İranda keçirilməsi planlaşdırılan II İslam Həmrəyliyi Oyunları tədbirin loqosuna daxil edilmiş "Fars körfəzi" ifadəsinə görə təşkilatçı dövlətlə bu ifadəni "Ərəb körfəzi"nə dəyişməyi təklif edən ərəb ölkələri arasında yaranmış fikir ayrılığı səbəbindən baş tutmasa da, III İslam Həmrəyliyi Oyunları 2013-cü ilin 22 sentyabr - 2 oktyabrında İndoneziyanın Palembanq şəhərində uğurla keçib.

IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) 2013-cü il iyulun 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində olmuş 8-ci Baş Assambleyasında 57 üzv ölkənin nümayəndələrinin səsverməsi yolu ilə təsdiq olunub. 2015-ci ilin aprel ayında IV İslam Həmrəyliyi Oyunlarına təşkilatçılığı Azərbaycanın etməsi barədə İHİF ilə müqavilə imzalanıb. 2015-ci il sentyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Təşkilat Komitəsinin sədri təyin olunub.

Ölkənin Birinci vitse-prezidenti uzun illərdən bəridir ki, həm Qərb dəyərlərinin, həm də İslam həmrəyliyinin təməlində dayanan savab bir işlə - maarifçilik fəaliyyəti ilə məşğuldur. Bu gün İslam dünyasının ən çox buna ehtiyacı var. Bir sıra obyektiv səbəblərdən əsrlər boyu tənəzzülə uğramış İslam maarifçiliyini yenidən hərəkətə gətirib, inkişafın, tərəqqinin hərəkətverici qüvvəsinə çevirmək, mövhumat, xürafat qaranlıqlarını maarifin nuru ilə aydınlığa çıxarmaq indi bütün müsəlman ölkələri üçün keçilməz zərurətdir.

İslam maarifçiliyi elmin, təhsilin, hətta ibadətdən də üstün olduğunu göstərir, başqalarına təmənnasız köməyi, insanlara mərhəmət göstərməyi, ehtiyacı olanlara əl tutmağı, sülh üçün çalışmağı, mədəni dəyərləri qorumağı, dünyaya fayda verməyi, xeyirli bir işlə məşğul olmağı insanın ali missiyası kimi müəyyənləşdirir. Mehriban xanım Əliyevanın irəli sürdüyü təşəbbüslərin hər birində bu missiyanı görmək olar.

IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə rəhbərliyin məhz Mehriban xanım Əliyevaya həvalə edilməsi də təsadüfi deyil. Yüksək təşkilatçılıq və idarəetmə qabiliyyətinə malik Mehriban xanım Əliyeva bu müstəsna keyfiyyətlərlə 2012-ci ildə Bakıda keçirilmiş "Eurovision" beynəlxalq mahnı müsabiqəsinə və 2015-ci ildə dünyanın idman tarixində ilk dəfə olaraq məhz Azərbaycanda təşkil edilmiş I Avropa Oyunlarına hazırlıq prosesində ölkəmiz adına misilsiz nümunələr yaradıb.

Bakıda keçirilən "Eurovision" müsabiqəsi təkcə ölkəmizin zəngin mədəniyyətinin, gözəl təbiətinin, turizm potensialının təbliği üçün geniş imkanların yaradılması baxımın-

dan deyil, həm də Azərbaycanın qısa müddət ərzində əldə etdiyi yüksək inkişaf səviyyəsinin bütün dünyaya nümayiş etdirilməsi nöqteyi-nəzərindən çox əhəmiyyətli tədbir oldu.

Mehriban xanım Əliyeva 2015-ci ildə Azərbaycanın evsahibliyi etdiyi I Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi də xalqın, dövlətin, Azərbaycan Prezidentinin ona həvalə etdiyi tarixi missiyanı ləyaqətlə yerinə yetirdi. Vaxt azlığına, bu sahədə təcrübənin məhdudluğuna rəğmən Azərbaycan çox qısa bir zamanda bu Oyunların ən yüksək standartlarını ortaya qoydu. Bu möhtəşəm idman tədbirinin təşkili səviyyəsi ilə bütün dünyanı heyrətləndirdi.

IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin birinci iclasında Prezident İlham Əliyev bu möhtəşəm tədbirin həm dünya, həm İslam aləmi üçün əhəmiyyətini yenidən nəzərə çatdırıb. Ölkə rəhbəri Oyunların Azərbaycanı bir daha dünyada böyük nüfuza malik ölkə kimi nümayiş etdirəcəyini vurğulayıb.

Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva isə bu günədək ölkəmizdə bir çox irimiqyaslı beynəlxalq tədbirlər keçirildiyini xatırladıb: "Bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini göstərdi. Həm Siz, həm Azərbaycan xalqı, həm Oyunlarda iştirak edən idmançılar, həm də qonaqlar Oyunların çox yüksək səviyyədə hazırlanmasını qeyd etdilər. Ümumi fikrə görə, bu Oyunlar Yay Olimpiya Oyunları səviyyəsində hazırlanmışdı. IV İslam Həmrəyliyi Oyunları da eyni səviyyədə hazırlanıb keçirildi və müstəqil Azərbaycanın tarixinə növbəti qələbə kimi daxil oldu".

***Vasim Məmmədəliyev,***
***akademik***

# Həştərxan Mehriban Əliyevanı təbrik edir

***Azərbaycanın Birinci vitse-prezidentini Həştərxanda dünyanın nüfuzlu ictimai xadimi, humanizm hərəkatının öncüllərindən biri kimi tanıyır, qəbul edirlər***

Azərbaycandan aldığımız xoş xəbər biz həştərxanlılar üçün sevindirici, qürurverici oldu. Son 7 il ərzində vilayətimizin inkişafına, quruculuğuna töhfələr vermiş, real işlərlə özünü Həştərxanın əsl dostu kimi təsdiq etmiş Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilmişdir.

Öncədən qeyd edim ki, Prezident İlham Əliyevin bu sərəncamı Azərbaycandan uzaqlarda, - yalnız Həştərxanda deyil, Avropadan Asiyayadək geniş məkanda böyük əks-səda yaratdı, ictimaiyyətin diqqətini cəlb etdi. Bunun sadə səbəbi var: çünki Mehriban Əliyeva adı Azərbaycan hüdudlarını çoxdan aşaraq qlobal miqyasda uzun müddətdir ehtiramla, rəğbətlə qarşılanır. Onu dünyada nüfuzlu ictimai xadim, humanizm hərəkatının öncüllərindən biri kimi tanıyır, qəbul edirlər. Bu baxımdan Mehriban Əliyevanın yüksək dövlət vəzifəsinə təyinatı öz respublikasında olduğu kimi, xarici ölkələrdə də təsadüfi sayılmadı, təbii qanunauyğunluq kimi anlaşıldı. Bizlər də bu qərarı dünyanın məşhur qadın fəallarından birinə, sivilizasiyalararası əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfələr verən şəxsə öz dövlətində göstərilən etimad kimi qarşılayır və onu təqdir edirik.

SSRİ-nin dağılmasından sonra ittifaq respublikalarının hamısı yeni siyasi mühitə böhranla, çətinliklə, itkilərlə qədəm qoydu. Amma etiraf edək, Azərbaycanın problemləri daha çox idi. Həm üzləşdikləri ədalətsiz müharibə, həm də torpaq itkisi ilə bərabər milyondan artıq qaçqın-məcburi köçkün ordusunun yaranması gənc dövləti böyük sınaqlar qarşısında qoydu. Vətəndaş müharibəsi, sosial-iqtisadi böhran nəticəsində az qala dağılacaq olan Azərbaycanı böyük Heydər Əliyev şəxsiyyəti xilas etdi, qorudu. Təsadüfi deyil ki, Azərbaycan xalqı bu insanı özünə ümummilli lider kimi qəbul edib.

Son 14 il ərzində isə Azərbaycan əldə etdiyi inkişaf dinamikasına, genişmiqyaslı abadlıq və quruculuq prosesinə görə dünyanın tanınmış ölkələrindən birinə çevrilib. Biz daim mətbuatda qonşu respublikanın müxtəlif sosial, iqtisadi, maliyyə hesabatlarına görə dünya reytinqlərində öncül mövqedə olduğunu görürük. Şübhəsiz, bütün bu nailiyyətlər böyük hörmət bəslədiyimiz İlham Əliyevin səmərəli prezidentliyinin nəticəsidir. Amma onu da dəqiq bilirik ki, bu uğurların qazanılmasında, dövlət quruculuğu prosesinin rəvan getməsində Mehriban Əliyevanın da müstəsna xidmətləri var. O, Azərbaycanın birinci xanımı kimi cəmiyyətdə daşıdığı ictimai funksiya ilə kifayətlənməyərək ölkə həyatının çox sahəsində intibahla bağlı təşəbbüslər göstərir, insanların həyatını yüksəldən, onlara mənəvi və sosial rahatlıq bəxş edən layihələrə müəlliflik edir.

Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qafqazın ən böyük ictimai təşkilatı olmaqla

yanaşı, əksər xarici ölkələrdə də xeyirxahlıq, quruculuq fəaliyyəti göstərdiyindən artıq dünyada böyük nüfuz qazanıb. Təsadüfi deyil ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Maraqlı məqam odur ki, bu iki sivilizasiyanı xoş niyyətli elçilikdə birləşdirən yeganə insan da məhz Mehriban xanımdır.

O, həm də öz ölkəsinin adını təşkilatçısı olduğu möhtəşəm tədbirlərlə də dünyada təbliğ edib. Unudulmaz "Eurovision" musiqi yarışmasının ardınca çox məşhur I Avropa Oyunlarının da Təşkilat Komitəsinə uğurla rəhbərlik edərək mükəmməl Azərbaycan nümunəsi yaratdı. İndi o, daha bir məsuliyyətli prosesə rəhbərlik edir. Ölkəsi bu ilin mayında IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edəcək.

Mən Azərbaycanda dəfələrlə olmuşam, qonaqpərvər insanları ilə söhbətləşmişəm. Bilirəm ki, Azərbaycanın inkişafına verdiyi əvəzsiz töhfələr xalqının nəzərində Mehriban Əliyevanı böyük zirvələrə yüksəldib. Hər kəs Azərbaycanın son illərdə böyük tərəqqi yolu keçdiyini necə qürurla söyləyirdisə, birinci xanım barəsində eyni razılıqla minnətdarlıq və sevgi nümayiş etdirirdi. Onu da öyrəndim ki, Azərbaycan vətəndaşları hansısa çətinliklə üzləşəndə, problem qarşısında tənha qaldığını düşünəndə, dərhal ona müraciət edir, yaxud məktub yazır, dərdlərini, ürək sözlərini asanlıqla çatdırırlar. O da böyük diqqət və qayğı ilə onlara həmdəm olur, dəstəyini əsirgəmir.

Mən bir pedaqoq kimi daim müşahidələr aparıram, hər yeni məkanda o yerin səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirirəm. Azərbaycan barədə də əsas qənaətim budur ki, böhrandan, xaosdan qurtuluşa, inkişafa ustalıqla keçid edə bilən bu ölkənin xalqa ləyaqətlə xidmət edən Prezidenti və ümummilli etimad qazanmış birinci xanımı var.

Ta uşaqlıqdan inanıram ki, insanın xarakteri ilə onun adı arasında hansısa bağlılıq var və onlar bütün həyat boyu bir-birini tamamlayır. Mehriban xanımın şəxsində, həmçinin bizim Həştərxana bəxş etdiyi sevgi, mərhəmət, xeyirxahlıq timsalında bir daha əmin oluram ki, insan öz adına da layiq həyat sürməlidir. Necə ki, o, Azərbaycandan bütün dünyaya, o cümlədən Həştərxana mehribanlıq yayır, şəfqət ünvanlayır. Mehriban adının tərcüməsi bizim dildə "löbəhaə, dobra, nejnaə, miloserdnaə, drujelöbnaə, sostradatelğnaə, laskovaə" kimi tərcümə olunur. Bəli, bu adla hər şey aydındır.

Mehriban Əliyevanı Həştərxanda çox sevirlər, çünki ona minnətdar olmağımız üçün xeyli səbəblər yaradıb. Təvazökarlığından bunların çoxundan ictimaiyyətin xəbəri olmur, xeyirxahlıq nümunələrinin əksəriyyəti barədə insanlar məlumat bilmir. Bu da onun əsl xeyriyyəçilik, mərhəmət missiyasının mahiyyətindən irəli gəlir. Amma mən bu məqaləmdə bəzi məqamlara toxunmağı, ona olan təşəkkür və ehtiramımızı bir daha bildirməyi özümə borc sayıram.

O, həştərxanlıların böyük dostu, səmimi qayğıkeşidir. Ən əsası isə Mehriban Əliyeva vilayətimizin gənc nəslinin savadlı, dünyagörüşlü yetişməsi üçün, əziz Rusiyamıza layiqli vətəndaş kimi formalaşması məqsədilə elə böyük layihələr həyata keçirib ki, onun şərəfli adı onilliklər sonra da daim həştərxanlıların qəlbində əbədi iftixar və ehtiram mənbəyi kimi xatırlanacaq.

Mən Bakıda olarkən azərbaycanlı pedaqoq həmkarlarım onun maarifçilik missiyasından

böyük fəxrlə danışırdılar. Ölkələrində paytaxtdan ucqar kəndlərə qədər yüzlərlə məktəbin tikilməsinin təşəbbüskarı, himayədarı olub. Rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən minlərlə məktəb təmir və bərpa edilib. Yəni bundan sonra formalaşacaq nəsil savadlı təhsilinə, peşəkar kadr kimi formalaşmasına görə hökumətləri ilə yanaşı, onlara ən müasir məktəblər bəxş etmiş Mehriban xanıma da minnətdar olmalıdır.

Necə ki, minlərlə həştərxanlı ailə ona minnətdardır!

Rəhbərlik etdiyim 11 nömrəli orta məktəb Həştərxanın ən müasir, abad, təminatlı, yüksək maddi-texniki təchizata malik məktəbləri sırasında ön yerlərdədir. Bu nailiyyətin əldə olunmasında Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müstəsna xidmətləri var.

Onun xeyir-duası, birbaşa nəzarəti ilə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri nəticəsində 24 oktyabr 2011-ci ildə şəhərimizin Bakı küçəsində yerləşən məktəbimizin rəsmi açılışı oldu. Biz qədirbilən insanlarıq. Xeyirxahlığa minnətdarlıqla cavab verərək, məktəbə bizim də sevimlimiz olan dahi şəxsiyyətin - Heydər Əliyevin adını verdik.

1937-ci ildə tikilmiş məktəbimizin əsas korpusu Mehriban Əliyevanın təşəbbüsü, dəstəyi ilə genişmiqyaslı rekonstruksiya olundu. Amma o, bununla kifayətlənmədi, tapşırığı ilə müasir standartlara uyğun iki yeni korpus inşa edildi. Şagirdlərin təhsilinin lazımi səviyyədə təşkil edilməsi üçün bütün şərait yaradıldı, mebel və texniki avadanlıqlarla təchiz edildi. Mehriban Əliyeva məktəbi birbaşa hamiliyinə götürdü, şagirdlərimiz üçün təqaüd təsis etdi. Artıq bir neçə ildir ki, məktəbin əlaçı şagirdləri və fərqlənən müəllimlər hər rübün yekununda təqaüdlə mükafatlandırılır, hər il yay və qış tətili günlərində onların Bakıya səfərləri təşkil olunur, paytaxtlarının görməli yerləri, tarixi abidələri ilə tanış olur, istirahət edirlər.

Bizim məktəbdə 19 millətin təmsilçisi təhsil alır. Deməli, 19 millət məhz Mehriban Əliyevanın xeyriyyəçiliyi, mərhəməti sayəsində Azərbaycan xalqının yüksək keyfiyyətlərini öyrənir, azərbaycanlılara hörmət edir. O, həqiqətən də Azərbaycana yalnız öz ölkəsində layiqli xidmət göstərməklə kifayətlənmir, həm də dövlətinin və xalqının xaricdə tanınmasına, nüfuzunun artmasına fədakarlıqla töhfə verir.

Mehriban xanımın mərhəmətindən həştərxanlı körpələr də yetərincə bəhrələnib. Məktəbimizin nəzdində orijinal layihə əsasında, müasir memarlıq üslubunda inşa edilmiş 140 yerlik yeni uşaq bağçası onun çoxsaylı təşəbbüslərindəndir və qürur hissi keçirik ki, onun açılışını məhz Prezident İlham Əliyev edib. 2-6 yaş arasında uşaqlar üçün 6 qrupun fəaliyyət göstərdiyi bu məktəbəqədər müəssisə bütün zəruri avadanlıq və inventarla təchiz edilib, uşaqlar üçün yaradılan idman və musiqi zalları, digər otaqlar ən müasir tələblər səviyyəsində qurulub.

Bundan əlavə, Heydər Əliyev parkında yaradılmış "Arzu" uşaq əyləncə şəhərciyi yalnız körpələrimizin mənalı vaxt keçirməsinə xidmət etmir, həm də şəhərimizin estetik görünüşünü zənginləşdirir. Mehriban Əliyevanın himayəsi və nəzarəti altında tikilən 1200 kvadratmetrlik şəhərcikdə çoxsaylı attraksionlar quraşdırılıb, uşaqların istirahəti və təhlükəsizliyi üçün hər bir şərait yaradılıb.

Həmçinin şəhər mərkəzində yerləşən 3,5 hektarlıq parkda onun tövsiyəsilə abadlıq və yenidənqurma işləri aparılmış, döşəmə örtüyü, oturacaqlar dəyişdirilmiş, fəvvarə quraşdırılmış, ətraf ərazidə yerləşən binaların fasadları bərpa edilmiş, dam örtükləri dəyişdirilmişdir. Həştərxanlıların sevimli istirahət mərkəzinə çevrilən bu məkanda Heydər Əliyevin əzəmətli abidəsi xalqlarımız arasında dostluğun rəmzi kimi ucaldılıb.

Mehriban xanımın böyük xeyirxahlığının çoxsaylı töhfələrindən biri də I Pyotr və Heydər Əliyev abidə komplekslərini birləşdirən, 50 metrdən artıq uzunluğa və 6 metr enə malik olan piyada keçid, əslində isə Rusiya-Azərbaycan dostluq körpüsüdür. Bu körpünün necə böyük fayda verdiyini isə bizdən yaxşı heç kəs bilə bilməz.

Digər bir fakt. Mehriban xanımın dəstəyi ilə şəhərimizin mərkəzində - Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi də ucaldılıb. Bu abidəni o, Rusiyada xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə görə şəhərimizə hədiyyə edib. Bəli, müsəlman qadın provaslav xalqa, onun ənənələrinə belə böyük ehtiramla yanaşır. Əslində, bu təsadüfi deyil. Dünyada mükəmməl örnəyə çevrilmiş Azərbaycan tolerantlığının ən canlı tərənnümçülərindən biri məhz Mehriban xanımdır (Yeri gəlmişkən, o, Vatikanda və digər Avropa ölkələrində də çoxsaylı kilsələrin, məbədlərin, muzeylərin bərpasında, təmirində fəallıq edir). Onun istəyilə Knyaz Vladimirin abidəsi ətrafındakı ərazi abadlaşdırılıb, müasir standartlara cavab verən yeni park da salınıb.

Bir vacib məqama da toxunmaq istərdim. Bakıda olarkən, belə bir atalar sözünü eşitdim: "Ot kökü üstə bitər". Bu misalı Prezident İlham Əliyevin Heydər Əliyev irsini, ideyalarını layiqincə davam etməsinə görə xalq işlədir. Mən bu atalar sözünü həştərxanlıların çox sevdiyi, bizə olduqca əziz olan Leyla xanım Əliyeva haqqında da işlətmək istərdim. O, Mehriban xanımın mərhəmət və xeyirxahlıq missiyasının layiqli davamçısıdır, bizə deyildiyi kimi, əsl anasının qızıdır. Anasının verdiyi tərbiyə, örnəyə çevrilən əməlləri onun kamil insan kimi formalaşmasına, gənc olmasına baxmayaraq böyük nüfuz və rəğbət qazanmasına imkan yaradıb. Leyla bizim sevimli qonağımızdır, daha doğrusu, o, artıq qonaq deyil, elə bizim kimi həştərxanlıdır. Mehriban xanımın dəstəyi ilə ərsəyə gələn layihələrin təməl daşını da o qoyur, açılışını da o edir. Daim bizimlədir. Onun səmimiyyəti, mənəvi bütövlüyü, həddən artıq mərhəmətliliyi ona sevgimizi daim artırır.

Biz ona rəğbətimizi yalnız məhəbbətimizlə bildirmirik. Leyla xanım Əliyeva Rusiya Prezidenti Vladimir Putin tərəfindən "Puşkin" medalı ilə təltif edilmiş, həmçinin Həştərxanın ali mükafatlarına - III dərəcəli "Knyaginya Olqa" və "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenlərinə layiq görülmüşdür. Belə övladla həqiqətən də fəxr edilməlidir!

Mehriban Əliyevanın "Həştərxan vilayəti qarşısındakı xidmətlərinə görə" ordeni ilə təltif olunmağı vilayət sakinlərinin ona bəslədiyi ehtiramın yalnız rəsmi tərəfidir. Bunun mənəvi yönümü isə ölçüyəgəlməzdir. Müəllifi olduğu layihələrin icrası ilə tanış olmaq üçün onun tapşırığı ilə mütəmadi olaraq vilayətimizə gələn Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və digər şəxslər hər dəfə onun salamlarını bizə çatdıranda çox xoşbəxt oluruq. Ümumiyyətlə isə Mehriban xanım başda olmaqla, Həştərxanın gözəlləşmə-

sinə, abadlığına, quruculuğuna töhfə verən bütün azərbaycanlılara əbədi minnətdarıq.

Təəssüf ki, dünyamız qana boyanıb, bütün qitələrdə kədər, müharibə, səfalət hökm sürür. Problemlər məngənəsində boğulan kainatda mərhəmət işığı yandıran azsaylı insanlardan biri də Mehriban xanımdır. Bir ana kimi şəfqətini, sevgisini, xeyirxahlığını yalnız öz xalqının uşaqlarına, həştərxanlılara deyil, bütün dünyaya səpələyir. Xəbərim var ki, Mehriban xanım Pakistanda, Rumıniyada, Afrika və Asiya ölkələrində onlarla məktəb, xəstəxana, digər zəruri sosial infrastrukturlar inşa etdirib. Onun missiyası əslində, xoşməramlı səfir statusundan daha fövqəl, daha üstündür. Mehriban Əliyeva yalnız Azərbaycana məxsus deyil, bəşəri insandır, bütün dünyanın ağrılarını, əziyyətlərini qəlbində yaşadan və qlobal problemlərin həllinə töhfələr verən kövrək anadır, möhkəm qadındır, kamil şəxsiyyətdir, bizlərə örnəkdir.

Demək, o, öz xalqı üçün bundan da artıq mahiyyət kəsb edir. Bu baxımdan Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsinin öz xalqı tərəfindən belə yüksək coşqu ilə qarşılanmasını da təbii saymaq olar.

Mehriban Əliyevanın şərəfli fəaliyyəti yeni mərhələyə qədəm qoyur. Artıq o, dövlət xadimi, yüksək vəzifə sahibidir. Amma əminik ki, bu ali post yalnız və yalnız onun mərhəmət, xeyirxahlıq, bütün dünyaya sülh və inkişaf bəxş etməyə yönələn missiyasının daha geniş miqyasda aparılmasına xidmət edəcək.

***Tatyana Tixomirova,***
***Heydər Əliyev adına 11 saylı Həştərxan şəhər orta ümumtəhsil məktəbinin direktoru,***
***Rusiya Federasiyasının fəxri ümumtəhsil işçisi***

# Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin təməlini formalaşdırdı

*" Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam ".*

*Heydər Əliyev,*
*ümummilli lider*

Ölkəmizin ən çətin dövründə, onun ziddiyyətli, mürəkkəb hadisələr burulğanına düşdüyü bir zaman keçmişin və o dövrün mövcud iqtidarının bilavasitə köməkliyi, havadarlığı ilə külli miqdarda sərvətlərə sahib olmuş mafioz qruplara geniş qol-budaq açdığı, ölkəmizi parçalamağa cəhd edən qüvvələrin ciddi fəallaşdığı, ərazi bütövlüyünün pozulduğunun gerçəkliyə çevrildiyi, müstəqilliyimizin ciddi təhlükə aldığı və Azərbaycanın beynəlxalq aləmdə təkləndiyi bir vaxtda özünün vətəndaş məsuliyyətini dərk edən Heydər Əliyev xalqın səsinə səs verərək, onun tələb və iradəsinə tabe olaraq Azərbaycana rəhbərlik etməyə razılıq verdi.

Heydər Əliyev bu addımı təkcə xalqımızın xahişi və tələbi ilə yox, həm də vicdanının tələbi ilə atdı. Vətənə, Ana torpağa bağlılıq, övladı olduğu xalqına dərin məhəbbəti və xalqın ona olan böyük inamı Heydər Əliyevi bu addımı atmağa, Azərbaycanın müstəqilliyini və azadlığını qorumaq üçün bu ulu və müqəddəs vəzifəni öz üzərinə götürməyə vadar etdi.

1993-cü ilə qədər Azərbaycanda gedən siyasi oyunları xüsusi aqillik, müdriklik düşüncəsi ilə qavrayan Heydər Əliyev bütün bunları tarixi keçmişin təcrübəsi əsasında müqayisə ilə izləyirdi. Ən təhlükəli bir anın - Azərbaycanın müstəqilliyini istəməyənlərin, gözü götürməyənlərin tarixi fırıldaqlarının, siyasi oyunlarının son həddi olan Azərbaycanı vətəndaş müharibəsi sayəsində parçalamaq məqamının facia ilə nəticələnə biləcək çağında Heydər Əliyev Azərbaycanın dadına yetdi. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi ən əvvəl Azərbaycanı parçalanma təhlükəsindən xilas etdi. Sonra isə zəkanın ziyası ilə Azərbaycana bəd nəzərlərlə baxanların gözlərini qamaşdırdı. Daha sonra isə siyasi əqidəsi, şəxsiyyət bütövlüyü, yenilməzliyi, əyilməzliyi, dönməzliyi ilə iblis oyunu oynayanların qarşısında vüqarlı dağ kimi göründü. Heydər Əliyevin nəzərindən heç bir siyasi oyun, iblis əməllərinin qaça bilmədiyinə görə daxili və xarici təxribatçılar, təcavüzkarlar bəd əməllərinə son qoydular. 16 avqust 1993-cü ildə keçirdiyi müşavirədə Heydər Əliyev Milli Məclisin sədri kimi belə bir fikir söylədi: "Məni söyəni, məni döyəni, məni təhqir edəni bağışlayaram, ancaq vətənimə, xalqıma xəyanət edəni qətiyyən bağışlamaram!". Müdrikcəsinə deyilən bu fikir müqəddəsliklə sevilən Ana vətən üçün təhlükəyə səbəb olanları xalq adından cəzalandırmağa çağırış idi.

Düşmənlərimiz, artıq 1993-cü ildən əzəmətli, möhtəşəm, vüqarlı, Ana torpağın təkinə qaya kimi həkk olunmuş Heydər Əliyev şəxsiyyətinin qüdrətindən ehtiyat edərək, heç bir fırıldağa əl ata, iblis oyunu oynaya bilmədilər. Babək dövrünün milli azadlıq hərəkatının daxi-

li qüvvələr hesabına yatırılmasından tutmuş, 1918-1920-ci illərdəki təcavüzlərdən, təxribatlardan xəbəri olan və bu səbəbləri zərgər dəqiqliyi ilə bilən Heydər Əliyev şəxsiyyət bütövlüyü, vətəndaş əqidəsi ilə Vətənin - Azərbaycanın bütöv bir dövlət kimi dünya dövlətləri arasında müstəqil məmləkət dövrünü yaşaması üçün müqəddəs tarixi iş görə bildi. O, şəxsiyyətin bütövlüyü, zəkasının ziyası, əqlinin qüdrəti ilə Müstəqil Azərbaycan dövlətinin təməlini formalaşdırdı. Azərbaycan dilinin qüdrətli bir millətin dövlət dili kimi işlək dairəsini təmin etdi.

Nəriman Nərimanovun üzərindən millətçi damğasının götürülməsi, uzaq Sibirdən Hüseyn Cavidin cənazəsinin öz vətəni Naxçıvana gətirilməsi, Nəsiminin, Vaqifin, Cəfər Cabbarlının, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin və xalqımızın digər görkəmli övladlarının möhtəşəm heykəllərdə əbədiləşdirilməsi bilavasitə milli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan çox sahədə qabaqcıl təcrübə məktəbinə çevrilmişdir. Bütün bunlar Heydər Əliyev dühasının unudulmaz xidmətlərinin fərəhli bəhrələri idi. Çətin, mürəkkəb, çoxcəhətli, çoxsahəli və zəngin fəaliyyəti nəticəsində Heydər Əliyev dünyada tanınmış görkəmli dövlət xadimi və siyasi xadim kimi formalaşdı, tarixi şəxsiyyətə çevrildi, dünyanın nadir insanları çərçivəsinə daxil olmaqla, müdriklik, kamillik zirvəsinə yüksəldi. Onun şəxsində və zəhmətinin nəticəsində Azərbaycan da dünyada tanındı. O müdrik şəxsiyyətin həyatının hər bir inkişaf mərhələsi Azərbaycanın yüksəlişi və beynəlxalq aləmdə tanınması mərhələsi kimi tarixə düşdü.

**Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər bütün sahələrdə respublikamız üçün həqiqi inkişaf dövrü olmuşdur.** Bütün bunları xalqımız və onun hər bir üzvü görməyə, qiymətləndirməyə bilməz. Bunun qiymətləndirilməməsi vətən və gələcək nəsil qarşısında siyasi məsuliyyət daşımaqdır.

Əvəzedilməz siyasi mübarizə və həyatını bütövlükdə canı qədər sevdiyi xalqına həsr edən ulu öndərimiz dahi Heydər Əliyev yazırdı ki, mən İlham Əliyevə özüm qədər inanıram. Bu inam və etimad öz xüsusi çəkisi və məsuliyyəti ilə cənab İlham Əliyevin üzərinə çox böyük öhdəçiliklər qoydu. Dahi Heydər Əliyev məktəbinin layiqli davamçısı İlham Əliyev də öz növbəsində bu dəyərli fikirlərin tam məsuliyyətini zamanında anladı və var gücü ilə yalnız davamçısı olduğu Heydər Əliyev irsinin ləyaqətlə davam etdirilməsi işini yüksək səviyyədə davam etdirməkdədir. Bu gün ölkəmizdə aparılan həm daxili, həm də xarici siyasətin uğurlarından yetərincə danışmaq olar ki, bu da bütövlükdə dahi Heydər Əliyev siyasətinə sədaqətlə qullaq etməyin özünütəsdiqidir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev hakimiyyətə gəlişinin ilk günlərindən başlayaraq, xalqla əlbir və sıx bağlılıq əsnasında fəaliyyət proqramını qurdu ki, bu da sözün əsl mənasında xalqımızın həm daxili və həm xarici siyasətdə uğurlu nəticələrə aparan yeganə çıxış yolu idi. Elə bu uzaqgörənliyin bariz nümunəsidir ki, xalqımız tarixin keşməkeşli və çətin yollarında taleyinə düşən müstəqillik illərini uğurla və iqtisadi inkişaf tempinə görə öndə gedən dövlətlərlə bir sırada addımlayır. Bu gün nəinki MDB dövlətləri sırasında, eləcə də dünya dövlətləri ilə hər sahədə revanşa çıxmaq və dünyanın beynəlxalq tribunalarından cəsarətli, ədalətli və elmli sözü ilə çıxış edən dövlət başçımız möhtərəm prezidentimiz cənab İlham Əliyevlə haqlı olaraq böyük qürur hissi duy-

uruq. Belə qürur və iftixar hisslərini bizə yaşadan dahi Heydər Əliyev siyasətinin layiqli davamçıları İlham Əliyev və I vitse-prezident Mehriban xanım Əliyevaya sözün əsl mənasında minnətdarıq. Dahi Heydər Əliyevin müasirlərimizə və gələcək nəsillərə örnək olacaq müqəddəs irsinə istinad, ondan bəhrələnmək və bizdən sonrakı nəsillərə olduğu kimi çatdırılması missiyasının nümunəsini, məhz Prezidentimiz cənab İlham Əliyev və Mehriban xanım Əliyevanın simasında əyani olaraq görürük. Özünü azərbaycanlı hesab edən hər bir namuslu vətəndaş məhz bu nümunədən bəhrələnməlidir. Bax, budur əsl vətəndaşlıq və əsl vətənpərvərlik. Bu özü də bir daha onu sübut edir ki, Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva dahi Heydər Əliyev məktəbindən yetərincə və zamanında bəhrələnmişlər. Tarix sübut edir ki, örnəklər nümunədirlər. Onlardan bəhrələnmək və həyatda yerində istifadə etmək gərəkdir. Bizim ölkəmizdə bu nümunənin sübutu var ki, bunu da biz örnək kimi cənab İlham Əliyevin və Mehriban xanımın məhz əməli işlərində, özünü təsdiqind görürük və şahidiyik. Bu gün dünyanın heç bir ölkə başçısının ailə üzvləri bizdə olduğu qədər bütövlükdə xalqının bu gününün və gələcək taleyinin, müqəddəratının həllində iştirak etmir. Bu mənada belə nümunə də məhz elə Azərbaycan xalqının taleyinə yazılmışdır. Bununla da fəxr etməyə haqqımız var. Bütün bu nümunələrə görə məhz Prezident İlham Əliyevə minnətdarıq. İlham Əliyev xalqa xidmət, xalqla yekdil olmaq və bütövlükdə azərbaycançılıq ənənələrinə sədaqətlə qulluq etmək kimi prinsiplərinə sadiqliyilə bir daha sübut edir ki, ot kökü üstə bitər. **Bəli, dahi Heydər Əliyev canı qədər sevdiyi Azərbaycan xalqının taleyini İlham Əliyevə etibarında yanılmamışdır.**

Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə ölkənin milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi təsdiq edilmişdir. Bu sənədin qəbul olunmasında məqsəd Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadıyyatın rəqabət qabiliyyətliliyini və inklüzivliyini, eləcə də əhalinin sosial rifahını artırmaqdır. Dövlət başçısının 16 mart 2016-cı il tarixli sərəncamına əsasən, iqtisadiyyatın 11 sektoru üzrə hazırlanan 12 strateji yol xəritəsi yaxın illər üçün investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirmək üçün əsas fəaliyyət proqramıdır.

Strateji Yol Xəritəsində göstərilir ki, iqtisadi inkişafın yüksək səviyyədə koordinasiyası təmin edilməlidir. Ölkə miqyasında iqtisadi fəaliyyətin mövcud koordinasiya sistemi əhəmiyyətli dərəcədə təkmilləşdirilməlidir. Bütünlükdə iqtisadi fəaliyyət sahələrinin inkişafının koordinasiyasının gücləndirilməsi zəruridir. Çünki iqtisadi fəaliyyətin koordinasiyası kompleks və səmərəli inkişaf amilidir.

Bundan əlavə, indiki kimi təkcə dövlət investisiya proqramları yox, eyni zamanda özəl investisiyaları nəzərə almaqla bütünlükdə ölkə üzrə illik və uzunmüddətli investisiya proqramının (investisiyaların həcmi, istehsal güclərinin istifadəyə verilməsi və s. göstəricilər əks olunmaqla) hazırlanması düzgün olardı. Çünki dövlət məhz məhsuldar qüvvələrin düzgün yerləşdirilməsində, bütünlükdə investisiya obyektlərinin iqtisadi və sosial səmərəsinin yüksək olmasında maraqlıdır. Nəzərə alınmalıdır ki, ölkənin, o cümlədən regionların tarazlı iqtisadi və sosial inkişafında investisiyalar həlledici rol oynayır. Tarazlı inkişaf məhsuldar qüvvələrin düzgün yerləşdirilməsindən bilavasitə asılıdır. Bu, imkan verər ki, məhsul isteh-

salının, iş və xidmətlərin planlaşdırılan həcmi, habelə regionlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, yeni texnologiyaların və digər innovasiyaların tətbiqi bütünlükdə ölkənin investisiya proqramı ilə lazımi səviyyədə əlaqələndirilsin. İnvestisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi təkcə dövlət investisiyalarını yox, mülkiyyət formasından və maliyyə mənbələrindən asılı olmayaraq bütün investisiyaları əhatə etməlidir.

Son illərdə müstəqil Azərbaycanın iqtisadi və sosial sahədə qazandığı yüksək nailiyyətləri, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu ölkəmizi bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Davamlı inkişaf naminə yaradılan iqtisadi baza əsasında Azərbaycan innovativ tərəqqi dövrünü yaşayır. Bu tərəqqi, davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə Azərbaycan "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Əlbəttə ki, qazanılan hər bir uğurun təməlində Prezident İlham Əliyevin müəllifi olduğu Azərbaycanın hərtərəfli inkişafına və tərəqqisinə hesablanmış inkişaf strategiyası dayanır.

ASAN xidmətin yaradılması dünya ölkələri tərəfindən çox yüksək qiymətləndirilir.

Prezident İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti ilə Azərbaycanda qurulan yeni iqtisadi model uğurlu nəticələrini verməkdədir. Artıq ölkə iqtisadiyyatı aşağı neft gəlirlərinə tam adaptasiya olunmaqla yanaşı, inkişaf edir və rəqabətqabiliyyətini artırır. Qabaqcıl texnologiyaların bütün sahələrdə tətbiqi, istehsal və investisiyayönümlü innovativ layihələrə dövlət dəstəyi, o cümlədən güzəştli maliyyə təminatı respublikamızda təşəkkül tapmaqda olan startapların inkişafına, iqtisadiyyatın dinamik yüksəlişinə xidmət göstərir.

Ölkədə strateji idarəetmə mexanizmi işləyir və islahatlar dönməz və kompleks xarakter daşıyır. 2018-ci ildən başlayaraq iqtisadi artım daha yüksək tempə malik olacaq. Aparılan islahatlar və yaradılan infrastrukturun hesabına ölkənin regional və qlobal dəyər zəncirlərində mövqeləri güclənəcək.

Bütün bunlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti ilə yeni inkişaf mərhələsinin başlanğıcında olan Azərbaycan 2018-ci ildə də özünün sürətli inkişafını təmin edəcək.

Son günlər müasir Azərbaycan dövlətinin tarixinə həkk olunan mühüm hadisələrlə əlamətdardır. Hələ ötən ay Bakıda imzalanan yeni neft müqaviləsi Azərbaycanın enerji diplomatiyasının növbəti böyük uğuru idi. Cəmi 3 həftə sonra Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal miqyasda söz sahibinə çevrilməsinin növbəti təsdiqi oldu.

Ulu öndərin siyasi xəttini layiqincə davam etdirən Prezident İlham Əliyevin də qarşıya qoyduğu əsas məqsədlərdən biri bugünkü beynəlxalq rəqabət şəraitində Azərbaycanın tranzit imkanlarından məhsuldar şəkildə istifadə etməkdir: "Bunun üçün son on ildə ölkəmizdə bir neçə hava limanı inşa olunub, avtomobil yolları tamamilə yenidən qurulub və bu istiqamətdə işlər davam edir. O cümlədən, dəmir yolu infrastrukturunun yenilənməsi istiqamətində işlər görülür. Ələt qəsəbəsində tikilən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi tezliklə regionun avtomobil, dəmir və dəniz yollarının kəsişmə nöqtəsinə çevriləcək. Yeni liman Çindən tutmuş Mərkəzi Asiya və Avropayadək daşımalara töhfəsini verəcək.

Bu gün qürurla demək olar ki, bir neçə il əvvəl Azərbaycan Avropaya inteqrasiya olmaq

xəttini götürmüşdü. İndi Azərbaycan inkişaf etmiş dövlətlər sırasındadır. Bu yüksək templi inkişaf göstərir ki, yaxın gələcəkdə Avropa və dünya ölkələri Azərbaycana inteqrasiya olmaq haqda düşünəcəkdir.

Yarandığı gündən bu günədək Heydər Əliyev Fonduna ləyaqət və fəxarətlə rəhbərlik edən Mehriban xanım Əliyeva daima Heydər Əliyev ideyalarını əldə rəhbər tutaraq Fondun birmənalı şəkildə prioritet istiqamətlərini ən müxtəlif sahələr üzrə humanitar fəaliyyətlər üzərində qurmuşdur. Buraya valideyn himayəsindən məhrum olan uşaqlara kömək, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxildir.

**Məhz Mehriban xanım Əliyevanın rəhbərliyi və Heydər Əliyev Fondunun xəttilə Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırılır və nüfuzlu beynəlxalq təşkilatların səfiri olaraq yüksək tribunalardan ölkəmizin qədim tarixi - mədəniyyəti, incəsənəti, musiqisi, ədəbiyyatı və bütün nailiyyətləri dünya ictimaiyyətinə yayımlanır.** Getdikcə Azərbaycanın nüfuzu və xüsusi çəkisi dünyəvi dövlətlər siyahısına qədər yüksəlməkdədir. Qafqazda aparıcı və həlledici səsə malik olan Müstəqil Azərbaycanımızın dünyaya günəş tək doğmasında Heydər Əliyev Fondunun prezidenti kimi xanım Mehriban Əliyevanın xidmətləri misilsizdir. Mehriban xanım mərhəmətli, sadə, səmimi və çox ədalətli, eyni zamanda prinsipial və ciddi tələbkar bir şəxsiyyətdir. İdarəçilikdə isə bu keyfiyyətlər çox vacibdir.

21 fevral 2017-ci ildə Mehriban xanım Əliyevanın Birinci Vitse-Prezident vəzifəsinə seçilməsi isə Mehriban xanımın xidmətlərinin yüksək nəticəsi kimi çox təqdirəlayiq bir hadisə oldu. Azərbaycan xalqı bu hadisəni toy-bayram kimi qarşıladı.

Mehriban xanımın təbirincə desək:

- Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünün şəxsi həyatının və dünyanın qurub yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir.

Kimsənsə, elə də olmalısan - bax budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünya da, yerin də yeganə və bənzərsizdir.

Bəli, doğrudan da ailəsinə, mənsub olduğu xalqına və millətinə, milli mentalitetinə sədaqətlə qulluq edən əsl Azərbaycan xanımı, əsl Ana, layiqli övlad və fədakar Azərbaycan qadını, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanda qadın hərəkatının yeni mərhələsinə böyük təkan verən nümunəvi xidmətləriylə nəinki Azərbaycanda, eləcə də dünyada qadınların ictimai həyatda rolunun istiqamətlərini müəyyənləşdirdi ki, bu da məhz Azərbaycan naminə böyük xidmətlərin bariz nümunəsidir.

*Novruz Allahverdiyev,*
*Sahibkar*

## Allahı sevən və Allahın sevdiyi insanların missiyası

İnsan nə doğulduğu məkan və zamanı, nə də onu bu işıqlı dünyaya gətirmiş valideynləri özü seçir. Gələcək tale yollarını hansısa formada müəyyənləşdirmək də şəxsin öz əlində deyil.

Hər körpənin ömrü bir ağ kağızdır. Bu kağızda yazılan həyat tarixçəsinin müəllifi həmişə zaman olur.

Yer üzündəki milyardlarla fərddən biri digərinə bənzəmədiyi kimi, bir o qədər insan taleyinin də biri başqasının eynisi deyil. Bununla belə, böyüyüb həddi-büluğa çatana qədər ata-anasını, doğmalarını yanında görən körpələr üçün həyat çox vaxt eyni cür başlanır. Ola bilər, maddi təminat, yaşayış şərtləri, ailədə yaradılan imkanlar fərqli olsun, amma xoşbəxtliyin rəngləri onların hamısı üçün oxşardır.

Bəlkə vaxtilə Tolstoy elə bunu nəzərdə tutaraq yazırdı ki, dünyadakı bütün xoşbəxt insanlar bir-birinə bənzəyir.

Əfsuslar olsun ki, bunu kimsəsiz körpələr haqqında yazmaq mümkün deyil. Onlarla bağlı vəziyyət bambaşqadır. Ömür bu körpələrlə başlamır, davam edir, əslində. Dünyaya gəldikləri gündən kiminsə yanlışlarının, uğursuzluqlarının, xəyal qırıqlıqlarının davamını yaşamalı olurlar onlar. Bütün bunların bədəlini öz kimsəsizlikləri ilə ödəyirlər.

Həyat əvvəldən onlar üçün acı sürprizlərlə başlanır. Bu uşaqlar öz körpəliklərinin ən qiymətli sərvətindən məhrumdurlar. Bir ana nəvazişinə, bir ata sığalına hava-su kimi ehtiyacları var.

Əlbəttə, ailə qayğısı, ev mühiti, ata-ananın sevgi və dəstəyi fərdin cəmiyyətdə öz yerini tutmasında mühüm rol oynasa da, çox zaman bu rol həlledici deyil. Elə kimsəsiz körpələr var ki, böyüyüb yaşa dolandan sonra öz zəhmət və qabiliyyətləri hesabına çox zəngin birinə çevrilir. Cəmiyyətdə hamının ehtiram bəslədiyi, uğurlarına həsəd apardığı, başqalarının özünə ideal seçdiyi görkəmli bir adam kimi tanınır. Amma dünyanın heç bir var-dövləti, ad-sanı körpəlik illərindəki o ana şəfqətinə, ata qayğısına olan ehtiyacı ödəyə bilmir. O ehtiyacı kimsəsiz böyümüş insanlar bütün ömür boyu özlərində daşıyırlar.

Bu, onların həyatında böyük bir boşluğa çevrilir.

***

Kimsəsizlik talelərin ən acısıdır. Bu elə bir taledir ki, onu ancaq yaşayanlar bilər. Kimsəsiz böyümüş insanların gözlərindəki kədər dünyanın hər yerində bir-birinə bənzəyir. Bu kədərdə onların ömür boyu çəkdikləri mənəvi əziyyətlər əks olunub. Kimsəsiz insanların bu kədəri onlara səbəb olmuş cəmiyyətin günahıdır həm də. Ona görə də kimsəsiz körpələr cəmiyyətlərin həssas yeridir. Cəmiyyət heç bir qeyd-şərtsiz özünü bu

körpələrə borclu bilir. Dünyanın bütün dinləri, eləcə də İslam kimsəsiz körpələrə sahib çıxmağı, onların haqqına girməməyi ən ali mənəvi-əxlaqi normalardan biri kimi müəyyənləşdirir.

Onlara kömək göstərmək xeyir əməllərin ən gözəli kimi təlqin olunur...

***

Tarixdə kimsəsiz körpələr üçün etdiklərinə görə insanlığın zirvəsinə ucalmış şəxsiyyətlər var. Elə bu sətirləri yaza-yaza əfsanəvi Yanuş Korçakı xatırlayıram. O, Polşa yəhudisi idi, həkim, pedaqoq və yazıçı kimi tanınmışdı. İkinci Dünya müharibəsi zamanı çalışdığı kimsəsiz uşaqlar evinin sakinləri ilə birgə faşistlərə əsir düşür. Onları Varşava gettosuna aparırlar. Burada da bacardığı qədər körpələrin qayğısına qalır. Dözülməz və ağır şəraitdə ruhdan düşmür, daim öz şagirdlərinin yanında olur. Uşaqların müalicəsi, təhsil və tərbiyəsi ilə məşğul olur.

Şəxsiyyəti o qədər böyük mənəvi işığa malik idi ki, hətta insanlığını tam itirməmiş faşistlər belə Yanuş Korçakı xilas etməyə çalışırdılar. Düşərgədən qaçıb gizlənməsinə kömək göstərməyi təklif edirdilər. O isə bütün bunlara rəğmən yenə kimsəsiz uşaqlarla birgə idi.

1942-ci ilin 6 avqustunda onun 192 şagirdi vaqonlara mindirilərək ölüm düşərgəsinə göndərilir. Qoca pedaqoq bu ölüm yolçuluğunda da onları tək buraxmır. Vaqona minən zaman SS-çi zabit ona həyatının bağışlanması barədə kağız təqdim etsə də, Yanuş Korçak xilası deyil, uşaqlarla birgə ölümü seçir.

Şahidlər xatırlayır ki, qaz kamerasına aparılarkən pedaqoq sıranın önündə hər şeydən xəbərsiz iki ən kiçik uşağın əlindən tutaraq addımlayır, onlara nağıl danışırdı.

Cəmi bir neçə dəqiqədən sonra qaz kamerasının cəhənnəmi şagirdləri ilə birgə onu da kamına çəkdi. Bu mənzərə isə əbədiyyətin rəsmi kimi ölməzlik qazandı: ölümə doğru addımlayan kimsəsiz uşaqlar və sıranın önündə iki körpənin əlindən tutub addımlayaraq onlara nağıl danışan eynəkli qoca...

Əgər insanlığı, mənəvi kamilliyi, dünyanın ən ali dəyərlərini, bəşəriyyətin gələcəyinə ümidləri bircə epizodla təsvir etmək lazım gəlsə, yalnız bu mənzərəni xatırlamaq yetər.

Belə şəxsiyyətlər yaşadıqları əsrə işıq salan nur heykəlləridir...

***

XXI əsrdə bu şəxsiyyətlər sırasında bir ad da görünür: Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva...

Onun milli dövlətçilik tariximiz və ümumilikdə bəşəriyyət qarşısında yerinə yetirdiyi ən böyük missiya özü kimi uca şəxsiyyətlərin keçmişdən gələn insanlıq işığını bugündən gələcəyə daşımasıdır. Getdikcə gərginləşən dünyamızda insan ruhunun ərazisini hifz etməyə can atmasıdır.

Tənhalığın, ümidsizliyin, çarəsizliyin yeganə əlacı olan sevginin nümunəsini yaratmasıdır. Həyata və insanlığa belə bir tükənməz sevgi üçün öz xeyir əməllərinin xoş nəticələri ilə saysız-hesabsız səbəblər göstərməsidir.

Kimsəsiz bir uşağın üzündəki gülüş...

Övladının ağır xəstəlikdən qurtuluş xəbərini eşidən bir ananın, bir atanın sevinci...

Yeni dərs ilini abad, işıqlı məktəbdə, qəttəzə parta arxasında qarşılayan şagirdlərin köks dolusu fərəhi...

Müstəqil həyatın astanasında ona doğru uzanmış ana əlləri kimi hərarətli əllərdən yapışaraq xoş gələcəyə doğru addımlayan kimsəsiz bir yeniyetmənin ümidləri...

Hər gün günəşə doğru bir zərrə boy atıb torpağın köksündə möhtəşəm rəsm əsərinə çevrilən fidanların yaşıl yarpaqları...

Getdikcə abadlaşan, müasirləşən, dünyaya ün salan ölkə...

Bütün bunları görüb-duymaq hər dəfəsində həyata yenidən aşiq olmaqdan ötrü ən böyük səbəblər deyilmi?!

***

Mehriban xanımın rəsmi internet səhifəsinə baxıram. Bir çox şəkillərində o, valideyn himayəsindən məhrum olmuş uşaqların əhatəsindədir. Mehriban xanım o uşaqları ani bir nəvazişin ifadəsi kimi qucaqlamır, onları bir ANA kimi bağrına basır...

Onlara bir ananın əbədi sevgisini, şəfqətini ötürür...

Uşaqlar ona öz doğma anaları kimi sarılırlar...

O, bir ana təlaşı, bir həkim şəfqəti ilə kimsəsiz körpələrin peyvəndi qayğısına qalır, onların yüksək şəraitli yerdə yaşayıb təhsil almaları, yemək-içmək, geyim-kecim sarıdan heç bir korluq çəkməmələri üçün əlindən gələni əsirgəmir...

İnsan doğum gününü ona ən əziz insanların əhatəsində keçirmək istər. Mehriban xanım doğum günündə kimsəsiz körpələri başına toplayır, onlarla birgə gülür, onlarla birgə duyğulanır...

Bu şəkillərin hər biri danışan faktlardır, əslində...

Əlbəttə, dünyanın az-çox imkanlara malik heç bir ölkəsində dövlət valideyn himayəsindən məhrum uşaqları başlı-başına buraxmayıb. Bütün ölkələrdə dövlət qurumları, beynəlxalq təşkilatlar bu uşaqların sosial müdafiəsi üçün bacardığını etməyə çalışır. Onların böyüyüb boya-başa çatması, minimal yaşayış, təhsil və tərbiyə şərtləri ilə təmin olunması üçün imkan daxilində işlər görülür.

Azərbaycanınsa bu ölkələrdən fərqi odur ki, bizdə bu uşaqlar ana sevgisi ilə əhatə olunublar. Mehriban xanım Əliyevanın timsalında bu uşaqların hər birinin daim onları düşünən, qayğılarına qalan, bu körpələrin gələcək talelərinin işıqlı olmasından ötrü hər gün nələrsə etməyə çalışan qayğıkeş anaları var...

***

Müqəddəs günlərdə, niyyətlərimiz, dualarımız başa varanda qurban kəsib imkansızla-

ra paylamaq elimizin adətidir. Səbəbli, ya səbəbsiz, imkan olduqca kimsəsizlərin qarnını doyurmaq, sınıq könüllərini sevindirmək xalqımızın mənəvi dünyasında nəcib əməl kimi dəyərləndirilir. Elə düşünürük ki, bu addımımız Allaha xoş gedər. İnsan bununla mənəvi rahatlıq tapır. Adətən, belə məqamlarda bir çoxları öz qurbanlıq sovqatlarını kimsəsiz körpələrə aparmaq istəyir.

Hərdən dostlarla qurban kəsib uşaq evlərinə aparmağa biz də təşəbbüs göstəririk. Amma nə gizlədim, çox hallarda bizi yaxşı mənada məyus edirlər. Sovqatlarımızı heç yerdə götürmürlər ki, buna ehtiyacımız yoxdur, dövlətin himayəsindəyik. Mehriban xanım bu uşaq evinə xüsusi diqqət yetirir. Bunu bütün uşaq evlərində, kimsəsizlərin yaşadığı hər bir təlim-tərbiyə müəssisəsində eşidirik.

Deməli, Mehriban xanım Əliyevanın nəzər-diqqətindən kənarda qalan heç bir kimsəsiz körpə yoxdur. Onun Ana əlləri valideyn himayəsindən məhrum bütün körpələrin üstündədir...

Nə xoş ki, Mehriban xanımın bu xeyir əməllərini onun övladları da davam etdirirlər. Gördüyü bir çox nəcib işlərdə, həyata keçirdiyi xeyriyyə tədbirlərində qızları Leyla və Arzu da onunla birgədirlər. Onlar da hələ bu yaşdan öz işıqlı fəaliyyətləri ilə dünyamızı nurlandıran, həyata dəyər gətirən uca şəxsiyyətlərin yolunu seçiblər. Həyat Mehriban xanımın özü kimi, övladlarını da insanlığa kömək missiyası ilə şərəfləndirib. Onları seçilmişlər mərtəbəsinə ucaldıb.

Bir ana üçün etdiyi yaxşılıqların belə saleh övladlardan dəyərli mükafatı nə ola bilər ki?!

***

Yeniyetməliyimi xatırlayıram. Əyalətdə orta məktəbi başa vuran kimi kamal attestatını götürüb arzularının dalınca doğma paytaxta doğru qanadlanan bir çox həmyaşıdlarım kimi, özüm də 17 yaşdan həyatımı Bakı ilə bağlamışam. Burada təkbaşına yaşamışıq, işləmişik, min bir zəhmətə qatlaşıb, ali məktəb imtahanları kimi həyatın ağır imtahanlarından da çıxmağa çalışmışıq.

Xoş günlərimiz kimi, çətinliklərimiz də çox olub. Bəzən üzləşdiyimiz sınaqların vahiməsindən bir anlıq qorxub üşənmişik də. Amma həmişə əyalətdəki doğmalarımızın varlığından gələn hərarət canımızı isidib. Onlara güvənmişik. Ata-anamızdan güc almışıq. Düşünmüşük ki, paytaxtla bağlı hətta bütün ümidlərimizi itirdiyimiz məqamlarda da yenə üz tutmağa bir evimiz, sevgilərindən güc alıb əllərindən tutaraq özümüzü toparlaya biləcəyimiz ata-anamız var.

Uşaqlıq, yeniyetməlik 16-17 yaşla bitmir. Bu yaşdan sonra uşaqların müstəqil həyata atılmaları, xəyallarının dalınca uzun bir yola çıxmaları sadəcə görüntüdür. İnsanın bütün yaşlarda valideyn himayəsinə ehtiyacı var. Uşaqlıq insan öz valideynlərini itirəndə tamamlanır. Valideynlər nə qədər yaşayırsa, hələ körpəsən, onların dəstəyi, himayəsi, kömək əli yenə üzərindədir.

Kimsəsiz körpələrlə bağlı məsələ də böyüyüb boya-başa çatana qədər dövlətin onla-

rı himayəsinə götürməsi ilə tamamlanmır. Onların həddi-büluğa çatandan sonrakı həyatları da çox mühümdür. Müstəqil həyat bu yeniyetmələri necə qarşılayır, onlar həyatlarını necə qururlar, harada yaşayırlar, harada işləyib dolanışıqlarını necə çıxarırlar, ailə qurub ev-eşik, oğul-uşaq sahibi ola bilirlərmi?!

Bu suallar düşüncələrimdə həmişə boy göstərib. O uşaqların sonrakı taleyinə görə hər zaman narahat olmuşam. İstehsalatda çalışdığım zamanlarda hansısa bir gəncin kimsəsizliyini öyrənincə belələrinə dəstək olmağı, hətta başqalarına qarşı azacıq ədalətsizlik etsəm belə, onları digərlərindən bir qədər üstün tutmağı hər zaman özümə mənəvi borc sanmışam.

Düşünmüşəm ki, valideyn himayəsindən məhrum etməklə həyat onsuz da bu kimsəsiz gənclərə qarşı ən böyük ədalətsizliyini edib. Belə gənclərin müstəqil həyatda da hansı sınaqlarla qarşılaşdıqları bəlli deyil. Fürsət varkən, heç olmasa, rastlaşdıqlarıma bacardığım qədər dəstək olum.

Amma belə nə qədər kimsəsiz gəncin həyatını dəyişmək olar ki?!

Mehriban xanım Əliyeva nümunəsindən sonra isə indi belə gənclərlə bağlı çox rahatam. Hətta fikirləşirəm ki, bu gənclər öz gələcək həyatlarında atalı-analı həmyaşıdlarından da çox uğurlu olacaqlar. Çünki onların Mehriban xanım kimi anaları var. Onun ana sevgisi hər zaman bu gənclərlə birgədir. Bu sevgi bir ömür boyu onları müşayiət edir.

Mehriban xanım məktəbi başa vurandan sonra mənzillər inşa etdirir bu gənclərə, yeni müəssisələr açdırıb işə düzəlmələrinə kömək göstərir, ailə qurmalarına bir ana kimi mənəvi dəstək olur.

O, təkcə öz övladlarının anası deyil!

Mehriban xanım Əliyeva Azərbaycandakı bütün kimsəsiz körpələrin anasıdır!..

***

Dünyada, yaşadığımız cəmiyyətdə hər gün başqalarına nəsə bir kömək göstərən, təmənnasız xeyirxahlıq edən milyonlarla insan var. Əgər belə olmasaydı, Yer üzündə şər xeyirə qalib gələrdi, dünya qopardı.

Xeyirxahlıq miqyasından və kim tərəfindən edilməsindən asılı olmayaraq çox gözəldir. Ən kiçik xeyirxahlıq da cəmiyyət üçün böyük faydalar gətirir. Ən azı cəmiyyətin bir üzvü özü boyda bir xeyir işığı yandırır. Amma biz sıravi insanların gündəlik həyatlarında, adi məişət situasiyalarında başqalarına hansı yaxşılıqlar etdiklərini görə bilmirik. Ona görə ki, bu insanların ictimai fəaliyyəti, cəmiyyətin başqa üzvləri ilə sosial münasibətləri gözümüzün qabağında deyil.

Mehriban xanım Əliyeva isə sadəcə xeyirxahlıq etmir, şəxsiyyətinin miqyası ilə cəmiyyətimiz üçün yeni dəyərlər formalaşdırır, ictimai meyarlar yaradır. Xeyirxahlığı, mərhəməti, insanlara sevgini həyat normalarına çevirir. Çünki belə şəxsiyyətlər cəmiyyət üçün ictimai bələdçidirlər. İnsanlar onlardan öyrənir, görüb-götürür, nəyin doğru, nəyin yanlış olduğunu, hansı dəyərlərə tapınmağın düzgünlüyünü onların fəaliyyətindən əxz edir və məqam düşəndə bu şəxsiyyətlərin geyim, davranış, danışıq tər-

zləri kimi, əməllərini də təkrarlamağa çalışır.

Beləcə, yaxşılıqları, nəcib təşəbbüsləri daha çox adam paylaşmış olur, xeyirin çevrəsi böyüyür, şər onun qarşısında bir addım da geri çəkilir və bu minvalla dünyamız aydınlığa çıxır.

***

Mehriban xanım Əliyeva qayğıkeş, fədakar ana olduğu qədər, həm də xeyirli bir övladdır. Ölkəmizdəki uşaq evlərində yaşayan kimsəsiz körpələr kimi, qocalar evlərinin yaşlı sakinləri də onun himayəsindədir. Bu müəssisələrdə yaşayan vətəndaşlarımız da onun daimi qayğısı ilə əhatə olunublar.

Bu insanların bəlkə kimsəsiz körpələrdən çox diqqətə ehtiyacları var. Çünki körpələr üçün bütün həyat hələ qabaqdadır. Ümid və xəyallar onlara tükənməz güc verir. Qocalar evləri isə ümidlərin tükəndiyi yerdir. Bura, adətən, ömrünün əsas qismini başa vurmuş, üstəlik yaşın qürubuna doğru ya övladların nankorluğundanmı, ya hansısa başqa bir səbəbdənmi kimsəsiz qalmış ixtiyarlar yaşamağa gəlir.

İndi onların həyatdan, yaşadıqları cəmiyyətdən yeganə təmənnaları sevgidir, xoş bir diqqətdir, layiq olduqları hörməti onlara göstərməkdir.

Nə zamansa oxumuşdum ki, bəzən cəmiyyətdəki durumu yaşlı insanların gözlərindən oxumaq olar. Əgər yaşlı insanların gözlərindən rahatlıq, əminlik, qayğısızlıq oxunursa, deməli, o cəmiyyətdə hər şey yerli-yerindədir. Əgər o gözlərdə övladlara yük olmağın ürkəkliyi əks olunubsa, ixtiyar gözlər sabaha ümidsizliyin təlaşı ilə baxırsa, o cəmiyyətdə yerbəyer edilməli olan hələ çox şeylər var.

Azərbaycanda yaşlı sakinlərin sosial təminatı arzu etdiyimiz səviyyəyə doğru ilbəil yüksəlir. Ölkəmizin sosial-iqtisadi potensialı gücləndikcə bu istiqamətdə də hardan-hara gəldiyimizi illərin və ölkələrin müqayisəsində aydın şəkildə görə bilirik.

İndi yaşlı vətəndaşlar üçün yaradılmış sosial təminat onların bir çox ehtiyaclarının qarşılanmasına yetir. Dövlət yaşlıları övlad-uşaq yanında heç bir sıxıntı çəkməyə qoymur.

Qocalar üçün yaradılmış yaşayış müəssisələri də dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən irəli gələn belə faydalı sosial layihələrdəndir.

Və son illər Azərbaycanda bu sahə müasirləşdirilərək, həmin müəssisələrin sakinləri üçün rahat, hüzurlu bir məkana çevrilir.

Milli mentalitetimiz, müqəddəs inancımız ata-ananın üzünə ağ olan, ömrün sonlarında onları tərk edən övladların bu davranışlarına qarşıdır. Yaşlı insanlarımız bizim başımızın tacı, evimizin bərəkətidirlər. Ənənələrimizə görə, ata-ana övladların min bir əziyyətini çəkib onları boya-başa çatdırdığı kimi, yaşlananda da valideynlərinin qayğısını çəkmək övladların mənəvi borcudur. Şükür ki, dəyişən zaman, qlobal proseslərin mənfi təsirləri Azərbaycanda bu ənənəni zəiflədə bilmir. Yaşlılarımız yenə də ocağın qoruyucuları, evin ağsaqqalı, ağbirçəyi statusundadırlar.

Amma, necə deyərlər, bəzən beş barmağın beşi də bir olmur. Ömrün son illərində yalqızlığa məhkum olan yaşlılarımız dünən də vardı, bu gün də var, güman ki, sabah da

olacaq. Belə məqamlarda ən etibarlısı dövlətin hərtərəfli himayəsinə sığınmaq, həyatın son illərini nəsildaşlarla paylaşmaq, birgə maraqların, ortaq xatirələrin əhatəsində keçirmək üçün ən uyğun yer elə qocalar evləridir.

Yeri gəldiyindən bir məqamı da qeyd edim ki, cəmiyyətdə də bu cür müəssisələrə münasibətin dəyişməsinə ehtiyac var. Hər il müxtəlif əlamətdar günlərdə qocalar evlərində videoçəkilişlər edib, sentimental cümlələrlə televiziya efirindən onları cəmiyyətə atılmış, yazıq, zavallı obrazında təqdim etməkdən əl çəkməliyik artıq. Valideynlərinə asi çıxan övladlara hansısa ictimai qınaq olmalıdır, anlayıram. Amma bu, qocalar evlərinin sakinlərinin miskin obrazı hesabına edilməməlidir. Çünki bu insanlar miskin və atılmış deyillər, kim tərk etsə də, dövlət bu insanların əlini buraxmayıb, onları qanadları altına alıb, sosial qayğı ilə əhatə edib. Bizim missiyamız bu müəssisələrin sakinlərinin yaşayış şəraitini, güzəranını ictimai nəzarətdə saxlamaq, bu şəraitin daha da yaxşılaşmasına, ixtiyar insanların burada özlərini evlərindəkindən də rahat bir ortamda hiss etmələrinə çalışmaqdır.

Mehriban xanım Əliyevanın bu istiqamətdə həyata keçirdiyi layihələrin, onlara himayəçilik təşəbbüslərinin məramı da elə budur. O, qocalar evlərinin bütün sakinləri qarşısında bir övladın öz valideynləri qarşısındakı mənəvi borcunu şərəflə, üz ağlığı ilə yerinə yetirir.

Bu müəssisələrdə yaşayan bütün ixtiyarlar onu doğma övladları gözündə görürlər. Hər zaman yolunu gözləyirlər. Bilirlər ki, öz doğma övladları unutsalar da, Mehriban xanım onları heç zaman unutmayacaq. Onlara tez-tez baş çəkəcək və hər gəlişində də gözlədikləri ən böyük sovqatı, ən dəyərli hədiyyəni - övlad sevgisini pay gətirəcək.

***

Bir milyondan çox insan var ki, hamımızın qohumları, dostları arasında onlara rast gələ bilərik...

İnsan bircə manatını itirəndə bütün günü dilxor dolaşır, bu itkiyə rəvac vermiş diqqətsizliyini özünə bağışlaya bilmir.

Bu adamlarsa özlərinin də, onlardan əvvəlki əcdadlarının da bir ömür boyu qurub yaratdıqlarını cəmi bir neçə saatın içində itiriblər. Dünyanın ən böyük sərvətindən - doğma yurddan məhrum olublar...

Bir zamanlar cah-calallı imarətlərə, axar-baxarlı bağ-bağatlara sığmayan bu insanlar çadırlara, ən yaxşı halda isə bəzən səkkiz, on nəfərlik ailə ilə yataqxana küncündəki xəfəli, boğanaq, darısqal bir otağa sığınıblar. Məcburi köçkün taleyi ilə baş-başa min bir məhrumiyyətlər, sıxıntılar çəkiblər.

Dövlət son illər bu insanları sıxıntıdan qurtarır. Ölkənin müxtəlif yerlərində məcburi köçkünlər üçün şəhərciklər salınır, binalar tikilir. Yeni evlərlə təmin olunan bu insanların güzəranı düzəlir, işğal olunmuş yurd yerlərimizdə itirilən calal yenidən həyat və məişətlərinə qayıdır. İndi onların əksəriyyətinin heç bir sıxıntı çəkmədən qonaq qəbul etməyə, övladlarına toy büsatı qurub gəlin gətirməyə, qız köçürməyə layiqli mənzilləri

var.

Mehriban xanım Əliyeva da Azərbaycanın Birinci vitse-prezidenti kimi öz missiyasının icrasına məhz bu problemin həllinə yeni töhfələrlə başladı. Martın 9-da onun sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı geniş müşavirə keçirildi. Və bundan qısa müddət sonra Qaradağ rayonunda məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlini qoydu. Birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsinə dair tədbirlər planı bu gün Mehriban xanımın rəhbərliyi ilə uğurla yerinə yetirilməkdədir.

Bütün bu layihələr sosial əhəmiyyəti ilə yanaşı, eyni zamanda böyük mənəvi dəyərə malikdir. Bu o deməkdir ki, xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin irsi, qoyduğu ənənələr yaşayır, Azərbaycan insanının həyat və məişətinə möhtəşəm töhfələr verir.

Ölkəmizin mərkəzi şəhərlərindəki əksər yaşayış binaları ötən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdi. O illərdə ulu öndərin vətəndaşlara yaratdığı maddi imkanlar hesabına yosma kərpic daxmaları əvəz edən ikimərtəbəli daş evlərlə Azərbaycan kəndlərinin qiyafəsi dəyişmişdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış misilsiz sosial-iqtisadi nailiyyətlər dövründə həyata keçirilən tikinti-quruculuq tədbirləri ilə ölkəmiz az qala ev-ev, kənd-kənd, şəhər-şəhər yenidən qurulur, Azərbaycan dünyanın ən modern, gözəgəlimli məkanlarından biri kimi dünyanın diqqətini cəlb edir. Mehriban xanım da qaçqın və məcburi köçkünlərimiz üçün inşa etdirdiyi binalarla bu prosesə tarixi töhfələrini verir.

Bütün bunlarla bu şəxsiyyətlər Azərbaycanı bütün vətəndaşlar üçün gözəl, doğma, abad, işıqlı bir evə çevirirlər...

Onların nəcib əməlləri vətən evini abad edir...

Bu, Allahı sevən və Allahın sevdiyi insanların missiyasıdır...

***Hüseynbala Mirələmov,***
***millət vəkili***

# Azərbaycana fədakar xidmət məramı

## *Xaricdə yaşayan həmvətənlərimiz Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şərəfli missiyası ilə qürur duyurlar*

Azərbaycan dünya birliyinin fəal və qəbul edilən üzvü kimi beynəlxalq mövqelərini ildən-ilə gücləndirir. Rəsmi Bakının həyata keçirdiyi daxili və xarici siyasət dövlətin milli maraqlarını, qlobal miqyasda mövqelərini layiqincə təmin edir. Eyni zamanda, bu siyasət müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya verərək özünü uğurla doğruldur. Prezident İlham Əliyev Azərbaycanın inkişafına və təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib.

Prezident İlham Əliyevin düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Təbii ki, Azərbaycanın qazandığı uğurlar yaxın-uzaq bütün xarici ölkələrdən daha aydın görünür. Çünki bu gün planetin istənilən nöqtəsində Cənubi Qafqaz deyəndə ilk olaraq Azərbaycandan bəhs olunur. Bütün dünya birmənalı şəkildə bu bölgənin lideri kimi məhz Azərbaycanı qəbul edir. Bakının iştirakı olmadan Cənubi Qafqazda hər hansı qlobal iqtisadi layihənin həyata keçirilməsi mümkün deyil. Fəxarət hissi ilə qeyd etməliyəm ki, yaşadığım Avstarliya İttifaqında da Azərbaycana böyük ehtiramla yanaşırlar. Bu ölkənin bütün siyasi dairələrində Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti, dünya birliyinin nüfuzlu üzvü, beynəlxalq enerji məsələlərində söz sahibi kimi qəbul olunur. Bütün bunlar Avstraliyada yaşayan azərbaycanlıların qürur mənbəyidir.

Azərbaycanı dünyaya tanıdan ən mühüm amillərdən biri tarixi vətənimizin beynəlxalq tədbirlər məkanına çevrilməsidir. İndi Azərbaycan hər yerdə mühüm siyasi, iqtisadi, idman və digər səpkili beynəlxalq tədbirlərin əsas ünvanı kimi qəbul olunur. Yaxşı xatirimdədir, hələ 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi keçiriləndə təkcə Avropanın deyil, Avstraliyanın da diqqəti Azərbaycana yönəldi. O dövrdə Azərbaycan bu müsabiqəyə layiqli evsahibliyi etməklə dünyanın diqqətini özünə cəlb etdi. Çoxsaylı xalqların, müxtəlif mədəniyyətlərin bir araya gəldiyi bu musiqi yarışmasına Azərbaycanın yüksək səviyyədə evsahibliyi etməsi onun beynəlxalq imicinin daha da artmasına mühüm töhfə olmaqla bərabər, sivil dünyanın ayrılmaz hissəsi olan ölkəmizin mütərəqqi bəşəri dəyərlərə malik olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

## *Vətəndaşlıq örnəyi*

Azərbaycanın Avropanın ən populyar mahnı müsabiqəsində iştirakının təşəbbüskarı isə Birinci vitse-prezident, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva idi. Mahnı müsabiqəsinin hazırlıq işləri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi tərəfindən ən yüksək səviyyədə həyata keçirildi. Hər kəs Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevin həvalə etdiyi məsuliyyətli vəzifənin öhdəsindən necə layiqincə gəldiyini, Azərbaycanın beynəlxalq imicinin yüksəlməsi üçün əsl vətəndaşlıq missiyası həyata keçirdiyini gördü.

2015-ci ildə Azərbaycanın evsahibliyi ilə keçirilən I Avropa Oyunları uğurla başa çataraq öz möhtəşəmliyi ilə bütün dünyaya səs saldı. Əlbəttə, tarixdə ilk dəfə keçirilən bu idman tədbirinin ən yüksək səviyyədə baş tutacağı əvvəldən gözlənilən idi. Çünki Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan I Avropa Oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyevanın rəhbərlik etməsi ilk gündən Azərbaycanın I Avropa Oyunlarını ən yüksək səviyyədə təşkil edəcəyini təsdiq edirdi. Tək Avropanın deyil, bütün dünyanın yaxından izlədiyi bu oyunlar proqnozlaşdırıldığından da gözəl təşkil olunaraq Azərbaycana və xalqımıza başucalığı gətirdi.

Mehriban xanım Əliyeva həmin günlərdə çox gərgin işlədi. Və əlbəttə məhz xanım Mehriban Əliyevanın yanaşması, zövqü, tələbləri çərçivəsində qurulan işlər məhz bu şəkildə gözəl nəticə verə bilərdi. O, Azərbaycan qadınlarının öndə gedən nümayəndəsi, müasir Azərbaycan qadınının simvolu kimi bu işin də öhdəsindən şərəflə gəldi və hamımıza qürur yaşatdı. Prezident İlham Əliyevin Mehriban xanımın əməyini yüksək qiymətləndirməsi, "Heydər Əliyev" ordeni ilə təltif etməsi isə onun halal haqqı idi. Bu, Mehriban xanım Əliyevanın öz ləyaqətli işi, yüksək məsuliyyəti, prosesə Azərbaycan prizmasından yanaşması ilə əldə etdiyi uğura verilən qiymət idi. Bu, Mehriban xanım Əliyevanın həm şəxsi uğuru, həm də bütövlükdə Azərbaycan qadınlarının uğuru idi. Cənab Prezident Mehriban xanıma "Heydər Əliyev" ordenini təqdim edərkən belə bir ifadə işlətdi ki, Mehriban xanım bu yolda öz canını qoydu. Doğrudan da, belə oldu. Mehriban xanım əsl nümunə göstərdi. Tapşırılan işi layiqincə, yüksək səviyyədə, Prezidentin zövqünə, apardığı siyasətə uyğun yerinə yetirmək budur. O, bizə göstərdi ki, müasir Azərbaycan qadını necə olmalıdır. Deyərdim ki, bu, bütün ölkələrin birinci xanımlarına bir örnəkdir. Bu gün mən dünyada ikinci belə birinci xanım görmürəm.

Bu il Bakıda keçirilən növbəti beynəlxalq idman tədbiri - IV İslam Həmrəyliyi Oyunları Azərbaycanı növbəti dəfə dünyada layiqincə tanıtdı. Bu möhtəşəm uğur həm də Mehriban Əliyevanın qələbəsi idi. Çünki Mehriban Əliyevanın timsalında sübut olundu ki, iradə, qətiyyət olan yerdə hər şey mümkündür.

## *Azərbaycanın nüfuzunu artıran qlobal fəaliyyət*

Mehriban xanımın həyatda aldığı nüfuzlu mükafatlar çoxdur. Diqqəti çəkən odur ki, bu mükafatların əksəriyyəti xarici ölkələrdəndir. Bu da təsadüfi deyil. Çünki Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Azərbaycanla məhdudlaşmayaraq xarici ölkələri də əhatə edir. Bu mənada Mehriban Əliyevanın nüfuzlu xarici mükafatlara layiq görülməsinə tam mənəvi haqqı var. Bu layihələrdən biri Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistanın Müzəffərabad şəhərində qızlar məktəbinin inşasıdır. Məlum olduğu kimi, 2005-ci ildə Pakistanda baş vermiş dağıdıcı zəlzələ nəticəsində yetmiş min insan həyatını itirmiş, ölkənin infrastrukturuna ciddi ziyan dəymişdi. Azərbaycan hökuməti zəlzələnin ilk günündə ən zəruri ehtiyacları üçün Pakistana 1,5 milyon dollar həcmində pul yardımı etdi.

Əsas məramlarından biri xeyriyyəçilik olan Heydər Əliyev Fondu da bu nəcib missiyada yaxından iştirak etdi. Zəlzələnin dağıdıcı təsirinin qurbanlarının həm də uşaqlar olduğunu nəzərə alan fond Pakistan şagirdləri üçün müasir orta məktəb tikdirdi. Bizim üçün qürurvericidir ki, Pakistanın rəsmi dövlət orqanları tərəfindən bu məktəbə Mehriban Əliyevanın adı verilib. Mehriban Əliyevanın Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı - 2013" mükafatına, Pakistan İslam Respublikasının "Hilal-e Pakistan" ali ordeninə layiq görülməsi onun xidmətlərinin bu ölkədə yüksək qiymətləndirildiyini göstərir.

Heydər Əliyev Fondu tərəfindən Gürcüstan, Misir, Rumıniya, Rusiya və Niderlandda da bir sıra məktəblərin yenidən qurulması məhz Mehriban xanımın humanist təşəbbüsləridir.

Azərbaycana beynəlxalq səviyyədə nüfuz qazandıran məsələlərdən biri tolerantlıq və multikulturalizmdir. Bu siyasətə dəstək verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparıb. Fondun bu istiqamətdə xarici ölkələrdə həyata keçirdiyi layihələr həm böyük minnətdarlıqla, həm də beynəlxalq səviyyədə maraqla qarşılanır. Məsələn, Roma şəhərinin ətrafında yerləşən katakombalar xristian aləmi üçün ən mühüm abidələrdən hesab edilir. Heydər Əliyev Fondunun burada apardığı bərpa işləri isə Roma bədii irsinin ən gözəl nümunələri olan katakombaların əhəmiyyətini daha da artırıb. Bu layihənin icrası xristian aləminin müqəddəs abidələrinə müsəlman dünyasının töhfəsi kimi də qiymətləndirilir. Belə ki, müsəlman ölkəsində fəaliyyət göstərən Heydər Əliyev Fondunun xristian aləminin incəsənəti və mənəvi dəyərlərinə verdiyi bu töhfə Roma tarixində ilk hadisədir və bu da ölkəmizin dinlər və mədəniyyətlər arasında oynadığı tarixi roldan qaynaqlanır.

2009-cu ildə Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsinin bərpa edilməsi, 2011-2012-ci illərdə Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırması, Rusiyanın Həştərxan şəhərində Knyaz Vladimirin abidəsinin

ucaldılması Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən layihələr kimi Azərbaycana bütün dünyada başucalığı gətirib.

Heydər Əliyev Fondu tərəfindən xaricdə həyata keçirilən mədəniyyət layihələri Mehriban xanımın təşəbbüslərinin mədəni müxtəlifliyə və ümumbəşəri dəyərlərə, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun möhkəmləndirilməsinə böyük töhfələr verdiyini əyani şəkildə nümayiş etdirir. Bu sahədə görülən işlərdən Parisdə Versal Sarayının parkındakı abidələrin, Luvr Muzeyinin, İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının, Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini misal göstərmək olar.

Heydər Əliyev Fondunun dəstəyi ilə hər il təşkil edilən beynəlxalq musiqi yarışmaları nəinki Azərbaycanın, hətta dünyanın mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirilir. Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Beynəlxalq Aşıq Festivalı kimi irimiqyaslı tədbirlər ifaçılıq sənətinin inkişafına əlverişli şərait yaratmaqla bərabər, xalqlar arasında mədəni əlaqələrin genişlənməsinə də xidmət edir.

## *Xalqın ürəyindən xəbər verən siyasi qərar*

Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın siyasi-ictimai həyatında fəal rol oynamış, taleyüklü məsələlərinin həll edilməsinə sanballı töhfələr vermişlər. Çağdaş Azərbaycan qadını da təkcə ana deyil, o, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Bu gün xanım Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası bir daha aydın görünür. Azərbaycan ictimaiyyəti əmindir ki, fevral ayında Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizin Birinci vitse-prezidenti təyin olunan Mehriban Əliyeva tarixin, zamanın, dövlətimizin onun üzərinə qoyduğu bu məsul vəzifəni də çox böyük ləyaqətlə, mühüm nailiyyətlərlə həyata keçirəcək. Çünki insanlar ondan indiyədək təmsil olunduğu statuslarda yalnız belə fəaliyyət, xalqa, Vətənə layiqli xidmət məramı görüblər.

Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət hər addımda ulu öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir. Elə hər birimizin də qarşısında duran mühüm vəzifələrdən birincisi vətəndaşlıq mövqeyindən çıxış etmək, ölkənin daha da qüdrətlənməsi üçün çalışmaq və Prezident İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq və əlindən gələni əsirgəməmək hər bir azərbaycanlının müqəddəs borcudur. Bu baxımdan həyata keçirdiyi fəaliyyəti hər biri-

miz üçün nümunə olan Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunması bütün ictmaiyyət tərəfindən rəğbətlə qarşılandı. Xüsusilə qeyd etməliyəm ki, bu qərar Avstraliyada yaşayan azərbaycanlıları və Azərbaycanın dostlarını dərindən sevindirdi.

Birinci vitse-prezident vəzifəsində əvvəlcədən hamı ən layiqli namizəd kimi Mehriban xanım Əliyevanı görürdü. Ona görə Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bir siyasi qərar kimi tarixə düşdü.

Əminik ki, Mehriban xanım Əliyeva respublikamızın Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin silahdaşı kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edəcək, Azərbaycanın daha da çiçəklənməsinə öz töhfəsini verəcək. İndiyə qədər olduğu kimi, bundan sonra da Mehriban xanım Əliyeva özünün yeni, şərəfli və məsuliyyətli vəzifəsində növbəti uğurlara və nailiyyətlərə imza atacaq.

*Aydan Rzayeva,*
*Azərbaycanın Avstraliyada fəxri konsulu*

# Mehriban xanım Əliyeva fəaliyyəti ilə xalqımızın böyük inamını qazanmışdır

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dərin məzmunlu nitqlərində deyirdi ki, istənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Belə seçilmiş insanlar pak əməlləri ilə təkcə müasirlərinin deyil, həm də gələcək nəsillərin qarşısında cavabdehlik daşıdıqlarını dərk edir, zəmanənin problemlərinə əsl ziyalı yanğısı, yüksək vətəndaş təəssübkeşliyi ilə yanaşırlar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva fəaliyyəti ilə xalqımızın böyük inamını qazanmışdır. Azərbaycanın birinci xanımı çoxşaxəli layihələrində Heydər Əliyev ideallarını rəhbər tutmaqla yanaşı, həm də insanlığın və bəşəriyyətin nicatına xidmət edən nəcib missiyanı əzm və ləyaqətlə həyata keçirir. Bu məsuliyyətli missiya ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin böyük müvəffəqiyyətlə davam etdirdiyi strateji kursun reallaşdırılmasına, bu siyasətin hər bir vətəndaşın həyatında hiss olunmasına dəstək verməyə yönəlmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri həm də Azərbaycanın bəşəri miqyasda tanınmasına, ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına, həmçinin respublikamızın beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət edir. Azərbaycanın birinci xanımı ingilis dilində səlis nitq söyləməklə Avropa siyasi leksikonunda ölkə həqiqətlərini dünyaya çatdırır. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən çağırışların yer alması ölkənin birinci xanımının timsalında Azərbaycan qadını haqqında dolğun təsəvvür formalaşdırır. Qadınlarımıza xas nəcibliyi, zəngin daxili mədəniyyəti, ziyalılığı, humanizmi, kübarlığı təcəssüm etdirir. Xeyirxahlıq, mərhəmət və humanizm bəşər övladını daxilən saflaşdıran, başqalarının gözündə ucaldan ali dəyərlərdən sayılır. Bu dəyərlərə tapınan Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyeva son illərdəki əzmkar fəaliyyəti ilə məhz belə bir ucalığa yüksəlmiş, cəmiyyətdə böyük nüfuz, ən əsası isə insanların sonsuz məhəbbətini, etimadını qazanmışdır. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə ilk günlərdən həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genofondun qorunması, saf duyğuların ictimai şüurda möhkəmlənməsi olmuşdur.

Hələ 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə İSESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi də nəcib və humanist missiyaya beynəlxalq səviyyədə verilən ali qiymətdir. Azərbaycanın birinci xanımı son illərdə "Qızıl ürək" Beynəlxalq mükafatına, habelə Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına, "Əsrlə-

rin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, Fransanın "Şərəf legionu" ordeninə, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülmüşdür. 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalı ilə təltif olunan Mehriban xanım Əliyeva 2012-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adını almışdır. İNTERPOL-un 2011-ci ildə təsis etdiyi - "Daha təhlükəsiz dünyanın yaradılmasında xidmətə görə" yadigar medalının bütün dünyada ilk dəfə olaraq Mehriban xanım Əliyevaya təqdim olunması da onun gördüyü işlərə verilən diqqətin parlaq bir nümunəsi kimi böyük tarixi əhəmiyyətə malikdir. Azərbaycanın birinci xanımı Türkiyənin nüfuzlu "Ekovitrin" jurnalı tərəfindən keçirilmiş rəy sorğusunun nəticələrinə əsasən "İlin birinci xanımı" (First ledy) seçilmişdir. Dünyanın ən nüfuzlu ictimai təşkilatlarının, mədəniyyət qurumlarının Mehriban xanım Əliyevanın şəxsiyyətinə göstərdiyi bu yüksək etimad, ümumilikdə dünyanın onun timsalında Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, incəsənətimizə göstərdiyi diqqətin ifadəsidir. Bu seçimlər, eyni zamanda, birinci xanımın timsalında Azərbaycan qadınının öz fədakarlığını və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə daha bir əyani sübutdur. Heydər Əliyev Fondu öz prezidentinin rəhbərliyi altında Azərbaycanda mədəniyyət diplomatiyasını mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası, təkcə lokal çərçivədə deyil, qlobal miqyasda həyata keçirən ilk və ən böyük təşkilatdır.

Ölkə başçısı Prezident İlham Əliyev fondun fəaliyyətini yüksək qiymətləndirərək bu nüfuzlu qurumun Azərbaycan xalqını və dövlətini daim yeniləşməyə və müasirləşməyə səslədiyini xüsusi vurğulamışdır: "Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, ölkəmizin dünyaya olduğu kimi təqdim edilməsi - bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşübdür. Düşübdür deyəndə, fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görür...".

Heydər Əliyev Fondunun son illərdə Bakıda təşkil etdiyi beynəlxalq tədbirlərin əhəmiyyəti bu baxımdan xüsusi vurğulanmalıdır. UNESCO, İSESCO, UNİCEF, BMT və digər beynəlxalq qurumlarla birgə keçirilən tədbirlər Azərbaycanın qlobal sferada sülh, tərəqqi və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanındığını, nüfuzunun yüksəldiyini göstərir. Həmin tədbirlərdə dini-etnik ayrı-seçkiliyin, gender bərabərsizliyinin, savadsızlığın aradan qaldırılması məsələləri, habelə səhiyyə, elm, təhsil, mədəniyyət sahəsində mühüm problemlər ətraflı müzakirə olunur.

Mehriban xanım Əliyevanın milli mədəniyyətin dünya miqyasında təbliği və qorunması naminə həyata keçirdiyi nəcib missiya son illərlə məhdudlaşmır. Xatırlatmaq lazımdır ki, hələ 1995-ci ildə "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunu yaratmış Mehriban xanım Əliyeva hələ o dövrdən məhz bu missiyanı qarşıya qoymuş, yüksək təşəbbüskarlığı, fitri idarəçilik keyfiyyətləri ilə milli mədəniyyətin inkişafına layiqli töhfələrini vermişdir.

Heydər Əliyev Fondu ötən illərdə "Azərbaycan Mədəniyyətinin Dostları" Fondu ilə birgə xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi, intellektual irsin qorunması məq-

sədinə hesablanan müxtəlif layihələr həyata keçirmişdir. Fondun birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülmüşdür. Azərbaycan muğamının, aşıq musiqisinin, Novruz bayramının UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsərləri siyahısına daxil edilməsi məhz bu əzmkar fəaliyyətin nəticəsidir. Fondun milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması olmuşdur. 2009-cu ilin martında Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən Beynəlxalq Muğam Festivalı Azərbaycan mədəniyyətinin, musiqisinin dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalmışdır. Festivalda dünyanın 17 ölkəsindən çoxsaylı qonaqlar iştirak etmişdir.

Bakıda - Dənizkənarı bulvar ərazisində Beynəlxalq Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi fondun qlobal mədəniyyət layihələri sırasında mühüm yer tutur. Dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı bu mərkəzdə keçirilmişdir.

2011-ci ilin may ayında Azərbaycanın gənc ifaçılarının Almaniyada keçirilən "Eurovision-2011" musiqi yarışmasındakı parlaq qələbəsində fondun fəal dəstəyi, təşkilatçılıq səyləri mühüm rol oynamışdır.

Bir müddət əvvəl Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilən növbəti VI Qəbələ Beynəlxalq musiqi festivalının yaratdığı xoş təəssüratlar isə iştirakçıların və tamaşaçıların yaddaşından hələ də silinməyib.

Bir sözlə, bu gün Azərbaycanın sözü və musiqisi dünyanın ən nüfuzlu, mötəbər məkanlarında səslənir. Azərbaycan mədəniyyəti korifeylərinin yubileyləri beynəlxalq miqyasda, Parisdə, UNESCO-nun mənzil-qərargahında qeyd edilir. Dahi bəstəkar Ü.Hacıbəylinin, akademik Y.Məmmədəliyevin, dünya şöhrətli ifaçı M.Rostropoviçin və başqalarının xatirə və anım günlərinə həsr olunmuş tədbirlər beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılanır. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın daxil edilməsi, tarixi mədəniyyət abidələrinin bərpası və digər layihələr təqdirəlayiqdir.

Parisdə, Miluzda, Reymsdə Məhsəti Gəncəvinin, Nizami Gəncəvinin həyat və yaradıcılıqlarına həsr olunmuş sərgi və konsertlər, Ştutqartda "Azərbaycan gecəsi", BMT-nin mənzil-qərargahında, Parisdə, UNESCO-da "Azərbaycan-tolerantlıq məkanı" adlı fotosərgilər, "Qız Qalası" Beynəlxalq İncəsənət Festivalı, Kann, Miluz, Strasburq, Şabli, Bove, Van, La Roşel, Bordo, Evian və Leqldə "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" sərgi və konserti, Vatikanda "Azərbaycanın zəngin incilərinə tarixi baxış", Fransanın San-Trope şəhərində "Azərbaycanın mədəni zənginlikləri", Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri", Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə", "Mən Azərbaycanı sevirəm" rəsm, UNESCO-da Azərbaycan xalçalarına həsr olunmuş sərgilər, Venesiya Biennalesində Azərbaycan pavilyonu, Hamburqda və Kölndə "Azərbaycan gecəsi", Münhendə Azərbaycan mədəniyyəti gecəsi, Romada "Azərbaycan: mədəniyyət ruzigarı" adlı mərasim, İtaliyada Azərbaycan mədəniyyəti günlərinin başa çatması ilə bağlı tədbir,

Avropa Parlamentinin mənzil-qərargahında Azərbaycan mədəniyyəti günləri, Florensiyada Azərbaycan incəsənət ustalarının konserti, "San-Remo festivalının ulduzları Bakıda" konserti, Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Eurovision" Mahnı Müsabiqəsi, UNESCO-da "Azərbaycanın gənc istedadları" konsert proqramı, Beynəlxalq Aşıq Festivalı, Bakıda, Parisdə "YARAT!" Müasir İncəsənət Məkanının "Ev. Doğma ev" mövzusunda sərgiləri, Bakıda, Londonda, Parisdə, Berlində, Moskvada, Romada, Vyanada "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" sərgiləri və s. tədbirlər möhtəşəmliyi ilə seçilir.

Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin dünya miqyasında tanıdılması istiqamətindəki ardıcıl və sistemli fəaliyyəti də xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışır. Mehriban xanım Əliyeva Cenevrədə Dünya Səhiyyə Təşkilatının 60-cı sessiyasında demişdir: "Mən beynəlxalq ictimaiyyətin diqqətini bir daha ən böyük problemimizə cəlb etmək istəyirəm. Bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ərazimizin Ermənistan tərəfindən işğal edilməsinin bizim təhsilimiz, mədəniyyətimiz üçün çox ağrılı nəticələri olmuşdur. İşğal olunmuş ərazilərdə məktəblər, tarixi abidələr, muzeylər yerlə-yeksan edilmişdir. Etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır... Biz bu münaqişənin beynəlxalq hüquq əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllinə ümid edirik".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın ifşası baxımından fondun müxtəlif dillərdə nəşr etdirdiyi kitablar mühüm əhəmiyyətə malikdir. İngilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusunun hazırlanması, Azərbaycanın xaricdəki səfirlikləri, diaspor təşkilatları, habelə yerli qeyri-hökumət təşkilatları vasitəsilə yayılması bu istiqamətdə son dərəcə uğurlu layihələrdən biri olmuşdur. Bukletlər toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitablarından ibarətdir. Layihənin davamı olaraq Heydər Əliyev Fondu Xarici İşlər Nazirliyi ilə birgə "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində çapdan buraxmışdır. Kitaba işğal olunmuş Azərbaycan rayonlarının hər birində olan mədəni sərvətlərin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində, işğal altındakı torpaqlarda tarixi-mədəniyyət abidələrinin əvvəlki və hazırkı vəziyyətini əks etdirən videomateriallar əlavə edilmişdir.

Mehriban xanım Əliyevanın vətənpərvər fəaliyyəti nəticəsində bir-birinin ardınca Azərbaycanın inciləri dünya qeyri-maddi mədəni irs siyahısına salınır. Ölkəmizdə, hətta xarici ölkələrdə mədəni-dini abidələrin bərpasını da əsas fəaliyyət prioritetlərindən olmaqla 2009-cu ildə Fransanın Strasburq şəhərində Kafedral kilsəsinin bərpası ilə əlaqədar həyata keçirilmiş 1,5 milyon avroluq layihəni xüsusi qeyd etmək olar. Maliyyə yardımını Azər-

baycanın Avropa mədəni irsinə verdiyi töhfə kimi qiymətləndirən Strasburq şəhərinin meri R.Ris vurğulayıb ki, orta əsrlərin möhtəşəm abidəsi olan Kafedral kilsə Avropa mədəni irsinin bir parçasıdır: "Biz Heydər Əliyev Fondunun ayırdığı maliyyə yardımını gözəl jest kimi dəyərləndirir, XI əsrə aid qədim tarixi abidənin təmiri məqsədilə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndiririk".

Ümumiyyətlə, tolerantlıq nümunəsi sayılan Azərbaycan fondun xətti ilə Parisdə Versal Sarayının parkında abidələri bərpa edir, Pakistanda zəlzələdən zərər çəkən qızlar məktəbini yenidən inşa edir, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirir, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarca qlobal və mükəmməl layihəyə imza atır.

Parisdə Eyfel qülləsinin yaxınlığında, ən gözəl, möhtəşəm yerdə inşa edilmiş Azərbaycan Mədəniyyət Mərkəzi bu gün müxtəlif tədbirlər həyata keçirir. Yarım il - bahardan payıza qədər turizm mövsümünün ən qızğın çağında Luvrda müsəlman ölkələrinin incəsənəti nümayiş etdirildi. Fondun təşəbbüsü ilə təşkil olunan bu möhtəşəm sərgini milyonlarla avropalı seyr etdi. Bütün bunlar UNESCO və İSESCO-nun xoşməramlı səfiri, ən iri beynəlxalq təşkilatlarda haqlı olaraq yüksək nüfuz qazanmış Mehriban xanım Əliyevanın xidmətidir.

Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinə uğurla rəhbərlik etmiş Mehriban xanım Əliyeva bu möhtəşəm tədbirin də yüksək səviyyədə hazırlanmasını və başa çatdırılmasını təmin etmişdir. Yüksək komanda işinə, Vətən, torpaq, yurd sevgisinə görə Azərbaycanın birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın I Avropa Oyunlarından dərhal sonra - 2015-ci il iyunun 29-da ölkə başçısı tərəfindən "Heydər Əliyev ordeni" ilə təltif olunması da bu əzmkar fəaliyyətə verilən adekvat qiymət olmuşdur.

"Hər zaman öz fəaliyyətimdə çalışmışam ki, bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətdir" - deyən Mehriban xanım Əliyeva ulularımızdan bizə miras qalan ali mənəvi dəyərləri öz fəaliyyətində yaşatmaqla həyatını xalqına həsr edən nurlu insanlarımızın, ziyalılarımızın yolunu uğurla davam etdirir. Hazırda dünyanın əksər nüfuzlu mətbuat orqanlarında dərc olunan materiallar Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq aləmdə nə qədər diqqətlə izləndiyini və böyük rəğbətlə qarşılandığını göstərir. Azərbaycanın birinci xanımı bütün dəyərli vaxtını, enerjisini məhz insanların nicatına, rifahına, firavanlığına xidmət edən layihələrə yönəldir. Çünki insan amilinin yüksəlişinə hesablanmış bu layihələr ilk növbədə Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin təzahürüdür. Mehriban xanım Əliyeva millətin gələcəyinə hesablanmış bu xoşməramlı missiyanı uğurla davam etdirir, milli intibah prosesinə yeni və dəyərli töhfələrini verir.

***Kamal Heydərov,***
***ALTİŞ şirkətlər qrupunun rəhbəri***

# Nəcib və xeyirxah insan

Tarixdən yaxşı məlumdur ki, hər bir xalq özünün taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin zəngin ömür yolunu, mükəmməl dövlətçilik və siyasi irsini, təcrübəsini öyrənərək gələcək nəsillərə çatdırmaq istiqamətində ardıcıl addımlar atır. Sağlığında Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə həyata keçirdiyi möhtəşəm tədbirlərlə canlı əfsanəyə çevrilmiş ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması xüsusi aktuallıq kəsb edir. Azərbaycan xalqı taleyində misilsiz rol oynamış ulu öndərin xatirəsini daim əziz tutmuş, onun əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin əsasını qoyduğu strateji siyasi kursu son 14 ildə bütün sahələrdə inamla davam etdirməklə yanaşı, Heydər Əliyev ideyalarının cəmiyyətdə praktik surətdə gerçəkləşməsinə və möhkəmlənməsinə çalışmışdır. Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı ilə hələ 70-80-ci illərdə inşasına əzmlə nail olduğu bir sıra möhtəşəm tikililərə ulu öndərin adı verilmiş, habelə ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənmişdir.

Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan, 2004-cü il may ayının 10-da rəsmi açılışı olmuş Heydər Əliyev Fonduna Mehriban Əliyeva rəhbərlik edir.

2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq irimiqyaslı proqramları himayə etmək, xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi, humanist, insanpərvər dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq, Azərbaycanı dünyada tanıtmaq və ölkə həqiqətlərini təbliğ etmək kimi strateji vəzifələrdən ibarətdir.

Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın birinci xanımı informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir.

Hər bir xalqın gələcəyi sayılan gənclərin intellektual inkişafını təmin etmədən onların milli-mənəvi dəyərlərə bağlı şəxsiyyət kimi yetişməsinə nail olmaq qeyri-mümkündür. Bəşəriyyətin xilasına yönəlmiş ideallar məhz elm və təhsilin yüksək inkişaf etdiyi ölkələrdə özünə möhkəm dayaqlar tapa bilir. İqtisadi tərəqqi, demokratikləşmə və insan

hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış dövlətlərin bu nailiyyətləri məhz elmə, təhsilə yüksək diqqət və qayğı nəticəsində əldə edilməsi danılmaz gerçəklikdir. Mehriban xanımın rəhbərliyi altında təhsilin inkişafı, bu sahədə həllini gözləyən bir sıra problemlərin mərhələlərlə aradan qaldırılması istiqamətindəki fəaliyyəti Azərbaycanda maarifçiliyə ictimai təsisat səviyyəsində yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının da bu istiqamətdə səfərbər olunmasına yönəlmişdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi həm də bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Müasir tələblərə cavab verən yeni məktəblərin inşasına nail olmaq, təlim-tədris prosesinə lazımi şərait yaratmaq, dünya ölkələrinin mütərəqqi ənənələrini mənimsəmək təhsil sistemini müasirləşdirmək, bu sahədə uğurlu nəticələr əldə etmək deməkdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində təkcə 2005-ci ildə Azərbaycanın müxtəlif regionlarında 132 məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilmişdir. Keçmiş ittifaqın iqtisadi cəhətdən ən qüdrətli dövründə belə Azərbaycanda bir ildə bu qədər məktəb tikilməmişdir. Sovet dövrünün rekordu ildə 110 məktəb olmuş, bunların da əksəriyyəti şəhərlərdə tikilmişdir.

Xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsi də vacib və aktual problemlərdən biridir. Ötən 13 ildə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileyinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi Azərbaycanın birinci xanımının milli mədəniyyətin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin nəticəsidir. Bu sahəyə qayğını fəaliyyətində daim üstün istiqamətlərdən biri kimi nəzərdən keçirən Mehriban xanım xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə yüksək həssaslıqla yanaşır, onun dünya arenasında təbliğində fəal iştirak edir.

Tarixi mədəniyyət abidələrinin təmiri və bərpasına göstərdiyi kömək də Mehriban xanımın həyata keçirdiyi qlobal layihələr sırasındadır. Son illərdə Gəncə şəhərindəki Cavadxan türbəsi, habelə Comərd Qəssab məqbərəsi, Bakının Şüvəlan qəsəbəsindəki Pirhəsən ziyarətgahı, Abdulla Şaiqin ev-muzeyi əsaslı təmir edilmişdir. Məşhur messenat Hacı Zeynalabdin Tağıyevin Mərdəkandakı ev-muzeyinin müasir tələblər səviyyəsində təmir olunması da onun həyata keçirdiyi mütərəqqi layihələrdəndir.

Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində də böyük işlər görülmüşdür. Azərbaycan muğamının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması bilavasitə bu fəaliyyətin nəticəsidir. Bu sahədə həyata keçirdiyi ən uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması olmuşdur.

UNESCO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə bu torpağa məxsus nadir sənət nümunəsi olduğu nümayiş etdirilmişdir.

Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb.

Həyata keçirilən mədəniyyət layihələri həm də Azərbaycanın dünyada daha dolğun tanıdılmasına xidmət edir. 2011-ci ilin may ayında Azərbaycanın gənc ifaçılarının Almaniyada keçirilən "Eurovision-2011" musiqi yarışmasındakı parlaq qələbəsində də Mehriban xanımın müstəsna xidmətləri olmuşdur. "Eurovision-2012"-nin Bakıda keçirilməsi ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri təyin edilməsi də, bu mənada, təsadüfi deyildi. Azərbaycanın birinci xanımının rəhbərliyi altında musiqi festivalı yüksək səviyyədə keçirilmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlmişdir. Azərbaycan bir daha öz mədəniyyəti ilə sivil dəyərlərə yaxın olduğunu göstərmək imkanı qazanmışdır. "Eurovision-2012"-nin Azərbaycanda keçirilməsi milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlər müstəvisində özünəməxsus yer tutmasında mühüm hadisə olmuşdur.

Milli mədəniyyətin qorunması ilə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya miqyasında təbliği məqsədilə müxtəlif dillərdə nəşr etdirdiyi, beynəlxalq ictimaiyyətə ünvanlanan "Qarabağ həqiqətləri" toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarının əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. Bu topluların elektron variantları 2007-ci ildə - qanlı soyqırımının 15 illiyində Avropanın 15 dövlətində keçirilən soyqırımı qurbanlarının xatirəsini anma mərasimlərində xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə, tanınmış siyasi-ictimai xadimlərə paylanmışdır. Real faktlara, dəlil-sübutlu fotosənədlərə istinadla aparılan bu təbliğat kampaniyası on minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır.

Çoxşaxəli fəaliyyətinin mühüm istiqamətlərindən biri də ölkədə insan hüquq və azadlıqlarının qorunması prosesində yaxından iştirakıdır. Azərbaycanın birinci xanımının ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümləri münasibəti ilə amnistiya təşəbbüsü ilə çıxış etməsi də təmənnasızlığa və səmimiyyətə söykənən xeyirxahlığın təcəssümüdür. Yekdilliklə qəbul olunaraq ölkə rəhbəri tərəfindən imzalanan amnistiya aktları insanpərvərlik, humanizm və ədalət kimi ali dəyərlərə sadiqliyini, insan və vətəndaş hüquq və azadlıqlarına həssas münasibətini əks etdirmişdir.

Humanizmə və insanpərvərliyə əsaslanan fəaliyyəti səhiyyə sahəsində həyata keçirilən layihələrdə bir daha parlaq təcəssümünü tapır. Bu layihələr minlərlə insanı yenidən sağlam həyata qaytarmış, onlara həyat eşqi vermişdir. Bu baxımdan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətdə daha böyük

diqqət və rəğbətlə qarşılanmışdır. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın "Novo Nordisk" şirkəti ilə birgə əməkdaşlıq nəticəsində həyata keçirilmişdir.

2009-cu ildə Bakı şəhərində Psixonevroloji Uşaq Mərkəzinin inşası da təmin olunmuşdur.

"Tibb işçisi kimi gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı halqadır. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin eyni zamanda gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər", - deyə Mehriban xanım Əliyeva vurğulayır.

Hər bir millətin mənəvi-fiziki sağlamlığının və kamilliyinin təmin olunması eyni zamanda idmanın, bədən tərbiyəsinin dinamik inkişafından keçir. Mehriban xanım Əliyevanın Milli Gimnastika Federasiyasının prezidenti kimi bu yöndəki fəaliyyəti də gənc nəslin fiziki-mənəvi sağlamlığının təmin olunmasına xidmət edir. Qısa müddətdə Azərbaycanın həmin idman növünün inkişafı istiqamətində atdığı əhəmiyyətli addımlar, habelə Bakıda bədii gimnastika üzrə mötəbər çempionatların keçirilməsi onun bu sahədə də yaxşı təşkilatçı və qayğıkeş rəhbər olmasının əyani göstəricisidir.

2015-ci ilin iyun ayında Bakıda keçirilən I Avropa Oyunları zamanı xalqımız bu yüksək təşkilatçılığın bir daha əyani şahidi olmuşdur. Respublikamız bu mötəbər idman tədbirini sülh, sabitlik və yüksək bayram əhval-ruhiyyəsi şəraitində keçirməklə malik olduğu iqtisadi, siyasi, mədəni-intellektual potensialı bir daha bütün dünyaya nümayiş etdirmişdir. Beynəlxalq ictimaiyyət həmin günlərdə bir daha Azərbaycanın iqtisadi qüdrətinin, müasir şəhər infrastrukturunun, turizm imkanlarının, qlobal tədbirləri yüksək səviyyədə təşkil etmək əzminin, ən nəhayət, yüksək tolerantlığının və qonaqpərvərliyinin əyani şahidi olmuşdur. Bu qlobal idman tədbiri, ümumən, müasir Azərbaycanın dünyaya dolğun şəkildə təqdimatı, qazandığımız uğurların, habelə üzləşdiyimiz münaqişə ilə bağlı əsl gerçəkliklərin dünyaya çatdırılması baxımından unikal təbliğat platforması olmuşdur.

Ölkəmizin ilk Avropa Oyunlarına hazırlığı, xüsusən də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yüksək səviyyəli təşkilatçılığı müxtəlif səviyyələrdə təqdir olunmuş, alqışlanmışdır. Standartları olmayan mötəbər idman tədbirinə belə yüksək təşkilatçılıqla hazırlaşmaq, infrastrukturdan tutmuş texniki məsələlərə, viza rejiminə qədər bütün hazırlıqları yüksək səviyyədə həyata keçirmək təkcə layiqli təşkilatçılığın yox, həm də həqiqi vətənpərvərliyin, Azərbaycan sevgisinin təcəssümü idi. Bəli, möhtərəm Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva I Avropa Oyunlarına hazırlığı yüksək vətənpərvərliklə, xalqa və dövlətə sonsuz sevgi hissi ilə həyata keçirdilər. Qısa müddətdə "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) yaradıldı, genişmiqyaslı hazırlıq prosesinə təcrübəli yerli və əcnəbi mütəxəssislər cəlb olundular. 2 ildə Azərbaycanda yeni idman qurğuları inşa edildi, mövcud idman mərkəzləri əsaslı təmir edildi. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Vo-

terpol Arenası, Dağ Velosipedi Parkı, Bakı Atıcılıq Mərkəzi, Bakı Kristal Zalı, Heydər Əliyev adına İdman-Konsert Kompleksi və digər idman obyektləri mötəbər yarış üçün hazır vəziyyətə gətirildi.

Təşkilat Komitəsi Avropanın Roma, Paris, London, Berlin, Moskva və digər şəhərlərində, habelə Avropa Parlamentində ilk Avropa Oyunlarının təqdimatlarını keçirdi. Ötən müddətdə nümayəndə heyətlərinin, jurnalistlərin məskunlaşması üçün Bakıda Atletlər və Media Kəndinin yaradılması, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, viza rejiminin sadələşdirilməsi və digər tədbirlər görülən işlərin yalnız bir qismi idi.

Məlum qərar həm də Azərbaycanın dünyanın aparıcı idman ölkələrindən biri kimi tanınması ilə şərtlənirdi. Bu müsbət imicin əsasında Azərbaycanda gənclərin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunması, həmçinin gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi üçün atılan addımlar dayanırdı. İdmançılarımızın nailiyyətləri, dövlətin idmanın inkişafına ardıcıl dəstəyi, mövcud idman infrastrukturu da nəzərə alınaraq ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi qərara alındı. Təsadüfi deyildir ki, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Avropa Oyunlarının Bakıda keçirilməsini həm də ölkəmizin müasir idman infrastrukturuna malik olması ilə izah etmişdi. Azərbaycanın ümumi komanda hesabında ikinci yeri tutması onun idman ölkəsi olduğunu bir daha bütün dünyaya sübut etdi.

Azərbaycanın birinci xanımı, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ilk Avropa Oyunlarından dərhal sonra - 2015-ci il iyunun 29-da ölkə başçısı tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif olunması da bu əzmkar və vətənpərvər fəaliyyətə verilən layiqli qiymətdir.

2016-cı ildə Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden Mehriban Əliyevaya təqdim edilib.

2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Ümumilikdə, Mehriban xanım Əliyeva və rəhbərlik etdiyi Heydər Əliyev Fondu ulu öndərin ideyalarına tapınaraq Azərbaycanın dünyada tanıdılması istiqamətində fəal, ardıcıl, sistemli iş aparır. Fondun müxtəlif ölkələrdə filiallarının açılması isə bir tərəfdən təşkilatın qlobal miqyasda artan nüfuzunun ifadəsidirsə, digər tərəfdən Azərbaycanı daha yaxından təbliğ etmək, ölkə həqiqətlərini dünya arenasına çıxarmaq, habelə diaspor hərəkatının genişlənməsinə yardımçı olmaq niyyətinin təzahürüdür.

***Şaiq Mirzəyev,***
***"Azərşüşətara" MMC-nin***
***İdarə Heyətinin sədri,***
***hüquq elmləri üzrə fəlsəfə doktoru.***

## Mehriban xanım Əliyeva görkəmli siyasi xadimdir

Zamandan, məkandan və siyasi şəraitdən asılı olmayaraq, bütün dövrlərdə cəmiyyətin mütərəqqi ruhda inkişafı sağlam əqidəli, xalqa, dövlətə layiqli xidməti həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olmuşdur. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilmiş, üzərlərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirmiş, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanmışlar.

Bütün dövrlərin belə parlaq simaları üçün səciyyəvi olan ən mühüm kefiyyətlərdən biri də milli-mənəvi və bəşəri dəyərlərin inkişafına layiqli töhfələr verməklə yanaşı, qlobal miqyasda insanlığın nicatına xidmət edən mühüm ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. İndi böyük qürur duyğusu ilə deyə bilirik ki, narahat dünyamızda nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə çalışan, insan amilini daim uca tutan xoşməramlı insanlar sırasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir.

Azərbaycanın birinci xanımının indiyədək çoxşaxəli fəaliyyətinin nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədərdir: O, əzmkar fəaliyyəti ilə milli-mənəvi dəyərlərin, qeyri-maddi irsin dünya miqyasında təbliği ilə yanaşı, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılanmışdır. 2016-cı il sentyabrın 26-da ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə çoxşaxəli fəaliyyəti ilə milyonların sevgisini qazanmış layiqli bir şəxsiyyətin təyin olunması ölkənin müasir dövlət idarəetməsi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir.

Azərbaycanın birinci xanımının bu strateji posta ən layiqli namizəd olduğunu cəmiyyətdə mütləq çoxluq etiraf edir, dövlət başçısının təyinatını ölkənin hazırkı və gələcək inkişaf perspektivləri baxımından vacib sayır. İstər Heydər Əliyev Fondunun prezidenti, istərsə də Milli Məclisin deputatı olaraq Mehriban xanım Əliyeva ötən müddətdə insan amilini hər zaman uca tutmuş, cəmiyyətdə vətənpərvərlik, humanizm, xeyirxahlıq kimi dəyərlərin möhkəm əsaslarla intişar tapmasına çalışmışdır.

Mehriban xanım Əliyeva görkəmli siyasi xadimdir, yüksək təşkilatçı, bacarıqlı idarəçidir, ulu öndər Heydər Əliyevin dövlətçilik kursunun ən fəal təmsilçilərindəndir! Ən əsası isə böyük vətənpərvər və qadın hərəkatının lideridir!

Ölkənin birinci xanımı istər ictimai, istərsə də siyasi fəaliyyətində daim ulu öndərin amallarını yaşadır və təbliğ edir. Bu amallara tapınan UNESCO və ISESCO-nun xoşmə-

ramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva son illərdəki əzmkar fəaliyyəti ilə məhz belə bir ucalığa yüksəlmiş, cəmiyyətdə böyük nüfuz, ən əsası isə insanların sonsuz məhəbbətini, etimadını qazanmışdır.

Azərbaycanın birinci xanımının təşəbbüsü ilə ilk günlərdən həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genefondun qorunması, saf duyğuların ictimai şüurda möhkəmlənməsi olmuşdur.

2004-cü ildən Mehriban Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Yaradılarkən çoxlarının yalnız xeyriyyəçilik yönümündə fəaliyyət göstərəcəyini zənn etdiyi fond zaman baxımından qısa müddətdə reallaşdırdığı çoxşaxəli layihələrin miqyası ilə gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirmişdir. Mehriban xanım ümummilli liderin ideallarını yaşadaraq fəaliyyəti dövründə elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafına xidmət edən layihələrin reallaşdırılması, milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması - xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atmış, dərin ictimai rəğbət qazanmışdır.

Ulu öndərin adı ilə bağlı fondun cəmiyyətdə layiqli yer tutmasını, Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik fəlsəfəsini davam etdirməsini ən ali məqsədlərdən biri kimi müəyyənləşdirmiş ölkənin birinci xanımının mövqeyi bundan ibarətdir ki, hər bir insanı, hər bir təşkilatı təmtəraqlı sözlər, tərif və parlaq epitetlər yox, gördüyü işlər, əldə edilən nəticələr xarakterizə etməlidir. Hər bir insanın həyatda öz yaşam fəlsəfəsinin olduğunu deyən Mehriban Əliyevanın fikrincə, heç də vacib deyil ki, kimsə bu fəlsəfəni sözlərlə izah etsin. Bu həyat fəlsəfəsi istər-istəməz onun hərəkətlərində, əməllərində özünü büruzə verəcəkdir. Mehriban xanım hesab edir ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür!

Azərbaycanın birinci xanımının nəcibliyə, insanpərvərliyə və humanizmə əsaslanan zəngin fəaliyyəti ilk gündən ictimai həyatın bütün sahələrində milli-mənəvi və intellektual tərəqqini təmin etməyə yönəlmişdir. Onun rəhbərlik etdiyi qurumun uğurlarını təmin edən başlıca amillərdən biri də ictimai dəstəyə ehtiyac duyan sahələri dəqiqliklə müəyyənləşdirərək dövlət səviyyəsində gerçəkləşdirilən layihələrə əlavə təkan verməsi olmuşdur. Fond bu mənada, həm də cəmiyyətin ən müxtəlif təbəqələrini milli məqsəd və ideallar uğrunda səfərbər edən, ümumi səyləri bir nöqtədə birləşdirən əlahiddə statuslu mərkəzə çevrilmişdir.

Fondun prezidentinin hələ 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi nəcib, xeyirxah, humanist missiyaya beynəlxalq səviyyədə verilən ali qiymətdir. Azərbaycanın birinci xanımı 2007-ci ildə "Qızıl ürək" beynəlxalq mükafatına, habelə Dünya Səhiyyə Təşkilatının İnsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına, "Əsrlərin xeyriyyəçiləri"Beynəlxalq Fondunun Yaqut

Xaç ordeninə, 2010-cu ildə Fransanın Şərəf Legionu ordeninə və UNESCO-nun "Qızıl Mosart" medalına layiq görülmüşdür. 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalı ilə təltif olunan Mehriban xanım Əliyevaya 2012-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adı verilmişdir. Fondun prezidenti humanitar sahədəki fəaliyyətinə görə, "Birlik ulduzları" mükafatına təqdim olunmuşdur. Azərbaycanın birinci xanımının 2009-cu ildə dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamla "Heydər Əliyev mükafatı"na, 2015-ci ildə isə "Heydər Əliyev ordeni"nə layiq görülməsi onun çoxşaxəli fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

Mehriban xanım Əliyevanın ölkə hüdudlarını çoxdan adlamış fəaliyyəti bu gün həm də qlobal miqyasda savadsızlığın aradan qaldırılmasına, multikulturalizm ideyalarının təbliğinə, fərqli sivilizasiyaların dialoquna xidmət edir. Son illər Bakıda kimisə qlobal beynəlxalq tədbirlərin keçirilməsi xəbərləri ilə təəccübləndirmək olmur. Mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinin başlıca səbəbi respublikamızın dünya miqyasındakı nüfuzu, hörmətidir. Bunun nəticəsi olaraq respublikamızın son illərdə təşkilatçılıq etdiyi beynəlxalq tədbirlərin sırası ildən-ilə genişlənir: Beynəlxalq Humanitar Forum, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Münxen Konfransı, Ümumdünya Davos Forumu,

III Qlobal Bakı Forumu, BMT-nin Silizasiyalar Alyansının 7-ci Qlobal Forumu...

Bu və digər beynəlxalq tədbirlərin Bakıda keçirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin milli maraqlara əsaslanan xarici diplomatik fəaliyyəti ilə yanaşı, Mehriban Əliyevanın xidmətləri də müstəsnadır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın birinci xanımının "Bakı-2015" I Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki misilsiz rolu, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlər, habelə multikulturalizm ənənələrinin qorunub saxlanmasına verdiyi töhfə və davamlı xeyriyyəçilik fəaliyyəti dünya ictimaiyyəti tərəfindən daim izlənilir və rəğbətlə qarşılanır.

İlk Avropa Oyunlarının Təşkilat Komitəsinə uğurla rəhbərlik etmiş Heydər Əliyev Fondunun prezidenti bu möhtəşəm tədbirin yüksək səviyyədə hazırlanmasını və başa çatdırılmasını təmin etmişdir. Yüksək komanda işinə, Vətən, torpaq, yurd sevgisinə görə Azərbaycanın birinci xanımının I Avropa Oyunlarından sonra - 2015-ci il iyunun 29-da ölkə başçısı tərəfindən "Heydər Əliyev ordeni" ilə təltif olunması da bu əzmkar fəaliyyətə verilən adekvat qiymətdir.

Mehriban Əliyeva ölkənin nüfuzlu siyasi xadimidir, Cənubi Qafqazın ən güclü siyasi təşkilatı olan 700 min üzvə malik Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Həmçinin son üç çağırışda onun Milli Məclisin deputatı kimi uğurlu fəaliyyəti seçiciləri tərəfindən daim məmnunluqla qarşılanır. O, deputat kimi böyük işlər görür, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində ciddi addımlar atır. Seçicilərlə hər zaman təmasdadır. Əsas fəaliyyəti onların problemlərinin həlli ilə bağlıdır.

Mehriban Əliyevanın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığı bir da-

ha təsdiqini tapıb. Azərbaycanın parlamentarizm tarixində ilk dəfə olaraq məhz Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir. Mehriban xanımın təşəbbüsü əsasında gerçəkləşmiş amnistiya aktlarını cəmiyyət ürəkdən dəstəkləmiş və təqdir etmişdir.

Onun çoxşaxəli fəaliyyətində təhsil və məktəb, tərbiyə və şəfqət kimi əsas istiqamətlər mühüm yer tutur! Ona görə ki, ölkənin, insanların gələcəyi məktəb adlanan məbədgahda ərsəyə gəlir. Son 13 ildə Heydər Əliyev Fondunun xətti ilə bu sahədə gerçəkləşdirilən layihələr əslində, hərtərəfli perspektiv quruculuğun ön səngəridir. Birinci xanımın təşəbbüsü və dəstəyi ilə tikilən, yenidən qurulan təhsil ocaqlarının sayı yüzlərlədir.

Heydər Əliyev Fondunun və onun rəhbərinin indiyədək bütün fəaliyyətini ifadə etmək istəsək, bunu deməliyik: cəmiyyətə qayğı göstərmək və gələcəyimizi qurmaq! Xarici siyasət, mədəniyyət və idman sahəsindəki tədbirlər, səfərlər, səhiyyə, elm, təhsil və məktəb quruculuğu layihələri bu niyyətə yönəlib. Ölkəni sevirsənsə, onun gələcəyi naminə işlə, quruculuğa töhfə ver - Mehriban xanım kimi...

Birinci xanımın beynəlxalq fəaliyyətindəki daha xoş gələcək konsepsiyası yüksək dəyərləndirilməlidir! Azərbaycanın dünyaya açılması bir neçə mənada anlaşıla bilər: maarifçilik, dövləti tanıtmaq, iş adamlarını və investisiyaları cəlb etmək kimi və nəhayət, özümüzün dünyanı daha yaxşı mənimsəmək şansımız kimi. Mehriban xanım bu prosesləri tam müfəssəl görür, öyrənir, ən əsası isə düzgün yol müəyyənləşdirir.

Azərbaycanda xeyriyyə işinin tarixi qədimdir, insanlara yardım edən vəqflər ölkəmizdə qədimlərdən mövcud olub. Mehriban xanım bu tarixi ənənəyə, sözün həqiqi mənasında, yeni həyat verib! Bu çoxəsrlik məramı hazırda yüksək səviyyədə gerçəkləşdirir! Ahıllara, qocalara, kimsəsizlərə, əlillərə baş çəkmək özü misilsiz bir şəfqətdir. Bu gün xeyriyyəçiliyə gənclərimiz, cavan oğlan və qızlarımız can atırlar, uşaq evlərini himayəyə götürürlər... Bu kimi fəaliyyət məhz bir şərəfli nümunəyə əsaslanır: Mehriban xanımın təmənnasız, fədakar mərhəmətinə! Mehriban xanımın rəhbərliyi altında həyata keçirilən xeyriyyəçilik missiyası yalnız məmləkətimiz miqyasında ən mükəmməl örnək deyil. Bu həm də dünya miqyasında ən layiqli humanizm nümunələridir.

Azərbaycanın birinci xanımı ölkədə qadın hərəkatına inamla liderlik edir. Son illər Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü və təşkilatçılığı ilə Bakıda keçirilən yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılması kimi bəşəri ideyalar üstünlük təşkil etmişdir. Şərqin və Qərbin sülh və şəfqət elçisi olan Mehriban xanım Əliyeva sadəcə, fəaliyyətində nəyə isə sual qoymaqla kifayətlənmir: O, özünün artıq beynəlxalq miqyas almış geniş və çoxcəhətli işi ilə həm də bu suallara cavab verir, sivilizasiyalar arasında qarşılıqlı anlaşma yaradılması istiqamətində ciddi əməli addımlar atır. Mehriban xanım Əliyeva dünyanın 10-a yaxın ölkəsinin birinci xanımlarının və planetin 60-dan çox ölkəsindən gəlmiş lider qadınların iştirakı ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolu-

nun genişləndirilməsi" adlı beynəlxalq konfransın təşəbbüsçüsü və təşkilatçısı olmuşdur.

Əsl insan üçün ən dəyərli xəzinə çalışmaq və başqalarına yaxşılıq etmək bacarığıdır. İndiyədək Mehriban xanım Əliyeva bütün vaxtını, enerjisini insanların rifahına, ali bəşəri dəyərlərin təbliğinə sərf edib. Şübhəsiz, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsi Mehriban xanım Əliyevaya dövlət idarəçiliyində ölkənin hər bir vətəndaşına daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini lazımınca təmsil etmək imkanı verir. Bugünə qədər humanist və insanpərvər fəaliyyəti ilə cəmiyyətin ümid və pənah yerinə çevrilmiş Mehriban xanım Əliyeva yeni vəzifəsində də ölkə Prezidentinin və xalqın etimadını doğruldacaq. Azərbaycanın Birinci vitse-prezidentinin Təhlükəsizlik Şurasının son iclasında dediyi kimi: "Hörmətli cənab Prezident, hörmətli Təhlükəsizlik Şurasının üzvləri, sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

***Asəf Novruzov,***
***prezident təqaüdçüsü,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# Vətənə, dövlətə və xalqa layiqli xidmət missiyası

Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ali dəyərlərə söykənən, dövlətinin maraqlarını əks etdirən fəaliyyətindən bəhs edərkən, ilk növbədə, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizin inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxşaxəli fəaliyyətə diqqət yetirmək gərəkdir. Məlum olduğu kimi, 2004-cü il may ayının 10-da fəaliyyətə başlayan Heydər Əliyev Fondu yaradılarkən ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənməyi, təbliğ etməyi, onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməyi, həmçinin Azərbaycanın mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə köməklik göstərməyi qarşısına məqsəd qoyub. O, ulu öndərin adını daşıyan fondun yaradılmasından əvvəl də böyük milli təəssübkeşliklə fəaliyyət göstərirdi. Fondun yaradılmasından sonra isə Mehriban xanımın Azərbaycan naminə həyata keçirdiyi tədbirlərin kəmiyyəti və keyfiyyəti dəfələrlə, coğrafiyası isə on dəfələrlə böyüdü.

Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu ötən 13 il ərzində Azərbaycandan Avropaya, Asiyadan Afrikaya, Məkkədən Vatikana qədər böyük xeyriyyəçilik, humanist aksiyalar həyata keçirib. O, Azərbaycan mədəniyyətinin şəriksiz dostu, səhiyyəmizin yorulmaz dəstəkçisi, uşaq və gənclərimizin isə əvəzsiz himayədarı kimi həm ölkə miqyasında, həm də beynəlxalq aləmdə Azərbaycan xanımlığına xüsusi nüfuz qazandırdı. Onun çoxsahəli ictimai-siyasi fəaliyyətində UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti və başqa bu kimi məsuliyyətli və fəxr ediləsi missiyalar əsas yer tutur. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu regionda ən böyük ictimai təşkilata çevrilib.

Mehriban xanım Əliyevanın təəssübkeşliyi, Vətənə, xalqa bağlılığı, daim qurub-yaratmaq həvəsi ilə yaşadığı, gördüyü işdən mənəvi zövq aldığı rəhbərlik etdiyi Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrdə daha konkret şəkildə əks olunur. 2017-ci il fevralın 21-i xalqımız və dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edən, siyasi idarəçilik tariximizdə tamamilə yeni olan bir faktla yaddaşlara yazılacaq. Həmin gün biz dövlət müstəqilliyimizin bərpasından keçən 25 ildən də artıq müddətdə ölkəmizdə mövcud olmuş idarəetmə strukturunda qabaqcıl Avropa ölkələrinin təcrübəsinə əsaslanan bir yeniliyin reallaşdırılmasının şahidi olduq. Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. Bu Sərəncam çox əlamətdar və tarixi hadisədir, həm də bir çox cəhətdən əlamətdardır. Birinci vitse-prezident ölkənin ikinci şəxsi kimi yüksək təşkilatçılıq və idarəçilik keyfiyyətlərinə malik olmalıdır. Mehriban xanım indiyədək məsul olduğu bütün işlərdə peşəkarlıq, bacarıq nümayiş etdirib və onların hamısını uğurla yekunlaşdırıb. Əsas məqam odur ki, bu uğur-

lu nəticələri yalnız Azərbaycan ictimaiyyəti deyil, bütün dünya görüb.

Azərbaycanın Birinci vitse-prezidentinin təyin edilməsi dövlətçilik tariximizdə yenilikdir, bir ilkdir. Buna qədər ölkəmizdə faktiki olaraq belə bir idarəetmə institutu olmayıb. İkincisi, bununla Azərbaycanın idarəçilik sistemində tamamilə yeni bir mərhələnin əsası qoyuldu. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar kursu bununla yeni bir mərhələyə qədəm qoydu. Bu vəzifəyə məhz Mehriban xanım Əliyevanın təyin olunmasının özü isə ayrılıqda tarixi bir hadisədir.

Bu ali vəzifəyə layiq olduğunu və gələcəkdə də bu məsuliyyətli vəzifəni yüksək bacarıqla icra edə biləcəyini bu günə qədər gördüyü işlərlə sübuta yetirib. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev də tam haqlı olaraq Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edərkən Mehriban xanım Əliyevanı çox peşəkar, bilikli, təcrübəli, prinsipial və xeyirxah bir insan kimi xarakterizə etdi. Mehriban xanım Əliyeva həm ölkəmizin birinci xanımı, həm Heydər Əliyev Fondunun prezidenti və digər qurumların rəhbəri kimi uğurlu fəaliyyəti ilə xalqımızın böyük təqdirini və etimadını qazanıb. Mehriban xanım Əliyeva daim insanlarla ünsiyyətdə olub, onları düşündürən, narahat edən məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlərin görülməsi təşəbbüsü ilə çıxış edib. O, xalqımızın və dövlətimizin maraqlarının beynəlxalq miqyasda qorunması, mədəniyyətimizin, tarixi dəyərlərimizin təbliği istiqamətində mühüm işlər görüb. Həmçinin, onun rəhbərliyi ilə bir çox beynəlxalq tədbirlərin uğurla həyata keçirilməsi, "Eurovision" və İlk Avropa Oyunlarının paytaxtımızda ən yüksək standartlara uyğun baş tutması və Azərbaycanın dünyadakı nüfuzunun artmasına önəmli töhfələr verməsi bir daha Mehriban xanımın təşkilatçılıq bacarığının təsdiqi idi. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan Amnistiya aktları minlərlə insana, yüzlərlə ailəyə sevinc bəxş edib. O, ölkəmizdə səhiyyə, təhsil sahələrində mühüm layihələrin təşəbbüskarı kimi də uğurlu fəaliyyətini davam etdirib. Bütün bunlar isə bir daha Prezidentimiz İlham Əliyevin nə qədər düzgün bir qərar verdiyini sübuta yetirir. Prezident İlham Əliyev demişdir: "Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə Birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə

yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir."

Mehriban xanım Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm işlər görüb. Heydər Əliyev Fondunun prezidenti kimi ölkəmizi dünyada layiqincə təmsil edib. Heydər Əliyev Fondu tərəfindən ölkəmiz üçün böyük əhəmiyyət daşıyan "Xocalıya ədalət!" kampaniyası uzun müddətdir uğurla davam edir və qarşıya qoyulan məqsədə nail olur. Məhz bu kampaniyanın sayəsində dünya ictimaiyyəti Xocalı soyqırımı haqqında geniş məlumat əldə edib. Mehriban xanım UNESCO və İSESCO-nun xoşməramlı səfiri kimi də mühüm işlər görüb, elmin, mədəniyyətin, təhsilin inkişafına mühüm töhfələr verib, dinlərarası, mədəniyyətlərarası münasibətlərin qurulmasında, o cümlədən multikultural dəyərlərin inkişafında çox böyük səyi olub. Onun ictimai-siyasi və sosial-mədəni fəaliyyət dairəsi o qədər genişdir ki, bu barədə nə qədər danışsaq da bitməz. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Gimnastika Federasiyasının prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri kimi Mehriban xanım Əliyevanın fəaliyyəti dövlətçiliyimizin inkişafına, ulu öndər Heydər Əliyevin ideyalarının həyata keçməsinə xidmət edir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun uğurla reallaşmasına yaxından dəstək verir, milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi və Azərbaycan həqiqətlərini dünyada tanıdır. Azərbaycanın Birinci vitse-prezidenti kimi isə Mehriban xanım Əliyeva öz potensialını daha geniş şəkildə səfərbər edərək dövlətimizə xidmət etməyin yeni bir nümunəsini ortaya qoyacaq.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bir hissəsi də siyasətlə bağlıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini olan Mehriban Əliyeva həm də 2005-ci, 2010-cu və 2015-ci illərdə Milli Məclisin deputatı seçilib.

Heydər Əliyev Fondunun nəcibliyə, insanpərvərliyə və humanizmə əsaslanan çoxşaxəli fəaliyyəti ilk gündən ictimai həyatın bütün sahələrində milli-mənəvi və intellektual tərəqqini təmin etməyə yönəlmişdir. Qurumun uğurlarını təmin edən başlıca amillərdən biri də ictimai dəstəyə ehtiyac duyan sahələri dəqiqliklə müəyyənləşdirərək dövlət səviyyəsində gerçəkləşdirilən layihələrə əlavə təkan verməsi olmuşdur. Fond bu mənada, həm də cəmiyyətin ən müxtəlif təbəqələrini milli məqsəd və ideallar uğrunda səfərbər edən, ümumi səyləri bir nöqtədə birləşdirən əlahiddə statuslu mərkəzə çevrilmişdir.

Heydər Əliyev Fondunun bu və digər sahələrdəki fəaliyyəti son 13 ildə daim böyük marağa səbəb olmaqla layiqincə qiymətləndirilmişdir. Fondun prezidentinin hələ 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə İSESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi nəcib, xeyirxah, humanist missiyaya beynəlxalq səviyyədə verilən ali qiymətdir. Bundan başqa, Azərbaycanın birinci xanımı 2007-ci ildə "Qızıl ürək" beynəlxalq mükafatına, habelə Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeninə, 2010-cu ildə Fransanın "Şərəf Legionu" ordeninə və UNESCO-nun "Qızıl Mosart" me-

dalına layiq görülmüşdür. 2011-ci ildə Krans Montana Forumunun qızıl medalı ilə təltif olunan Mehriban xanım Əliyevaya 2012-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adı verilmişdir. Fondun prezidenti humanitar sahədəki fəaliyyətinə görə "Birlik ulduzları" mükafatına təqdim olunmuşdur. Azərbaycanın birinci xanımının 2009-cu ildə dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamla "Heydər Əliyev mükafatı"na, 2015-ci ildə isə "Heydər Əliyev" ordeninə layiq görülməsi onun çoxşaxəli fəaliyyətinə verilən yüksək qiymətinn ifadəsidir.

Mehriban xanım Əliyevanın şəxsi nümunəsi respublikamızda ölkənin inkişafı və müsbət imicinin artması naminə ictimai fəallığın yüksəlməsini stimullaşdırıb. Mehriban xanım Əliyevanın doğma Azərbaycana böyük məhəbbətdən qaynaqlanan fəaliyyəti bəhs olunan konkret sahələrin inkişafında müstəsna rol oynayır ki, bu da son nəticədə ölkənin uğurlarında öz əksini tapır. Ən əsası, onun fəaliyyəti Vətənə, xalqa, dövlətə, milli və bəşəri dəyərlərə böyük sədaqət nümunəsi kimi qəbul olunur.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu məktəblər, uşaq bağçaları, xəstəxanalar tikib, mədəniyyət abidələrini təmir etdirib: "Mehriban xanım Azərbaycan mədəniyyətinin, xüsusilə də milli musiqimiz olan muğamın inkişafı, yenidən dirçəlməsi istiqmətində mühüm işlər görüb. Bununla yanaşı Mehriban xanım ölkədə idmanın inkişafına da mühüm töhfələr verib. Məhz Mehriban xanımın sayəsində Azərbaycanda idmanın gimnastika növü xeyli inkişaf edib, ölkəmiz bu sahədə dünyada layiqincə təmsil edilir. Azərbaycan mötəbər beynəlxalq yarışlara ev sahibliyi edib və bundan sonra da edəcək. "Eurovision" adlı mahnı müsabiqəsi, Birinci Avropa Oyunları, IV İslam Həmrəylik Oyunları məhz Mehriban xanım Əliyevanın sayəsində yüksək səviyyədə təşkil olunub.

Bu gün xalqımız Mehriban xanım Əliyevanın fəaliyyətinə layiqli qiymət verərək onun bütün təşəbbüslərini dəstəkləyir və onun şəxsində Azərbaycan xanımına ən yüksək hörmət və ehtiramını ifadə edir. Xüsusilə Mehriban xanım Əliyevanın doğum günündə milyonlarla insanın ürəyində sevinc və minnətdarlıq hissi yaşanır. Bu ürəklərdə səslənən ən xoş arzular xalq üçün, Vətənimiz üçün yorulmadan, usanmadan çalışan fədakar insana - Mehriban xanım Əliyevaya ünvanlanır. Sonsuz xalq sevgisinə sahib olan Mehriban Əliyevaya milli maraqlarımızın müdafiəsinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə və xüsusən, Azərbaycan qadınının mənəvi yüksəlişinə xidmət edən yorulmaz fəaliyyətində davamlı uğurlar arzu edirik.

***Tahir Süleymanov,***
***Milli Məclisin üzvü***

# Xalq və dövlət naminə şərəfli missiya

## *Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyinatı ölkə vətəndaşlarının obyektiv sosial sifarişidir*

İstisnasız olaraq bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı məhz sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olmuşdur. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilmiş, üzərlərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirmiş, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanmışlar.

Bütün dövrlərin belə parlaq simaları üçün səciyyəvi keyfiyyətlərdən biri də onların qlobal miqyasda insanlığın nicatına xidmət edən ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. Bu baxımdan qürur hissi ilə deyə bilirik ki, narahat dünyamızda nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə əzmlə çalışan, insan amilini daim uca tutan sülh elçiləri sırasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir.

Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədər sadədir: O, əzmkar fəaliyyəti ilə təkcə milli-mənəvi dəyərlərin, mənəvi və qeyri-maddi irsin dünya miqyasında təbliğini deyil, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, multikulturalizmi, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Yaradılarkən çoxlarının yalnız xeyriyyəçilik yönümündə fəaliyyət göstərəcəyini zənn etdiyi Fond zaman baxımından qısa müddətdə reallaşdırdığı çoxşaxəli layihələrin miqyası ilə gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirmişdir. Ümummilli liderin ideallarını yaşadaraq, qısamüddətli fəaliyyəti dövründə elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafına xidmət edən layihələrin reallaşdırılması, milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması - xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atmış, dərin ictimai rəğbət qazanmışdır.

Çoxşaxəli vətənpərvər fəaliyyəti ilə xalqa və dövlətə böyük faydalar vermiş nəcib bir şəxsiyyətin bu günlərdə yüksək dövlət idarəçiliyinə təyinatı da ölkəmizin ən yeni tarixinə əlahiddə hadisələrdən biri kimi düşmüşdür. Dövlət başçısı cənab İlham Əliyevin 21 fevral 2016-cı il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması ölkənin modernləşməsi prosesinin key-

fiyyətcə yeni mərhələyə qədəm qoyduğunu əminliklə söyləməyə ciddi əsaslar verir. İctimai həyatın bütün sahələri üzrə mühüm yeniliklərə, qlobal böhranın tələblərindən irəli gələn səmərəli iqtisadi islahatlara müəlliflik edən müstəqil respublikamızın bundan sonrakı inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycanın birinci xanımının da müstəsna rolu və xidmətləri olacaqdır.

Azərbaycan gəncliyinin də inam və etimad ünvanına çevrilmiş Mehriban xanım Əliyevanın əlahiddə və yüksək məsuliyyət tələb edən dövlət vəzifəsinə təyinatı bir tərəfdən onun indiyə qədərki fəaliyyətinin yüksək dəyərləndirilməsidirsə, digər tərəfdən cəmiyyətin səmimi istək və gözləntilərinin nəzərə alınmasıdır. 26 sentyabr 2016-cı il tarixli ümumxalq referendumunun nəticəsi olaraq təsis edilmiş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə yüksək mənəvi dəyərlərə sadiqliyi, idarəçilik keyfiyyətləri ilə seçilən, ölkə daxilində və hüdudlarından kənarda böyük nüfuza malik olan bir şəxsin irəli çəkilməsi ümumən cəmiyyətin mənafeyinə xidmət edən obyektiv qərardır. Yalnız bu səbəbdən ki, Azərbaycanın birinci xanımı son 15 illik fəaliyyəti ilə ictimai həyatın bütün sahələri üzrə mövcud çatışmazlıqlara, problemlərə yaxından bələd olduğunu sübuta yetirmişdir. Ötən illərdə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YAP sədrinin müavini kimi yüksək vəzifələrdə uğurla reallaşdırdığı layihələri ilə cəmiyyətdə milyonlarla insanın rəğbətini qazanmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Mehriban xanım Əliyevanın idarəçilik keyfiyyətlərini yüksək dəyərləndirərək demişdir: "Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir".

Ümumilikdə, Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik fəlsəfəsinin davam etdirilməsini ali məqsədlərdən biri kimi müəyyənləşdirmiş Mehriban xanım Əliyevanın mövqeyi bundan ibarətdir ki, hər bir insanı, təşkilatı, təmtəraqlı sözlər, parlaq epitetlər yox, gördüyü işlər, əldə edilən nəticələr xarakterizə etməlidir. Hər bir insanın həyatda öz yaşam fəlsəfəsinin olduğunu deyən Mehriban xanım Əliyevanın fikrincə, heç də vacib deyil ki, şəxs bu fəlsəfəni sözlərlə izah etsin. Bu həyat fəlsəfəsi, istər-istəməz, onun hərəkətlərində, əməllərində özünü büruzə verəcəkdir. Azərbaycanın birinci xanımı hesab edir ki, xoş əməllərlə, mərhəmətli və humanist yanaşma ilə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

Bu da təsadüfi deyildir ki, Heydər Əliyev Fondunun nəcibliyə, insanpərvərliyə və humanizmə əsaslanan çoxşaxəli fəaliyyəti ilk gündən həyatın bütün sahələrində milli-mənəvi və intellektual tərəqqini təmin etməyə yönəlmişdir. Qurumun uğurlarını təmin edən başlıca amillərdən biri də ictimai dəstəyə ehtiyac duyan sahələri dəqiqliklə müəyyənləşdirərək dövlət səviyyəsində gerçəkləşdirilən layihələrə əlavə təkan verməsi olmuşdur. Fond, bu mənada, həm də cəmiyyətin müxtəlif təbəqələrini milli məqsəd və ideallar uğrunda səfərbər edən, ümumi səyləri bir nöqtədə birləşdirən əlahiddə statuslu mərkəzə çevrilmişdir.

Rusiyada təhsil alan azərbaycanlı kimi onun da şahidiyəm ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva beynəlxalq səviyyədə tanınan və hörmət bəslənilən xanım siyasətçidir. Heydər Əliyev Fondunun prezidenti ötən illərdəki fəal təşəbbüsləri həm də Azərbaycanın bəşəri miqyasda tanınmasına, ölkəmiz haqqında obyektiv rəyin formalaşmasına, həmçinin respublikamızın beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət etmişdir. Azərbaycanın birinci xanımı ingilis dilində səlis nitq söyləməklə, Avropanın siyasi leksikonunda ölkə həqiqətlərini dünyaya çatdırır. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən qlobal çağırışların yer alması ölkənin birinci xanımının timsalında Azərbaycan qadını haqqında dolğun təsəvvür formalaşdırır.

Yüksək vəzifə tutan hər bir dövlət məmurunun uğurlarını şərtləndirən vacib amillərdən biri də onun yüksək təşkilatçılıq qabiliyyətidir. Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə son illərdə Bakıda təşkil edilmiş beynəlxalq tədbirlərin miqyası və əhəmiyyəti bu baxımdan xüsusilə diqqətəlayiqdir. UNESCO, ISESCO, UNİSEF və digər beynəlxalq qurumlarla birgə keçirilən beynəlxalq tədbirlər Azərbaycanın qlobal sferada sülh, tərəqqi və iqtisadi əməkdaşlıq mərkəzi kimi tanındığını, nüfuzunun yüksəldiyini göstərir. Həmin tədbirlərdə dini-etnik ayrı-seçkiliyin, gender bərabərsizliyinin, savadsızlığın aradan qaldırılması məsələləri, habelə səhiyyə, elm, təhsil, mədəniyyət sahəsindəki qlobal problemlərin aradan qaldırılması yolları geniş müzakirə olunur.

2005-ci ildən indiyədək "UNESCO-Azərbaycan: Azərbaycanın təhsil problemləri və perspektivləri", "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması", UNESCO-nun "Dünyada savadlılığın dəstəklənməsi", "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları", "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" və digər mövzularda keçirilən konfransların əhəmiyyəti xüsusi qeyd olunmalıdır: Heydər Əliyev Fondunun prezidenti həmin tədbirlərin iştirakçılarında Azərbaycan haqqında obyektiv təsəvvür formalaşdıra bilmiş, onları ölkə həqiqətləri ilə yaxından tanış etmişdir.

Heydər Əliyev Fondunun prezidentinin milli mədəniyyətin dünya miqyasında təbliği və qorunması naminə həyata keçirdiyi nəcib missiya son illərlə məhdudlaşmır. Xatırlatmaq lazımdır ki, 1995-ci ildə "Azərbaycan Mədəniyyətinin Dostları" Fondunu yaratmış Mehriban xanım Əliyeva hələ o dövrdən məhz bu missiyanı qarşıya qoymuş, yüksək təşəbbüskarlığı, fitri idarəçilik keyfiyyətləri ilə milli mədəniyyətin inkişafına layiqli töh-

fələrini vermişdir.

Heydər Əliyev Fondu ötən 13 ildə "Azərbaycan Mədəniyyətinin Dostları" Fondu ilə birgə xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi, intellektual irsin qorunması məqsədinə hesablanan müxtəlif layihələr həyata keçirmişdir. Fondun birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülmüşdür. Azərbaycan muğamının, aşıq musiqisinin, Novruz bayramının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil edilməsi də məhz bu əzmkar fəaliyyətin nəticəsidir. Fondun milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması olmuşdur.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2005-ci ildən bəri keçirilən, Azərbaycan televiziyası ilə canlı yayımlanan muğam müsabiqələri də Azərbaycanın milli sərvəti olan muğamın təbliğinə layiqli töhfədir. Bakıda dənizkənarı bulvar ərazisində Beynəlxalq Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi də fondun qlobal mədəniyyət layihələri sırasında mühüm yer tutur. 2005-ci il aqvustun 24-də Azərbaycan Prezidenti İlham Əliyev və UNESCO-nun sabiq baş direktoru Koişirio Matsuuranın iştirakı ilə əsası qoyulan Beynəlxalq Muğam Mərkəzinin 2008-ci ilin dekabr ayında təntənəli açılış mərasimi olmuşdur.

2011-ci ilin may ayında Azərbaycanın gənc ifaçılarının Almaniyada keçirilən "Evrovision-2011" musiqi yarışmasındakı parlaq qələbəsində fondun fəal dəstəyi, təşkilatçılıq səyləri mühüm rol oynamışdır. Heydər Əliyev Fondunun prezidentinin "Eurovision-2012"nin, I Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı yaradılmış təşkilat komitələrinin sədri təyin edilməsi də təsadüfi deyildir. Onun yaxından iştirakı ilə reallaşan və reallaşacaq bu tədbirlər ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsini təmin edir.

Qloballaşan dünyada hər bir dövlətin öncüllüyü, milli inkişaf səviyyəsi və gələcək taleyi təhsilin mövcud durumu ilə şərtlənir. Bu baxımdan Azərbaycanda elm və təhsilin davamlı inkişaf konsepsiyasının uğurla gerçəkləşdirilməsində ictimai təsisat kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunun xidmətləri xüsusi vurğulanmalıdır. Fondun xeyriyyəçilik fəaliyyətinin prioritet istiqamətləri sırasında təhsilin mühüm yer tutması təsadüfi deyildir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu baxımdan cəmiyyətdə ciddi dəstəklə qarşılanmışdır. Ölkə başçısının da qeyd etdiyi kimi, layihənin icrasına başlanıldığı 2005-ci ildən bu günədək 3000-dək yeni məktəb əsaslı təmir və bərpa edilmiş, yeniləri tikilmişdir.

2005-ci ildən Mehriban xanım Əliyeva Milli Məclisin fəal deputatı kimi həm də öz seçiciləri qarşısında verdiyi hər bir vədi əməli işi ilə doğrultmuşdur. Azərbaycanın birinci xanımı qısa müddətdə deputatı olduğu Xəzər rayonunda böyük layihələrin həyata keçirilməsinə nail olmuşdur. Məhz onun təşəbbüsü və dəstəyi ilə yaradılan "Xəzər rayonunun İnkişaf Fondu" Ədliyyə Nazirliyində qeydiyyatdan keçərək əməli fəaliyyətə başlamışdır. Bundan əlavə, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Milli Məclis-

də 4 dəfə amnistiya haqqında qərar qəbul olunmuş, minlərlə ailəyə sevinc bəxş edilmişdir.

Ölkəyə rəhbərlik etdiyi son 10 ildə milli maraqlara söykənən fəal xarici siyasət yeridərək, "Biz müdafiədə deyil, hücumda olmalıyıq!" - deyən Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılmasını, işğalçının ən müxtəlif səviyyələrdə ifşasını, bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkilini vətəninə bağlı hər bir azərbaycanlının ümdə vəzifəsi sayır. Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin beynəlxalq miqyasda tanıdılması istiqamətindəki ardıcıl və sistemli fəaliyyəti bu baxımdan xüsusi vurğulanmalıdır.

Fondun prezidenti Mehriban xanım Əliyeva ötən illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə etmiş, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışmışdır. Fond Ermənistanın ölkəmizə qarşı təcavüzünün acı nəticələrinin dünya birliyinə çatdırılması üçün müxtəlif səviyyəli tədbirlər keçirmiş, Dağlıq Qarabağ münaqişəsində xalqımızın üzləşdiyi faciələri əyani şəkildə göstərən filmlərin, fotosənədlərin, kitabların, digər kütləvi nəşrlərin çapını və yayılmasını təmin etmişdir. İngilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusunun hazırlanması, Azərbaycanın xaricdəki səfirlikləri, diaspor təşkilatları, habelə yerli qeyri-hökumət təşkilatları vasitəsilə yayılması bu istiqamətdə son dərəcə uğurlu layihələrdən biri olmuşdur.

Heydər Əliyev Fondunun beynəlxalq əhəmiyyətli quruma çevrilməsi istiqamətində işlər son illər daha da genişlənmişdir. Rusiyada, Rumıniyada, Türkiyədə, Böyük Britaniyada, ABŞ-da filiallarını açan fond fəaliyyətini beynəlxalq müstəvidə genişləndirmək imkanı qazanmışdır. Rusiyada ali təhsil alan tələbə kimi deyə bilərəm ki, fondun Moskva filialının fəaliyyəti bu baxımdan daha qabarıq hiss olunur. Azərbaycanın müasir gəncliyinin ən layiqli, vətənpərvər təmsilçisi kimi bu missiyanı üzərinə götürmüş Leyla Əliyeva fondun Rusiya nümayəndəliyinə yüksək səviyyədə rəhbərlik edir. Bu da təsadüfi deyildir ki, Azərbaycan diasporunun formalaşmasındakı xidmətlərinə görə Leyla xanım Əliyeva Azərbaycan Prezidentinin 5 iyul 2011-cu il tarixli sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

İslam Konfransı Təşkilatının gənclər forumu ilə birgə "Xocalıya ədalət!" beynəlxalq kampaniyasına start verilməsi də fondun Rusiya nümayəndəliyinin fəaliyyəti ilə bağlıdır. Tunisdə İSESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır.

Fondun nümayəndəliyinin Rusiya ilə Azərbaycan arasında mədəni dialoqunun genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər də bu baxımdan təqdirəlayiqdir.

Fond bu cür məktəblərin açılmasını təşviq edir və onların tədris ədəbiyyatı, kompüterlərlə təchiz olunmasına kömək göstərir. Fond indiyə qədər İvanovo, Tula, Tver və Surqut şəhərlərindəki bazar günü məktəblərinə kömək edir.

Ümumiyyətlə, Azərbaycan cəmiyyətinin Birinci vitse-prezidentin təyinatı ilə bağlı nikbin ovqatı Mehriban xanım Əliyevanın dövlət idarəçiliyində xalqa və dövlətə daha çox xeyir vermək imkanlarının genişlənməsi ilə bağlıdır. Yeni vəzifəyə təyinatla bağlı ona ünvanlanan çoxsaylı təbriklərlə əlaqədar insanlara təşəkkürünü bildirən Mehriban xanım Əliyeva demişdir: "İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Amma yeni təyinat qarşıma artıq yeni hədəflər qoyur, yeni imkanlar açır. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır. Əziz dostlar, mən öz ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir. Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam".

Əsl insan üçün ən dəyərli xəzinə məhz çalışmaq və başqalarına yaxşılıq etmək bacarığıdır. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun prezidenti Mehriban xanım Əliyeva da dəyərli vaxtını, enerjisini məhz insanların nicatına, rifahına, firavanlığına xidmət edən layihələrə yönəldir. İnsan amilinin yüksəlişinə xidmət edən bu layihələr, ilk növbədə, Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin təzahürüdür.

***Şahsultan Həsənov,***
***Rusiya Federasiyasının Prezidenti yanında İdarəçilik və Dövlət Qulluğu Akademiyasının magistri***

# Xalqımın ləyaqətli təmsilçisi

*"Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".*

*Heydər Əliyev*

Azərbaycan xalqı min illər boyu bəşər sivilizasiyasına öz töhfələrini vermiş istedadlı, zəngin mənəviyyata malik oğul və qızlarını yetirmişdir. Hər gününü xalqının, dövlətinin çiçəklənməsinə, bəşəriyyətimizin tərəqqisinə və inkişafına sərf edən belə insanlardan xoşbəxt kim ola bilər? Bu xoşbəxtliyə malik olan bir tarixi şəxsiyyət xanım kimi, müasirimiz, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanı hesab edirəm. Təbii ki, Azərbaycanın Milli Dövlətçilik tarixində görkəmli qadınlarımız olmuşdur. Tomris, Burla xatun, Bərdə hökmdarı, Nüşabə, Xan qızı Natəvan, Sara xatun, Məhsədi Gəncəvi və s. Tarixi şəxsiyyət kimi hər kəs özünəməxsus xidmətləriylə tarixə imza atır. Müasirlərimiz, Azərbaycanın birinci xanımı, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanımın xidmətləri çoxşaxəli bir nümunədir, deyərdim. Bu yerdə ulu öndər Heydər Əliyevin bir müdrik kəlamını xatırlatmaq yerinə düşər: "Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".

Mehriban xanım ürəyi, qəlbi, bütün varlığı ilə Azərbaycana bağlı olan bir nümunəvi vətəndaş, əsl Azərbaycan xanımı, əsl Ana, sədaqətli həyat yoldaşı və fədakar Azərbaycan qadınıdır. Ölkə başçımız Prezident İlham Əliyevin təkcə ömür-gün yoldaşı yox, həm də onun cəsur silahdaşıdır. Bəli, haqlı olaraq deyərdim ki, Mehriban xanım gördüyü işlərlə millətini, xalqını sevən, Müstəqil Azərbaycanın bu günü, sabahı və gələcəyilə yaşayan hər kəs üçün nümunədir.

Ulu öndər Heydər Əliyev kimi böyük Türk dünyasının görkəmli oğlunun həyat və fəaliyyətini, onun böyük xidmətlərinin qorunub-saxlanması və olduğu kimi gələcək nəsillərə çatdırılması missiyasını öz üzərinə götürən Heydər Əliyev Fondunun yaradılması və ona rəhbərliyi öz zərif çiyinlərinə götürməsi böyük siyasi hadisə oldu. 10 may 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu yarandığı gündən onun köməyi ilə tikilən məktəblər, uşaq bağçaları, mədəniyyət ocaqları Azərbaycan mədəniyyətinin təbliği və milli irsimizin qorunması istiqamətində görülən möhtəşəm işlər, dünya mədəniyyətinə verdiyi töhfələr onu ictimai-siyasi xadim kimi gözlərimizdə daima ucaldır.

Mehriban Əliyeva öz zəngin biliyi, ağlı və düşüncəsi, intellektual səviyyəsi ilə bəşər sivilizasiyasına xidmət edən ziyalıdır.

Mehriban xanım unudulmaqda olan milli sərvətimiz muğamı tənəzzüldən xilas etdi və onu dünya arenasına çıxardı. Bu, əsl vətəndaşlıq və fədakarlıq nümunəsidir. Bu gün muğama olan münasibət və keçirilən "muğam müsabiqələri", gənc istedadların üzə çıxarılması, Azərbaycanın gələcəyinin milli sərvətidir. Bütün bu qayğı, gen yaddaşı, qan yaddaşı, bu böyük sevgi heç şübhəsiz ki, nəsildən, nəcabətdən irəli gələn bir varlıqdır. Babaları İmam Zeynal Abdinin nəslindən olan ustad yazıçımız Mir Cəlal, mətbuatımızın fəxri Nəsir İmanquliyev ocağının işığını, hərarətini gen yaddaşında, qan yaddaşında saxlayan Mehriban Əliyeva həyatının mənasını xalqına, millətinə, insanlığa xidmətdə görür. Özünün təbirincə desək; - Yaxşılıq etmək, insanların hər an köməyinə çatmaq, xeyriyyəçilik missiyasını həyata keçirmək, bəşəriyyətin nadir incilərini qoruyub gələcək nəsillərə çatdırmaq, insanlar arasında münasibətləri humanistləşdirmək, onları daha da həssas və diqqətli olmağa sövq etmək çox önəmli işdir. Axı çətin anlarda insanlara kömək olmaq insanın özünə də mənəvi zövq və rahatlıq bəxş edir. Belə olan halda insan yaxşılıqdan niyə kənarda qalmalıdır axı? Bir halda ki, xeyirxahlıq və dəstək olmaq qarşılıqlı xoş ovqat aşılayır!

Mehriban xanımın bu sözlərindəki həqiqət, xeyirxahlıq, nəciblik dünyanı gözəlləşdirir, insanları, ölkələri, sərhədləri yaxınlaşdırır və dünyanı dəyərli edir. Bəşəriyyəti böyük bəlalardan qoruyur. Bir anlığa düşünəndə ki, bu böyük fikirlərin müəllifi məhz mənim xalqımın övladı və xanımıdır, ürəyim dağa dönür və bir daha bizim xalqımızın böyük, humanist və bəşəri bir xalq olduğunu düşünür və fəxarət duyuram. Bu bizim xalqımıza başucalığı və şərəf gətirir. Bəlkə də özümdə olan hisslərin həyatda təsdiqini gördüyüm üçün, Mehriban xanımı doğma və özümə çox yaxın hesab edirəm. Bu da yəqin ki, daxilimdə olan vətənpərvərlikdən və təəssübkeşlikdən irəli gəlir. Mehriban xanımı doğma övldım qədər sevdiyimdəndir. Niyə də olmasın axı?

Bu gün Müstəqil Azərbaycanın qorunmasında, inkişaf etməsində, dünya ölkələri arasında öz layiqli yerini tutmasında ulu öndər Heydər Əliyevin layiqli davamçıları, möhtərəm prezidentimiz İlham Əliyevin və I vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir.

Dünya dövlət başçılarının son illərdə Azərbaycanda gedən böyük, sürətli dəyişikliklərdən, nəhəng quruculuq işlərindən heyrətlə söz açması və yüksək tribunalarda bunu etiraf etmələri bir daha onu sübut edir ki, Azərbaycan sürətlə inkişaf edir.

Təkcə ölkəmizdə deyil, eləcə də beynəlxalq aləmdə insan haqları, qadın hüquqlarının müdafiəsi ilə bağlı bütün məsələlərdə Mehriban xanımın səsi həmişə yüksək tribunalardan gəlir. Şərqlə Avropanın ən gözəl ənənələrini özündə cəmləşdirən Azərbaycan bütün dövrlərdə başqa ölkələrə nümunə olmuşdur. Qadınlara qarşı ayrı-seçkiliyin qarşısının alınması sayəsində Azərbaycanda qadınların təhsil almaq imkanlarının genişləndirilməsi sahəsində özünü daha qabarıq göstərmişdir. Şərq dünyasında qadınlar üçün ilk dünyəvi məktəb Azərbaycanda açılmışdır, - deyən Mehriban xanım Azər-

baycanın dünyəvi dəyərlərə malik olduğunu daima ön planda təqdim edir. UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım benəlxalq tribunalardan Şərqdə ilk demokratik parlament respublikasının da Azərbaycanda Avropa ölkələrindən də çox əvvəl qadınlarımızın seçib-seçilmək hüquqlarına malik olmasından və kişilərlə bərabər hüquqa malik olmasının təsdiqidir. Mehriban xanım ixtisasca həkimdir. Cəmiyyətin ən humanist təbəqəsi olan həkimlər, Allahın öz yaranmışlarına göstərmək istədiyi köməkliyi, məhz yalnız həkimlər haqqında hörmətli Mehriban xanımın çox yüksək dəyərə malik hikmətli kəlamları var. Mehriban xanım deyir ki, həkimlik - ruh və qəlb peşəsidir, bu dərdə şərik olmaq və şəfqət elmidir. Bu, insanların halına yanmaq, ehtiyacı olanlara əl uzatmaq peşəsidir. Mən Heydər Əliyev Fondunun prezidenti vəzifəsində məhz bu prinsiplərə, bu əsasa arxalanmağa çalışıram. Əlbəttə ki, bu çox məsuliyyətli yükdür.

Mehriban Əliyevanın humanist, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz, millətə layiqli xidmət məramı dayanır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə görə bir çox beynəlxalq təşkilatlar, dövlətlər tərəfindən yüksək mükafatlara layiq görülmüşdür. Bu mükafatlarla yanaşı, Mehriban xanım Azərbaycanda ən yüksək mükafatla - "Heydər Əliyev" ordeni ilə 2015-ci il iyunun 29-da təltif edilmişdir. Əlbəttə ki, bütün mükafatlara Mehriban xanım gördüyü dəyərli işlərin müqabilində layiq görülmüşdür. Və daha doğrusu, bu mükafatlar onun halal haqqıdır. Mehriban xanım təkbaşına gördüyü böyük, əzəmətli işlərlə sübut etdi ki, Azərbaycanımız üçün çox işlər görmək olar. Yetər ki, qanda qeyrət, ürəkdə təpər, cnda Azərbaycan sevgisi olsun!

Qədirbilən xalqımız Azərbaycan xalqı üçün Ulu öndər Heydər Əliyev irsinə ləyaqət və sədaqətlə xidmət edən Mehriban xanım Əliyeva haqqında sevindirici bir xəbəri onun 21 fevral 2017-ci il tarixdə ölkə prezidentinin I vitse-prezidenti vəzifəsinə təyin edilməsini böyük sevinclə qarşıladı. Və bu gün də biz Mehriban xanımla fəxr edirik. Mehriban xanım Əliyevaya Azərbaycan naminə daha böyük uğurlar diləyirik!

***Gülzar Namazova (Şəmkirli),***
***"Qoşa Ulduz" jurnalının baş redaktoru,***
***şairə-jurnalist***

# Şərəfli missiya

***Heydər Əliyev Fondu ulu öndərin zəngin dövlətçilik irsini layiqincə yaşadır***

Azərbaycan xalqı qədim dövrlərdən milli irs və düşüncə sistemi əsasında zəngin dövlətçilik ənənələri əxz etsə də, müəyyən obyektiv səbəblərdən ötən əsrin sonlarınadək istiqlal mücadiləsini möhkəm təməllər üzərində gerçəkləşdirə bilməmişdir. Xalqın milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş bu ənənələrin mükəmməl ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Bu mənada Heydər Əliyev irsi tam mahiyyətilə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi, elmi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Prezident İlham Əliyevin 2016-cı il 11 oktyabr tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" sərəncamında ulu öndərin bu sahədəki xidmətləri xüsusi vurğulanır: "1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhvolma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı".

Ümummilli lider şərəfli ömür yolu ilə xalqın çağdaş tarixinin fəxrlə anılan parlaq səhifələrini yazmışdır. XX əsr Azərbaycan tarixinin ən böyük şəxsiyyəti, ümummilli lider Heydər Əliyev xalqın qəlbində daim yaşayır və ehtiramla anılır. Bu nöqteyi-nəzərdən ulu öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi, ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması xüsusi aktuallıq kəsb edir.

2004-cü ildən fəaliyyətdə olan Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır. Belə bir fondun yaradılması ideyası rəsmi səviyyədə ilk dəfə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanında təsbit edilmiş, bununla qarşıya qoyulan məqsədlər

kifayət qədər aydın və konkret şəkildə göstərilmişdir. Fond ilk növbədə ümummilli liderin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyəti ilə yaradılmışdır. Fond ilk gündən elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini də qarşıya qoymuşdur.

Fond fəaliyyətində Heydər Əliyev irsinə əsaslanaraq ulu öndərin mütərəqqi ideyalarının yaşadılması və gerçəkləşdirilməsi istiqamətində fəal iş aparır. Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi tədqiqatların aparılmasına kömək edilməsi, ölkənin yaradıcı və elmi potensialının artırılması kimi məsələlər də fondun 12 illik fəaliyyətində prioritet istiqamətlər olmuşdur. Bundan əlavə, uşaq müəssisələrinin infrastrukturlarının, tibbi təsisatların inkişaf etdirilməsi, ekologiya sahəsində mühüm tədqiqatların dəstəklənməsi, sağlam həyat tərzinin təbliği, Azərbaycanda və xaricdə aktual mövzulara dair konfrans və seminarların keçirilməsi, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərinin təşkili sahəsində uğurlu nəticələr əldə etmişdir. Dini tolerantlığın inkişafı, insan hüquq və azadlıqlarının qorunması kimi məsələlər də bu sıraya əlavə oluna bilər. Bütün bunlar həm də onu göstərir ki, fond ulu öndərin zəngin siyasi irsini yaşatmaqla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin respublikanın yüksəliş və tərəqqisi naminə həyata keçirdiyi siyasətə sanballı töhfələr verir.

Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva əzmkar fəaliyyəti ilə həm də Heydər Əliyev irsinin təbliğinə və gələcək nəsillərə çatdırılmasına, ümummilli liderin sağlığında həyata keçməyən böyük arzularının, ideallarının gerçəkləşməsinə çalışır. Ulu öndərin parlaq şəxsiyyətinə, xarakter cizgilərinə, ideallarına yaxından bələd olması fondun prezidentinə bu çətin missiyanın öhdəsindən layiqincə gəlməyə imkan verir. Əsl ziyalı yanğısı və təəssübkeşliyi ilə mədəniyyət diplomatiyasının fəal təşəbbüskarı kimi çıxış edən fondun rəhbərliyi Azərbaycanın mədəni irsinin qorunmasına sanballı töhfələr verir. Fond xalqın mədəni və mənəvi dəyərlərini özündə təcəssüm etdirən dahi insan Heydər Əliyev şəxsiyyətini, onun ideyalarını təbliğ etməklə əslində Azərbaycan xalqının dəyərlərini təbliğ edir, ümummilli liderin zəngin siyasi irsini bütün dünyada tanıdır.

Fondun 12 illik fəaliyyətinin diqqətçəkən uğuru ondadır ki, təşkilat ictimai fəaliyyət müstəvisinə irəli sürdüyü ideyaların real icra mexanizmləri ilə birgə qədəm qoymuşdur. Özünü Azərbaycan cəmiyyətinə müəyyən etdiyi tədbirlərin real nəticələri ilə təqdim edə bilmişdir. Bu tədbirlər mahiyyətcə ümummilli liderin sağlığında irəli sürdüyü ideyaların reallaşdırılmasına - cəmiyyətin təhsil, səhiyyə, mədəniyyət kimi həssas sahələri üzrə hazırlanan layihələrin reallaşdırılmasına xidmət etmişdir. Ölkə vətəndaşları fondun

məqsədi, məramı barədə hər hansı yazılı proqramlardan, mətbu materiallardan deyil, onun real fəaliyyət istiqamətlərindən, gördüyü işlərin mahiyyətindən öyrənmişdir. Bütün bunlar isə, bir qədər geniş çevrədə götürsək, Azərbaycana bağlı hər kəsin Heydər Əliyev Fonduna, onun rəhbəri Mehriban xanım Əliyevaya dərin rəğbətini, dəstəyini qazandırmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondunun nəcibliyə, insanpərvərliyə və humanizmə əsaslanan çoxşaxəli fəaliyyəti ilk gündən ictimai həyatın bütün sahələrində milli-mənəvi və intellektual tərəqqini təmin etməyə yönəlmişdir. Qurumun uğurlarını təmin edən başlıca amillərdən biri də ictimai dəstəyə ehtiyac duyan sahələri dəqiqliklə müəyyənləşdirərək dövlət səviyyəsində gerçəkləşdirilən layihələrə əlavə təkan verməsidir. Başqa sözlə, fondun mədəniyyət, təhsil, səhiyyə, idman və digər sahələrdəki əzmkar fəaliyyəti həm də dövlətin bu sahələrin inkişafı naminə həyata keçirdiyi uğurlu layihələrə ictimai birliklərin, qeyri-dövlət təsisatlarının, biznes strukturlarının, ayrılıqda hər bir fərdin əməli dəstəyini təmin etməkdir. Fond bu mənada həm də cəmiyyətin ən müxtəlif təbəqələrini milli məqsəd və ideallar uğrunda səfərbər edən, ümumi səyləri bir nöqtədə birləşdirən əlahiddə statuslu mərkəzə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev vaxtilə cəmiyyətdə mənəvi dəyərləri ali dəyər kimi önə çəkərək demişdir: "İnsan cəmiyyəti belədir ki, mənəviyyatlı ilə mənəviyyatsız arasında daim mübarizə gedir. Çünki mənəviyyatsızlıq cəmiyyətə zərbələr vurur, insanları pozur. Amma mənəviyyat insanları yüksəldir. Mənəviyyatlı çalışır ki, mənəviyyatsızlıq olmasın. Ancaq bu, çətindir, ağırdır. Eyni zamanda hər bir şəxs düşünməli, dərk etməlidir ki, onun üçün bu dünya daimi deyil. Bu dünya heç kim üçün daimi deyildir. Hamı bu dünyaya gəlir, hamı bu dünyadan gedir. Biri çox yeyir, biri az yeyir. Birinin var-dövləti çox olur, obirininki az olur. Amma hamının yeri oradadır və orada da hamı bərabərdir. O dünyada hamı bərabərdir".

Ulu öndərin zəngin dövlətçilik irsini yaşadan Heydər Əliyev Fondunun ilk gündən cəmiyyətə təlqin etdiyi dəyərlər sırasında mənəviyyat, mərhəmət və humanizm prinsipləri daim öndə dayanır. Onun fəaliyyətində ümummilli liderin humanist ideyalarını rəhbər tutaraq hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşması isə ölkədə olan digər qeyri-hökumət təşkilatları, o cümlədən hakimiyyət orqanları üçün nümunə sayıla bilər. Dərdinə əlac tapmayan köməksiz insanlar sonuncu "ümid qapısı" kimi məhz bu ünvana pənah gətirirlər. Azərbaycanın birinci xanımının özünün də bəyan etdiyi kimi, fondda hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşılır, mümkün qədər vətəndaşların problemlərinin həllinə qayğı göstərilir. Bu mənada qurum həm də insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı hamisi, müdafiəçisi statusunda çıxış edən ictimai təşkilatdır.

Ulu öndər Heyər Əliyevin sosial siyasət konsepsiyası insan amilini daim uca tutur, onun maddi-mənəvi ehtiyaclarının təmin olunmasını dövlətin ali vəzifəsi kimi önə çəkir. Bu da təsadüfi deyildir - bazar iqtisadiyyatının öz tələbləri, öz qanunları var. Başqa sözlə, müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təbəqə olur. Bazar iqtisa-

diyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən, əksər dövlətlər bu həssas sosial təbəqənin ehtiyaclarına, problemlərinə biganə yanaşmır, onları imkan daxilində öz himayəsinə götürür.

Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti xüsusilə diqqəti çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan amilinə xidmət edən, iqtisadi səmərə məqsədi güdməyən investisiyalar xüsusi çəkiyə malikdir. Dövlət başçısı İlham Əliyev insanları qayğılandıran bütün sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bununla belə, mövcud problemlərin həllini bilavasitə hökumətin üzərinə qoymaq, orta təbəqəni, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma olmayıb, sovet dövrünün qeyri-adekvat, yanlış düşüncə tərzindən irəli gəlir. Bu mənada Heydər Əliyev Fondunun dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün də nümunə, örnək sayıla bilər. Fondun fəaliyyəti Azərbaycan üçün müəyyən mənada yeni olan xeyriyyəçilik institutunun inkişafına xidmət edir. Bu isə ulu öndərin xüsusi həssaslıqla, eyni zamanda rəğbətlə qarşıladığı ciddi məsələlərdən idi.

2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edən fondun prezidenti Mehriban xanım Əliyevanın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığı bir daha təsdiqini tapmışdır. Milli parlamentarizm tarixində ilk dəfə olaraq məhz Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir. Fondun prezidentinin təşəbbüsü əsasında gerçəkləşmiş amnistiya aktlarını cəmiyyət ürəkdən dəstəkləmiş, təqdir etmişdir.

Heydər Əliyev Fondunun ölkə hüdudlarını çoxdan aşmış fəaliyyəti bu gün həm də qlobal miqyasda savadsızlığın aradan qaldırılmasına, multikulturalizm ideyalarının təbliğinə, fərqli sivilizasiyaların dialoquna xidmət edir. Son illər Bakıda kimisə qlobal beynəlxalq tədbirlərin keçirilməsi xəbərləri ilə təəccübləndirmək olmur. Şübhəsiz, bu və digər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinin başlıca səbəbi respublikamızın dünya miqyasındakı nüfuzu, hörməti ilə bağlıdır. Bunun nəticəsi olaraq respublikamızın son illər təşkilatçılıq etdiyi beynəlxalq tədbirlərin sırası ildən-ilə genişlənir: beynəlxalq humanitar forumlar, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Münxen Konfransı, Ümumdünya Davos Forumu, III Qlobal Bakı Forumu... 2016-cı ilin aprelində respublikamızda 3 minədək qonağın iştirakı ilə daha bir nüfuzlu tədbir - BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir.

Şübhəsiz, bu və digər beynəlxalq tədbirlərin Bakıda keçirilməsində Prezident İlham Əliyevin milli maraqlara əsaslanan xarici diplomatik fəaliyyəti ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də müstəsnadır. Fondun prezidentinin ISESCO-nun və UNESCO-nun xoşməramlı səfiri kimi həyata keçirdiyi

mədəni tədbirlər sivilizasiyaların dialoquna, insanlar arasında sülh və barışa, həmrəyliyə, sivil birgəyaşayış məqsədinə xidmət edir. Bu tədbirlər həm də Şərq və Qərb mədəni dəyərləri arasında körpü rolunu oynamaqla fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılmasına yönəlmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin 2015-ci il iyunun 29-da imzaladığı sərəncamla fondun prezidenti Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Qurumun Azərbaycanın zəngin mədəni-mənəvi irsinin dünyaya təbliğinə, muğamların, aşıq musiqisinin bəşəriyyətə tanıdılmasına, sivilizasiyalararası dialoq məkanının genişləndirilməsinə, eyni zamanda maarifçiliyə xidmət edən çoxsaylı layihələrinin qayəsində bir məqsəd dayanır: Heydər Əliyev ideallarına sədaqət və Azərbaycan xalqının milli mənafeyinin qorunması ilə bağlı həyata keçirilən dövlət siyasətinə dəstək vermək! Fond bu məqsədi müxtəlif beynəlxalq qurumlarla münasibətləri genişləndirməklə, UNESCO və ISESCO kimi mötəbər təşkilatlarla qarşılıqlı faydalı əlaqələr qurmaqla həyata keçirir. Fond Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışır.

Böyük nüfuza malik olan fond Heydər Əliyev irsinin öyrənilməsi və təbliği ilə yanaşı, bir çox sahələrə aid proqram və layihələrin hazırlanaraq reallaşdırılmasını da qarşıya məqsəd qoymuşdur. Azərbaycan musiqisinin dünyada tanıdılması məqsədilə 2009-2016-cı illərdə Qəbələ rayonunda təşkil olunan beynəlxalq musiqi festivalları bu baxımdan mühüm əhəmiyyət kəsb etmişdir. Avqust ayında keçirilmiş səkkizinci festival beynəlxalq miqyasda ölkəmizin yüksək mədəni sivilizasiyasının bariz göstəricisi kimi dəyərləndirilmişdir. Ümumiyyətlə, ötən illərdə fondun bütün layihələri milli xüsusiyyətlər, yerli tələb və ehtiyaclarla birləşərək olduqca maraqlı və rəngarəng forma almışdır.

Dilimizdə ocaq müqəddəs sözlər sırasında özünə yer tapmışdır. Azərbaycanlılar tarixən müqəddəs məkanları, ziyarətgahları ocaq adlandırmışlar. Bu gün ulu öndərin adını daşıyan, zəngin irsini yaşadan, ideyalarını təbliğ edən Heydər Əliyev Fondu da mənəvi dünyamızda şölə saçan ocaqdır. Həm də elə bir ocaq ki, hərarətinə təkcə Azərbaycan deyil, xaricdə də isinirlər.

***İradə Əliyeva,***
***"Azərbaycan"***

# İstiqlalımızın mərhəmət təcəssümü

Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il ötür. Müstəqil dövlət qurmaq uğrunda davamlı mübarizə aparan Azərbaycan xalqı yalnız ötən əsrin sonlarında bu müqəddəs arzusuna qovuşmaq imkanı qazanmışdır. Xalqın qəlbində əsrlər boyu silinməz iz salmış, onu mübarizə ruhunda kökləmiş milli dövlətçilik idealının gerçəkliyə qovuşması isə ilk növbədə, milli lider amili ilə şərtlənmişdir. XX əsr tariximizin fenomen şəxsiyyəti Heydər Əliyev müdrik lider kimi xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür.

Dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında deyilir: "Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri - dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır.

Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir".

### *Mənəviyyatın zirvəsi*

Tarix boyu sərt və çətin sınaqlarla üzləşən, istibdad altında yaşamağa məhkum olduğu vaxtlarda da xalqımız məhz ali mənəvi-əxlaqi keyfiyyətlərini, mənəvi dünyasından qaynaqlanan nəcib, saf duyğularını saxlamaq əzmi göstərməklə özünəməxsusluğunu, milli kimliyini qorumuşdur. Yıxılanı ayağa qaldırmaq, kimsəsizə əl tutmaq, ehtiyacı olana yardım etmək, bir sözlə, nəcib və xeyirxah işlər görmək həm də xalqımızın tapındığı islami dəyərlərdən irəli gəlir. 2004-cü ildən ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır.

Yaradılarkən çoxlarının yalnız xeyriyyəçilik yönümündə fəaliyyət göstərəcəyini zənn etdiyi Heydər Əliyev Fondu zaman baxımından qısa müddətdə reallaşdırdığı çoxşaxəli layihələrin miqyası ilə gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirmişdir.

Ümumi şəkildə demək olar ki, fond fəaliyyəti dövründə ümummilli liderin zəngin dövlətçilik irsinin öyrənilməsi, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafına xidmət edən layihələrin reallaşdırılması, milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atmış, böyük ictimai rəğbət qazanmışdır.

Xeyirxahlıq və mərhəmət bəşər övladını daxilən saflaşdıran, başqalarının gözündə ucaldan, insanlığın ali zirvəsinə yüksəldən fenomen dəyərlərdən sayılır. Yalnız yüksək mənəviyyatlı insanlar öz əməlləri ilə təkcə müasirlərinin deyil, həm də gələcək nəsillərin qarşısında cavabdehlik daşıdıqlarını dərk edirlər. Konkret həyat amalına malik belə mənəviyyat sahibləri şərəfli və mənalı ömür yolu ilə başqalarına örnək olur, dövrünün problemlərinə əsl ziyalı yanğısı, vətəndaş təəssübkeşliyi ilə yanaşır, fürsət düşdükcə xalqının nicatına, xoşbəxt və təminatlı gələcəyinə xidmət edən xeyirxah əməllərin müəllifinə çevrilirlər. UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu da yarandığı vaxtdan etibarən Azərbaycan xalqı qarşısında müstəsna xidmət və xeyirxah əməllərin daşıyıcısı olmaqla belə bir ucalığa yüksəlmiş, insanların səmimi rəğbətini qazanmışdır.

Ötən 12 ildə Azərbaycan vətəndaşlarının, sözün əsl mənasında, ümid, pənah ünvanına çevrilmiş fond ümummilli lider Heydər Əliyevin müdrikliyə əsaslanan həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini öyrənən ideoloji-humanitar mərkəz kimi üzərinə götürdüyü çətin vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Xalqın rifahına yönəlmiş humanitar layihələrin təşəbbüsçüsü və fəal icraçısı kimi məşhurlaşan fond, eyni zamanda cəmiyyətin tərəqqi və yüksəlişinə xidmət edən faydalı təklifləri dəstəkləməklə elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafı ilə bağlı bir sıra mühüm layihələrə yardımçı olmuş, milli-mənəvi dəyərlərin, mədəni irsin sadiq keşikçisinə, alovlu təbliğatçısına çevrilmişdir.

Fondun əsas fəaliyyət istiqamətlərindən biri də cəmiyyətdə xeyriyyəçilik institutunun inkişafıdır. Müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təbəqə olur. Bazar iqtisadiyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən, əksər dövlətlər həssas sosial təbəqələrin ehtiyaclarına, problemlərinə biganə yanaşmır, onları himayəsinə götürürlər. Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti isə xüsusilə diqqət çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan inkişafına xidmət edən, iqtisadi səmərə məqsədi güdməyən əsaslı dövlət kapital qoyuluşları xüsusi çəkiyə malikdir. Dövlət başçısı İlham Əliyev ölkədə insanları qayğılandıran bütün sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bununla belə, mövcud problemlərin həllini bilavasitə hökumətin üzərinə qoymaq,

orta təbəqəni, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma olmayıb sovet dövrünün qeyri-adekvat, yanlış düşüncə tərzindən irəli gəlir. Bu mənada Heydər Əliyev Fondunun dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün nümunə, örnək sayıla bilər. Fondun fəaliyyəti Azərbaycan üçün müəyyən mənada yeni olan xeyriyyəçilik institutunun inkişafına, cəmiyyətdə filontropiya meyilli təbəqənin formalaşmasına xidmət edir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu prezidentinin təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın birinci xanımı haqlı olaraq informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir.

### *Təhsilə və səhiyyəyə yüksək qayğı nümunəsi*

Hər bir xalqın gələcəyi sayılan gənclərin intellektual inkişafını təmin etmədən onların milli-mənəvi dəyərlərə bağlı şəxsiyyət kimi yetişməsinə nail olmaq qeyri-mümkündür. Bəşəriyyətin xilasına yönəlmiş ideallar məhz elm və təhsilin yüksək inkişaf etdiyi ölkələrdə özünə möhkəm dayaqlar tapa bilir. İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış dövlətlərin bu nailiyyətləri məhz elmə, təhsilə diqqət və qayğı nəticəsində əldə etdiyi də danılmaz gerçəklikdir. Heydər Əliyev Fondunun 12 ildə həyata keçirdiyi layihələrin sırasında elm və təhsilin, müasir informasiya texnologiyalarının mühüm yer tutması məhz bu reallığa söykənir. Fondun təhsilin inkişafı, bu sahədə həllini gözləyən bir sıra problemlərin mərhələlərlə aradan qaldırılması istiqamətindəki fəaliyyəti Azərbaycanda maarifçiliyə ictimai təsisat səviyyəsində yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının da bu istiqamətdə səfərbər olunmasına yönəlmişdir.

Azərbaycanın birinci xanımının cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi həm də bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Fondun rəhbərliyi haqlı olaraq bildirir ki, müasir tələblərə cavab verən yeni məktəblərin inşasına nail olmadan, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi ənənələrini mənimsəmədən təhsil sistemini müasirləşdirmək, bu sahədə uğurlu nəticələr əldə etmək mümkün deyildir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində təkcə 2005-ci ildə Azərbaycanın müxtəlif regionlarında 132 məktəb binası inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilmişdir. Keçmiş ittifaqın iqtisadi cəhətdən ən qüdrətli dövründə belə Azərbaycanda bir ildə bu qədər məktəb tikilməmişdir. Sovet dövrünün rekordu ildə 110 məktəb olmuş, bunların da əksəriyyəti şəhərlərdə tikilmişdir. Fəqət, Heydər Əliyev Fondu bu fantastik

göstəriciyə nail olmaqla sübut etdi ki, yüksək əzm və iradə, ən əsası, vətənpərvərlik milli inkişafda son dərəcə vacib amildir.

Son illər fondun xətti ilə inşa edilmiş 300-dən çox müasir tipli məktəb lazımi avadanlıq, istilik sistemi, zəngin kitabxana və kompüter avadanlığı ilə təchiz olunmuşdur. Xüsusi vurğulamaq lazımdır ki, fond bu xeyirxah ənənəni ölkə hüdudlarından kənarda da davam etdirərək Pakistan, Rusiya və Gürcüstanda müasir tipli yeni məktəblərin inşasını öz üzərinə götürmüşdür.

Heydər Əliyev Fondunun başlıca fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan UNESCO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdır. Bu nüfuzlu beynəlxalq təşkilatın diqqətinin ölkəmizin təhsil problemlərinin həllinə cəlb olunması, təşkilatla əməkdaşlıq şəraitində keçirilən birgə tədbirlər yaxın gələcəkdə mövcud əlaqələrin daha da intensivləşməsinə yaxşı imkanlar açmışdır. Azərbaycanla UNESCO arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulmuşdur - bu əlaqələr əsasən "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə UNESCO kafedralarının yaradılması və digər sahələri əhatə edir. Təhsilin məzmunca yeniləşdirilməsi, məktəblərdə informasiya texnologiyalarının geniş tətbiqi və digər bu kimi planlar da ikitərəfli əməkdaşlığa daxil olan əsas məsələlərdəndir. İndiyə qədər UNESCO ekspertləri dəfələrlə Azərbaycanda olaraq məcburi köçkün və qaçqın ailələrində yaşayan uşaqların təhsil problemləri ilə bağlı müxtəlif layihələr işləyib hazırlamışlar.

Heydər Əliyev Fondunun fəaliyyətinin əhəmiyyətli bir hissəsini də səhiyyə sahəsində həyata keçirilən layihələr təşkil edir. Tibb ocaqlarının, uşaq müalicə-profilaktika müəssisələrinin yenidən qurulmasında, müasir avadanlıqla təchizatında iştirak, xarici ölkələrdən mütəxəssislərin yerli klinikalara dəvət olunmasına, treninqlərin keçirilməsinə, həkimlərin mübadiləsinə dəstək, dünyanın bir sıra aparıcı tibb müəssisələri, səhiyyə şirkətləri ilə əməkdaşlıq əlaqələrinin inkişafı bu yöndə həyata keçirilən fəaliyyətin ayrı-ayrı şaxələridir.

Fondun həyata keçirdiyi səhiyyə layihələri 2004-2010-cu illərdə səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarmış, onlara həyat eşqi vermişdir. İxtisas etibarilə bu sahənin incəliklərinə dərindən bələd olan fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud problemləri daha yaxşı görməklə ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqətlə, həssaslıqla yanaşmağa çalışır.

Qurumun səhiyyə sahəsində ən çox əks-səda doğuran layihələrindən biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi olmuşdur. Layihə fondun dəstəyi əsasında Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın "Novo Nordisk" şirkəti ilə birgə əməkdaşlıq nəticəsində həyata keçirilmişdir. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2006-cı illər ərzində müntəzəm olaraq lazı-

mi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin edilmişlər.

"Talassemiyasız həyat naminə" layihəsi isə talassemiya xəstəliyinin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda böyük rəğbətlə qarşılanmışdır. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmış, bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilmişdir. Layihə çərçivəsində inşasına başlanmış Talassemiya Diaqnostika Mərkəzinin 2009-cu il mayın 10-da - ulu öndərin doğum günündə istifadəyə verilməsi fondun ölkə səhiyyəsinə böyük töhfəsidir.

2009-cu ildə Bakı şəhərində Psixo-nevroloji Uşaq Mərkəzinin inşa edilməsi isə uşaqların müayinə və müalicəsi üçün geniş imkanlar açır. Bundan başqa, son illər fondun xətti ilə Xəzər rayonunun Türkan və Zirə qəsəbələrində poliklinika, təcili yardım stansiyası, Şüvalan qəsəbəsində xəstəxana, İsmayıllı rayonunun İvanovka kəndində poliklinika yenidən qurulmuş və müasir avadanlıqla təchiz olunmuşdur. Almaniyanın "Fresenius Medical Care" şirkətinin Heydər Əliyev Fonduna hədiyyə etdiyi 10 ədəd hemodializ aparatı və "Storz" şirkətinin hədiyyəsi olan endoskopik avadanlıq tibb müəssisələrinə verilmişdir. Eləcə də Fransanın "Servye" şirkəti tərəfindən fonda verilmiş "Diabeton MR" preparatları diabetdən əziyyət çəkən insanlara paylanmışdır.

Ürək xəstəliklərindən əziyyət çəkən körpələrin bir qisminə xarici ölkələrdə cərrahiyyə əməliyyatı aparılmasına kömək göstərən Heydər Əliyev Fondu milli genefondumuzun qorunmasında da öz sözünü deyir. Azərbaycanın birinci xanımının başlıca məqsədlərindən biri də məhz xəstə, kimsəsiz uşaqlara qayğı örnəyini başqalarına təlqin etməkdir.

### *Azərbaycanı dünyada uğurla təbliğ edən fond*

Heydər Əliyev Fondu ulularımızdan yadigar qalmış mədəniyyət incilərinin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün dəqiq, məqsədyönlü, konkret fəaliyyət planına malikdir. 2009-cu ildə aşıq sənətinin, habelə Novruz bayramının UNESCO-nun qeyri-maddi irs siyahısına daxil edilməsi də fondun bu sahədəki əzmkar fəaliyyətinin nəticəsidir. Eyni zamanda Qəbələ rayonunda təşkil olunan beynəlxalq musiqi festivalları da ümumən Azərbaycan mədəniyyətinin dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dünya iqtisadiyyatının təmərküzləşməsi, informasiya texnologiyalarının inkişafı prosesi bəzi hallarda mütərəqqi mahiyyətindən uzaqlaşaraq milli mədəniyyətə, mənəvi dəyərlər sisteminə təhlükəyə çevrilir. Belə bir şəraitdə xalqın milli "mən"inin, mənəvi dəyərlərinin qorunması məsələsi vacib və aktual problem kimi önə çıxır. Ötən 12 ildə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileyinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda

qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi Azərbaycanın birinci xanımının milli mədəniyyətin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin cüzi qismidir. Bu sahəyə qayğını fəaliyyətində daim üstün istiqamətlərdən biri kimi nəzərdən keçirən Heydər Əliyev Fondunun prezidenti xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə yüksək həssaslıqla yanaşır, onun dünya arenasında təbliğində fəal iştirak edir.

Tarixi mədəniyyət abidələrinin təmiri və bərpasına göstərdiyi kömək də Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal layihələr sırasındadır. Gəncə şəhərindəki Cavadxan türbəsi, habelə Comərd Qəssab məqbərəsi, Bakının Şüvəlan qəsəbəsindəki Pirhəsən ziyarətgahı, Abdulla Şaiqin ev-muzeyi əsaslı təmir edilmişdir. Məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin Mərdəkandakı ev-muzeyinin müasir tələblər səviyyəsində təmir olunması da fondun həyata keçirdiyi mütərəqqi layihələrdəndir.

Ümummilli lider Heydər Əliyevin adını daşıyan fonda əzmlə rəhbərlik edən Mehriban Əliyeva nəinki Azərbaycanda, habelə xarici ölkələrdə mədəni-dini abidələrin bərpasını əsas fəaliyyət prioritetlərindən biri hesab edir. Son illərdə fondun təşkilatçılığı ilə Fransanın Strasburq şəhərində Kafedral kilsəsi, Parisdə Versal sarayının parkındakı abidələr, İtaliyanın paytaxtı Romadakı Müqəddəs Pyotr və Marsellina sərdabəsi bərpa edilib. Heydər Əliyev Fondu tərəfindən Hollandiya, Rusiya, Pakistan, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə bir sıra təhsil ocaqları müasirləşdirilib, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verilib.

2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri seçilən fondun prezidenti Mehriban xanım Əliyeva nəcib əməllərinə görə çoxsaylı beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə layiq görülmüşdür. Hələ 2005-ci ilin iyun ayında xeyriyyəçilik fəaliyyətinə, eləcə də Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsi sahəsində xidmətlərinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın birinci xanımı Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq, ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində xüsusi xidmətlərinə görə mükafata, həmçinin genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə 2007-ci ilin mayında Rusiyada "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür. Həmin il mayın 17-də Cenevrədə isə Dünya Səhiyyə Təşkilatının ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında Azərbaycanda səhiyyənin inkişafında, yeni xəstəxanaların açılmasında, onların müasir avadanlıqla təchiz edilməsində Mehriban xanım Əliyevanın gördüyü işlər xüsusi vurğulanmış və ona İhsan Doğramacı Ali Sağlamlıq Fondunun mükafatı təqdim edilmişdir.

Heydər Əliyev Fondunun prezidenti eyni zamanda Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif olunmuşdur. 2010-cu ilin fevralında Azərbaycanın birinci xanımı Fransanın "Şərəf legionu" ordeninə, avqustunda isə

UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülmüşdür. 2011-ci il iyunun 24-də Mehriban Əliyevaya Krans Montana Forumunun Qızıl medalı, 2012-ci il aprelin 13-də isə MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası (HƏŞ) və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən "Birlik Ulduzları" dövlətlərarası mükafatı təqdim edilib. 2014-cü ilin mayında Mehriban xanım Əliyeva sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.

Azərbaycanın ictimai, sosial və mədəni həyatında fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə "The Business Year" jurnalı tərəfindən 2014-cü ilin mayında "İlin Birinci Xanımı" mükafatına layiq görülüb. 2014-cü ilin iyununda Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.

2015-ci ildə isə Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Pakistan İslam Respublikasının "Hilal-e Pakistan" ordeni ilə təltif olunub. Pakistan Prezidenti Məmnun Hüseyn fevralın 11-də bu barədə sərəncam imzalamışdır. "Hilal-e Pakistan" Pakistan İslam Respublikasının ali ordenidir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Hilal-e Pakistan" ordeni ilə təltif olunan ilk birinci xanımdır. Bütün bu yüksək təltiflər Heydər Əliyev Fondunun beynəlxalq miqyasda tanındığını və fəaliyyətinin rəğbətlə qarşılandığını göstərir.

2016-cı il yanvarın 21-də İsveçrənin Lozanna şəhərində Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin iclası keçirilmişdir. İclasda "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilmişdir.

Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi, başqalarına yaxşılıq, mərhəmət ömrü boyu onun üçün ümdə anlayışlara, ən ülvi insani keyfiyyətlərə çevrilmiş, bu missiyasının kökündə təmənnasızlıq prinsipi dayanmışdır. İnsan amilinin yüksəlişinə xidmət edən bu qlobal layihələr, şübhəsiz ki, Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürüdür.

***Elnur Hacalıyev,***
***"Azərbaycan"***

# Xalqa və dövlətə layiqli xidmət nümunəsi

Hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən böyük liderlər həm də siyasi varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər. XX əsr Azərbaycan tarixinin yetirdiyi ən parlaq şəxsiyyət - ulu öndər Heydər Əliyev də müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını tarixi irs və ənənəyə uyğun yaradaraq praktik surətdə gerçəkləşdirmiş rəhbər kimi xalqımızın əbədi sevgisini qazanmışdır.

Ümummilli liderin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması müasir qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir. Yarandığı gündən bu ali məqsədi qarşıya məqsəd qoyan, dahi öndərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ideyalarının ictimai şüurda möhkəmlənməsinə çalışan Heydər Əliyev Fondu 12 illik fəaliyyəti ilə Azərbaycan cəmiyyətində milyonlarla insanın ümid yerinə çevrilmişdir. Fond ictimai təşkilat kimi fəaliyyət göstərsə də, qarşıya qoyduğu məqsədlərə, miqyasına və sanbalına görə respubikamızda oxşarı olmayan nüfuzlu qurumdur.

İctimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun yaradılması məramı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanında təsbit edilmiş, bununla qarşıya qoyulan məqsədlər kifayət qədər aydın və konkret şəkildə göstərilmişdi. Fond, ilk növbədə, ümummilli liderin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyətilə yaradılmışdır. Təşkilat ilk gündən elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə, idman, ekologiyaya dair proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini də qarşıya qoymuşdur.

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi tədqiqatların aparılmasına yardım göstərilməsi, ölkənin yaradıcı və elmi potensialının artırılması kimi məqsədlər də fondun ötən 12 illik fəaliyyətində prioritet istiqamətlər olmuşdur. Bundan əlavə, qurum uşaq müəssisələrinin infrastrukturunun, tibbi təsisatların inkişaf etdirilməsi, sağlam həyat tərzinin təbliği, Azərbaycanın ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarların keçirilməsi, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərinin təşkili sahəsində də uğur-

lu nəticələr əldə etmişdir. Dini tolerantlığın, multikulturalizmin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının qorunması kimi məqsədlər də bu nəcib və xoşməramlı missiyanın mühüm tərkib hissələridir.

## *Milli maraqlara xidmət edən nəcib təşəbbüslər*

Müasir dünyanın insanı kifayət qədər realist və praqmatik olduğundan, həyata keçməyən ideyalarla, şüarlarla onun diqqətini uzun müddət hansısa məsələlərə cəlb etmək, düşüncəsini, fəaliyyətini yönləndirmək mümkün deyildir. Bu mənada, ən cəlbedici ideyaları da müzakirələr səviyyəsində saxlamaqla qısa müddətdə dəyərdən salmaq olar. Yəni insanları real iş və nəticə daha çox maraqlandırır. Heydər Əliyev Fondunun ötən 12 illik fəaliyyətinin diqqətçəkən uğuru ondadır ki, təşkilat ictimai fəaliyyət müstəvisinə irəli sürdüyü ideyaların real icra mexanizmləri ilə birgə qədəm qoymuşdur. Fond özünü Azərbaycan cəmiyyətinə fəaliyyətinin başlanğıc mərhələləri üzrə müəyyən etdiyi tədbirlərin real nəticələri ilə təqdim edə bilmişdir.

Ölkə vətəndaşları təşkilatın məqsədi, məramı barədə hər hansı yazılı proqramlardan, mətbu materiallardan deyil, fondun real fəaliyyət istiqamətlərindən, gördüyü işlərin mahiyyətindən öyrənmişdir. Bütün bunlar isə, bir qədər geniş çevrədə götürsək, dünyada Azərbaycana bağlı hər kəsin Heydər Əliyev Fonduna, təşkilatın rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya dərin rəğbətini, dəstəyini qazandırmışdır.

Fondun ilk gündən cəmiyyətə aşılamaq istədiyi mühüm dəyərlərdən biri də xeyriyyəçiliklə bağlıdır. Fondun prezidenti hesab edir ki, xeyriyyəçilik insani münasibətlərin son dərəcə incə, nəzakətli, həssas sahəsidir və fəaliyyətin bütün iştirakçılarından - xeyriyyəçilərin özlərindən, bu fəaliyyətdən bəhrələnənlərdən və vasitəçilərdən ümumbəşəri əxlaq, etika, nəzakət normalarına dönmədən riayət olunmasını tələb edir. Xeyriyyəçilik yoluna doğru ilk addımlarını atan hər kəs başlanğıcda anlamalıdır ki, "xeyriyyəçilik" sözünün arxasında müəyyən səbəblərə görə müxtəlif hallar üzündən həyatda çətin vəziyyətə düşmüş canlı insanların problemləri dayanır: xeyriyyəçilik fəaliyyətində iştirak məsələsi insanın rütbəsindən, dərəcəsindən, vəzifəsindən, maddi vəziyyətindən asılı olmamalıdır. İnsan öz xeyirxah niyyətlərini, istəklərini, imkanlarını və qabiliyyətlərini tətbiq etmək sahəsini həmişə tapa bilər. "İctimai əxlaqa xas olan bəzi naqisliklər - şəxsiyyətlərarası etimadın, insanların bir-birinin kədərinə şərik olması və təmənnasızlıq kimi keyfiyyətlərin qıtlığı onların öz vəsaitlərini, qüvvələrini və vaxtını başqalarının naminə, bütövlükdə cəmiyyətin naminə qurban verməyə könüllü hazır olması ruhunun tam üzə çıxmasına mane olur. Təəssüflə deməliyəm ki, bütövlükdə xeyriyyəçilik, könüllülük bizdə hələ sözün həqiqi mənasında kütləvi hal almamışdır" - deyə Heydər Əliyev Fondunun prezidenti vurğulayır.

Azərbaycanın birinci xanımının hələ 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Do-




Special Session on First Ladies' Leadership on Cancer Control
Kanserle Mücadelede Hanımefendilerin Liderliği Özel Oturumu
OIC
ISTANBUL
SUMMIT
Session Spécial Sur le Leadership des Premières Dames Dans la Lutte Contre le Cancer


Special Session on First Ladies'
Leadership on Cancer Control
Kanserle Mücadelede
Hanımefendilerin Liderliği
OIC
ISTANBUL
SUMMIT
Session Spécial Sur le
Premières Dames Dans la




M. ALIYEVA
HICKEY












Baku 2015
Bak
















COMITE INTERNATIONAL OLYMPIQUE








COLLEGE
















VILLAGE D'AZERBAÏDJAN
mairie 7e



stları Fondunu yaratması da xeyriyyəçilik sahəsində zəngin milli ənənələrin davam etdirilməsi zərurətindən irəli gəlirdi. Müstəqilliyin ilk illərində ayrı-ayrı şəxslərin siyasi ambisiyalarını gerçəkləşdirmək məqsədilə yararlanmaq istədikləri, lakin buna müvəffəq ola bilmədikləri xeyriyyəçilik ənənələrinin əsl mahiyyəti üzrə bərpası həm də cəmiyyətdə sağlam mənəvi və mədəni dəyərlərin qorunması istəyindən irəli gəlmişdir.

Bu xətti layiqincə davam etdirən Heydər Əliyev Fondunun fəaliyyətində ümummilli liderin humanist ideyalarını rəhbər tutaraq hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşması isə ölkədə fəaliyyət göstərən digər qeyri-hökumət təşkilatları, o cümlədən hakimiyyət orqanları üçün nümunə sayıla bilər. Müxtəlif hakimiyyət strukturlarının laqeydliyi, biganəliyi ilə üzləşən, dərdinə əlac tapmayan köməksiz insanlar ümid yeri kimi məhz bu ünvana üz tuturlar. Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın özünün də bəyan etdiyi kimi, fondda hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşılır, mümkün qədər vətəndaşların problemlərinin həllinə qayğı göstərilir. Bu mənada, fond həm də insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı hamisi, müdafiəçisi statusunda çıxış edən ictimai qurumdur. Fondun prezidenti bu barədə belə deyir: "Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun probleminin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq, bu ənənələri davam etdirməyə çalışırıq".

2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edən fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığı da bir daha təsdiqini tapmışdır. Milli parlamentarizm tarixində ilk dəfə olaraq məhz Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir. Fondun prezidentinin təşəbbüsü əsasında gerçəkləşmiş amnistiya aktları cəmiyyətdə ürəkdən dəstəklənmiş, təqdir olunmuşdur.

Heydər Əliyev Fondunun prezidentinin ölkə hüdudlarını çoxdan adlamış fəaliyyəti bu gün həm də qlobal miqyasda savadsızlığın aradan qaldırılmasına, multikulturalizm ideyalarının təbliğinə, fərqli sivilizasiyaların dialoquna xidmət edir. Son illər Bakıda kimisə qlobal beynəlxalq tədbirlərin keçirilməsi xəbərləri ilə təəccübləndirmək olmur. Şübhəsiz, bu və digər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinin başlıca səbəbi respublikamızın dünya miqyasındakı nüfuzu, hörmətidir. Bunun nəticəsi olaraq respublikamızın son illər təşkilatçılıq etdiyi beynəlxalq tədbirlərin sırası ildən-ilə genişlənir: Beynəlxalq Humanitar Forum, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Münxen Konfransı, Ümumdünya Davos Forumu, III Qlobal Bakı Forumu...2016-cı ilin aprelində respublikamızda 3 minədək

qonağın iştirakı ilə daha bir nüfuzlu tədbir - BMT-nin Silizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir.

Bu və digər beynəlxalq tədbirlərin Bakıda keçirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin milli maraqlara əsaslanan xarici diplomatik fəaliyyəti ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də müstəsnadır. Fondun prezidentinin ISESCO və UNESCO-nun xoşməramlı səfiri kimi həyata keçirdiyi mədəni tədbirlər sivilizasiyaların dialoquna, insanlar arasında sülh və barışa, həmrəyliyə, sivil birgəyaşayış məqsədinə xidmət edir. Bu tədbirlər həm də Şərq və Qərb mədəni dəyərləri arasında körpü rolunu oynamaqla, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılmasına yönəlmişdir. UNESCO-nun sabiq baş direktoru Koişirio Matsuuranın dediyi kimi, "Azərbaycanın birinci xanımı UNESCO-nun xoşməramlı səfiri kimi təkcə öz ölkəsinin deyil, dünyanın qlobal problemlərinin həllində yaxından iştirak edir".

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin 2015-ci il iyunun 29-da imzaladığı sərəncamla fondun prezidenti Mehriban xanım Əliyeva Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev ordeni" ilə təltif edilmişdir.

2015-ci ildə ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə uğurla rəhbərlik etmiş Heydər Əliyev Fondunun prezidenti 2016-cı ildə keçirilmiş "Formula-1" yarışlarında da eyni missiya ilə Azərbaycanın idman imicinin yüksəlməsinə sanballı töhfələr vermişdir.

## *Azərbaycan həqiqətlərinin carçısı*

Cənubi Qafqaz regionunda liderliyini təmin edən Azərbaycan son illər təkcə sosial-iqtisadi sahədə deyil, xarici siyasət sferasında da mühüm uğurlara imza atmışdır. Bir vaxtlar dünya xəritəsində tanınmayan, bədnam erməni lobbisinin təsiri ilə müxtəlif təzyiqlərə, təhdidlərə, ədalətsizliklərə məruz qalan, informasiya blokadası şəraitində haqlı mövqeyini dünyaya çatdıra bilməyən respublikamız bu gün tamam fərqli statusda çıxış edir. Yeni dünya nizamının gerçəkliklərinə cavab verən daxili və xarici siyasət yeridən, milli maraqlarını qətiyyətlə müdafiə edən, Avropanın enerji təhlükəsizliyində əsas söz sahibinə çevrilən Azərbaycan diplomatik fəaliyyət sferasında artıq müdafiə deyil, hücum taktikasından çıxış edir.

Son illər Azərbaycanın xaricdəki diasporu, səfirlikləri ilə yanaşı, ayrı-ayrı ictimai qurumların - dərnəklərin, qeyri-hökumət təşkilatlarının, cəmiyyətlərin bu prosesdə iştirakının intensiv xarakter alması isə son dərəcə sevindiricidir. İctimai statusda fəaliyyət göstərməsinə baxmayaraq, milli mənafelərə xidmət edən strateji əhəmiyyətli layihələri uğurla reallaşdıran, cəmiyyətin ciddi rəğbətini və dəstəyini qazanan Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin dünya miqyasında tanıdılması istiqamətindəki ardıcıl və sistemli fəa-

liyyəti bu baxımdan xüsusi vurğulanmalıdır.

Fondun Azərbaycanın zəngin mədəni-mənəvi irsinin dünyaya təbliğinə, muğamların, aşıq musiqisinin bəşəriyyətə tanıdılmasına, sivilizasiyalararası dialoq məkanının genişləndirilməsinə, eyni zamanda, maarifçiliyə xidmət edən çoxsaylı layihələrinin qayəsində bir məqsəd dayanır: Azərbaycan xalqının milli mənafeyinin qorunması ilə bağlı həyata keçirilən dövlət siyasətinə dəstək vermək! Fond bu məqsədi müxtəlif beynəlxalq qurumlarla münasibətləri genişləndirməklə, UNESCO və ISESCO kimi mötəbər təşkilatlarla qarşılıqlı faydalı əlaqələr qurmaqla həyata keçirir. Fond Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışır.

İngilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusunun hazırlanması və Azərbaycanın xaricdəki səfirlikləri, diaspor təşkilatları, habelə yerli qeyri-hökumət təşkilatları vasitəsilə yayılması bu istiqamətdə son dərəcə uğurlu layihələrdən biridir. Bukletlər toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitablarından ibarətdir. Layihənin davamı olaraq Heydər Əliyev Fondu Xarici İşlər Nazirliyi ilə birgə "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində çapdan buraxmışdır. Kitaba işğal olunmuş Azərbaycan rayonlarının hər birində olan mədəni sərvətlərin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində, işğal altındakı torpaqlarda tarixi-mədəniyyət abidələrinin əvvəlki və hazırkı vəziyyətini əks etdirən videomateriallar əlavə edilmişdir.

Azərbaycan həqiqətlərini və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağa xüsusi önəm verən Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskvada, Berlində, Strasburqda, Buxarestdə, Cenevrədə, Ankarada, İstanbulda, Parisdə, Vaşinqtonda, Nyu Yorkda, Varşavada, Londonda, Dubayda, Haaqada, Kiyevdə və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar keçirir. Xarici ölkələrdə təşkil olunan bu tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunur. Anma mərasimlərində fondun hazırladığı "Xocalı soyqırımı" filmi ilə yanaşı, insanlığa qarşı törədilən cinayəti əks etdirən müxtəlif ekspozisiyalar nümayiş olunur.

Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin, fotoşəkillərinin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgisi beynəlxalq ictimaiyyətdə XX əsrin ən böyük faciəsi barədə dolğun təsəvvür formalaşdırır. Bu mərasimlərdə fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabları paylanır.

Ölkə reallıqlarının internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqın min illər

boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədilə 2005-ci ildə fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş texnologiyalara görə ölkədə analoqu olmayan "Azərbaycan" internet portalı yaradılmışdır. İstifadəçilərinin sayı milyonlarla olan portalda Azərbaycanın bu günü, tarixi keçmişi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti ilə bağlı məlumatlar yerləşdirilmişdir.

Fondun vitse-prezidenti və Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın İslam Konfransı Təşkilatının Gənclər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "Xocalıya ədalət!" kampaniyasına start verməsi də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır. Bu kampaniya İKT Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın 2008-ci il mayın 8-də irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilir. Tunisdə ISESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi - beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır. Bu məqsədlə dünyanın son illərdə bir çox ölkələrində "Xocalıya ədalət!" veb-saytının təqdimetmə mərasimləri keçirilmişdir.

İslam Konfransı Təşkilatına üzv ölkələr fondun Rusiya nümayəndəliyinin təşəbbüsünü dəstəkləyərək 26 fevral - Xocalı soyqırımı gününün "Humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü" kimi qeyd olunması barədə qərar qəbul etmişlər. 2009-cu ildən 26 fevral tarixi islam ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi geniş miqyasda qeyd olunur.

Bütün bunlar göstərir ki, Heydər Əliyev Fondunun ölkə həqiqətlərinin dünya miqyasında yayılması, Azərbaycanın üzləşdiyi təcavüzkarlıq siyasətinin ifşası istiqamətində məqsədyönlü və ardıcıl iş apardığını bir daha təsdiqləyir. Fondun bu istiqamətdəki fəaliyyəti, əslində, ölkədəki digər qeyri-hökumət təşkilatları üçün də xoş örnək, nümunədir.

### *Mədəni-mənəvi tərəqqiyə xidmət edən qlobal layihələr*

Qeyd edildiyi kimi, fond Heydər Əliyev irsinin öyrənilməsi və təbliği ilə yanaşı, təhsil, elm, səhiyyə, idman, ekologiya və digər sahələrə aid proqram və layihələrin hazırlanaraq həyata keçirilməsini də qarşıya məqsəd qoymuşdur. Xüsusən də təhsil, səhiyyə və mədəniyyət layihələri Azərbaycanda ictimai təşkilatın dövlət siyasətinə real dəstəyi mənasında yeni bir ənənə formalaşdırmışdır.

Heydər Əliyev Fondunun təhsillə bağlı layihələri vətəndaşların Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş təhsil hüquqlarının daha etibarlı təminatı məqsədinə xidmət edir. Bunun üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal

şərait yaradılmasının zəruriliyini düzgün qiymətləndirən fond qarşıya qoyduğu strateji hədəflərə doğru inamla addımlamış, bir sıra uğurlu nəticələr əldə etmişdir. Azərbaycanın birinci xanımının cəmiyyətin maariflənməsinə və milli-mənəvi intibaha xidmət edən təhsil layihələrinin ümdə məqsədi həm də bölgələrdə yeni məktəblərin inşası, onların maddi-texniki təchizatının yaxşılaşdırılmasıdır. Şübhəsiz, müasir tələblərə cavab verən yeni məktəblərin inşasına nail olmadan, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi ənənələrini mənimsəmədən təhsil sistemini müasirləşdirmək, bu sahədə uğurlu nəticələr əldə etmək mümkün deyildir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində təkcə 2005-2007-ci illər ərzində Azərbaycanın müxtəlif regionlarında 300-ə yaxın yeni məktəb binası inşa olunmuş və müasir avadanlıqlarla təchiz edilmişdir.

Fondun təhsillə bağlı layihələri Azərbaycanla məhdudlaşmır. Hələ 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmamış, məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilmişdir. 2008-ci ilin fevralında isə fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək, yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunmuşdur. Eyni zamanda, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilmişdir.

Təşkilatın mədəniyyət sahəsindəki layihələri də rəngarəngliyi ilə diqqəti çəkir. Ötən 12 ildə UNESCO səviyyəsində Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, habelə İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və "Atəşgah"ın UNESCO-nun "Dünya irs siyahısı"na daxil edilməsi xanım Mehriban Əliyevanın Azərbaycanın milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsindəki fəaliyyətinin çox az qismidir. Azərbaycanın milli musiqisi olan muğamın, Novruz bayramının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması da bu fəaliyyətin nəticəsidir.

Abşeronda aşkar edilən arxeoloji tapıntıların qorunması məqsədilə fondun 2008-ci ildə Qala qəsəbəsində ilk Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaratması da mühüm layihələrdəndir. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə həyata keçirilən layihə ölkəmizin tarixi keçmişinin qorunub saxlanılması ilə yanaşı, turizm mərkəzlərindən birinə çevrilməsi məqsədinə xidmət etmişdir. 2008-ci il oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin açılışında iştirak etmişlər.

Azərbaycanın birinci xanımının yüksək təşkilatçılığı sayəsində 4 il əvvəl Bakıda keçirilən "Eurovizion-2012" musiqi yarışması Avropanın geosiyasi arealında ölkəmizin zəngin mədəniyyəti, musiqisi, incəsənəti barədə kifayət qədər dolğun təəssürat formalaşdırmışdır. 2011-ci ildə Almaniyadan qələbə estafetini qəbul edən Bakı bir il sonra

möhtəşəm şou ilə bütün dünyanın diqqətini bir daha özünə cəlb etmişdir.

Azərbaycan musiqisinin dünyada təbliği məqsədilə 2009-2016-cı illərdə Qəbələ rayonunda təşkil olunan beynəlxalq musiqi festivalları Azərbaycan mədəniyyətinin dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu ilin avqust ayında keçirilmiş səkkizinci festival beynəlxalq miqyasda hələ də aktuallığını itirmir, ölkəmizin yüksək mədəni sivilizasiyasının bariz göstəricisi kimi dəyərləndirilir.

Heydər Əliyev Fondunun humanizmə və insanpərvərliyə əsaslanan fəaliyyəti səhiyyə sahəsində həyata keçirilən layihələrdə bir daha parlaq təcəssümünü tapır. Bu layihələr səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarmış, onlara həyat eşqi vermişdir. Bu baxımdan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətdə daha böyük diqqət və rəğbətlə qarşılanmışdır. Fond uşaqların müayinə və müalicəsi üçün geniş mərkəzin zəruriliyini nəzərə alaraq, 2009-cu ildə Bakı şəhərində Psixo-nevroloji Uşaq Mərkəzinin inşasına da nail olmuşdur. Ümumiyyətlə, Heydər Əliyev Fondu səhiyyə məsələləri ilə bağlı hər bir müraciəti diqqətlə araşdırır, onlara kömək göstərilməsi üçün tibb müəssisələri ilə sıx əlaqə qurur.

## *Vətəndaşa yüksək qayğı örnəyi*

Fond həm də regional inkişafa xidmət edən sosial layihələrin gerçəkləşdirilməsinə sanballı töhfəsini verir. Heydər Əliyev Fondunun həyata keçirdiyi sosialyönümlü layihələr nəinki Bakının, ümumilikdə Azərbaycanın bir sıra regionlarını əhatə edir. Yeni təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin inşası ilə yanaşı, fond həm də əhalini qayğılandıran lokal xarakterli problemlərin həllində yaxından iştirak edir.

Sumqayıt şəhərində fəaliyyət göstərən iş adamı və iqtisadçı alim kimi xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev Fondu şəhərin problemlərinin həllinə də sanballı töhfələrini verir. Şəhərin yüzlərlə sakini məhz Azərbaycanın birinci xanımının köməyi sayəsində problemlərinin həllinə nail olmuşdur. Eyni zamanda, bir neçə çarəsiz insan Azərbaycanın birinci xanımının köməyi ilə xaricdə müalicə alaraq şəfa tapmışdır. Sumqayıt şəhərinin sakinləri bütün bunlara görə Heydər Əliyev Fondunun xeyirxahlığa əsaslanan fəaliyyətini daim rəğbətlə qeyd edirlər.

Heydər Əliyev Fondu şəhərdə sosial-mədəni infrastrukturun yeniləşdirilməsi ilə bağlı həyata keçirilən dövlət siyasətinə də dəstək verir. Bunun nəticəsi olaraq son illərdə Azərbaycanın ən müxtəlif guşələrində müşahidə olunan abadlıq, tərəqqi və yüksəliş Sumqayıt şəhərində də özünü qabarıq göstərir.

Azərbaycanın birinci xanımı "Busıness-Year" jurnalına müsahibəsində fondun qarşıya qoyduğu məqsədi belə ifadə etmişdir: "Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən. Bu kömək müxtəlif cür ola bilər. Bəziləri itirdiyi sağlamlığını qaytarmağa çalışır, bəzisi təhsil almaq, digəri muzey yaratmaq istəyir, biri

isə gələcək nəsillər üçün abidələri qorumaq istəyir. Bəzən infrastruktur dəyişikliklərini müdafiə etmək zərurəti yaranır, bəzən də maraqlı layihələrin təşkilati dəstəyə ehtiyacı olur. Ən əhəmiyyətlisi odur ki, biz həm böyük layihələrin həyata keçirilməsi ilə, həm də insanlara kömək etməklə məşğuluq".

Bütün bunlar bir daha təsdiqləyir ki, fondun insan amilinin yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürüdür. Şübhə yoxdur ki, fond bu sahədəki fəaliyyətini uğurla davam etdirəcək, ulu öndər Heydər Əliyevin ölməz ideyalarına söykənərək milli tərəqqi və intibah prosesinə layiqli töhfələrini verəcəkdir.

***Qüdrət Kərimov,***
***"Xəzər" ASC-nin sədri,***
***iqtisad elmləri doktoru***

# Rusiya mədəni həyatında Azərbaycan təntənəsi

## *Moskvada "Abşeron ulduzları. 1960-1980-ci illərin Azərbaycan rəssamları" sərgisinin açılışı olub*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak edib*

Rusiya Dövlət Tretyakov Qalereyasında "Abşeron ulduzları. 1960-1980-ci illərin Azərbaycan rəssamları" adlı sərgi açılıb.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sərginin açılışında iştirak edib.

Heydər Əliyev Fondunun, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin və "Mərcani" Fondunun dəstəyi ilə keçirilən sərginin ekspozisiyasına Tretyakov Qalereyasında, Azərbaycan Milli İncəsənət Muzeyində, Müasir İncəsənət Muzeyində və "Mərcani" Fondunda saxlanılan əsərlər daxildir.

Sərgidə 12 Azərbaycan rəssamının - Nadir Əbdürrəhmanov, Kamal Əhməd, Rasim Babayev, Səttar Bəhlulzadə, Tofiq Cavadov, Cavad Mircavadov, Mir Nadir Zeynalov, Əşrəf Murad, Toğrul Nərimanbəyov, Tahir Salahov, Fərhad Xəlilov və Qəyyur Yunusun 50-dən çox əsəri, Fazil Nəcəfovun 11 heykəltəraşlıq əsəri nümayiş etdirilir.

Sərgini Rusiya Dövlət Tretyakov Qalereyasının baş direktoru Zelfira Trequlova açdı. O, sərginin yaradılması ideyasından danışaraq bildirib ki, bu, Moskvanın mədəni həyatında çox əlamətdar hadisədir. Bildirildi ki, bu əsərlərin hər biri Abşeronun gözəlliyini, Odlar Yurdunun füsunkarlığını nümayiş etdirir. Qalereyanın baş direktoru, həmçinin vurğuladı ki, Bakı həm də maraqlı mədəniyyət mərkəzidir. Burada gözəl muzeylər və müasir incəsənət mərkəzləri var. Bakıda çevik incəsənət mühiti hökm sürür.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi.

### Birinci xanım Mehriban Əliyevanın çıxışı

-Moskvada – çox səmimi və işıqlı xatirələrlə bağlı olduğum bir şəhərdə yenidən olmağıma çox şadam. Bu il 160 illiyini qeyd edən və Rusiyanın mədəni irsinin qorunub saxlanması kimi nəcib bir işə uzun illər xidmət göstərən Dövlət Tretyakov Qalereyasında olmaq mənim üçün ikiqat xoşdur. Fürsətdən istifadə edərək muzeyin bütün əməkdaşlarını bu tarixi yubiley münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Bu gün biz "Abşeron ulduzları. 1960-1980-ci illərin Azərbaycan rəssamları" sərgisini açırıq. Bu ekspozisiya Dövlət Tretyakov Qalereyasının, Heydər Əliyev Fondunun və

"Mərcani" Fondunun birgə səyləri ilə reallaşıb. Fürsətdən istifadə edərək Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinə, sərginin kuratorlarına və bu layihənin reallaşmasında zəhməti olan hər kəsə təşəkkürümü bildirmək istəyirəm.

Hörmətli Zelfira İsmayılovna, bu layihənin həyata keçməsinə hərtərəfli köməyinizə və dəstəyinizə görə sizə xüsusilə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu tədbir Azərbaycanın mədəni həyatında parlaq hadisədir və ümidvaram ki, Rusiyanın mədəni həyatında da hadisəyə çevriləcək. Bütün qonaqlarımızı salamlamaq və bu gün axşam bizimlə birlikdə olduğunuza görə təşəkkür etmək istəyirəm.

Sərginin təşkilatçıları məhz XX əsrin 60-80-ci illəri dövrünə təsadüfən müraciət etməyiblər. Bu dövr Azərbaycan incəsənətinin inkişafının parlaq işıq saçdığı bir dövrdür. Bu dövrdə Azərbaycanda böyük musiqiçilər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar yaşayıb-yaradıb. Onların adları respublikanın hüdudlarından çox-çox uzaqlarda tanınır. Onlar bütün Sovet İttifaqında məşhur idilər. Tahir Salahov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Əşrəf Murad, Tofiq Cavadov, Cavad Mircavadov, Rasim Babayev və bir çox başqaları kimi böyük ustadların yaradıcılığının çiçəklənmə illəri məhz həmin dövrə təsadüf edir. Bu ekspozisiyada o dövrün, həmin nəslin çox parlaq, böyük rəssamlarının əsərləri toplanıb. Bu, təkcə Azərbaycan təsviri sənət məktəbinin tarixi irsi deyildir. Bu, sonralar öz ardıcıllarını yetişdirən bütöv bir məktəb, bütöv bir istiqamətdir. Bu gün Azərbaycanda məhz həmin dövrün bədii estetikasını yaradıcılığında təcəssüm etdirən gənc və istedadlı rəssamlar çoxdur.

Əziz dostlar, bu sərginin hazırlanması bir ildən çox davam edib və sizin diqqətinizə Azərbaycan təsviri incəsənət məktəbini təmsil edən ən görkəmli, ən parlaq rəssamların işləri təqdim olunub. Bu işlər öz dövrünün meyillərini, habelə Sovet İttifaqının ən aparıcı milli rəssamlıq məktəblərindən birinin xüsusiyyətlərini əks etdirir. Burada təmsil olunan hər bir rəssam təkrarsız fərdiyyət, nadir taledir. Onların hamısı novatorlar, Azərbaycan rəngkarlığında, Azərbaycan heykəltəraşlığında bütöv istiqamətlərin yaradıcıları olub və indi də belədir. Onların hər birinin öz dəst-xətti, öz xarakteri var. Lakin mən əminəm ki, siz ekspozisiya ilə tanış olanda bütün bu işləri birləşdirən ortaq başlanğıcı görəcəksiniz. Şübhəsiz, bu, vətənə sevgi, qaynaqlara sədaqət, köklərə bağlılıq, süjetlərdə ifadə edilən vahid mentallıqdır. Bunlar doğma Qarabağ mənzərələri, Abşeronun qaynar havasıdır. Çox ümid edirəm ki, siz bu işlərin qeyri-adi energetikasını və onların emosional zənginliyini duyacaqsınız.

Bugünkü sərginin daha bir xüsusiyyəti möhtərəm Zelfira İsmayılovnanın bu yaxınlarda "Baku" jurnalına verdiyi müsahibədə tamamilə haqlı olaraq sərhədlərin yuyulması adlandırdığı cəhətdir. Həqiqətən, biz yaradıcılığı sağlığında etiraf edilmiş, Azərbaycan rəngkarlıq məktəbinin formalaşmasında çox böyük rol oynamış rəssamların, görkəmli sənətkarların işlərini görəcəyik. Lakin, eyni zamanda, Azərbaycanda geniş auditoriyanın tanımadığı sənətkarlar da yaşayır və yaradırdı. Onların sərgi təşkil etməyə imkanları yox idi. Çünki onların yaradıcılığı, belə desək, rəsmən qəbul edilmiş ideoloji xətt ilə üst-üstə düşmürdü. Məhdudiyyətlərə baxmayaraq onlar yaradıcı şəkildə özünü ifadə etmək vasi-

tələri axtarışından imtina etmirdilər. Bu rəssamların işinin xüsusiyyəti mütləq yaradıcılıq azadlığı və Azərbaycan məktəbinin milli ənənələrini Avropa incəsənətinin avanqard axtarışları ilə uzlaşdırmaq cəhdi idi. Bu gün Azərbaycan onların adları ilə fəxr edir, onların yaradıcılığı Azərbaycan incəsənətinin klassikasıdır.

Əziz dostlar, Azərbaycanın görkəmli rəssamlarının işlərinin toplandığı bu cür sərgi ilk dəfə keçirilir. Mənim üçün tamamilə təbiidir ki, bu sərgi məhz Moskvada, Rusiya Federasiyasının paytaxtında keçirilir. Azərbaycan ilə Rusiya arasında münasibətlər möhkəm tarixi təməl üzərində qurulub. Bu dostluq münasibətlərinin səciyyəvi cəhəti qarşılıqlı anlaşma, sıx əməkdaşlıqdır. Bizim ölkələrimizi, xalqlarımızı, ümumi tarixi keçmişlə yanaşı, bu gün çoxlu ümumi meyillər, istiqamətlər birləşdirir. Biz bunu mədəni məkanda xüsusilə müşahidə edə bilərik. Əlbəttə, bu, hər şeydən əvvəl böyük rus dili, böyük rus ədəbiyyatıdır. Yəqin siz də bilirsiniz ki, Azərbaycan keçmiş Sovet İttifaqı məkanında rus dilində təhsilin tam həcmdə qorunub saxlandığı az sayda ölkələrdən biridir. Bizim ölkəmizdə təhsilin tamamilə rus dilində aparıldığı 300-dən çox məktəb fəaliyyət göstərir. Bakıda Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı, Rus Mədəniyyət Mərkəzi, Slavyan Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialı fəaliyyət göstərir. Keçən ildən İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyətə başlayıb. Əlbəttə, bütün bunlar onu göstərir ki, biz ümumi elmi, mədəni məkanı qoruyub saxlaya bilmişik. Şübhəsiz, bu da öz növbəsində ona təsir göstərir ki, həm dövlətlərarası səviyyədə, həm də ölkələrimizin sadə insanları, vətəndaşları arasında daha səmimi əlaqələr yaranır.

Əziz dostlar, incəsənət, ədəbiyyat, musiqi bütün bəşər tarixi boyunca mədəniyyətin, humanizmin, gözəlliyin və mənəvi dəyərlərin rəmzləri olub və yenə belədir. Məhz bu ümumbəşəri, əbədi dəyərlər bizim, təəssüf ki, bəzən mürəkkəb, proqnozlaşdırıla bilməyən, münaqişələr, qarşıdurmalar və anlaşılmazlıqlarla dolu dünyamızda şəksiz oriyentirdir. Mən həyatımızda gözəl, uca mənəvi dəyərləri yayan insanların hamısına dərin təşəkkürümü bildirmək istəyirəm. Sonda bu ekspozisiyanın reallaşması üçün zəhmət çəkmiş hər kəsə bir daha təşəkkür etmək, əziz dostlar, sizə təşəkkür etmək istəyirəm ki, bu axşam siz bizimləsiniz və sizin hamınızı Azərbaycana səfərə dəvət etmək istəyirəm. Diqqətinizə görə sağ olun.

### X X X

Rusiya Federasiyası Hökuməti sədrinin müavini Olqa Qolodets çıxış edərək bütövlükdə Azərbaycan mədəniyyətinə qayğıkeş və peşəkar münasibətə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür etdi. O.Qolodets dedi: "Mənə lap yaxın vaxtlarda Bakıda olmaq xoşbəxtliyi nəsib olub. Bakı tarixi kökləri və tarixi ənənələri əziz tutan, inkişaf etməkdə olan müasir şəhərdir". O, Rusiya-Azərbaycan münasibətlərindən söhbət açaraq vurğuladı ki, bu münasibətlər qədim, çoxəsrlik dostluğa əsaslanır və gələcəyə istiqamətlənir.

Rusiya hökuməti sədrinin müavini sərgiyə uğurlar arzulayaraq dedi: "Siz bu gün görəcəyiniz hər bir əsərdə Azərbaycanın hərarətini, onun rənglərini, koloritini duyacaqsınız".

Rusiyanın mədəniyyət naziri Vladimir Medinski bu sərginin təşkilinə görə Heydər Əliyev Fonduna və "Mərcani" Fonduna təşəkkür etdi. Nazir bildirdi ki, Abşeron xüsusi yaradıcı energetikaya malikdir. V.Medinski dedi: "Oraya yolu düşən insan dərhal yaradıcılıqla məşğul olmaq istəyir".

"Mərcani" Fondunun prezidenti Rüstəm Süleymanov ümidvar olduğunu bildirdi ki, "Abşeron ulduzları" layihəsinin böyük gələcəyi var. O qeyd etdi ki, sərginin məhz Tretyakov Qalereyasında təşkil edilməsi bu ekspozisiyada təmsil olunmuş hər bir əsərin keyfiyyət nişanına uyğun olmasına dəlalət edir.

"Abşeron ulduzları" sərgisinə Azərbaycan rəssamlarının Tretyakov Qalereyasının kolleksiyasında saxlanılan ən yaxşı əsərləri daxildir. Lakin bu sərginin təşkilatçıları qismində çıxış etmiş Heydər Əliyev Fondu və "Mərcani" Fondu ilə əməkdaşlıq olmadan sərginin nümayiş etdirilməsi mümkün olmazdı.

"Abşeron məktəbi"nin lideri Cavad Mircavadov öz üslubunda obrazların ekspressiyasını, arxaik sadəliyi və brutallığı birləşdirib. Əşrəf Murad mövzu seçiminə və əsərlərinin dərin dramatizminə görə müasirlərindən fərqlənirdi. Rasim Babayevin və Tofiq Cavadovun işlərində sənaye mövzusu əks olunub. Səttar Bəhlulzadə Abşerona dərindən bağlı idi – onun əsərlərində yaradılan dünya nağıla oxşayır. Fazil Nəcəfovun heykəltəraşlıq əsərlərində köhnə Bakı və sanki uzaq keçmişdən gəlmiş obrazlar canlanır. Bu əsərlər üçün material kimi yerli Abşeron əhəngdaşından istifadə edilib. Tahir Salahovun teatr eskizləri onun yaradıcılığının bir cəhəti barədə söhbət açır.

Azərbaycan məktəbinin bənzərsizliyini nümayiş etdirən bu sərgi həm də ümumdünya bədii prosesin bir hissəsi olan Azərbaycan incəsənətinin əhəmiyyətinə dəlalət edir.

Sərgi 2017-ci il fevralın 26-dək davam edəcək.

***Fərid*ə *Abdullayeva***<br>
***AZƏRTAC-ın xüsusi müxbiri***<br>
***Moskva***

## Heydər Əliyev Fondu təhsillə bağlı layihələri uğurla həyata keçirir

Azərbaycanda elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun xüsusi əməyi var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim diqqət və qayğı ilə yanaşaraq bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Dağlıq Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması", "Təhsilə dəstək" kimi dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu nəcib təşəbbüsü və xeyirxahlığı ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, dövlət başçısı İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi konseptual təhsil strategiyasının həyata keçirilməsinə öz layiqli töhfəsini verir.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi həyata keçiriləndən respublikamızın ən ucqar regionlarında müasir tələblərə cavab verən məktəb binaları tikilib istifadəyə verilib. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılması və digər sahələrdə uğurlar qazanılıb. İlk addımlar 2005-ci ildə atılıb: 100, 200 və 240 şagird yerlik 132 məktəb tikilərək istifadəyə verilib. Həmin proqram çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan bu məktəblər istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub. Fondun təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı surətdə bərpa olunub. Fondun prezidenti Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ilə bağlı ictimaiyyətə ünvanladığı əməkdaşlıq çağırışı böyük rəğbətlə qarşılanıb.

Müasir informasiya texnologiyalarının tətbiqi sahəsində BMT-nin İnkişaf Proqramı ilə fond arasında imzalanmış saziş də təhsilin inkişafına böyük töhfə verib. Bu sazişin nəticəsi olaraq Azərbaycanda kor və görmə qabiliyyəti zəif olanların informasiya və kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihənin həyata keçirilməsinə başlanılıb. Ölkəmizdə yaşayan 320 min nəfər əlilin 40 mini kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Bu qəbildən olanların cəmiyyətə qovuşması, onların informasiya kommunikasiyaları vasitəsilə bilik və məlumat alma imkanları xeyli genişləndirilib. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində həyata keçirilən tədbirlər uşaq evi və internat məktəblərində mövcud olan problemləri aradan qaldırıb. Həmçinin uşaq müəssisələri əsaslı şəkildə təmir edilib, texniki vasitələrlə təmin olunub.

Tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə məktəblərin əyani vəsait və dərs

ləvazimatları ilə təmin olunması diqqətdə saxlanılıb. Hər il keçirilən silsilə aksiyalar təhsil sahəsində qarşıya çıxan bəzi problemlərin aradan qaldırılmasında öz müsbət təsirini göstərib. 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrinin ilk dəfə məktəbə qədəm qoyan uşaqlarına məktəbli çantaları və dərs ləvazimatı fond tərəfindən hədiyyə olunur.

Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəbləri" layihələri çərçivəsində son 10 ildə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa işləri aparılıb, müasir avadanlıqlarla təchiz edilib.

Təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yaxşı hazırlaşmaq imkanı yaratmaq məqsədilə ölkənin 60-dək məktəbində 10-cu siniflərdə dörd istiqamət üzrə 176 təmayül sinif fəaliyyət göstərir. İstedadlı şagirdlərin aşkar olunması və onların potensialının inkişaf etdirilməsi məqsədilə də ciddi tədbirlər görülür. Bu baxımdan fənn olimpiadaları və bilik yarışları xüsusi əhəmiyyət kəsb edir. Təkcə bir il ərzində 25 minə yaxın şagird respublika fənn olimpiadalarında iştirak edib. Bunun da nəticəsində yeniyetmələr dünya fənn olimpiadalarında gümüş və bürünc medallar qazanıblar. Dünyanın 80 ölkəsindən 300 məktəblinin iştirak etdiyi 47-ci Beynəlxalq Kimya Olimpiadasının paytaxt Bakıda keçirilməsi, 2019-cu ildə Beynəlxalq İnformatika Olimpiadasının isə ölkəmizdə təşkil olunacağı heç də təsadüfi deyil. Bu, əlbəttə, həm də o deməkdir ki, artıq paytaxtımız beynəlxalq bilik yarışlarına da evsahibliyi edir.

Fondun layihələri arasında məktəbəqədər yaşlılar da diqqətdən kənarda qalmayıb. Tovuzdakı 7 saylı körpələr evi-uşaq bağçası, Balakən şəhərinin Məhəmməd Əsədov küçəsində yerləşən uşaq bağçası və Şəkidəki 16 saylı 100 yerlik uşaq bağçası Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində inşa edilərək bu il istifadəyə verilib.

Heydər Əliyev Fondunun təhsilin inkişafına qayğısının coğrafiyası son vaxtlar daha da genişlənib. Fond Gürcüstanda yaşayan azərbaycanlıların təhsillə bağlı problemlərinin aradan qaldırılması üçün hər il böyük yardım göstərib. Rusiyada fəaliyyət göstərən Azərbaycan məktəblərinə olan qayğı davamlı və müntəzəm xarakter daşıyıb. 2007-ci ildə Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi fondun dəstəyindən yetərincə faydalanıb. Bu məktəbə də kompüter dəsti ilə yanaşı, dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb Heydər Əliyev Fondunun köməyi ilə yenidən tikilərək şagirdlərin ixtiyarına verilib. Məktəbin bütün avadanlıqları fond tərəfindən hədiyyə olunub.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr və nəzərdə tutulan proqramların müntəzəm reallaşması Azərbaycanı qloballaşan dünyanın dəyərlərinə təhsil və elm sayəsində qovuşdurmaq məqsədi daşıyır.

***Sevinc Məmmədəliyeva,***
***Abşeron rayonu, Xırdalan şəhəri V.Səfərov adına texniki və təbiət fənləri təmayüllü 3 saylı məktəb-liseyin direktoru***

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Ramana qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni bina ilə tanış olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva oktyabrın 5-də Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni bina ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bina barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi.

Bildirildi ki, bu bina "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində inşa edilib. Tikinti işlərinə bu ilin mart ayında başlanılıb. Beşmərtəbəli binada beş birotaqlı, iyirmi ikiotaqlı, iyirmi üçotaqlı və beş dördotaqlı mənzil var.

Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə edildiyini göstərir. Qaçqınların və məcburi köçkünlərin müvəqqəti yaşayış yerlərindən və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqət və qayğının təzahürüdür.

Qaçqınların və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində önəmli tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi olub. Mehriban xanım Əliyeva müşavirədə çıxışı zamanı vurğulayıb ki, görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşayır və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün əlavə və təxirəsalınmaz addımlar atılmalıdır. Birinci vitse-prezident bildirib ki, Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Müşavirədən sonra bu istiqamətdə atılan addımlar sürətləndirildi. May ayında Birinci vitse-prezident Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün yeni müasir yaşayış kompleksinin təməlqoyma, iyun ayında isə "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsinin icrası çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində iştirak edib.

Ramana qəsəbəsindəki binada yaradılan şəraitdən məmnunluğunu ifadə edən Mehri-

ban xanım Əliyevaya məlumat verildi ki, buraya Xətai rayonunda və Sarıqaya yaşayış massivində qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış 50 məcburi köçkün ailəsi köçürüləcək.

***Azərbaycanın Birinci vitse-prezidenti Ramanada Qubadlı rayon Xanlıq kənd orta məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olub***

Oktyabrın 5-də - Beynəlxalq Müəllimlər Günündə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi üçün istifadəyə verilən yeni binada yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov məktəbin binasında yaradılan şərait barədə Mehriban xanım Əliyevaya məlumat verdi.

Qeyd edildi ki, bu təhsil müəssisəsi 2017-2018-ci tədris ilində istifadəyə verilib. Məktəbin binasının inşasına bu il başlanılıb və dörd ay ərzində tikilib istifadəyə verilib. 196 şagird yerlik məktəb Qubadlıdan olan məcburi köçkün ailələrinin və ətraf ərazidə yaşayan sakinlərin övladları üçün nəzərdə tutulub.

Mehriban xanım Əliyeva məktəbdə təhsil alan birinci sinif şagirdləri ilə söhbət etdi, onların dərsləri ilə maraqlandı. Uşaqlar məktəbdə tədris üçün bütün şəraitin mövcud olduğunu söylədilər və yaxşı oxuyacaqlarına söz verdilər. Ən müasir avadanlıqla təchiz edilən binada tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şərait yaradılıb. Məktəbdə şagirdlər birinci sinifdən doqquzuncu sinfə qədər təhsil alırlar. Kabinetlərin və laboratoriyaların hamısı lazımi avadanlıq və dərs ləvazimatları ilə təmin edilib.

İnformatika otağında şagirdlərin kompüter bacarıqları ilə maraqlanan Azərbaycanın Birinci vitse-prezidenti onlara uğurlar arzuladı.

Birinci vitse-prezident Mehriban Əliyeva yüksək balla ali məktəblərə daxil olan Qubadlı rayonunun şagirdlərinin fotolarından ibarət stendə baxdı.

Təhsil müəssisəsində son 10 ildə bu rayondan olan məcburi köçkünlər üçün tikilmiş yeni məktəb binalarını əks etdirən fotostend də qoyulub.

Azərbaycanın Birinci vitse-prezidenti dövlətimizin başçısı İlham Əliyevin Qubadlı rayonundan olan idmançılarla görüşünə həsr edilən fotostendlə də tanış oldu.

İdman zalında Mehriban Əliyeva Qubadlıdan olan idmançıların məşqini izlədi.

Məktəbin kollektivi ilə görüşən Mehriban Əliyeva tədris ocağının yeni binasının istifadəyə verilməsi və Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırdı.

"Məktəb illəri hər bir insanın həyatında silinməz iz qoyur. Sizin peşəniz olduqca vacibdir", - deyən Birinci vitse-prezident təhsil müəssisəsinin kollektivinə fəaliyyətlərində uğurlar arzuladı.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyeva: "Bütün arzularımıza nail olacağıq. Çünki bunun bütün amillər - müstəqil siyasət, xoş niyyət, iqtisadi potensial və ən əsası xalqın inamı və dəstəyi var"

***Məcburi köçkünlər üçün Masazır qəsəbəsində salınan şəhərcikdə tikilən yeni üç binada mənzillərin təqdim edilməsi mərasimi keçirilib***
***Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak edib***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 5-də Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınan şəhərcikdə yeni inşa olunan üç binada mənzillərin təqdim edilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov görülən işlər barədə Birinci vitse-prezidentə məlumat verdi.

Bildirildi ki, bu binalar "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində tikilib. Müasir səviyyədə təmir edilən mənzillərin hamısı zəruri avadanlıqla, həmçinin qaz, su və elektrik enerjisi ilə təmin olunub. Binaların həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb.

Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə çıxış etdi.

### *Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı*

-Hörmətli mərasim iştirakçıları.

Hörmətli soydaşlar, əziz dostlar.

İyirmi ildən çox sürən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən ağır problemi, xalqımızın ən böyük ağrısıdır. Qonşu ölkənin işğalçılıq siyasəti nəticəsində yüz minlərlə soydaşımız doğma torpaqlarını, yurd-yuvalarını tərk edərək qaçqın və köçkün həyatı sürməyə məcburdurlar.

Dövlətimizin başçısı İlham Əliyev həm beynəlxalq təşkilatlarda, həm ikitərəfli görüşlərdə bu məsələni daim gündəmə gətirir. Bildiyiniz kimi, Prezident İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxış edərək dünya ictimaiyyətinin diqqətini yenidən bu məsələyə yönəltmişdir. O, ölkəmizin ərazilərinin hələ də işğal altında olmasını və Azərbaycanda bir milyon insanın qaçqın və məcburi köçkün həyatı yaşadığını vurğulamışdır.

Uzun illərdir ki, biz müxtəlif tribunalardan öz haqq sözümüzü söyləyirik və biz sözdə yox, əməldə ədalətli reaksiya gözləyirik. Əfsuslar olsun ki, ölkəmizə qarşı tətbiq olunan ikili standartlar bu günün reallığıdır. Dünyada insan hüquqlarını qoruyan bir çox təşkilatlar fəaliyyət göstərir. Niyə Azərbaycanın bir milyon qaçqın və məcburi köçkününün ən əsas hüququ – öz doğma torpağında, öz evində yaşamaq hüququ pozulub? Niyə bu təşkilatlar bu insanların hüquqlarının bərpası üçün heç bir səy göstərmirlər? Niyə dünya mediasının səhifələrində, saytlarında bu barədə məqalələr dərc etdirmirlər? Niyə dünya ictimaiyyətinə dolğun və doğru informasiya çatdırmırlar? Niyə işğalçı ölkəyə qarşı lazımi təzyiqlər göstərilmir?

Bütün bu sualların cavablarını biz bilirik və hamı bilməlidir ki, əsas səbəb Azərbaycanın gücü, Azərbaycanın möhkəmlənməsi, Azərbaycanın müstəqilliyi və Azərbaycanın müstəqil siyasətidir. Bütün bu illər boyu Azərbaycan dövləti soydaşlarımızın üzləşdiyi problemlərin həlli üçün öz gücü ilə bütün lazımi tədbirləri görüb, lazımi addımları atıb və bunun nəticələri bu gün göz qabağındadır. Ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayıb, yüzədək müasir yaşayış kompleksi inşa olunub. Bu komplekslər bütün zəruri infrastrukturla təmin edilib. Əlli min qaçqın və köçkün ailəsi, ümumilikdə 250 min insan yeni evlərə, yeni mənzillərə köçürülüb. Dörd yüz min qaçqın və köçkün yeni işlə təmin olunub. Ümumilikdə, dövlətimiz bu tədbirlərin icrası üçün 6 milyard manatdan çox vəsait xərcləyib.

İndiki mərhələdə digər yerlərdə - yararsız binalarda, yarımçıq tikilmiş binalarda, yataqxanalarda, pansionatlarda, uşaq bağçalarında müvəqqəti məskunlaşmış soydaşlarımızın vəziyyəti yaxşılaşdırılmalıdır. İlk mərhələdə ən ağır vəziyyətdə yaşayan insanlar yeni mənzillərə köçürülməlidir. Bundan sonra ardıcıl olaraq digər qaçqın və köçkün ailələrinin yaşayış vəziyyəti yaxşılaşdırılmalıdır. Biz bunun üçün çalışırıq və çalışacağıq. Mən əminəm ki, Azərbaycan dövləti bu problemi öz gücü ilə həll edəcək.

Bildiyiniz kimi, Azərbaycan bu gün güclü və qüdrətli müstəqil dövlətdir. Bizim müstəqil siyasətimiz var. Azərbaycan bu gün öz sözünü deyən, öz mövqeyini qoruyan dövlətdir. Bütün ölkədə geniş şəkildə quruculuq işləri aparılır. Bakının müasirləşməsi, paytaxtımızın gözəlliyi, təmizliyi, abadlığı barədə təkcə Azərbaycanda yox, xaricdə də danışırlar. Təkcə Bakı deyil, hər bir rayonda, hər bir regionda inkişaf gedir. Yeni məktəblər, xəstəxanalar, idman kompleksləri tikilir, yollar salınır, qazlaşdırma aparılır, insanları narahat edən məsələlər aradan qaldırılır, yeni imkanlar açılır.

Son illər ölkəmizdə turizmin inkişafı üçün böyük işlər görülür. Bu sahədə də böyük irəliləyiş var. Bir neçə gün bundan əvvəl dövlətimizin başçısı Şamaxı rayonunda bir neçə yeni obyektin, yeni yolların açılışlarında iştirak etmişdir, Dəmirçi kəndində yenidən inşa olunmuş turizm infrastrukturu ilə tanış olmuşdur. Həmin kənddə bərpa olunmuş qədim məscidi ziyarət etmişdir və yeni yolun – Dəmirçi kəndi ilə Lahıc qəsəbəsini birləşdirən yeni, daha qısa məsafəli, cəmi 22 kilometr uzunluğunda olan yolun salınması üçün

bütün lazımi göstərişləri vermişdir.

Ondan əvvəlki həftədə Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş mərasimdə Prezident ölkəmizin idman sahəsində qazandığı nailiyyətlər barədə geniş məlumat vermişdir. Mən əminəm ki, bunu siz hamınız yaxşı bilirsiniz. Bizim xalqımız, bizim idmançılarımız digər sahələrdə olduğu kimi, idman sahəsində də böyük qələbələrə imza atıblar. Biz 2015-ci ildə birinci Avropa Oyunlarını böyük uğurla keçirmişik. Bu il İslam Həmrəyliyi Oyunlarını keçirmişik. Bizim idmançılarımız son Olimpiya Oyunlarında 18 medal qazanıblar, Azərbaycanın bayrağını ucaldıblar. Budur bizim nailiyyətlərimiz. Bu sahədəki nailiyyətlərimiz dünyanın bütün idman ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilir və ölkəmiz bir nümunə kimi təqdim olunur.

Ondan əvvəl isə Bakıda "Əsrin kontraktı"nın yeni mərhələsinin imzalanması mərasimi keçirilmişdir. Bu kontraktın uzadılması ölkəmizin hərtərəfli inkişafına güclü təkan verəcək. Bu, nə deməkdir? Bu, o deməkdir ki, yeni infrastruktur yaradılacaq, yeni iş yerləri açılacaq, ölkəmizə yeni sərmayələr gələcək, insanları narahat edən problemlər yenə də aradan qaldırılacaq. Bir sözlə, bu gün Azərbaycan inkişaf və tərəqqi yolu ilə irəliləyir. Bizim müstəqil siyasətimiz davam edəcək. Biz öz nailiyyətlərimizi görürük, öz gücümüzü dərk edirik. Biz onu da yaxşı başa düşməliyik ki, əgər dostlarımız, tərəfdarlarımız nailiyyətlərimizə sevinirlərsə, düşmənlərimiz heç də sevinmir və hər cür çirkin əməllərə əl atırlar. Amma biz bundan qorxmuruq, biz öz yolumuzla gedirik. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev üçün Azərbaycanın və Azərbaycan xalqının maraqları hər bir şeydən üstündür və biz bu yoldan dönməyəcəyik.

Eyni zamanda, mövcud problemləri, həllini tapmayan məsələləri də biz yaxşı bilirik və bunları aradan qaldırmaq üçün tam gücümüzlə çalışırıq və çalışacağıq. Mən əminəm ki, bütün arzularımıza nail olacağıq. Çünki bunun üçün bütün amillər – müstəqil siyasət, xoş niyyət, iqtisadi potensial və ən əsası xalqın inamı və dəstəyi var. Bir daha deyirəm ki, sizin dəstəyinizlə və Allahın köməyi ilə biz bütün arzularımıza nail olacağıq.

Əziz dostlar, bildiyiniz kimi, bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında yeni yaşayış kompleksinin təməli qoyuldu. Bu günlər orada tikinti işləri davam edir. Yaşayış kompleksi bütün lazımi infrastrukturla təmin olunacaq, orada binalarla yanaşı, uşaq bağçası, məktəb tikilir və gələn il 1026 yeni, tam təmirli mənzil qaçqın və məcburi köçkün ailələrinin istifadəsinə veriləcək. Bu ilin iyun ayında Xəzər rayonunun Şüvəlan qəsəbəsində çox pis vəziyyətdə olan pansionatda və Xətai rayonunda yarımçıq tikilmiş binada yaşayan 214 ailə Mehdiabad və Masazır qəsəbələrində yeni tikilmiş, tam təmirli evlərə köçürülüb. Bu gün isə biz Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunmuş binalardakı tam təmirli mənzillərə 210 ailə, Sabunçu rayonunun Ramana qəsəbəsində inşa edilmiş binadakı tam təmirli mənzillərə 50 ailə və Xətai rayonunda inşa edilmiş binadakı tam təmirli mənzillərə 465 ailə köçürürük. Ümumilikdə bu, 725 ailənin yaşayış şəraitinin yaxşılaşdırılması deməkdir.

Əziz soydaşlar, əziz qaçqın və məcburi köçkün ailələrinin üzvləri. Siz uzun illər çox

çətin vəziyyətdə yaşamısınız, çətinliklərlə üzləşmisiniz. Buna baxmayaraq, siz ölkəmizdə gedən bütün quruculuq proseslərində iştirak etmisiniz, öz töhfənizi vermisiniz. Siz övladlarınızı böyütmüsünüz, tərbiyə etmisiniz. Mən fürsətdən istifadə edərək, sizə bir daha öz dərin hörmətimi və məhəbbətimi çatdırıram. Bu gün sizin həyatınızda yeni mərhələ başlanır. Siz yeni mənzillərə, yeni evlərə köçürsünüz. Arzum odur ki, bu evlərdə sizin həyatınız işıqlı və xoşbəxt olsun. Ən böyük arzum, - əminəm ki, bu, hər bir azərbaycanlının ən böyük arzusudur, - doğma torpaqlarımızda, işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan dövləti tərəfindən tikilmiş yeni mənzillərdə, yeni evlərdə sizin uşaqlarınızın, nəvələrinizin, nəticələrinizin toy mərasimində birgə iştirak edək. Çox sağ olun.

XXX

Laçın rayonundan məcburi köçkün Ağa ƏHMƏDOV çıxış edərək dedi:

-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva.

Hörmətli tədbir iştirakçıları.

Biz 25 ildən artıqdır ki, Binəqədi rayonu ərazisindəki "Şəfəq" sanatoriyasında məskunlaşmışıq. Məskunlaşdığımız bina yararsız vəziyyətdə olduğundan burada yaşayan məcburi köçkünlərin həyat şəraiti son dərəcə ağır, dözülməz və çətin olmuşdur. Bu gün yeni mənzillərə köçürük. Sizin köməyiniz nəticəsində bu ağır şəraitdən qurtulduğumuza görə "Şəfəq" sanatoriyasında yaşayan bütün məcburi köçkünlər adından Sizə hədsiz dərəcədə təşəkkürümüzü və böyük hörmətimizi bildiririk.

Bu günlərdə ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisə baş vermişdir. Əgər 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdursa, bu ilin sentyabr ayında imzalanan yeni neft müqaviləsi XXI əsrin tarixi hadisəsi kimi cənab Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Ancaq hər iki tarixi hadisənin əsasında ulu öndər Heydər Əliyevin ideyaları dayanır. Ümummilli liderimiz Heydər Əliyevin davamçıları olan Prezidentimizin və Sizin apardığınız həm daxili, həm xarici uğurlu siyasət xalqımızın gözü qarşısındadır. Qarabağ torpağının, onun mədəniyyətinin, musiqisinin, rəsm əsərlərinin xarici ölkələrdə xüsusi təbliği nəticəsində bu gün dünya ictimaiyyəti Qarabağın, ümumilikdə Qarabağ mədəni irsinin sırf Azərbaycan xalqına məxsus olduğunu bilmişdir. Hər kəsin bildiyi kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan iqtisadiyyatına 800 milyard dollardan artıq zərər dəymişdir. Bu münaqişə nəticəsində 1 milyondan artıq insanımız qaçqın, məcburi köçkün vəziyyətinə düşmüşdür. Ümummilli liderimiz Heydər Əliyevin, cənab Prezidentin və Sizin apardığınız uğurlu siyasət nəticəsində bu gün dünya ictimaiyyəti Qarabağ münaqişəsi ilə bağlı bütün həqiqətləri bilir. Bunun məntiqi davamı olaraq ölkəmizə qaçqın və məcburi

köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Prezidentimiz İlham Əliyevin apardığı siyasət nəticəsində 2003-2017-ci illər ərzində 55 fərman və sərəncam imzalanmışdır. Dövlətimiz tərəfindən bu qəbildən olan insanların rifah halının yaxşılaşdırılması üçün 2001-2017-ci illər ərzində 96 qəsəbə salınıb, 152 məktəb, 58 mədəniyyət müəssisəsi, 59 tibb ocağı və digər sosial obyektlər tikilərək istifadəyə verilib. Məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi 75 faizdən 12 faizə enib.

Dünyanın heç bir yerində məcburi köçkünlərə Azərbaycandakı qədər diqqət və qayğı göstərilmir. Hətta Avropanın ən inkişaf etmiş ölkələrinə belə pənah aparan qaçqınların orada ən adi ehtiyaclarının ödənməsində bu dövlətlər çətinlik çəkirlər. Ümumilikdə, Azərbaycanda məcburi köçkünlər üçün görülən işlərin dünyada belə analoqu yoxdur. Bütün bu işlər isə cənab Prezidentimizin və Sizin gərgin əməyiniz, zəhmətiniz nəticəsində mümkün olub.

Hörmətli Birinci vitse-prezident, bu il mart ayının 9-da keçirdiyiniz müşavirədə Siz bildirdiniz ki, məcburi köçkünlər üçün çox işlər görülüb. Ancaq hələ də ağır şəraitdə, qəzalı binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşayır və onların yeni mənzillərlə təmin olunması üçün təcili və təxirəsalınmaz tədbirlər görülməlidir. Bu müşavirədən bir qədər sonra bu il may ayının 30-da Bakının Qaradağ rayonu ərazisində məcburi köçkünlər üçün salınacaq yeni qəsəbənin təməlqoyma mərasimində iştirak etdiniz. İyun ayının 27-də isə yenə də Masazır qəsəbəsində yeni tikilən mənzillərə məcburi köçkünlərin köçürülmə tədbirində şəxsən iştirak etdiniz. Bu gün bizimlə görüşürsünüz. Sizin qaçqın və məcburi köçkünlərlə bağlı apardığınız siyasət, fikirləriniz həm ictimaiyyətimiz, həm qaçqın və məcburi köçkünlər tərəfindən hörmət və rəğbətlə qarşılanmışdır. Mən bu fürsətdən istifadə edərək bir daha bütün qaçqın və məcburi köçkünlər adından göstərilən böyük diqqət və qayğıya görə Sizə səmimi və ürəkdən gələn minnətdarlığımı bildirirəm.

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətindən danışan Ağa Əhmədov Fondun xəstəlikdən əziyyət çəkən minlərlə insanın şəfa tapmasına kömək göstərdiyini, ötənilki aprel döyüşləri zamanı əlil olmuş bir qrup əsgər və zabitin sağlam həyat tərzi sürməsi üçün lazım olan bütün tədbirləri gördüyünü bildirdi.

Bunun ölkəmizdə şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, veteranlarının problemlərinin daim diqqət mərkəzində saxlanıldığını nümayiş etdirdiyini vurğulayan Ağa Əhmədov dedi:

-Biz məcburi köçkünlər çox yaxşı başa düşürük ki, bizə verilən bu gözəl mənzillər, yaradılan bu yaxşı şərait müvəqqəti xarakter daşıyır. Çünki hər bir məcburi köçkün və qaçqın öz ata-baba yurduna, doğma ev-eşiyinə qayıtmaq arzusu ilə yaşayır və inanırıq ki, mütləq qayıdacağıq. Bunu deməyə də əsaslar var. Azərbaycanın güclü liderinin olması, iqtisadiyyatımızın sürətli inkişafı, bölgədə ən güclü ordunun Azərbaycana məxsus olması və ən əsası xalqımızın cənab Prezidentin və Sizin ətrafınızda sıx birləşməsi bütün qaçqın və məcburi köçkünlərin öz doğma torpağına qayıdacaqları günü daha da yaxınlaşdı-

rır.

Mən cənab Prezidenti və Sizi əmin edirəm ki, əgər Ali Baş Komandan döyüş əmri verərsə, biz veteranlar, biz məcburi köçkünlər, əli silah tutan hər kəs işğal altında olan torpaqlarımızın azad edilməsi üçün döyüşməyə hər an hazırıq. Bunu ermənilər də bilir və çox gözəl anlayırlar ki, aprel döyüşləri bir də təkrarlansa Azərbaycan Ordusu İrəvan şəhərinə qədər gedib çıxacaq. Bu yaxın günlərdə cənab Prezidentimizin BMT-nin ali tribunasından dediyi kimi, əgər onlar yenə də təxribata əl atarlarsa, cavab zərbəsi apreldə olduğundan daha sarsıdıcı olacaq. Təbii ki, ermənilər bunun fərqindədirlər. Biz inanırıq ki, sonda yenə peşman olan ermənilər özləri olacaqlar.

Hörmətli Birinci vitse-prezident, mən bir daha ölkəmizdə qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə göstərdiyiniz bu böyük diqqət və qayğıya görə cənab Prezidentə və Sizə minnətdarlığımı bildirirəm. Azərbaycanın inkişafı yolunda gördüyünüz işlərdə Sizə yeni-yeni uğurlar arzulayıram.

XXX

Sonra Laçın rayonundan məcburi köçkün Kəmalə QULİYEVA çıxış etdi. O da qaçqınlara və məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirdi. Ölkəmizin gündən-günə daha da gözəlləşdiyini və gücləndiyini deyən Kəmalə Quliyeva ordumuzun da qüdrətini vurğuladı, aprel döyüşlərində torpaqlarımızın bir hissəsinin geri qaytarıldığını, bu gün həmin torpaqlarda yeni qəsəbənin salındığını, müasir evlərin inşa edildiyini, insanların öz doğma yurdlarına qayıtdığını qeyd edərək dedi:

-Hörmətli Mehriban xanım, biz Azərbaycan qadınları Sizinlə qürur duyuruq, Sizinlə fəxr edirik. Ulu Öndərimizin dediyi kimi, "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Bizim belə rəhbərlərimiz var.

Mən uşaqlıqda çox acınacaqlı həyat tərzi keçirdim. Torpaqlarımız işğal edildi. Bizim kəndin uşaqlarını avtobusa yığıb kənddən çıxardılar. Mənim anam avtobusdan düşüb qonşu uşaqlara yer verdi. Laçından çıxan sonuncu adamlardan biri də mənim anamdır. Mən kəndimizdən çıxdığımız, ayrıldığımız günü heç vaxt unutmaram. Əmimgil və biz dörd valideyn, on uşaq bir vaqonda yaşadıq. Nənələrimizin toxuduğu Qarabağ xalçalarını yox, qamışı hörüb döşəməyə saldıq. Biz Vətənimizi, yurdumuzu, evimizi, baba-nənələrimizin qəbirlərini itirməklə yanaşı, doğmalarımızı da itirdik. Laçın rayonunun Alxaslı kəndi Qarabağ uğrunda döyüşlərdə 10 şəhid verdi. Beş Qarabağ müharibəsi əlilimiz var. Buna görə mən heç vaxt özümü xoşbəxt hiss etməmişəm. Amma bu gün mən çox xoşbəxtəm. Bu gün biz qəzalı evdən, çətin şəraitdən yeni rahat evlərə köçürülürük. İndi mənim öz mənzilim, uşaqlarımın isə öz otaqları olacaq. Bizlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkürümüzü bildiririk. Bundan da xoşbəxt günüm yalnız o vaxt olacaq ki, cənab Prezidentimiz və Siz çiyin-çiyinə verib, əl-ələ tutub Azərbaycanın üçrə-

ngli bayrağını Xankəndinə, Laçına, Şuşaya, Qarabağa, Cıdır düzünə taxacaqsınız. Azərbaycanın dövlət himni Laçın dağlarında səsləndiriləcək, Laçın dağlarına əks-səda salacaqdır. O vaxt bizim gözlərimizdən sevinc yaşları axacaq. Allah Sizə və ailənizə xoşbəxtlik və cansağlığı nəsib etsin.

XXX

Daha sonra Ağdam rayonundan məcburi köçkün Aysel BƏŞİROVA çıxış etdi. Mehriban Əliyevanın bir çox sahələri əhatə edən fəaliyyətini yüksək dəyərləndirən A.Bəşirova onun hər zaman xalqı narahat edən məsələləri, o cümlədən məcburi köçkünlərin problemlərini diqqətdə saxladığını, bu məsələlərin tezliklə həllinə çalışdığını vurğulayaraq bildirdi:

- Əzizimiz Mehriban xanım, biz bilirik ki, Heydər Əliyev Fonduna rəhbərlik etdiyiniz, Milli Məclisin deputatı olduğunuz vaxtlarda ölkə həyatının elə bir sahəsi olmayıb ki, mövcud problemli məsələlər Sizin diqqətinizdən kənarda qalsın. Neçə-neçə məktəb, uşaq bağçası, səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Aztəminatlı ailələrə, ehtiyacı olan insanlara, uşaqlara, biz məcburi köçkünlərə hər zaman yardım etmisiniz, həmişə bizə diqqət və qayğı göstərmisiniz. Bu xeyirxah missiyanı bu gün də uğurla davam etdirirsiniz. Buna görə də hamı Sizi sevir, Sizin gördüyünüz işləri alqışlayır.

Biz cənab Prezidentlə və Sizinlə fəxr edir, qürur duyuruq. Cənab Prezidentin və Sizin sayənizdə ölkəmizin iqtisadi inkişafı göz qabağındadır. Dünyanın heç bir xarici ölkəsində qaçqınlara və məcburi köçkünlərə bizdəki qədər diqqət və qayğı göstərilmir. Biz bunu gündəlik həyatımızda həmişə hiss edirik. Elə bugünkü tədbir də bunun əyani sübutudur.

Hörmətli Mehriban xanım, qəzalı binada məskunlaşmış məcburi köçkünlər adından bu diqqətə, qayğıya, 24 il ərzində yaşadığımız ağır şəraitdən bizi qurtardığınıza, bizə gözəl şəraitli mənzillər verdiyinizə görə cənab Prezidentə və şəxsən Sizə dərin minnətdarlığımızı bildirirəm.

Hörmətli Mehriban xanım, dünyanı siyasi böhran, xaos bürüdüyü zaman Azərbaycanda sabitlikdir, əmin-amanlıqdır, davamlı inkişafdır. Cənab İlham Əliyevin adı ilə bağlı olan XXI əsrin neft müqaviləsi isə növbəti illərdə ölkəmizdə iqtisadi inkişafın əsasını təşkil edəcəkdir. Bir çox ölkələrin iqtisadi vəziyyəti ildən-ilə pisləşir. Elə götürək Ermənistanı. Səriştəsiz Ermənistan rəhbərliyi ucbatından əhali ölkəni tərk edir, yerdə qalanlar isə acınacaqlı vəziyyətdə yaşayırlar.

Əzizimiz Mehriban xanım, biz Sizin, cənab Prezidentimizin və Ordumuzun gücünə inanırıq. İnanırıq ki, tezliklə öz doğma yurdumuza qayıdacağıq və həmin torpaqlarda üçrəngli bayrağımız yenidən yüksələcəkdir.

Hörmətli Mehriban xanım, biz məcburi köçkünlərə, qadınlara və uşaqlara göstərdiyiniz bu diqqətə, qayğıya görə bir daha Sizə dərin minnətdarlığımızı bildiririk.

Gördüyünüz misilsiz işlər üçün Azərbaycan xalqı və biz məcburi köçkünlər Sizə əhsən deyirik, Sizi sevirik. Cənab Prezidentimizlə, Sizinləyik və sizinlə birlikdə irəliləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

XXX

Sonra Azərbaycanın Birinci vitse-prezidenti binalardakı mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, burada ikisi 80, biri isə 50 mənzilli olmaqla 3 bina inşa edilib. Bu cür layihələrin icrası bir daha sübut edir ki, dövlətimiz məcburi köçkünlərin mənzillərlə təmin olunmasına, onların sosial məsələlərinin həllinə daim böyük diqqətlə yanaşır. Belə binaların inşası həm də bu qəbildən olan vətəndaşlarımızın sosial şəraitinin yaxşılaşdırılması istiqamətində icra edilən layihələrin davamlı olduğunu nümayiş etdirir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Laçın rayonundan olan məcburi köçkün İnnaf Nəcəfovanın mənzilində oldu.

Mehriban Əliyeva: Salam. Xoş gördük.

İnnaf Nəcəfova: Xoş gəlmisiniz. Buyurun, Mehriban xanım.

Mehriban Əliyeva: Siz hansı binadan köçmüsünüz?

İnnaf Nəcəfova: Biz "Şəfəq" sanatoriyasından köçmüşük. Biz müvəqqəti olaraq orada məskunlaşmışdıq.

Mehriban Əliyeva: Hansı rayondansınız?

İnnaf Nəcəfova: Laçın rayonundan. Orada çox ailə var. Yetmişə yaxın ailə laçınlıdır. Biz orada məskunlaşmışdıq. Vəziyyət haqqında danışmaq çətindir. Çox çətin idi.

Mehriban Əliyeva: Çox yaxşı bilirəm. Amma indi çox şadam ki, nəhayət belə gözəl şəraitdə ailənizlə, uşaqlarınızla yaşayacaqsınız.

İnnaf Nəcəfova: Çox gözəldir. Sizin sayənizdə. Bu gün mənim həyatımın ən möcüzəli günüdür. Mən demişdim ki, hansı zaman mən mənzillə təmin olunsam həmin günü doğum günüm elan edəcəyəm. Ona görə ki, mənə elə gəlir bu gün ikinci dəfə dünyaya gəlirəm. Sizin sayənizdə Mehriban xanım, hörmətli Prezidentimizin sayəsində.

Mehriban Əliyeva: Çox sağ olun.

İnnaf Nəcəfova: Yəni, mən qaçqın düşəndən sonra beş il Ağcabədi rayonunda işləmişəm. O zaman mən qazmalarda, çadır şəhərciklərində yaşayan insanları görmüşəm. Əziyyət çəkən o qədər insan görmüşəm ki, bu gün mənim üçün doğrudan da möcüzədir. Bütün bunlar Ulu Öndərimizin, müdrik Prezidentimizin, Sizin sayənizdə olub. Ona görə də mən elə bilirəm ki, gözəl bir yuxudayam. Yəni, o müharibənin içindən çıxmış adam yatır, səhəri gözəl bir yuxu ilə açır, elə bir vəziyyətdəyəm. Çox minnətdaram dövlətimə, hökumətimə, hörmətli Prezidentimə.

Hörmətli Prezidentim dünya səviyyəsində tanınır. O gün BMT-nin Baş Assambleya-

sındakı çıxışına mən çox fəxarətlə, qürur hissi ilə qulaq asdım. Hətta mən ayağa qalxıb Prezidentin çıxışını televizorun qarşısında dinləyirdim. Sizin Leyla xanımla bərabər orada Prezidentin yanında olmağınız özü də böyük fəxarətdir. Sizin dünya səviyyəli görüşlərinizin, yardımlarınızın, məscidlərdə, kitabxanalarda, muzeylərdə, həm dövlətimizin daxilində, həm də xaricdə olan işlərinizin hamısını izləyirəm. Bunlar mənə bir insan kimi, bir vətəndaş kimi zövq verir. Bu, Azərbaycanını sevən, xalqını sevən Prezidentimin və Sizin sayənizdə mümkün olmuşdur.

Mən rayonlara tez-tez gedirəm. Hər dəfə gedəndə rayonlarda, yollarda gözəl yeniliklər görürəm. Bütün bu yeniliklərin, bu layihələrin, gözəlliklərin hamısının müəllifi hörmətli Prezidentim və Sizsiniz. Buna görə də bütün respublikanı gözəlləşdirdiyinizə, həyatımızı gözəlləşdirdiyinizə görə Sizə çox minnətdarıq. Bütün məcburi köçkünlər adından Sizə dönə-dönə təşəkkür edirəm. Cocuq Mərcanlının açılışı olanda mən çox sevinirdim. Möcüzədir, hər şey. Bir neçə ayın içərisində gözəl bir qəsəbə yaratmaq, 50 ev, sonra 100 ev tikmək, bu, asan məsələ deyil. Bu, dövlətin qüdrətindən, Prezidentin gözəl siyasətindən, xalqa yaxın olmaqdan, onun içərisində olmaqdan irəli gəlir.

Siz Şamaxıda olarkən təndir çörəyi yeməyiniz bilirsiniz mənə nə qədər ləzzət elədi.

Mehriban Əliyeva: Mənə də çox ləzzət elədi. Sağ olun.

İnnaf Nəcəfova: Mehriban xanım, inanın o elə gözəl mənzərə idi ki, onu sözlə təsvir etmək çox çətindir. Mən elə bilirəm ki, sözlər mənə azlıq edir, mən sevincimi, minnətdarlığımı elə bilirəm çox az şəkildə ifadə edirəm.

Mehriban Əliyeva: Çox sağ olun. Mən çox minnətdaram. Mən də sizə söyləmək istəyirəm ki, düz deyirsiniz, cənab Prezidentin bütün fəaliyyəti Azərbaycanın inkişafına həsr olunub. Onun üçün bu dünyada Azərbaycanın maraqlarından, Azərbaycan xalqının yaxşı yaşamasından üstün heç bir şey yoxdur. Amma bizim güc mənbəyimiz sizlərsiniz. Siz indi Şamaxıya səfərimizi yada saldınız. Belə səfərlərdə həm insanlarla ünsiyyətdə olursan, həm də o abadlığı, yeni yolları, yeni qəsəbələri, abadlaşmış turizm infrastrukturunu görürsən və başa düşürsən ki, bizim çox gözəl xalqımız var, çox bacarıqlı, istedadlı insanlarımız var. Siz öz taleyinizi danışdınız. Doğrudan da o dəhşətli hadisələrin iştirakçısı, o dəhşətli günlərin şahidi olmağınıza, sonra 20 ildən çox çətin şəraitdə, köçkün vəziyyətində, qəzalı binada yaşamağınıza, öz doğma torpağınıza, öz evinizə gedə bilməməyinizə baxmayaraq, siz ruhdan düşməmisiniz, işləmisiniz, çalışmısınız, ölkənin inkişafına töhfənizi vermisiniz, övladlar, nəvələr, nəticələr böyütmüsünüz. Bu, adamın ürəyində çox böyük hörmət və məhəbbət doğurur. Mən də sizə öz dərin hörmətimi və məhəbbətimi çatdırıram. İnanın ki, bu gün siz nə qədər sevinirsinizsə, mən də o qədər sevinirəm. Çünki görürəm ki, uzun illərdir doğrudan da əzab-əziyyət çəkən insanların yaşayış şəraiti bu gün yaxşılaşır. Yeni mərhələ başlayır. Bunu görəndə daha artıq qüvvə ilə çalışmaq istəyirəm ki, problemlər olmasın, onlar aradan qaldırılsın. Əminəm ki, biz buna nail olacağıq. Çətin vəziyyətdə yaşayan bütün qaçqın və məcburi köçkün ailələri ardıcıl olaraq belə gözəl yeni mənzillərə, yeni evlərə köçürüləcəklər. Əlbəttə ki, ən böyük

arzumuz Qarabağ torpağına qayıtmaqdır. Mən bir daha deyirəm, Allahın köməyi, cənab Prezidentin müdrik siyasəti və insanların dəstəyi ilə buna da nail olacağıq.

İnnaf Nəcəfova: İnşallah. Mən arzu edirəm ki, belə bir təntənəni, belə bir gözəl günü hörmətli Prezidentim, dəyərli Baş Komandanım və Sizinlə birlikdə Laçında qeyd edək. Allah Sizlərə uzun ömür versin. Bu yolda çəkdiyiniz əziyyətin bəhrəsi həmişə gözəl olsun, Sizi də, xalqı da sevindirsin. Sizə və ailənizə ən səmimi duyğularımla təşəkkürümü, minnətdarlığımı bildirirəm. Allah hörmətli Prezidentimin canını sağ eləsin. Analarımız demişkən, hər yerdə sözü keçərli, ötkəm, qılıncdan iti olsun. Azərbaycan qadınını hər yerdə gözəl təmsil edirsiniz. Mehriban xanım, Siz Azərbaycan qadınını dünya çapında tanıtmısınız. Bu, çox ağır bir yükdür, Siz bu yükü öz zərif çiyinlərinizdə gəzdirirsiniz. Bax buna görə də Sizə ayrıca minnətdarlığım var. Arzu edirəm ki, hörmətli Prezidentim və Birinci vitse-prezident olaraq Siz Azərbaycanın gələcəyi üçün nə qədər çalışırsınızsa Allah bu yolda Sizə çəkdiyiniz yolların genişliyi, işıqlığı qədər ömür, səbr, dəyanət versin. Bir daha hörmətli Prezidentimə, Sizə və ailə üzvlərinizə minnətdarlığımı bildirirəm.

Mehriban Əliyeva: Çox sağ olun. Prezidentin də böyük salamlarını və təbriklərini sizə çatdırıram. Qoy, həyatınız nurla dolsun, xoşbəxt olsun. Çox sağ olun.

XXX

Sonra xatirə şəkli çəkdirildi.

# Heydər Əliyev Fondu çoxlarının ümid yerinə çevrilib

Bütün dövrlərdə xalqının gələcəyini düşünənlər, ilk növbədə, onun təhsilinə böyük diqqət və qayğı ilə yanaşırlar. Azərbaycanın azad, müstəqil, güclü dövlət olması uğrunda həyata keçirilən məqsədyönlü işlərin, ən böyük əməllərin ilk sırasında da hər zaman maarifçilik məsələləri dayanır. Çünki təhsil beyinlərdən süzülən işıqdır. Onsuz millətin, dövlətin sabahı nurlu, gələcəyi uğurlu ola bilməz. Bu mənada, Heydər Əliyev Fondunun və onun rəhbəri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təhsilin inkişafına verdiyi dəstək təqdirəlayiqdir.

Hər bir sahədə müvəffəqiyyət qazanmaq üçün, ilk növbədə, ona gedən yolda qarşıya çıxan maneələr aradan qaldırılmalı, problemlər həllini tapmalıdır. Təhsildə böyük nailiyyətlər əldə etmək üçün də infrastruktur yeniləşdirilməli, müasir tipli məktəblər inşa olunmalı, təlim-tədris prosesinə lazımi şərait yaradılmalı, dünya ölkələrinin bu sahədə mütərəqqi ənənələri nəzərə alınmalıdır. Bu amillər müstəqil Azərbaycanın dövlət siyasətində mühüm yer tutur. Dövlət başçısı İlham Əliyevin təhsil sahəsi ilə bağlı imzaladığı dövlət proqramlarında, həmçinin digər sənədlərdə yeni məktəblərin inşası, tədrisin keyfiyyətinin yüksəldilməsi və başqa zəruri məsələlər əksini tapıb. Heydər Əliyev Fondu həmin proqramlar çərçivəsində həyata keçirilən işlərdə yaxından iştirak edir.

Fondun maarifçilik sahəsindəki fəaliyyəti genişdir. Bu qurum ilk vaxtlardan təhsilin inkişafına öz töhfələrini verir. Fondun əsas məqsədlərindən biri Azərbaycan təhsilinin dünya standartlarına yüksəlməsi yolunda çalışmaqdır.

Heydər Əliyev Fondunun reallaşdırdığı "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Dağlıq Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması", "Təhsilə dəstək" kimi iri-miqyaslı layihələr ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycanda təhsilin yüksək səviyyədə inkişafı, müasir dövrün tələbləri ilə ayaqlaşmağı bacaran yeni nəslin təlim-tərbiyəsi istiqamətində tədbirlər böyük həssaslıqla düşünülüb həyata keçirilir. Bunun üçün ölkədə uşaqların məktəbəqədər təhsilinə, tərbiyəsinə də xüsusu diqqət ayrılır. Heydər Əliyev Fondu tərəfindən 2017-ci ildə də "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində mühüm işlər görülüb. Belə ki, cari ildə Saatlı, Qax, Samux və digər rayonlarda körpələr evi-uşaq bağçaları inşa edilib. Həmin təhsil müəssisələrinin açılış mərasimlərində Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib.

Heydər Əliyev Fondunun əsas məqsədi təhsil sahəsində mövcud problemlərin həllinə kömək etmək, ölkədə müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirməkdir. Bu baxımdan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi

çərçivəsində 2005-2014-cü illərdə ölkənin müxtəlif bölgələrində 412 məktəb binası inşa olundu və yenidən quruldu. Təhsil ocaqlarının hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi yaradıldı. İndi həmin məktəblərdə 100 mindən çox şagird yüksək səviyyədə təhsil alır, dövlətimizin, xalqımızın ümidi kimi yetişir.

Sevindirici haldır ki, bu istiqamətdə böyük işlər davam etdirilir. Cari ildə də ölkə başçısının tapşırığı, Heydər Əliyev Fondunun dəstəyi ilə yeni məktəb binaları tikilib istifadəyə verilib. İnşa edilən 71 məktəb binasının 61-i modul tiplidir. Eyni zamanda, 12 məktəb binasında əsaslı, 460-da isə cari təmir işləri aparılıb. 24 məktəb binasında isə cari təmir işləri sona çatıb.

Məktəblərin əyani vəsait və dərs ləvazimatları ilə təmin olunması da tədrisin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Hər il keçirilən silsilə aksiyalar təhsil sahəsində qarşıya çıxan bir sıra problemlərin həllinə kömək edir. "Təhsilə dəstək" layihəsi məktəblərin yeni dərslik, tədris vəsaitləri ilə təmin edilməsinə, məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, təhsilin keyfiyyətinin artırılmasına xidmət edən tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Fond tərəfindən Ermənistanın Azərbaycan torpaqlarının işğalı nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə hər il məktəbli çantaları və dərs ləvazimatı hədiyyə olunur.

Heydər Əliyev Fondu Gürcüstanda yaşayan həmyerlilərimizi də unutmur. Onların təhsillə bağlı problemlərinin aradan qaldırılmasına hər il böyük yardım göstərir. Ümumiyyətlə, fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulub və əsaslı təmir olunub. Layihə çərçivəsində Pakistanda qızlar üçün yeni orta məktəb binası, Gürcüstanın Dmanisi rayonunda, Rusiyanın Ulyanovsk şəhərində, Misir Ərəb Respublikasında yeni məktəblər tikilərək istifadəyə verilib. Bu böyük işlər Azərbaycanın humanist mövqeyinin təsdiqidir.

Neçə illərdir ki, Heydər Əliyev Fondu çoxlarının ümid yerinə çevrilib. Fondun qarşıya qoyduğu əsas vəzifələrdən biri də kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli kimi vacib məsələdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində görülən tədbirlər bu məktəblərdə mövcud problemlərin aradan qaldırılmasına yönəldilib. Yaşı 18-dən yuxarı olan, uşaq evlərini tərk edən gənclərin mənzillə təminatı Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan ən xeyirxah əməllərdəndir.

Azərbaycan təhsilini beynəlxalq səviyyəyə yüksəltmək üçün bütün imkanlardan istifadə edən Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində uğurlu işlər aparır, bir çox tədbirlər həyata keçirir.

Heydər Əliyev Fondu Azərbaycan təhsilinin inkişafı yolunda aparılan bütün layihələrə dəstək verir. Bunlardan biri də Azərbaycanın ali təhsil tarixində ilk dəfə tətbiq olu-

nan, xüsusi istedadı ilə seçilən və təhsildə göstəriciləri ilə fərqlənən tələbələrə yüksək keyfiyyətli təhsil almaq üçün əlverişli şəraitin yaradılması məqsədi daşıyan SABAH qrupları layihəsidir. Bu il iyunun 4-də Heydər Əliyev Mərkəzində keçirilən "SABAH-ın məzunu" mərasiminə Mehriban xanım Əliyevanın ünvanladığı təbrik məktubu bunun daha bir bariz nümunəsi oldu. O, məktubunda SABAH layihəsinin ölkə Prezidenti tərəfindən 2013-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası çərçivəsində həyata keçirilən mühüm təşəbbüslərdən biri olduğunu diqqətə çatdırıb. SABAH-ın ilk məzunlarına uğurlar arzulayan Mehriban Əliyeva ölkəmizin sürətlə qloballaşan dünyaya inteqrasiyasında təhsilli gənclərin üzərinə böyük missiya düşdüyünü qeyd edib. SABAH könüllülərinin ölkəmizdə keçirilən iri-miqyaslı beynəlxalq tədbirlərdəki roluna da toxunan Birinci vitse-prezident könüllülüyün, yardımsevərliyin vacib vətəndaş keyfiyyətləri olduğunu vurğulayıb.

Azərbaycanın tədris müəssisələrində yeni dərs ili başlayır. Təhsil ocaqlarımız öz qapılarını şagirdlərin, tələbələrin üzünə açır. Onlar Azərbaycanın ümidi, gələcəyidirlər. Bu da həqiqətdir ki, yüksək təhsil uğurun açarıdır. Bu gün orta məktəblərdə, orta ixtisas və ali təhsil müəssisələrində oxuyanlar aldıqları savadla, öyrəndikləri biliklərlə Azərbaycanı yeni nurlu sabahlara qovuşduracaq, xalqımızın, dövlətimizin tarixinə yeni parlaq səhifələr yazacaq. Heydər Əliyev Fondunun Azərbaycanda təhsilin inkişafı istiqamətində gördüyü çoxsaylı işlər, xeyirxah əməllər bu böyük məqsəd yolunda atılan qətiyyətli addımlardır.

*Elmira Şükürova,*
*Kəlbəcər rayon Təhsil Şöbəsinin müdiri*

# Heydər Əliyev Fondunun daha bir töhfəsi

## *Mehriban xanım Əliyeva Xətai rayonundakı 3 nömrəli uşaq evində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub*

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Xətai rayonundakı 3 nömrəli uşaq evində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olub, uşaq evinin sakinləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu gündən paytaxtdakı daha bir uşaq evinin sakinləri ən müasir tələblərə cavab verən binada yaşayacaqlar. Xətai rayonundakı 3 nömrəli uşaq evi əsaslı təmir və bərpadan sonra kimsəsiz və valideyn himayəsindən məhrum uşaqların istifadəsinə verilib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva müəssisənin təmirdən əvvəlki vəziyyətini əks etdirən fotostendə baxdı.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, bu uşaq evinin binası 1976-cı ildə 12 qrupluq körpələr evi – uşaq bağçası üçün inşa edilib. 1990-cı ildən 110 yerlik uşaq evi olaraq fəaliyyətini davam etdirib.

Azərbaycanın birinci xanımı uşaq müəssisəsində yaradılan şəraitlə tanış oldu. Müəssisədə kimsəsiz və valideyn himayəsindən məhrum olan 107 uşaq yaşayıb tərbiyə alır. Uşaq evinin 3 yaşdan 18 yaşadək sakinlərinin təlim-tərbiyəsi ilə 44 nəfər pedaqoji, texniki və tibb işçisi məşğul olur. Burada rəqs, vokal, evdarlıq, xalçaçılıq, rəsm dərnəkləri fəaliyyət göstərir.

Otaqları gəzən Mehriban Əliyeva uşaq evinin sakinləri ilə söhbət etdi, onların qayğıları və arzuları ilə maraqlandı.

Söhbət zamanı uşaq evinin sakini Sənan Məmmədov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın kimsəsiz və valideyn himayəsindən məhrum uşaqlarla görüşlərindən birini xatırladı. Bildirdi ki, həmin görüş zamanı Leyla Əliyeva uşaqların istək və arzuları ilə maraqlanıb. Sənan isə ciddi göz xəstəliyindən əziyyət çəkdiyini deyərək, ən böyük arzusunun səhhətindəki bu problemin həll edilməsi olduğunu söyləyib. Heydər Əliyev Fondunun vitse-prezidentinin dəstəyi ilə Sənan uğurla əməliyyat olunub və hazırda onun görmə qabiliyyəti ilə yaşanan çətinliklər həll edilib. Sənan Məmmədov ən böyük arzusuna çatdığına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirdi.

Müasir üslubda təmir və bərpa olunan uşaq evi zəruri mebel – inventar və avadanlıqla təchiz edilib. Binada videomüşahidə, internet və yanğın xəbərverici sistemləri yaradılıb. Azərbaycan Prezidentinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrası çərçivəsində,

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə 2014-cü ilin iyul ayında başlanan əsaslı təmir-tikinti və bərpa işləri 2016-cı ildə başa çatıb.

Müəssisənin zəngin kitabxanası da var. Azərbaycanın birinci xanımı uşaqlar arasında kitab oxumağı təbliğ etməyin vacibliyini bildirdi.

Əsaslı təmir zamanı əlavə yeməkxana, gimnastika, idman və akt zalları, valideynlərlə görüş otağı inşa edilib. Təmirdən sonra uşaq evinin binasının sahəsi 590 kvadratmetr artaraq 2126 kvadratmetr təşkil edir.

Həmişə olduğu kimi, bu dəfə də uşaq evinin sakinləri Mehriban Əliyevanın əhatəsinə toplaşdılar, ən böyük dost saydıqları Azərbaycanın birinci xanımına bacarıqlarını nümayiş etdirdilər, şeir söylədilər, birgə foto çəkdirdilər.

Müəssisənin həyətində süni yaşıl örtüklü idman meydançası yaradılıb, yaşıllıq salınıb, ərazidə və binanın fasadında müasir işıqlandırma sistemi, uşaqların istirahəti üçün dekorativ oturacaqlar quraşdırılıb.

Heydər Əliyev Fondu ölkədəki bütün uşaq evləri kimi, 3 saylı uşaq evinin sakinlərini də hər zaman diqqət və qayğısı ilə əhatə edir. Yay aylarında bu uşaqlar Fondun dəstəyi ilə Buzovna qəsəbəsində inşa edilən və müasir tələblərə cavab verən dördmərtəbəli sağlamlıq-istirahət mərkəzində dincəlirlər.

Uşaq evinin məzunları da Fondun dəstəyini hər zaman hiss edirlər. Belə ki, hərbi xidmətini başa vuran uşaq evinin keçmiş sakinləri neft emalı zavodunda iş və yataqxana ilə təmin olunurlar. Müəssisənin qız məzunları isə Masazırda uşaq evlərinin məzunları üçün inşa edilən binada yaşayırlar.

Uşaq evində yaradılan şəraitdən razı qalan Mehriban Əliyeva müəssisənin kollektivinə uğurlar arzuladı.

# Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü Azərbaycan, budur bizim əsas prinsipimiz

## *Prezident İlham Əliyev Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni binasının açılışında iştirak edib*

Sentyabrın 15-də - Bilik günündə Bakının Yasamal rayonundakı Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni inşa edilmiş binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Təhsil naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, 20 nömrəli məktəb-liseyin əsası 1958-ci ildə qoyulub. 1988-ci ildə məktəbin daha 4 korpusu tikilib istifadəyə verilib. 2007-ci ildə isə Prezident İlham Əliyevin Sərəncamı ilə məktəbin binası əsaslı şəkildə təmir edilib. Elə həmin il sentyabrın 15-də - Bilik günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məktəbdə aparılan yenidənqurma işləri ilə tanış olublar. Sonradan ərazidə əhalinin çoxalması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında da böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi zərurətə çevrilib. Bunu nəzərə alan Prezident İlham Əliyev müvafiq göstəriş verib və bu təhsil ocağı üçün əvvəlkindən daha böyük, ən müasir və dünya standartlarına uyğun yeni bina inşa edilib. Ölkəmizin ən böyük təhsil müəssisəsi olan 20 nömrəli məktəb-liseyin binası indi paytaxtın müasir və memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlətimizin başçısı məktəb-liseyin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətdə təşkili üçün hər cür şəraitə malikdir. Təhsil ocağında məktəbəqədər hazırlıq sinifləri də nəzərdə tutulub. Bununla yanaşı, burada 8 sinifdən ibarət olan Məktəbəqədər Təhsil Mərkəzi də fəaliyyət göstərəcək. Hazırda məktəb 4000 şagird yerlikdir. Yenidənqurmadan əvvəl isə bu təhsil ocağı cəmi 2500 yerlik olub. Burada 145 sinif otağı və fənn kabinetləri, həmçinin 7 laboratoriya var. Azərbaycan və rus bölmələri ilə birlikdə ümumilikdə 119 sinifdə 3300 şagird təhsil alır. Təhsil ocağında 260 müəllimdən ibarət pedaqoji heyət çalışır.

Məktəbdəki Heydər Əliyev Muzeyi də eksponatlarının zənginliyi ilə seçilir. Burada Ulu Öndərin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən maraqlı fotolar, sənədlər və kitablar toplanıb. Muzeydə yaradılan müxtəlif fotostendlər, nümayiş etdirilən əyani vəsaitlər Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayacaq.

Qeyd edək ki, paytaxtın bəzi təhsil müəssisələrində olduğu kimi, bu məktəbdə də "Məktəblinin dostu" layihəsi icra olunacaq. Təhsil Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkil etdiyi layihənin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, ilkin tibbi və psixoloji yardım göstərmək, şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə mütəmadi olaraq maarifləndirmə və diaqnostik işlər aparmaqdır.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də neft gəlirləri Azərbaycanda həm də təhsilin, elmin inkişafına yönəlib.

İyirmi nömrəli məktəb-lisey üçün yeni binanın inşası bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilk dəfə məktəbə qədəm qoyan birinci sinif şagirdləri ilə görüşdülər, onları Bilik günü münasibətilə təbrik etdilər. Bildirildi ki, builki tədris ilində ilk dərs məşğələsi "Cocuq Mərcanlı - tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunub. Məqsəd uşaq və gənclərə Azərbaycan Ordusunun 2016-cı il aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlar və işğaldan azad olunan torpaqlarımıza qayıdışın rəmzinə çevrilən Cocuq Mərcanlı kəndi haqqında daha dolğun məlumatların verilməsidir.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şagirdlərlə xatirə şəkli çəkdirdilər.

Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.

İyirmi nömrəli məktəb-liseydə yaradılan şərait həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Çünki dövlətin

yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.

Sonra Prezident İlham Əliyev məktəbin müəllim və şagird kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Sabahınız xeyir olsun. Mən, ilk növbədə, sizi yeni dərs ili münasibətilə təbrik etmək istəyirəm. Bu dərs ilində siz yeni məktəbdə oxuyacaqsınız, işləyəcəksiniz. Bütün şagirdləri, müəllimləri bu gözəl hadisə münasibətilə təbrik edirəm.

İyirmi nömrəli məktəb indi dünyanın ən yüksək standartlarına cavab verir. Bəlkə də biz özümüz yeni standartları müəyyən edirik. Bu məktəbin çox böyük tarixi var, həmişə ölkəmizin ən böyük məktəbi olmuşdur və bu gün də ölkəmizin ən böyük məktəbi kimi öz fəaliyyətini yeni binada davam etdirir.

Təxminən 10 il bundan əvvəl məktəbin təmiri ilə bağlı müəyyən tədbirlər görülmüşdü, mən bu məktəbdə olmuşdum. Təmir işləri aparılmışdı, o vaxt üçün bəlkə də pis aparılmamışdı, ancaq bizim bugünkü inkişafımızın səviyyəsinə uyğun gəlmirdi. Ona görə də qərar qəbul olundu ki, məktəbin binası sökülsün və yeni məktəb tikilsin. Xatırlayıram, o vaxt da valideynlər, müəllimlər tərəfindən müxtəlif fikirlər, narahatlıqlar var idi ki, bu məktəb söküləcək və yerində başqa bir bina tikiləcək. Bəzən olur, şəhərimizdə belə şayiələr gəzir, ancaq əlbəttə ki, onların heç bir əsası yox idi. Bizim planlarımız elə bəri başdan ondan ibarət idi ki, bu yerdə, 20 saylı məktəbin tarixi yerində yeni gözəl məktəb tikilsin və biz bunu da etdik. İki il yarım ərzində möhtəşəm bir bina tikildi. Tam əminliklə demək mümkündür ki, bu gün ölkəmizin ən böyük və ən gözəl məktəbi 20 saylı məktəbdir. Bu adı qazanmaq hazırda o qədər də asan deyil. Çünki son illərdə həm Bakıda, həm bölgələrdə bir çox gözəl məktəblər tikilib. Məktəblərin bəziləri memarlıq abidələridir. Bu gün 20 saylı məktəb doğrudan da bütün məktəblər arasında gözəlliyi, rahatlığı və təchizatı ilə fərqlənir. Əminəm ki, burada təhsilin keyfiyyəti də ən yüksək səviyyədə olacaqdır.

Son illər ərzində Bakı şəhərində demək olar ki, məktəblərin tam əksəriyyəti əsaslı təmir olunub, yeni korpuslar, yeni məktəblər tikilib. Bakıda 300-dən çox məktəb var. Son məlumata görə, təmirə ehtiyacı olan məktəblərin sayı təqribən 20-yə yaxındır. Əminəm ki, gələn il və əgər çatdıra bilməsək, 2019-cu ildə Bakının bütün məktəbləri ən yüksək standartlara cavab verəcək.

Bu il Bakı şəhərində 10 məktəb əsaslı təmir olunub, biri tikilib. Ölkə üzrə isə 70-dən çox məktəb əsaslı təmir olunub, tikilib. Tikinti işləri davam edir. Bilirsiniz ki, bölgələrdə, ucqar kəndlərdə indi modul tipli məktəblər tikilir. Onlardan 100-ü bu il və gələn il istifadəyə verilməlidir. Beləliklə, qəzalı məktəblərlə bağlı olan problem də əminəm ki, yaxın iki-üç il ərzində öz həllini tam tapacaq.

Azərbaycanda məktəb tikintisi sürətlə gedir. Bu prosesə ilk təkanı Heydər Əliyev

Fondu vermişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin başlanması geniş bir hərəkata yol açdı. Ondan sonra dövlət xətti ilə bir çox məktəblər tikildi. 2004-cü ildən bu günə qədər 3 mindən çox məktəbdə əsaslı təmir işləri aparılmışdır, bir çox məktəblər yenidən tikilmişdir. Bu proses davam edir və davam edəcəkdir. Çünki hələ qəzalı vəziyyətdə məktəblər var və digər tərəfdən Azərbaycanın uğurlu iqtisadi inkişafı ona gətirib çıxarır ki, Azərbaycanda əhalinin sürətli artımı müşahidə olunur. Bu, çox müsbət haldır, ölkəmizin inkişafını göstərir. Əhalimiz nə qədər artsa, ölkəmiz o qədər də güclənəcək. Məktəblərə gedən uşaqların sayı hər il artır. Belə olan halda əlbəttə ki, məktəb tikintisi prosesi daim təmin edilməlidir.

Məktəblərin, təhsilin, ümumiyyətlə, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə yanaşı, təhsilin keyfiyyəti də artır. Biz bunu görürük və son illərdə bu, özünü artıq büruzə verir. Bu, ali məktəblərə qəbul imtahanlarında özünü göstərir. Bizim məktəblərimiz beynəlxalq fənn olimpiadalarında yaxşı nəticələr göstərirlər. Mənə verilən məlumata görə, 40 medal qazanmışlar, onların arasında qızıl medal da var. Yəni, təhsilin keyfiyyəti əlbəttə ki, bizim ən prioritet məsələmizdir. Ancaq şagirdlərdən və o cümlədən müəllimlərdən bu keyfiyyəti tələb etmək üçün gərək onların yaxşı şəraiti olsun. Müəllimlərin də iş şəraiti məktəblər istifadəyə verildikcə yaxşılaşır. Məktəb ancaq şagirdlər üçün deyil, müəllimlər üçün də iş yeridir. Müəllimlərin əməkhaqları da artır, xüsusilə diaqnostik qiymətləndirmədən keçmiş müəllimlərin əməkhaqları əhəmiyyətli dərəcədə artmışdır. Mənə verilən son məlumata görə, Bakı şəhərində orta əməkhaqqı təxminən 500 manatdan çoxdur. Bu, çox yaxşı göstəricidir, daha da artmalıdır. Nə qədər çox artarsa, o qədər də yaxşıdır. Əlbəttə ki, imkan daxilində Azərbaycan dövləti bu işlərə də daim diqqət yetirəcəkdir.

Biz bütün bu işləri ona görə görürük ki, uşaqlarımız, gənclərimiz savadlı, bilikli olsunlar. Çox yaxşı haldır ki, biz müstəqillik dövründə savadlılıq səviyyəsini yüksək həddə saxlaya bilmişik və bu gün bu, təxminən 100 faiz səviyyəsindədir. Bizim üçün bu, adi haldır. Amma bir çox ölkələr üçün bu, əlçatmaz bir hədəfdir. Bu, bizim böyük üstünlüyümüzdür. Çünki savadlılıq əsasdır və uşaqlarımız bilikli, ağıllı olmalıdırlar, yaxşı oxumalıdırlar ki, gələcəkdə onlar özləri üçün cəmiyyətdə layiqli yer tuta bilsinlər. Çünki bugünkü dünyada savad, bilik hər şeyi müəyyən edir. Əgər hər hansı bir insan öz həyatını yaxşı qurmaq istəyirsə, gələcəkdə cəmiyyətdə yaxşı yer tutmaq istəyirsə, mütləq yaxşı oxumalıdır. Yaxşı oxumaq üçün bütün şərait var. Mən əminəm ki, Azərbaycan uşaqları, gənclər, yeniyetmələr bu işlərə çox böyük məsuliyyətlə yanaşacaqlar.

Hər bir ölkənin inkişafını ölkənin intellektual potensialı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə, onların uğurlarına baxmaq kifayətdir ki, biz bunu deyə bilək. O ölkələrdə ki, innovasiyalar, texnologiyalar inkişaf edir, o ölkələr dünya miqyasında da aparıcı mövqelərə malikdir.

Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə,

texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur. Beləliklə, əminəm ki, Azərbaycanda cəmiyyətin intellektual potensialı həmişə yüksək həddə olacaqdır. Bu, həm inkişaf üçün, həm bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq üçün lazımdır. Çünki savadlılıq olmayan yerlərdə kənardan mənfi təsirlər də özünü büruzə verir. Biz ölkəmizin təhlükəsizliyini qoruyuruq - həm sərhədlərimizi, təhlükəsizliyimizi qoruyuruq, eyni zamanda, özümüzü yad təsirdən də qorumalıyıq. Çünki bu gün dünyada ideoloji sahədə mübarizə gedir, müharibə gedir. Bu, sonrakı qanlı müharibələrin elə bil ki, əsasını təşkil edir. İnsanların beyinləri, xüsusilə gənc nəslin beyinləri zəhərlənir. Onlar müxtəlif xoşagəlməz addımlara təhrik olunur, sonra da onlardan istifadə edilir ki, bəzi xarici dairələrin çirkin niyyətləri bu və ya digər ölkədə özünü göstərsin. Ona görə, biz özümüzü, o cümlədən bu mənfi və təhlükəli təsirdən də qorumalıyıq. Necə qorumalıyıq? Bax bunu siz müəllimlər, təhsil işçiləri etməlisiniz ki, uşaqlar bilikli, savadlı olsunlar. Belə olan halda heç bir kənar mənfi niyyət, ya təsir bizim uşaqlarımızın şüuruna təsir edə bilməz. Eyni zamanda, bununla bərabər olaraq, həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar. Çünki əgər milli dəyərlərimizdə hər hansı bir sarsıntı yaşanarsa, bu, cəmiyyətimizin əsaslarını, sütunlarını sarsıdar. Ona görə, mən həmişə deyirəm ki, milli dəyərlərimiz, mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz onları qorumalıyıq, milli ruhumuzu saxlamalıyıq. Çünki bu, bizim gələcəyimiz üçün əsasdır.

Biz 25 il ildən çoxdur ki, müstəqil ölkə kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimdən asılı deyilik. Baxmayaraq ki, bizə qarşı müntəzəm olaraq müxtəlif kampaniyalar - qarayaxma, böhtan, şər kampaniyaları aparılır. Onların da məqsədi aydındır - Azərbaycanı ləkələmək, Azərbaycanı öz iradəsinə ram etmək və ondan sonra güclənən Azərbaycan potensialından öz maraqları üçün istifadə etmək. Biz isə buna imkan vermirik və möhkəm dayanmışıq, milli maraqlarımızı qoruyuruq. Ona görə də müntəzəm olaraq müxtəlif xarici dairələrin atəşinə məruz qalırıq. Amma bu, bizi yolumuzdan heç vaxt döndərə bilməz. Biz haqq yolundayıq. Bugünkü Azərbaycan, bugünkü Azərbaycan reallıqları, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, inkişaf, tərəqqi, vətəndaş həmrəyliyi, bax, bizim böyük dəyərimizdir və bunu Azərbaycan xalqı öz zəhməti, istedadı hesabına əldə edib. Əlbəttə, ölkəmizdə kifayət qədər güclü siyasi iradə var ki, xalqımızı kənardan bizə tuşlanan bütün atəşlərdən qoruyaq. Gənclər də, uşaqlar da, bax, bu ruhda - müstəqillik ruhunda böyüməlidirlər. Azərbaycan müstəqil ölkə kimi əbədi yaşamalıdır və müstəqil siyasəti bundan sonra da aparmalıdır. Biz bunu aparırıq, aparacağıq. Ancaq gələcək sizin əlinizdə olacaqdır. Ona görə, müəllimlər, valideynlər, uşaqların özləri də həmişə bu amili yadda saxlasınlar. Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü Azərbaycan - budur bizim əsas prinsiplərimiz. Əminəm ki, belə gözəl məktəbdə mənim

bütün tövsiyələrim öz yerini tapacaq.

Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzu edirəm.

x x x

Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür edən valideyn Jalə SEYİDLİ dedi:

-Mənim övladım 20 nömrəli məktəbdə təhsil alır. Bir qədər həyəcanlıyam. Çünki Prezident, Ali Baş Komandan qarşısında və Birinci vitse-prezident qarşısında həyəcansız danışmaq olmur. Bu cür gözəl məktəbə, ümumiyyətlə, Azərbaycan təhsilinin inkişafında gördüyünüz işlərə görə Sizə və Mehriban xanıma təşəkkür etmək istəyirəm. Nazirlik məlumat verib ki, bu il ölkəmizdə təhsilin inkişafı üçün yeni layihələr həyata keçiriləcək. Bir valideyn olaraq çox sevinirəm ki, bu qədər problemlərə, qayğılara, dünyada gedən gərgin siyasi proseslərə baxmayaraq, Prezidentimiz və onun xanımı təhsilə, məktəblərə hərtərəfli dəstək olurlar. Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Təşəkkür edirəm, çox sağ olun. Valideynləri də, müəllimləri də təbrik edirəm, yeni-yeni uğurlar arzulayıram.

# Azərbaycan-Fransa münasibətlərinin möhkəmlənməsinə Heydər Əliyev Fondundan böyük töhfə

## *Mehriban Əliyeva: "Humanitar və mədəniyyət sahəsində əlaqələr xalqlarımızı bir-birinə daha yaxınlaşdırır, daha yaxşı tanıdır və əməkdaşlığın güclənməsinə xidmət edir"*

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə "Azərbaycan şəhərciyi"nin rəsmi açılışı olub.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Paytaxt Parisdə, Eyfel qülləsinin yanındakı Jofr meydanında təşkil olunan "Azərbaycan şəhərciyi"nin rəsmi açılış mərasiminə, həmçinin Fransanın tanınmış ictimai-siyasi xadimləri qatılıblar. Tədbirin aparıcısı "Azərbaycan şəhərciyi"nin böyük maraqla qarşılandığını bildirdi.

"Azərbaycan şəhərciyi"nin açıldığı Parisin 7-ci rayonunun meri Raşida Dati mərasimdə çıxış etdi. Mer bu şəhərciyin məhz onun rəhbərlik etdiyi rayonda açılmasından məmnunluğunu bildirdi.

Bu şəhərcik vasitəsi ilə fransızların ölkəmiz haqqında daha çox məlumat əldə edəcəklərinə ümidvar olduğunu deyən Raşida Dati Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, ölkələrimiz arasındakı münasibətlərin inkişafına Heydər Əliyev Fondunun töhfəsindən, Azərbaycanın qədim tarixə malik müasir ölkə olmasından danışdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi.

### *Birinci xanım Mehriban Əliyevanın çıxışı*

- Parisin rəmzinə çevrilmiş Eyfel qülləsinin yanında yerləşən Jofr meydanında "Azərbaycan şəhərciyi"nin açılışında sizin hər birinizi səmimi qəlbdən salamlayıram. Bu axşam bizimlə bərabər olduğunuza görə sizə dərin minnətdarlığımı bildirirəm. Artıq üç ildir ki, Parisdə bu layihə uğurla həyata keçirilir və ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin möhkəmlənməsinə və xalqlarımızın bir-birini daha dolğun tanımasına xidmət edir. Parisin 6-cı və 1-ci rayonlarından sonra "Azərbaycan Şəhərçiyi" Fransa paytaxtının ən gözəl rayonlarından biri olan 7-ci rayonda qonaqlara öz qapısını açır.

Mən şəhərciyin hazırlanmasında və həyata keçirilməsində əməyi olan hər bir insana, xüsusilə də Parisin 7-ci rayonunun meri, bizim əziz dostumuz Raşida xanım Datiyə və meriyanın bütün əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm. Onu da qeyd etmək istərdim ki, 5 il bundan əvvəl, hələ 2011-ci ildə Heydər Əliyev Fondu Fransada öz fəa-

liyyətinə başlayanda və Azərbaycana dair tədbirlər keçirəndə məhz Raşida xanımın təşəbbüsü ilə bizim ilk tədbirlərimizdən biri - həm sərgi, həm konsert məhz Parisin 7-ci rayonunun meriyasında keçirilmişdi. Bu əməkdaşlığa görə xanım Dati sizə dərin minnətdarlığımı bildirirəm və ümidvaram ki, bu gün açılan "Azərbaycan şəhərciyi" yenə də bura gələn qonaqlar tərəfindən böyük maraqla qarşılanacaq və ölkəmiz haqqında məlumat almaq üçün gözəl bir fürsətə çevriləcək.

Əziz dostlar, Azərbaycan müstəqilliyini bərpa etməsinin 25 illiyini bu il qeyd edir. Bu illər ərzində Azərbaycan bir çox nailiyyətlərə imza atıb. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Cənubi Qafqazda həyata keçirilən bütün irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, çox zaman Azərbaycanın təşəbbüsü ilə həyata keçirilir. Bu gün Azərbaycanda bütün sahələrdə sürətli inkişaf gedir. Biz təbii sərvətlərimizə, imkanlarımıza və ən əsası isə xalqımıza arxalanaraq bu nailiyyətləri əldə edirik və irəli gedirik.

Əsrlər boyu Azərbaycanda müxtəlif dinlərin, millətlərin və mədəniyyətlərin nümayəndələri sülh şəraitində bir ailə kimi yaşayıb. Bu gün də bu ənənələr qorunub saxlanır. Bu gün Azərbaycan dözümlülük və tolerantlıq məkanı kimi dünyada tanınıb. Biz tariximizə, dinimizə, mədəniyyətimizə böyük hörmət bəsləyərək dünya mədəniyyəti müxtəlifliyinə və dünyanın digər dinlərinə və mədəniyyətlərinə böyük hörmətlə yanaşırıq. Məhz qarşılıqlı hörmət, dözümlülük, tolerantlıq prinsiplərinə əsaslanaraq bəşəriyyət bu gün üzləşdiyi ksenofobiya, ayrı-seçkilik, radikalizm və terrorizm kimi dəhşətli bəlalara qarşı mübarizə apara bilər.

Mən bu fürsətdən istifadə edərək bu səhər Fransa Prezidentinin iştirakı ilə keçirilən və terror qurbanlarının xatirəsinə həsr olunmuş mərasimə ehtiramımı bildirirəm və bir daha öz adımdan və hər bir azərbaycanlının adından Fransa xalqına və terror qurbanlarının yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Terrorizmin nə dini, nə milləti var və bu bəlanı həyatımızdan qaldırmaq üçün biz gərək birlik nümayiş edək.

Əziz dostlar, sürətlə inkişaf edən ölkəmiz bu gün Fransa –Azərbaycan əməkdaşlığına böyük əhəmiyyət verir. Mən çox şadam ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələr dinamik şəkildə inkişaf edir. Həm dövlət, həm qeyri-dövlət qurumları, ictimai qurumlar arasında əlaqələr qurulur və ikitərəfli münasibətlər möhkəmlənir. Təkcə son 5 il ərzində Fransanın və Azərbaycanın müxtəlif şəhərləri, regionları arasında 13 qardaşlaşma sazişi imzalanıb. Bu proses nəticəsində regionlar arasında həm mədəni, həm iqtisadi əlaqələr qurulur. Azərbaycanda 50-dən çox fransız şirkəti fəaliyyət göstərir. Azərbaycan Fransanın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı kimi qalır. Azərbaycanın ən ağır problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də Fransa fəal iştirak edir. Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir. Ümidvaram ki, gələcəkdə də Fransa münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, sülh və ədalət yolu ilə həllində öz səylərini göstərəcək, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını, suverenliyini dəstəkləməkdə davam edəcək.

Əziz dostlar, mən çox sevinirəm ki, ölkələrimiz arasında humanitar sahədə əməkdaşlıq tamamilə yeni bir səviyyəyə qaldırılıb. Yüzlərlə azərbaycanlı tələbə Fransanın ali

məktəblərində təhsil alır. Fransanın Dövlət Şərq Dilləri və Mədəniyyətləri Universitetində Azərbaycan dili fakültəsi fəaliyyət göstərir. Müluz şəhərinin Yuxarı Alzas Universitetində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq kafedrası açılıb.

Təməli Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Fransua Olland tərəfindən qoyulmuş Fransız liseyi bu gün artıq Bakıda ən qabaqcıl təhsil ocaqlarından birinə çevrilib. Çox şadam ki, bu ilin sentyabrında Bakıda Azərbaycan-Fransız Universiteti fəaliyyətə başlayıb.

Mən əminəm ki, humanitar sahədə, mədəniyyət sahəsində əlaqələr bizim xalqlarımızı bir-birinə daha yaxın edir, daha yaxşı tanıdır və Fransa–Azərbaycan əməkdaşlığının, Fransa-Azərbaycan münasibətlərinin güclənməsinə xidmət edir. Məhz ona görə biz belə layihələri Fransada həyata keçirməyə çalışırıq ki, ölkəmizi tanıdaq. Mən bir daha bu işdə bizə dəstək olan hər bir insana dərin minnətdarlığımı bildirirəm.

Sonda ümidvar olduğumu bildirirəm ki, bizim burda çalışıb yaratdığımız Azərbaycan mühiti sizin qəlbinizdə xoş duyğular oyadacaq və ölkələrimiz arasında növbəti körpüyə çevriləcək.

Əziz dostlar, mən sizə və sizin ailə üzvlərinə cansağlığı, xoşbəxtlik arzulayıram, Fransa dövlətinə sülh və əmin-amanlıq diləyirəm.

Diqqətinizə görə çox sağ olun.

**XXX**

Sonra Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua MANSEL çıxış edərək vurğuladı ki, bu tədbir bütün Paris sakinlərinin diqqətini cəlb edib. Jan Fransua Mansel Azərbaycanın bütün dünya üçün tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırdı. Bildirdi ki, birgəyaşayışın Azərbaycan modeli Fransada da geniş yayılmalıdır. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini də vacib saydığını qeyd etdi.

Azərbaycan həqiqətlərini Fransada təbliğ etdiyinə görə Jan Fransua Manselə minnətdarlığını bildirən birinci xanım Mehriban ƏLİYEVA dedi:

-Hörmətli cənab Mansel, mən sizi və Azərbaycanın Dostları Assosiasiyasının bütün üzvlərini səmimi qəlbdən salamlayıram. Sizi görməyə çox şadam.

Biz Azərbaycanda bu Assosiasiyanın fəaliyyətini çox yüksək qiymətləndiririk. Siz Azərbaycanın reallıqlarını burda –Fransada olduğu kimi təqdim edirsiniz.

Mən çox şadam ki, Assosiasiyanın üzvləri ildən-ilə artır və bu, o deməkdir ki, Fransada Azərbaycanın dostlarının sayı artır.

Bir daha sizə dərin minnətdarlığımı bildirirəm.

**XXX**

"Azərbaycan mətbəx mədəniyyəti" kitabının müəllifi Fransada yaşayan tanınmış amerikalı fotoqraf Peter Lippmann çıxış edərək nəşrin ərsəyə gəlməsindən danışdı.

Sonra "Azərbaycan şəhərciyi" ilə tanışlıq oldu. Şəhərçikdə təşkil olunan xalq sənətkarlıq emalatxanalarında xalçaçılıq, misgərlik və şəbəkə, taxta üzərində oyma, dulusçu-

luq, kəlağayı və digər sənət nümunələrinin yaradılması prosesi ilə yaxından tanış olmaq mümkündür.

Şəhərcikdə daha bir yenilik isə "Uşaq zonası"dır. Kukla teatrı, emalatxana və istirahət zonasından ibarət hissədə xalq nağılları əsasında kuklalarla qurulmuş səhnəciklər göstərilir.

Muzey bölməsində "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatlar, o cümlədən misgərlik məmulatları, milli geyimlər, musiqi alətləri, xalçalarımız və digər sənət nümunələri sərgilənir.

"İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi" bölməsində Mərkəzin yetirmələri tərəfindən yaradılmış əsərlər-batika, keramika, zərgərlik və taxta üzərində oyma nümayiş olunur.

Şəhərçiyin kitabxana zonasında Heydər Əliyev Fondunun ölkəmiz, o cümlədən xalqımızın milli-mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti, tarixi, Azərbaycan həqiqətləri barədə geniş və dolğun məlumatların əks olunduğu müxtəlif nəşrləri nümayiş etdirilir və qonaqlara hədiyyə olunur.

Şəhərçiyin sərgi bölməsində "Partizanın izi ilə" sərgisi İkinci Dünya müharibəsinin iştirakçısı, Fransa Müqavimət Hərəkatının görkəmli nümayəndəsi Əhmədiyyə Cəbrayılova həsr olunub.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Əhmədiyyə Cəbrayılovun oğlu Cavanşir Cəbrayılovla görüşdü. Cavanşir Cəbrayılov atasının xatirəsinə göstərilən ehtirama görə minnətdarlığını bildirdi.

"Bir günəş altında" layihəsi çərçivəsində açılan sərgidə isə Azərbaycanda multikulturalizmə və tolerantlığa həsr olunan fotolar, eləcə də eyniadlı film nümayiş olunur. Sərgidəki fotolar və film Azərbaycanın müxtəlif guşələrində çəkilib və burada 20 azsaylı xalqın tarixi, mədəniyyəti və adət-ənənələri təqdim edilir.

"Gəncə və Qəbələ: iki şəhər fransız fotoqrafların gözü ilə" sərgisində fransız fotoqraflar Samuel Qrataka və Jan-Fransua Rozyenin hər iki şəhərin mənzərələrini, abidələrini, gündəlik həyatını əks etdirən fotoları təqdim olunur. Fransız fotoqraflar Gəncə və Qəbələdə Azərbaycan təbiətinin gözəllikləri, özünəməxsus mədəniyyət və adət-ənələrini fotokameralarının yaddaşına həkk ediblər.

Şəhərçikdə ilk dəfə olaraq həm də "Turizm Mərkəzi" layihəsi təqdim olunur. Burada Azərbaycanın turizm bölgələri və marşrutları barədə ətraflı məlumat verilir.

Tədbir çərçivəsində Heydər Əliyev Fondunun daha bir yeni nəşri - "Azərbaycan mətbəx mədəniyyəti" adlı kitabının təqdimatı da oldu. Nəşrdə xalqımızın zəngin mətbəx mədəniyyəti barədə ətraflı məlumat verilir.

Bu dəfə "Azərbaycan şəhərciyi"ndə ilk dəfə olaraq "Qız qalası" beynəlxalq incəsənət festivalı da təşkil olunub. Festival 2013-cü ildə Kann şəhərindən sonra ikinci dəfədir ki, Azərbaycandan kənarda keçirilir. Bu dəfə 4 fransız və 2 azərbaycanlı rəssamın əl işi olan "Qız qalası" maketləri sərgilənir.

Şəhərcikdə qonaqlara Azərbaycanın ilk rəsmi hədiyyə və suvenir brendi olan "I Love Baku" stendi də təqdim edilir.

Burada, həmçinin Fransada Azərbaycanın Dostları Assosiasiyası da təqdim olunur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Assosiasiyasının xatirə kitabına ürək sözlərini yazdı.

Azərbaycan mətbəxinin təbliğ olunduğu hissə də böyük maraqla qarşılanır. Burada milli mətbəximizin təamlarının hazırlanması nümayiş olunur.

Azərbaycan Dövlət rəqs ansamblının çıxışı böyük maraqla qarşılandı.

Şəhərcikdə fəaliyyət göstərən restoranda isə Azərbaycan milli mətbəxinin bir-birindən dadlı təamları təqdim edilir.

Şəhərcikdəki qida məhsulları yarmarkası böyük maraqla qarşılanır. Burada Azərbaycanda müxtəlif qida məhsulları istehsalçılarının məhsulları təqdim olunur.

Şəhərcikdə İçərişəhərin maketi də qoyulub. Bu maket sərgi iştirakçılarına İçərişəhərlə vizual tanış olmağa şərait yaradır.

Qeyd edək ki, 2014-cü ildən etibarən artıq üçüncü ildir reallaşdırılan bu layihə Fransa sakinləri və turistlər arasında böyük maraq doğurduğundan bu dəfə "Azərbaycan şəhərciyi"nin konsepsiyası genişləndirilib. Sentyabrın 17-dən fəaliyyətə başlayan "Azərbaycan şəhərciyi" sentyabrın 25-dək davam edəcək.

Sonra Azərbaycanın birinci xanımının adından tədbir iştirakçılarının şərəfinə ziyafət verilib. Tədbirdə çıxış edən Mehriban Əliyeva Parisdə yenidən görüşməyə şad olduğunu bildirib. Qeyd edib ki, Fransa paytaxtında Azərbaycan şəhərciyinin açılışı Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcək.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Paris***

## Birinci vitse-prezident Mehriban Əliyeva Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini ilə görüşüb

Sentyabrın 15-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Horinin rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq, onların sentyabrın 14-də Bakıda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə yeni Sazişin imzalanmasında iştirakını məmnunluqla qeyd etdi. Bu il Azərbaycanla Yaponiya arasında diplomatik əlaqələrin 25 illiyinin qeyd olunduğunu deyən Mehriban Əliyeva iki ölkə arasında inkişaf edən münasibətlərin dostluğa, qarşılıqlı maraqlara əsaslandığını və bir çox sahələri əhatə etdiyini bildirdi. Diqqətə çatdırdı ki, bu illər ərzində neft sahəsində əməkdaşlıq üzrə yaxşı təcrübə toplanıb və qeyri-neft sektorunda da əməkdaşlıq üçün böyük potensial var.

Yaponiyanın innovasiyalar və texnologiyaların inkişafı sahəsində dünya lideri olduğunu vurğulan Mehriban Əliyeva dedi ki, bu və digər sahələrdə, o cümlədən kənd təsərrüfatı sahəsində münasibətləri inkişaf etdirmək üçün yaxşı imkanlar mövcuddur. Müxtəlif xalqların bir-birini daha yaxından tanıması üçün Azərbaycan humanitar sahənin inkişafına önəm verir və bu baxımdan təhsil sahəsində əməkdaşlığın qurulması xüsusi əhəmiyyət kəsb edir. Alimlərimizin, müəllimlərimizin birgə layihələri xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq.

Münasibətlərin möhkəmləndirilməsi üçün daha bir vacib sahənin turizm sahəsi olduğunu deyən Birinci vitse-prezident hazırda bu sahənin ölkəmizdə prioritet olduğunu, Azərbaycana gələn turistlərin sayının ilbəil artdığını məmnunluqla vurğuladı. Bildirdi ki, sadələşdirilmiş viza rejimi bu sahənin inkişafına təkan verir. Yaponiya xalqının səyahət etməyi sevən xalq olduğunu qeyd edən Mehriban Əliyeva ümidvar olduğunu bildirdi ki, daha çox Yaponiya vətəndaşı səfər etmək üçün Azərbaycanı seçəcək. Birinci vitse-prezident ölkəmizdə Yaponiya ilə qurulan dostluq əlaqələrinin yüksək qiymətləndirildiyini və münasibətlərin gələcək inkişafı üçün böyük potensialın olduğunu vurğuladı.

Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyinatı münasibətilə Mehriban Əliyevaya təbriklərini çatdırdı. İki ölkə arasında diplomatik əlaqələrin qurulduğu 25 il ərzində Yaponiya və Azərbaycanın uğurlu əməkdaşlıq etdiklərini vurğulayan qonaq ölkəsinin Azərbaycanla münasibətlərin genişləndirilməsində maraqlı olduğunu söylədi.

Manabu Hori Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimində iştirakından məmnunluğunu bildirdi və mərasimin uğurlu keçdiyini qeyd etdi.

# Birinci xanım Mehriban Əliyevaya Veliko Tırnovo şəhərində fəxri vətəndaş və fəxri doktor diplomları təqdim edilib

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "Renascence and Constituent Assembly" (İntibah və Məclisi-Müəssisan) Muzeyində Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomlarının təqdim olunması mərasimləri keçirilib.

Tədbirin aparıcısı qeyd etdi ki, Heydər Əliyev Fondunun prezidentinə Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı adı şəhərin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə verilib.

Şəhər ictimaiyyəti adından Azərbaycanın birinci xanımına bir daha minnətdarlığını bildirən Veliko Tırnovonun meri Daniel PANOV dedi ki, Mehriban Əliyevanın layiq görüldüyü bu ad şəhərin ən ali mükafatıdır. Daniel Panov vurğuladı ki, Azərbaycanın birinci xanımının fəxri vətəndaş seçilməsi barədə onun təklifi meriyanın 2016-cı il avqustun 25-də keçirilən təntənəli iclasında yekdilliklə qəbul edilib.

Sonra Mehriban Əliyevaya Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı diplomu və döş nişanı təqdim edildi.

Azərbaycanın birinci xanımı mərasimdə çıxış etdi.

## *Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı*

- Hörmətli cənab Baş nazir.

Hörmətli cənab mer, xanımlar və cənablar, hörmətli qonaqlar.

Əvvəlcə səmimi qəbula və qonaqpərvərliyinizə görə sizə öz adımdan və bizim bütün nümayəndə heyəti adından bir daha ürəkdən təşəkkür etmək istəyirəm. Sizi milli bayramınız - Müstəqillik günü münasibətilə bir daha ürəkdən təbrik edir, sizə xoşbəxtlik, cansağlığı və sülh diləyirəm. Qədim Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı olmaq mənim üçün böyük şərəfdir. Bu fəxri ada görə dərin minnətdarlığımı, şəhərin sakinlərinə sonsuz ehtiramımı bildirirəm.

Biz - Heydər Əliyev Fondunun əməkdaşları çox qürur duyuruq ki, bolqar xalqının bu böyük milli irsinin bərpasına töhfə verə bilmişik. Burada olduğum bir neçə saat ərzində sizin hamınızın - bu şəhərin və bütün ölkənizin vətəndaşlarının öz mədəni irsinizə necə ehtiramla və məhəbbətlə yanaşdığınızı hiss etdim. Bizim ölkəmiz də öz zəngin tarixi və mədəni irsi ilə məşhurdur və bu münasibət məni dərindən təsirləndirir. Çünki tarixi və mədəni irs dövlətçiliyin və hər bir xalqın milli identikliyinin formalaşmasında çox böyük rol oynayır. Bununla bərabər, mən qəti əminəm ki, məhz humanitar əlaqələr, mədə-

niyyət, təhsil, incəsənət sahəsində əlaqələr insanları, xalqları, ölkələri bir-birinə yaxınlaşdıran və millətlər, ölkələr arasında anlaşmanı qat-qat əlyetərli edən universal sahədir.

Buna görə bu layihəyə cəlb edilmiş, onun gerçəkləşməsində iştirak etmiş insanların hamısına, ilk növbədə, cənab Baş nazir, sizə dərin təşəkkürümü bildirirəm. Çünki bu layihənin həyata keçirilməsinə sizin necə böyük diqqət yetirdiyinizi bilirəm.

Mən çox şadam ki, ölkələrimiz arasında münasibətlər tarix boyu dostluq xarakteri daşıyıb, qarşılıqlı hörmətə və qarşılıqlı marağa əsaslanıb. Çoxsaylı faktlar onu da təsdiq edir ki, bizim mədəni əlaqələrimizin dərin kökləri var. Görkəmli Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin şeirləri hələ XIX əsrdə bolqar dilinə tərcümə edilib və sizin ölkədə şöhrət qazanıb. Bu gün Azərbaycanda bolqar ədəbiyyatının klassikləri İvan Vazovu, Xristo Botevi, Emiliyan Stanevi və bir çox başqalarını tanıyır, onlara sevgi və hörmət bəsləyirlər.

Çox sevindirici haldır ki, son vaxtlar ölkələrimizin ayrı-ayrı şəhərləri və regionları arasında da dinamik əməkdaşlıq müşahidə olunur. Azərbaycanın Şəki şəhəri və Bolqarıstanın Qabrova şəhəri qardaşlaşmış şəhərlərdir. Bu gün öyrəndim ki, Veliko Tırnovo və Naxçıvan da qardaşlaşmış şəhərlərdir. Əlbəttə, dərin məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, siyasi əlaqələrimiz ən yüksək səviyyədə çox uğurla inkişaf edir. Azərbaycan və Bolqarıstan prezidentlərinin qarşılıqlı səfərləri, Bolqarıstanın Baş nazirinin bizim ölkəyə səfəri əlbəttə ki, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi işinə xidmət edir.

Bu gün Bolqarıstan ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və ölkələrimiz çoxsaylı iri layihələrdə, o cümlədən enerji layihələrində uğurla əməkdaşlıq edir. Lakin mən bizim humanitar və mədəni əlaqələrimiz üzərində daha çox dayanmaq istəyirəm. Bakı Slavyan Universitetində 2004-cü ildən Bolqar dili və mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. Həmin universitetdə bolqar dili, tarixi və mədəniyyəti öyrənilir. 2013-cü ildə Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində Azərbaycan dili və mədəniyyəti Mərkəzi yaradılıb. Hazırda bu universitetdə "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Bütövlükdə ölkələrimizin ali məktəbləri arasında 20-dən çox saziş bağlanıb. Bu, həm tələbə mübadiləsi, həm müxtəlif elmi konfranslar, həm də ölkələrimizin elmi ictimaiyyəti arasında əlaqələr deməkdir.

Əziz dostlar, bir daha vurğulamaq istəyirəm ki, bu cür layihələr, bu cür əməkdaşlıq, sözsüz ki, bizim ikitərəfli əlaqələrimizin möhkəmlənməsinə xidmət edir, insanlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bu layihələr həm də dost ölkələr arasında münasibətlərin necə qurula biləcəyini göstərən nümunədir. Bizim ortaq cəhətlərimiz çoxdur və mən müasir dünyada çox vacib olan multikulturalizm ideyasını xüsusi qeyd etmək istəyirəm. Azərbaycanda və Bolqarıstanda müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan insanlar sülh, həmrəylik və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Əminəm ki, bizim bugünkü layihə dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcək. Ümidvaram ki, biz bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəyik.

Məni bu yüksək ad - qədim, gözəl şəhərinizin fəxri vətəndaşı adı ilə təltif etdiyinizə

görə sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sizin hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq diləyirəm. Sağ olun.

* * *

Tədbirdə çıxış edən Bolqarıstanın Baş naziri Boyko BORİSOV qeyd etdi ki, müsəlman ölkəsi olan Azərbaycanın xristian ölkəsi Bolqarıstanda dini-mədəni abidəni bərpa etməsi bu ölkədə çox böyük rəğbətlə qarşılanıb. Heydər Əliyev Fondu bu abidəni bərpa etməklə bolqar xalqının 132 illik arzusunu reallaşdırıb.

* * *

Daha sonra Mehriban Əliyevaya Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi oldu.

Universitetin ümumi yığıncağının sədri Radoslav RADEF bildirdi ki, Azərbaycanın birinci xanımı fəxri doktor adına Bolqarıstanın mədəni irsinin qorunmasına və təşviqinə böyük töhfəsinə, bu işdə fəal iştirakına görə layiq görülüb.

Universitetin rektoru Xristo BONDJOLOV dedi ki, UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri olan Mehriban Əliyeva dünyanın, o cümlədən Avropanın mədəni irsinin qorunmasına, mədəniyyətlər və dinlərarası dialoqun inkişafına böyük töhfələr verib. Rektor Heydər Əliyev Fondunun dünyada həyata keçirdiyi layihələrdən danışdı.

Sonra Mehriban Əliyevaya Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru mantiyası və diplomu təqdim olundu.

Onun xidmətlərini yüksək qiymətləndirdiklərinə görə minnətdarlığını bildirən Heydər Əliyev Fondunun prezidenti Mehriban ƏLİYEVA dedi:

- Hörmətli cənab rektor.

İcazə verin, mənim müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru adı ilə təltif edilməyimə görə sizə dərin təşəkkürümü bildirim. Bu, mənim üçün həqiqətən böyük şərəfdir. Mən müəllimlər ailəsində, bütün həyatlarını elmə həsr etmiş insanların ailəsində böyümüşəm. Buna görə də həyatlarını gənc nəslə elm, bilik öyrətmək işinə həsr etmiş insanlara çox dərin hörmət bəsləyirəm. Universitetin bütün professor-müəllim heyətinə mənim dərin təşəkkürümü çatdırın.

Bu gün heç kəs üçün sirr deyil ki, hər hansı dövlətin uğuru onun gənc nəslinin nə dərəcədə savadlı, bilikli olması ilə müəyyən edilir. Məhz insan potensialı, elmi potensial, məhz inkişaf etmiş, savadlı gənc nəsil ölkənin gələcəkdə öz layiqli yerini tutmasına zəmanət verir. Bu biliyi, bu nuru siz müəllimlər, professorlar verirsiniz. Gənc nəslə biliklər verən, ona həyat vəsiqəsi verən sizsiniz. Mənə bu yüksək adı verməyi qərara almağınız məni dərindən təsirləndirib və bu adı müəyyən dərəcədə avans kimi qəbul edirəm. Çünki bu ada layiq olmaq üçün mən hələ çox iş görməliyəm.

Sağ olun ki, mənim fəaliyyətimi bu cür yüksək qiymətləndirmisiniz. Mən əminəm ki, biz birlikdə bu sahədə, məhz təhsil sahəsində Azərbaycanın naminə, Bolqarıstanın na-

minə hələ çox iş görə bilərik. Qəlbinizin hərarətinə görə sizə bir daha təşəkkür edirəm. Çox mütəəssir olmuşam. Çox sağ olun.

* * *

Azərbaycanın birinci xanımı bu nüfuzlu ali təhsil ocağının Fəxri Qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Sentyabrın 22-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Leyla Əliyeva Veliko Tırnovo şəhərində Bolqarıstanın milli bayramı - Müstəqillik Günü münasibətilə keçirilən işıq şousuna baxıblar. Xüsusi işıq effektləri ilə yaradılan şou atəşfəşanlıqla başa çatıb.

Həmin gün Bolqarıstanın Baş naziri Boyko Borisovun adından Azərbaycanın birinci xanımının şərəfinə rəsmi ziyafət verilib.

***İqbal Hacıyev,***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Veliko Tırnovo***

# “Əl-Fəcr” qəzetində Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinə həsr olunmuş məqalə dərc edilib

Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu “Əl-Fəcr” qəzetinin 24 avqust tarixli nömrəsində nəşrin baş redaktoru Şərif Əl-Bəsilin “Azərbaycanın birinci xanımı Mehriban Əliyeva. Müxtəlif sahələrdə hədsiz töhfələr” sərlövhəli məqaləsi (http://www.alfajr-news.net/node/119069) dərc olunub.

Baş redaktor Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın intellektual və mədəni dəyərlərin hökm sürdüyü ailədə dünyaya göz açıb tərbiyə aldığını oxucuların diqqətinə çatdıraraq, valideynləri haqqında qısa məlumat təqdim edib. Yazıb ki, tanınmış Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin nəvəsi olan birinci xanımın atası akademik Arif Paşayev fizika sahəsində görkəmli alimdir və 1996-cı ildən Azərbaycan Milli Aviasiya Akademiyasının rektorudur. Mehriban Əliyevanın anası Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsində böyük uğurlar qazanan şərqşünas alim olub.

Sonra Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən söhbət açan müəllif onun bilavasitə rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən layihələrin, həmçinin fəal parlament fəaliyyətinin istər ölkə daxilində, istərsə də xaricdə böyük rəğbət qazandığını xüsusi vurğulayıb. Birinci xanımın 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyət Fondu və 2004-cü ildən rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən ölkənin mədəni irsinin geniş şəkildə təbliğ edildiyi,ələlxüsus da Heydər Əliyev Fondunun respublikanın daxilində və xaricdə çox önəmli sosial və mədəni layihələr həyata keçirdiyi diqqətə çatdırılıb.

Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətində uşaqlara və yaşlı insanlara qayğının xüsusi yer tutduğunu önə çəkən müəllif onların qarşılaşdıqları problemlərin aradan qaldırılması üçün mühüm işlər görüldüyünü bildirib, yeni məktəb, xəstəxana binalarının, musiqi tədris müəssisələrinin inşa olunduğunu, Respublika Talassemiya Mərkəzində keçirilən qan donorluğu, habelə ana südü ilə qidalandırma üzrə maarifləndirmə aksiyalarını, eləcə də xüsusi ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin təşkilini misal çəkib, ahıllara istər tibbi, istərsə də maddi yardım göstərildiyini qeyd edib.

Zəngin milli musiqi irsimizin təbliği ilə bağlı işlərə toxunan baş redaktor ilk növbədə Heydər Əliyev Fondunun dəstəyi ilə müasir Muğam Mərkəzinin inşasının Azərbaycan muğamına yeni nəfəs gətirdiyini önə çəkib, bu xalq musiqisinin Fondun xətti ilə xarici

ölkələrdə təşkil edilən mədəniyyət tədbirlərində xüsusi yer tutduğunu qeyd edib. Həmçinin dünyanın müxtəlif ölkələrindən istedadlı musiqiçilərin iştirak etdikləri Beynəlxalq Qəbələ Musiqi Festivalının müntəzəm şəkildə keçirilməsində də Fondun dəstəyi vurğulanıb.

Məqalədə Heydər Əliyev Fondunun mədəniyyətlər arasında əməkdaşlıq və dialoq platformasının qurulmasında fəal iştirakı sayəsində dünya mədəniyyətində, eləcə də qlobal bəşəri dəyərlər, sülh və tolerantlıqda öz izini qoyduğu əks olunub. Diqqətə çatdırılıb ki, Luvr muzeyində İslam incəsənəti bölməsi yaradılıb, Versal sarayının parkında, Luvr Muzey Kompleksində, Berlin şəhər sarayında və digər Avropa şəhərlərində qədim tarixi binalar bərpa edilib. Eyni zamanda, Fondun Vatikanda qədim əlyazmaların bərpasını, eləcə də Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirdiyi qeyd edilib.

Tolerantlıq və sülh dəyərlərinin Heydər Əliyev Fondunun həm daxili, həm də xarici fəaliyyətində başlıca hədəflərdən olduğunu yazan Ş.Əl-Bəsil Azərbaycanda dini tolerantlığın mövcud olduğunu, müxtəlif din mənsublarının sülh içində birgə yaşadıqlarını yazaraq, Mehriban Əliyevanın qlobal səviyyədə dinlərarası dialoqu təşviq edən tədbirlər təşkil etdiyini oxucuların nəzərinə çatdırıb. Müəllif "Azərbaycan – tolerantlıq diyarı" şüarı altında Fondun bir çox məscid və kilsənin inşasına və ya təmirinə dəstək göstərdiyini məqalədə əks etdirib.

Bundan əlavə, məqalədə Heydər Əliyev Fondunun Rusiya, Pakistan və digər ölkələrdə müxtəlif xeyriyyə aksiyaları təşkil etdiyi göstərilib. Pakistanda peyvənd aksiyalarının, açıq ürək əməliyyatlarının keçirildiyi, göz xəstəxanasına və talassemiya mərkəzinə ianələrin təqdim edildiyi, qan donorluğu aksiyalarının təşkil olunduğu misal çəkilib. Həmçinin Fondun Rumıniya, Haiti, Pakistan və dünyanın digər yerlərində baş vermiş təbii fəlakətlərdən əziyyət çəkən insanlara yardım əlini uzatdığı diqqətə çatdırılıb.

Bütün bu nəcib əməllərin Mehriban Əliyevaya 2004-cü və 2006-cı illərdə müvafiq olaraq UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri adını qazandırdığını önə çəkən qəzetin baş redaktoru Azərbaycanın birinci xanımının idmana olan qayğısından söhbət açıb. Belə ki, o, Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi dövründə bu idman növündə canlanma və inkişafın müşahidə edilməkdə olduğunu oxucuların nəzərinə çatdıraraq, Bakının müxtəlif mötəbər yarışlara ev sahibliyi etdiyini yazıb.

Bununla yanaşı, 2015-ci ildə Azərbaycanda birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsinin məhz birinci xanımın sədrlik etdiyi Təşkilat Komitəsinin adı ilə bağlı olduğunu əsas tutan Ş.Əl-Bəsil həmin Oyunların yüksək səviyyədə təşkili sayəsində Mehriban Əliyevaya 2017-ci ildə ölkəmizdə keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları üzrə Təşkilat Komitəsinin sədri missiyasının həvalə edilməsinə səbəb olduğunu xüsusilə qeyd edib. Eyni zamanda, Azərbaycanın birinci xanımının "Eu-

rovision" mahnı müsabiqəsi üzrə Təşkilat Komitəsinin rəhbəri olaraq, bu mötəbər musiqi yarışmasının uğurla keçirilməsini təmin etdiyi vurğulanıb.

Məqalənin sonunda qəzetin baş redaktoru çoxşaxəli və yorulmaz fəaliyyətinə verilən yüksək mükafatlardan söhbət açaraq, Mehriban Əliyevanın Fransanın "Şərəf Legionu" ordeninə, Pakistanın ən ali dövlət mükafatı olan "Hilal e Pakistan" ordeninə, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, Serbiya Dövlət Ordeninə, eləcə də Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatına, UNESCO-nun "Qızıl Motsart" medalına, "Qızıl ürək" beynəlxalq mükafata layiq görüldüyünü oxucuların nəzərinə çatdırıb.

*Asya Hacızadə*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Əbu-Dabi*

# İlham Əliyev Azərbaycanın İslamiada zəfərinin baş müəllifidir

## *Atletlərimiz parlaq qələbələrinin əldə olunmasında Prezidentin böyük dəstəyini birmənalı vurğulayırlar*

“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarının hər keçən günü tarixə qızıl hərflərlə yazılır. Azərbaycan idmançıları parlaq qələbələri ilə öz imzalarını bu şanlı tarixə həkk edirlər.

Onlar qazandıqları hər bir qələbə, əldə etdikləri medallar, üçrəngli bayrağımızın ən yüksəkdə dalğalandırılması ilə hər bir azərbaycanlının qəlbində fəxarət, qürur hissi yaşadırlar.

Atletlərimiz “Zəfər Günləri”ndə bir daha yaşadıqları sevinc hisslərini idman ictimaiyyəti və media nümayəndələri ilə paylaşırlar. Mayın 14-dən idmançıların doğma ocağına çevrilən Milli Olimpiya Komitəsində təşkil olunan bayram tədbirində hər gün rəngarənglik olur. Möhtəşəm nailiyyətlərə imza atan atletlərimiz xüsusi hazırlanmış lövhəyə imzalarını atır, MOK rəhbərliyi tərəfindən mükafatlandırılırlar.

Dünən, yarışların 3-cü günü fəxri kürsüyə çıxan 18 idmançımız (9 qızıl, 6 gümüş, 3 bürünc medal) “Zəfər Günləri”nin qonağı oldu. MOK-un, eyni zamanda İslam Həmrəyliyi İdman Federasiyasının vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavinləri İsmayıl İsmayılov və İntiqam Babayevin, Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyevin, Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədlinin iştirak etdiyi tədbirdə maraqlı anlar yaşandı.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirdi ki, Azərbaycan idmançılarının uğurları davam edir. Yarışların 3-cü günü atletlərimizin sahib çıxdıqları 18 medalın əksəriyyəti bizim üçün o qədər də ənənəvi olmayan idman növlərində qazanılıb: “Azərbaycan idmançıları tarix yazmaqda davam edirlər. Artıq bizim üçün o qədər də ənənəvi olmayan üzgüçülük və digər idman növlərində böyük nailiyyətlər əldə edirik. Azərbaycan Gimnastika Federasiyasının zəhməti, əziyyəti də hədər getmədi. Həm bədii, həm də idman gimnastikası İslamiadada yeni rekordlara imza atdı. Milli komandamızın aktivinə ən çox medalı idman gimnastlarımız yazdırdılar. Onlar 5 qızıl, 5 gümüş və 2 bürünc medala sahib oldular. Cüdo yığmamız komanda yarışlarında çempion oldu. Ümumiyyətlə, Oyunlar yüksək bayram əhvali-ruhiyyəsi yaradıb və bu, idmançılarımızı daha da ruhlandırır. Hələ çox medalçılarımız olacaq və İslam Həmrəyliyi Oyunları Azərbaycanın idman tarixində şanlı səhifə açacaq”.

Medalçılarımız zəfər lövhəsinə imza atdıqdan sonra onlara xüsusi hədiyyələr təqdim edildi. İdmançılarımız öz sevinc hisslərini media nümayəndələri ilə paylaşdılar.

## *Prezident İlham Əliyevin yarışları izləməsi bizə böyük ruh verdi*

**Elxan Məmmədov,**
**IV İslam Həmrəyliyi Oyunlarının qalibi**

- Həqiqətən də, bu bir ay mənim üçün çox uğurlu oldu. İslamiadadan öncə Avropa çempionatında birinci yeri tutdum. İndi isə İslam Həmrəyliyi Oyunlarında həm fərdi, həm də komanda yarışında qızıl medal qazandım. Ancaq bu, bir ayın uğuru deyil, neçə illərin zəhmətidir. Komandamız çox güclüdür. Mübarizə göz qabağında idi. Çox şükürlər olsun ki, komanda yarışlarında da birinci olduq. Düzdür, komanda yarışlarında bir qədər çətinlik çəkdik. Gərgin mübarizələr gedirdi. Prezident İlham Əliyevin yarışları izləməsi idmançılara böyük ruh verdi. Ölkəmizə qızıl medalları qazandıra bildik.

Finalda öz həmkarım Elmar Qasımovla qarşılaşdım. Elmar hazırda dünya reytinqində birinci yerdə qərarlaşıb. Avropa çempionatının yarımfinalında da onunla üz-üzə gəlmişdik, onda da qalib oldum. İslamiadanın finalında bir-birimizdən ehtiyatlanırdıq. Sadəcə, Elmarın bir texniki səhvini tutdum və bunun hesabına qələbə qazandım. Ölkəmizin bu çəkidə 2 idmançı ilə təmsil olunmasının səbəbi o idi ki, yığma komandanın məşqçiləri Azərbaycanın ən güclü heyətini İslamiadaya buraxmışdılar. Buna görə də kişilərdən ibarət cüdo millimiz maksimum nəticə verdi - 5 qızıl, 2 gümüş medal əldə etdik. Bu nəticə onu göstərdi ki, Azərbaycan cüdo yığması nəinki İslam dünyasının, planetin ən güclülərindən biridir.

## *Ən böyük arzum Azərbaycan himninin mənim qələbəmə görə səslənməsi idi*

**Murad Ağarzayev,**
**IV İslam Həmrəyliyi Oyunlarının çempionu**

- Çox şadam ki, İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın aktivinə daha bir medal yaza bildim. Ən böyük arzum Azərbaycan himninin mənim qələbəmə görə səslənməsi idi. Çox şadam ki, buna nail oldum. Bu qələbəmdə mənə böyük dəstək olan anama borcluyam. Özümdən balacalara isə demək istəyirəm ki, yarışlarda inamla iştirak edib nailiyyətlər qazansınlar.

İlk dəfədir qələbə sevinci yaşayıram. Artıq neçənci dəfədir ki, finala qədər gəlirdim, lakin heç bir medal qazanmırdım. Bu gün ilk dəfə medal sevincini yaşadım. Düzdür, turnikdə ən çətin hərəkətləri etdikdən sonra ən sadəsində çaşdım. Bununla da özümə nəticə çıxardım ki, idmançı son anadək arxayınlaşmamalıdır. Çıxışı bitirənədək yarışma məsuliyyətini hiss etməlisən.

İndi sentyabrda keçiriləcək dünya çempionatına hazırlıq gedir. Ümidvaram ki, hər şey yaxşı olacaqdır. Yığmanın baş məşqçisi Rza Əliyev bizi çox dəstəkləyir. Əminəm ki, Azərbaycan gimnastları müxtəlif yarışlarda ölkəmizin bayrağını daim yüksəklərə qaldıracaqlar.

## *İki qızıl medalın sevinci ayrı bir hissdir*

**Talas Bence,**
**IV İslam Həmrəyliyi Oyunlarının ikiqat çempionu**

- İslam Həmrəyliyi Oyunlarının tarixində ilk dəfədir ki, gimnastika yarışları keçirilir. Bu da IV İslamiadaya təsadüf etdi. Yəni Azərbaycanda keçirilən möhtəşəm yarışmada yenilik oldu. Hər kəs şahiddir ki, yarışlar necə möhtəşəm keçir.

İdman gimnastikası yarışlarında iki qızıl və iki gümüş medal qazanaraq tarixi uğura imza atdım. Zəhmət, əziyyət çəkmişdik, hədər getmədi. Bizə olan etimadı doğrultduğumuz üçün çox sevinirəm. Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyinə təşəkkürümü bildirirəm. Bizə böyük dəstək oldular. Onu da deyim ki, Milli Gimnastika Arenasına toplaşan azarkeşlər də fəal idi. Hər uğurlu çıxışımızda bizə inanılmaz dəstək nümayiş etdirirdilər. İnanıram ki, Azərbaycanın idman gimnastikası 2020-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarında da öz sözünü deyəcək.

## *Yeni İslamiada rekorduna imza atdığım üçün çox xoşbəxtəm*

**Anastasiya İbrahimli,**
**IV İslam Həmrəyliyi Oyunlarının qızıl medalçısı**

- İslamiadaya çox ciddi hazırlaşmışdım. Rəqiblərimi də əvvəlki yarışlardan tanıyırdım. Ancaq körpücüyə çıxanda çox həyəcanlı idim. Çünki hamı məndən qələbə gözləyirdi. Mən yalnız qələbə gözləyirdim. Medal qazanacağıma əmin idim.

Çox sevinirəm ki, ən yaxşı nəticəni göstərərək qızıl medal qazandım. Ən mühümü isə odur ki, yeni İslamiada rekorduna imza atdım. Ancaq rekord haqqında yox, yalnız qızıl medal barədə düşünürdüm. Mən bu qələbəmə görə məşqçilərimə və Azərbaycan Ağır Atletika Federasiyasının rəhbərliyinə təşəkkürümü bildirirəm. Çünki məşq prosesini ən yüksək səviyyədə keçirməyimiz üçün hər cür şərait yaradılmışdı. Qazandığım qızıl medal mənim və məşqçimin zəhmətidir. Qarşıdakı hədəfim isə Olimpiya Oyunlarına qatılmaq və Azərbaycana medal qazandırmaqdır.

Oyunların təşkilinə gəlincə isə deyə bilərəm ki, Azərbaycan evsahibliyi etdiyi idman yarışlarını ən yüksək səviyyədə keçirir. İslam Həmrəyliyi Oyunları da çox yaxşı təşkil olunub. Ölkəmizə gələn digər idmançılar da bunu təsdiqləyirlər.

## *Ölkəmizdə belə idman yarışlarının keçirilməsi bizim üçün böyük motivasiyadır*

**Məmmədəli Mehdiyev,**
**IV İslam Həmrəyliyi Oyunlarının qalibi**

- Çox gərgin yarışlarım keçdi və sonda sevindim. Fərdi yarışda 3 görüş keçirdim. Bi-

rinci rəqibim Birləşmiş Ərəb Əmirliklərindən idi. Ona 2 vazari xalı ilə qalib gəldim. Bu qələbə sayəsində yarımfinala yüksəldim və türkiyəli cüdoçu ilə qarşılaşdım. Məsuliyyət çox olduğu üçün özümü istədiyim qədər yaxşı tərəfdən göstərə bilmədim. Çox şükür ki, buna baxmayaraq, qələbə qazana bildim. Finalda isə daha güclü rəqiblə, əlcəzairli idmançı ilə üz-üzə gəldim. Hesab 2:2 idi. Axıra 3 saniyə qalanda vazari aldım və çempion oldum.

Komanda yarışı çox məsuliyyətlidir. Fərdi yarışda ancaq özünə görə həyəcanlanırsan, burada isə bütün komandaya görə. 3 nəfər uduzsa, deməli, bütün komanda məğlub olur. Bunun məsuliyyəti daha böyükdür. Çalışdıq, ardıcıl qələbələr qazandıq, finala yüksəldik. Həlledici döyüşdə rəqibimiz Əlcəzair idi. Sözün düzü, bir az yorğunluq var idi, bu səbəbdən finalda uduzdum. Son olaraq tatamiyə Uşanqi Kokauri çıxdı. Yaxşı ki, o, qalib gələrək komandanı çətin durumdan çıxarda bildi. Nəticədə çempion olduq.

Qazandığım uğurda federasiyamızın böyük payı var. Federasiya cüdoçulara daim dəstək verib, komandanın üzvlərinin yanında olub. Bu yarışdakı nəticə mənim üçün böyük önəm kəsb edir. Amma davam etmək lazımdır, dayanmaq olmaz. Ölkəmizdə bu cür idman yarışlarının keçirilməsi bizim üçün böyük motivasiyadır. Çox həvəslə məşqimizi davam etdiririk. Çalışacağıq ki, növbəti yarışlarda da Azərbaycanı layiqincə təmsil edək.

Qazandıqları zəfərlərin sevinc hisslərini bölüşən idmançılarımız qətiyyətlə vurğulayırlar ki, Azərbaycanın İslamiada zəfərinin baş müəllifi dövlət başçısı İlham Əliyevdir. Hər zaman idmançılara diqqət və qayğı göstərən Prezidentin İslam Həmrəyliyi Oyunlarında da atletlərimizin parlaq qələbələrinin əldə olunmasında böyük dəstəyi var. Dövlət başçısının yarışları izləməsi, idmançılarımıza şəxsən medalları təqdim etməsi atletlərimizi daha qürurlandırır.

## *Çempionluq mənim üçün gözlənilməz olmadı*

**Eriş Yaprak,**
**IV İslam Həmrəyliyi Oyunlarının qalibi:**

- İslamiadada hədəfim yalnız qızıl medal idi. Odur ki, çempionluq mənim üçün gözlənilməz olmadı. Məhz bu niyyətlə məşqlər etmişdim. İstəyimə çatdım. Vacib nəticəyə imza atdım. İslam Həmrəyliyi Oyunlarının qızıl medalını qazandım. Azarkeşlər mənə əla dəstək oldu. Bunun üçün hər kəsə minnətdaram.

Final döyüşündə həmyerlim Dürdanə Altunellə qarşılaşdım. Gərgin keçən görüşün yekununda 5:4 hesablı qələbə qazandım. Mən də türkəm və final döyüşümdə digər türk idmançısı ilə üz-üzə gəldim. Buna görə də həlledici görüşdə həyəcanım daha çox idi. Deyərdim ki, ikiqat həyəcanlı idim. Amma qələbə qazanaraq özümü təsdiqlədim.

Qarşıda bizi dünya çempionatı gözləyir. Koreya Respublikasında baş tutacaq dünya çempionatına da iddialı qatılacağam. Məqsədim dünya çempionu olmaqdır. 2020-ci ilə kimi keçiriləcək digər yarışlarda özümü göstərməliyəm. Çünki Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına çempion kimi qatılmaq istəyirəm.

## *Gümüş medal qazanmaq da uğurdur*

**Qaşım Maqomedov,**
**IV İslam Həmrəyliyi Oyunlarının gümüş mükafatçısı:**

- İslamiadada gümüş medal qazanmaq mənim üçün böyük uğurdur. İlk növbədə ona görə ki, yarış Azərbaycanda keçirilir. Mükafatçılar sırasına düşmək mənim üçün vacib idi. Qazandığım nəticəyə görə Allaha şükür edirəm.

Finalda məğlub olduğum iranlı rəqibim çox güclü idi. Bacardığım qədər döyüşdüm. Hətta hesabda önə də keçməyi bacarmışdım. Bu üstünlüyü saxlamaq lazım idi. Niyə belə alındığını bilmirəm. Həmin anda nə baş verdiyini özüm də tam anlamadım. Bunun bəxtsizlik və ya nə olduğunu bilmirəm. Başa düşməkdə çətinlik çəkirəm. Əlavə edilmiş vaxta da mübarizəyə ciddiyyətlə çıxmışdım. Sadəcə, bəxtim gətirmədi.

Azarkeşlər mənə yaxınlaşıb şəkil çəkdirirdilər. Belədə elə təəssürat yarandı ki, sanki Olimpiya çempionuyam. Bu, çox xoş hisslərdir. Açığı, hisslərimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Zaldakı atmosfer möhtəşəm idi. Hər dəfə döyüşə çıxanda insanların dəstəyini hiss edirdim.

Qarşıda bizi böyük turnir gözləyir. Cənubi Koreyada keçiriləcək dünya çempionatı hər birimiz üçün önəmlidir. Amma indi dincəlməliyik. Bir həftəlik istirahətdən sonra məşqlərə başlayacağıq.

## *Hər bir idmançı zəhmətinin bəhrəsini görəndə daha da qürurlanır*

**Yekaterina Sarıyeva,**
**IV İslam Həmrəyliyi Oyunlarının bürünc mükafatçısı:**

- Çox sevincliyəm. İslamiadanın atletika yarışlarına uğurla start verdik. İdmançılarımız ilk yarış günündə 4 qızıl, 1 bürünc medal qazandılar.

Hər bir idmançı zəhmətinin bəhrəsini görəndə daha da qürurlanır və bundan motivasiya alır. Düzdür, qızıl medalın yeri başqadır. Amma əsas odur ki, apardığın mübarizədə medalsız qalmırsan. Ölkənə medal qazandırıb fərqlənənlər sırasına düşürsən. İslam Həmrəyliyi Oyunlarında qaliblər sırasında olduğum üçün şükür edirəm. İki il öncə Azərbaycanda keçirilən "Bakı-2015" I Avropa Oyunlarında da bürünc medal qazanmışdım. Bu dəfə isə məqsədim qızıl medal uğrunda mübarizə aparmaq idi. Lakin yenə də istəyimə nail ola bilmədim. Qazandığım bürünc medal məni heç də həvəsdən salmadı. Əgər belə olsaydı, Avropa Oyunlarından sonra fikrimi dəyişərdim. İnanıram ki, növbəti yarışlarda daha böyük uğurlar qazana biləcəyəm. Qarşıda məni Avropa birinciliyi gözləyir. Bir qədər dincəlib hazırlıqlara başlayacağam.

# Mehriban ƏLİYEVA:
# "Azərbaycan növbəti tarixi qələbəyə imza atdı"

### *Azərbaycan Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimində iştirak edib*

Mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri hərarətlə salamladılar.

Bu gün "Bakı-2017"nin uğurunu şərtləndirən iki amili xatırlatmaq yerinə düşər.

Yarışların gedişi bir daha təsdiqlədi ki, Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara yüksək səviyyədə hazırlıq görülüb, ən incə detallar belə nəzərə alınıb. Bakının 16 idman arenası ötən on gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Əminliklə demək olar ki, Bakıda keçirilən Oyunlar İslamiadanın tarixinə möhtəşəm idman bayramı kimi yazıldı.

İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətləndirərək deyib: "Azərbaycan paytaxtında möhtəşəm idman və dostluq bayramı başa çatır. Bakı İslam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələri qeyd etmək məqsədilə gözəl şəraiti təmin etdi. Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu. İslam Həmrəyliyi İdman Federasiyası adından Bakı sakinlərinə və Azərbaycan xalqına göstərdikləri fədakarlığa və çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Biz sizi 2021-ci ildə İstanbulda keçiriləcək Oyunlarda yenidən görməyi səmimiyyətlə arzulayırıq".

Azərbaycanın gənclər və idman naziri, İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, Oyunlar İslam ölkələrinin dostluğunu təcəssüm etdirdi: "IV İslam Həmrəyliyi Oyunlarının həyəcan dolu 10 günü idman, bayram və dostluğun təntənəsindən xəbər verir. "Bakı-2017" Əməliyyat Komitəsinin işinin başa çatmasına baxmayaraq, paytaxt şəhərimizin dünyada beynəlxalq idman və mədəniyyət mərkəzi kimi fəaliyyəti davam edir. Biz Bakıda bu yay keçiriləcək "Formula-1" Azərbaycan Qran-Pri turnirində, 2017-ci ildə qadınlar arasında Avropa vo-

leybol çempionatında və 2020-ci ildə UEFA-nın Avropa çempionatının dörddəbir final oyunlarında və üç qrup qarşılaşmasında bütün dünyanı yenidən salamlamağı səmimiyyətlə arzulayırıq".

Oyunların uğurunu təmin edən digər mühüm amil son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. Azərbaycan ilk Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla evsahibliyi edib, özünü dünyada idman ölkəsi olaraq tanıda bilib. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu.

Statistikaya diqqət yetirək: Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb.

"Bakı-2017"ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən çox media nümayəndəsi, əməkdaşı işıqlandırıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək yarışları birinci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olublar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılıb. Onlar ümumilikdə 26 medal - 11 qızıl, 12 gümüş və 3 bürünc əldə ediblər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı var.

Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri Oyunlara marağı daha da artıraraq onu yeni məzmunla zənginləşdirib.

Tamaşaçılar gözəl və mükəmməl idman qurğusu olan Bakı Olimpiya Stadionunun tribunalarında öz yerlərini tutdular: 68 min yerlik stadion tamaşaçılarla doldu. Meydança müasir səs sistemi ilə təchiz olunmuş 360 dərəcəli nəhəng səhnəyə çevrildi.

Səhnə tərtibatı İslam incəsənətinin bənzərsiz həndəsi naxışlarına və ənənəvi Azərbaycan xalçalarının elementlərinə əsaslanır. Səhnənin mərkəzində döymə üsulu ilə hazırlanmış və hamarlanmış diametri 8 metr olan böyük su sinisi və hündürlüyü 25 metrə çatan "Həyat ağacı" yerləşdirilib.

Mayın 20-də atletika yarışları başa çatdıqdan sonra səhnə cəmi 36 saat ərzində qurulub. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin hazırlanmasına 31 ölkədən 5000-dən çox səhnə mütəxəssisi, texniki heyət və aktyorlar qrupu cəlb olunub. Bağlanış mərasimi 1500 könüllü tərəfindən canlandırıldı.

Bağlanış mərasiminin möhtəşəmliyini bu faktlardan aydın görmək olar: Oyunların açılış şousunda istifadə olunmuş 270 dönmə dərəcəli işıq dirəyini 360 dönmə dərəcəsinə çevirmək üçün 12 nəfər 36 saat çalışıb. Mərasim üçün 75 kilometr elektrik kabelləri və 7 meqavatlıq generator gətirilib. Stadionda 300-dən çox səsgücləndirici qoyulub və 12 kilometr uzunluğunda kabel çəkilib. Mindən çox işıq avadanlığı 60 kilometrlik kabellərlə birləşdirilib. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin kostyumlarının tikilməsi üçün 15 min metr parçadan istifadə olunub.

Stadiondakı nəhəng monitorda İçərişəhər canlandı. Gənc qadın burada havaya qızılı toz üfürdü. Gilavar qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan ölkəmizdə hər qapını açaraq onu bütün Azərbaycana yaydı.

Xəzərdən əsən, özü ilə hərarət gətirən külək - gilavar qışı yumşaldır, havanı mülayimləşdirir və nəhayət, baharın müjdəsini çatdırır, insanları dənizkənarı bulvara, əylənib şənlənməyə səsləyir. Hamını qoynuna alan gilavar küləklər şəhəri Bakıya qonaq gələn hər kəsi salamlayır. Məhz onun müsbət, güclü enerjisi bağlanış mərasiminin əsas qayəsini təşkil edirdi.

Böyük monitorda Azərbaycanın bir çox təbii və memarlıq abidələrini - Şəki Xan Sarayı, Qobustan Milli Qoruğu, Şirvanşahlar Sarayı, Qız Qalası və Heydər Əliyev Mərkəzini seyr edən tamaşaçının diqqəti yenidən Bakı Olimpiya Stadionuna yönəldi.

Sonra 10-dan 1-ə geriyə sayım başladı və bununla da IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə start verildi.

Bu axşamkı mərasimdə 1500 könüllü çıxış edirdi.

Stadionda Yaşar Baxışın "Əbədi birlik" əsəri səsləndi.

Azərbaycan bayrağı Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri tərəfindən stadiona gətirilərək dövlət himninin sədaları altında dirəyə qaldırıldı. Stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq oldu.

İdmançıların paradı başladı. İslam Həmrəyliyi Oyunlarında iştirak edən atletlər öz ölkələrinin milli bayraqları ilə stadiona daxil oldular. Paradı ev sahibi olan Azərbaycan atletləri tamamladı. Bu mərasim "Amarok" qrupunun ifasında "Naxçıvan halayı" ilə müşayiət olundu.

Xatırladaq ki, yarışlarda Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları iştirak ediblər.

İdmançıların paradı zamanı Tünzalə Ağayeva, Samirə Allahverdi, Samirə Əfəndi, Hafex & Sahil Umud, Nigar Camal, Aygün Kazımova, Rilaya, Diana Miro populyar Azərbaycan mahnılarını səsləndirdilər.

Səhnədə quraşdırılmış "Həyat ağacı"na su verildi və o, rişə atmağa başladı. Ağacın ümumi uzunluğu 80 metr olan kökləri səhnənin kənarından çıxdı.

Aktyorlar qrupu üç rəngdə - yaşıl, qəhvəyi və göy rəngdə 60 ipək zolaqla səhnəyə çıxdılar. Süni quşlar onların başları üzərində uçur və bu zaman ipək zolaqlar birləşərək gözəl mənzərə yaradır. Yaşıl rəng - meşələri, qəhvəyi - dağları, göy isə çayları təcəssüm etdirirdi.

İpək zolaqlar sonda Azərbaycan bayrağının formasını aldı.

Mindən çox ağ hava şarı buludlara çevrildi və aktyorlar onları ip vasitəsilə hərəkətə gətirdilər. İpək zolaqlar Azərbaycanın yerdən çıxan əbədi odlarını əks etdirdi.

Səhnə üzərində qanadlarının uzunluğu 3,4 metr olan 50 süni quş uçdu.

"Şərəfli ölkə" adlanan bu səhnənin nümayişi zamanı Azərbaycan musiqi qrupu "Amarok" "İncilər" mahnısını səsləndirdi.

Stadiondakı ekranlarda 10 günün idman yarışlarından epizodlar nümayiş etdirildi. Tamaşaçılar inanılmaz bacarıq, mübarizlik və sevinc anlarını bir daha seyr etdilər. Yarışların sevincli və kədərli anları da oldu. Bununla belə, son nəticədə dostluq qalib gəldi.

Yarış epizodlarının nümayişi zamanı Azərbaycanın "Eurovision-2015" beynəlxalq mahnı müsabiqəsinə təqdim etdiyi "Hour of the Wolf" mahnısı səsləndirilirdi.

Günəş qalxdı və səhnə üzərində hərəkət etdi. Onun fırlanan 60 paneli qızılı şüanı göstərmək üçün hava hərəkəti ustaları tərəfindən idarə olunurdu. Diametri 6 metr olan günəşin şüası səhnədə növbəti kompozisiyaya start verdi. "Xəzərin üzərində nur" adlanan bu səhnəciyi 454 aktyor canlandırdı. Stadionda "Qarabağ şikəstəsi"nin əzəmətli sədaları səsləndi.

Kitab formasında bir-biri ilə birləşdirilmiş 1000-dən çox əlvan üçbucaq iki böyük altıbucaq formalaşdırdı. Kitabın səhifələri "şəbəkə" sənətindən ilhamlanaraq, maraqlı naxışları yaratmaq üçün 110 səhnə iştirakçısı tərəfindən vərəqlənirdi. Günəş öz yerini tutduğu zaman həmin kitablar açılaraq göy işıq saçdı və havaya qaldırılaraq Xəzərin gözəl 3D görüntüsünü yaratdı.

Stadionda "Gilavar" kompozisiyasının nümayişi başladı. Bakı bulvarının gündəlik əyləncəli həyatından səhnələr nümayiş etdirildi. Kimi çərpələng və hava şarları ilə oynayır, kimi şahmat taxtası arxasında əyləşib, kimi də küləyin əllərdən qopardığı qəzetlərin arxasınca qaçırdı. Bütün rekvizit və kostyumlar gilavarı əks etdirən dalğavari naxışlarla bəzədilmişdi.

Səhnə iştirakçıları "Yallı" getdiyi zaman buludlar qalxdı.

Mindən artıq hava şarı və gilavar "Həyat ağacı"nın yarpaqlarını gecə səmasına qaldırdı.

Stadionda Gülarə Əliyevanın "Şur fantaziyası" səsləndirildi.

Səmada işıq saçan aypara göründü və səhnə üzərində hərəkət etdi. Aktyorlar qlobus saxlayan əlləri və sülh rəmzi olan göyərçini formalaşdırdı.

"Həmrəylik ruhu" adlı bu kompozisiyada aktyorlar Azərbaycanın dekorativ incəsənətində və memarlığında işlədilən və alov mənasını daşıyan buta fiqurlarını yaratdılar.

Aypara səhnənin mərkəzinə doğru hərəkət etdi. Səhnə iştirakçıları aypara formalaşdırmaq üçün 750-dən artıq alov yandırdı. Onlar fəvvarəyə çevrilən su sinisini dövrəyə aldılar. Əllidən çox İslam ölkəsinin qovuşan suları gözəl fəvvarəyə çevrildi və ayparaya doğru yüksəldi.

Su yüksəldikcə Aydan parıltılı konfetti səpələndi.

Beləliklə, Bakı İslamiadanın birlik və həmrəylik ruhunu dünya ilə bölüşdü.

"Natiq" ritm qrupunun ifasında "Qarabağ" mahnısının sədaları stadiona yayıldı.

Diqqət yenidən monitorlara yönəldi. Ekranlarda təxminən 8000 könüllünün Oyunların uğurla keçirilməsinə verdiyi böyük töhfəni təsvir edən videoçarx nümayiş olundu.

Stadionda Azad Vəliyevin "Yeni gün" mahnısı səsləndi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olundu.

## *Xanım Mehriban Əliyevanın çıxışı*

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Zati-aliləri Faisal Abdulaziz Al-Nasser,

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,

Zati-aliləri,

İslam aləminin idmançıları,

Xanımlar və cənablar,

Hörmətli qonaqlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz!

Əziz həmvətənlər!

Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar.

Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin, hamımız bu birliyi qoruyaq, İslam həmrəyliyini gücləndirək. Qoy, Allah bütün müsəlmanları qorusun!

Əziz dostlar, son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı.

İdmançılar, mən sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm və İslam aləminin tamaşaçılarına verdiyiniz sevincə görə sizə təşəkkürümü bildirirəm. Bu, sizin Oyunlar idi

və sizin idman yarışlarında çıxışınız onları möhtəşəm etdi. Ümidvaram ki, Bakıdan ayrıldıqda ən xoş xatirələrinizi bütün həyatınız boyu əziz tutacaqsınız.

Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq bizi bir daha fərəhləndirdi. Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək.

Son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi növbəti böyük qələbə oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq.

Mən xalqlar arasında həmrəylik əlaqələrini gücləndirən İslam aləminin idmançılarını Bakıda salamlamaq üçün yaratdığı fürsətə görə İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm.

Bu Oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi nüfuzunu daha da möhkəmləndirdi. Paytaxtımız İslam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu Oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir.

Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin - Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Dünyanın ən gözəl şəhərlərindən birində, Bakıda sizi görməkdən məmnun olduq. Biz açıq qəlblə sizi yenidən Azərbaycanda görməyimizi səmimiyyətlə arzulayırıq.

Əziz könüllülər, çox sağ olun: qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu Oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər "Bakı-2017"nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram.

Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: bu yay "Formula-1" Azərbaycan Qran-Pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaq.

"Bakı-2017" Oyunlarının başa çatdığı bir anda, mən bu möhtəşəm tədbirdə iştirak etmiş hər bir şəxsə, idmançılara və tamaşaçılara, təşkilatçılara və könüllülərə təşəkkürümü bildirmək istəyirəm.

Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq.

Beləliklə, mən qürur hissi ilə IV Bakı İslam Həmrəyliyi Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

(Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi

Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

* * *

Sonra İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış etdi.

## *Faisal Abdulaziz Al-Nasserin çıxışı*

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Zati-aliləri Mehriban Əliyeva,

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,

Zati-aliləri,

İslam aləminin idmançıları,

Xanımlar və cənablar.

Bu axşam keçirilən bağlanış mərasimi burada, Azərbaycanın paytaxtında möhtəşəm idman və dostluq bayramının başa çatmasından xəbər verir. Bakı dövlətlərimizin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələrimizi qeyd etmək məqsədilə yaradılmış gözəl şəraitləri təmin etdi.

Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Mən İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə "Bakı-2017"yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm.

Dörd ildən sonra "İstanbul-2021" Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram.

Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!

* * *

Monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edəcək İstanbul şəhərindən görüntülərin, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirildi.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endirdilər.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser bayrağı Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, "İstanbul-2021" İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim etdi.

Bu səhnələr Benjamin Brittenin "The Young Person's Guide to the Orchestra" musiqisi, Rövşən Əsgərzadənin "Qəhrəmanlıq uvertürası" ilə müşayiət olundu.

Türkiyənin dövlət himni - "İstiqlal marşı" səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırıldı.

Bağlanış mərasimi "Birlik" adlı konsertlə davam etdi.

Səmra Rəhimli, Nigar Camal, Miri Yusif, Səbinə Babayeva və Eldar maraqlı ifaları ilə tamaşaçılarda xoş ovqat yaratdılar. Rəngli döşəmədəki proyeksiyalar səhnəyə canlılıq gətirdi.

Tünzalə Ağayevanın ifasında "Sürət - 2017 Azərbaycan Qran-Prisi" mahnısı səsləndi. İfa zamanı 30 səhnə iştirakçısı Bakı şəhər halqasını təsvir edən əsas səhnədə işıqsaçan çubuqlarla rəqs etdi.

Müğənni "Birlik" konsertini "Bakı-2017"nin könüllülərinə həsr olunmuş "Salam Bakı" himni və "Mən azərbaycanlıyam" mahnısı ilə yekunlaşdırdı.

Yaddaşlarda dərin iz qoyan, artıq tarixə çevrilən IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi Bakı Olimpiya Stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatdı.

## Azad Rəhimov: İslamiada Azərbaycanın mötəbər tədbirləri yüksək səviyyədə keçirməyə qadir olduğunu göstərdi

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən bütün idmançılar, missiya rəhbərləri İslamiadanın təşkilindən məmnunluqlarını bildiriblər. Qürur hissi ilə deyə bilərik ki, IV İslam Həmrəyliyi Oyunları Rio Olimpiadasından da yüksək səviyyədə keçirildi. Azərbaycan IV İslam Həmrəyliyi Oyunları ilə belə mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi etməyə qadir olduğunu dünyaya göstərə bildi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın gənclər və idman naziri, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov mayın 23-də Oyunların yekunları ilə bağlı təşkil olunan mətbuat konfransında deyib.

Prezident İlham Əliyevin idmançılarla görüşdə Rio Oyunlarında yüksək nailiyyətlərimizin IV İslam Həmrəyliyi Oyunlarında öz təsdiqini tapması ilə bağlı fikrini xatırladan Azad Rəhimov Azərbaycanın 75 qızıl medalla İslamiadanı birinci yerdə başa çatdırdığını diqqətə çatdırıb. Bildirib ki, komandamız 162 medal ilə yüksək nailiyyət göstərdi. İdmançılarımız gərgin idman mübarizəsi nəticəsində qələbə qazandılar. İstər təşkilatçılıq, istərsə də yarışlar baxımından Oyunlar yüksək səviyyədə keçirildi. Açılış və bağlanış mərasimlərində, yarışlar zamanı hər hansı problem müşahidə edilmədi. Yarışların işıqlandırılması, yayım məsələləri operativ qaydada təmin olundu.

Bakı Media Mərkəzinin yüksək səviyyəli yayım həyata keçirdiyini söyləyən nazir videoçarxda gözəl anların öz əksini tapdığını vurğulayıb: "Oyunlarda 3 minə yaxın idmançı iştirak edib. Həmçinin minə yaxın texniki heyət çalışıb. Açılış və bağlanış mərasimlərində tərtibat yüksək səviyyəli idi. Bakı sakinləri yarışları bayram ab-havasında izlədilər. Atletlər kəndində qalan idmançılar onlar üçün yaradılan şəraitdən tam razı qaldılar".

Oyunların keçirilməsində iştirak edən 8 mindən artıq könüllüyə göstərdikləri dəstəyə görə minnətdarlığını bildirən A.Rəhimov onlardan 4600-nün açılış və bağlanış mərasimlərinə cəlb edildiyini deyib: "Əməliyyat Komitəsində 1500-ə yaxın mütəxəssis işə cəlb edilmişdi. Biz birlikdə mehriban əməkdaşlıq şəraitində çalışdıq. Bizimlə səmərəli əməkdaşlığa görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlığımızı bildiririk. Növbəti Oyunlar Türkiyədə keçiriləcək. Qardaş Türkiyəyə növbəti Oyunların təşkilində uğurlar arzulayırıq".

İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Koordinasiya Komissiyasının üzvü Əşrəf Seyyid Dahruq ev sahibi Azərbaycanın Oyunların təşkilinə, eləcə də

möhtəşəm açılış və bağlanış mərasimlərinə mükəmməl hazırlaşdığını qeyd edib. O, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə görülən yüksək səviyyəli işlərin əhəmiyyətini xüsusi vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin əksəriyyətinin Oyunlarda iştirak etdiyini söyləyən Koordinasiya Komissiyasının üzvü idmançıların yarışlara böyük həvəslə qatıldıqlarını diqqətə çatdırıb: "Oyunlar yüksək səviyyədə keçirildi. Ümid edirik ki, bu səviyyə gələcəkdə də qorunacaq. Bütün müsəlman ölkələrinin dünyaya göndərdiyi mesaj aydın idi. Azərbaycan böyük tədbirlərə ev sahibliyi etməyə hazırdır. Ümid edirik ki, Azərbaycan müsəlman ölkələri və xalqları arasında həmrəyliyin gücləndirilməsinə töhfə verməkdə davam edəcək".

Azərbaycan Milli Olimpiya Komitəsinin və İHİF-in vitse-prezidenti Çingiz Hüseynzadə milli komandamızın bu mötəbər yarışlardakı nailiyyətlərindən danışaraq ölkəmizin Oyunlarda güclü heyətlə təmsil olunduğunu bildirib: "Azarkeşlər mükəmməl arenalarda maraqlı idman mübarizəsinin şahidi oldular. Komandamız böyük uğur qazandı. Bu Oyunların ən əhəmiyyətli cəhəti idmanın bütün növlərində medal qazanmağımızdır".

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# İslam həmrəyliyinin təntənəsi

Bu gün Yer kürəsində müharibə ocaqlarını körükləyənlər, terrorçulara qol-qanad verib günahsız insanların qanına bais olanlar bunu İslam dininin adına yazmaqdan, müsəlman ölkələrinə qara yaxmaqdan çəkinmirlər. Bu dinin əsl mahiyyəti qardaşlıq, bərabərlik, sevgidir. İslam dini milli kimliyindən, dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün insanların xoşbəxt yaşamaq, azad olmaq, öz hüququna sahib çıxmaq kimi ali haqlarının təbliğatçısı və müdafiəçisidir.

Təəssüf ki, biz bu gün bəşəriyyəti barışa, sülhə, həmrəyliyə dəvət edən, multikultural dəyərləri milli-mənəvi sərvətimiz kimi qoruyub saxlayan, onun qədir-qiymətini dərk edib bütün dünyaya yayan, fəqət torpaqları işğal olunmuş, hələ də igid oğullarının şəhid xəbərlərini alan, əsir, girov götürülmüş övladlarının taleyini düşünən, dünyadan ədalət istəyən bir ölkənin vətəndaşlarıyıq. Lakin bu qədər dərdlərin, problemlərin içərisində belə, bu məmləkətdə böyükdən kiçiyədək hər kəs yalnız öz vətəninə, xalqına deyil, bütün dünyaya sülh, əmin-amanlıq arzulayır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilməsi də bu ali məqsədin, böyük arzunun təcəssümüdür.

Azərbaycan daha bir beynəlxalq tədbirə evsahiblyi etməyə hazırlaşır. Respublikamızın paytaxtında - Bakıda 12-22 may 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları baş tutacaq.

Azərbaycan xalqının qonağa ehtiramı hər zaman böyük olub. Bu dəfə də tədbirin möhtəşəmliyi ev sahibindən mükəmməl hazırlıq, zəngin təcrübə tələb edir. Şübhəsiz, hər bir beynəlxalq tədbirin təşkili yalnız onun təşkilatçılarının deyil, bütövlükdə ölkənin şərəfidir. Buna görə də məsuliyyət böyükdür. Və bu məsuliyətli vəzifə - "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə həvalə edilib. Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Mehriban xanımın rəhbərliyi altında IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq işləri yüksək səviyyədə tamamlanmaqdadır.

Ölkəmiz müstəqillik illərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT), İslam Ölkələrinin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO), eyni zamanda, müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilib və qlobal əhəmiyyətli mühüm mədəni forumların təşkilatçısı olub. Azərbaycanın İslam aləmində qazandığı nüfuz nəticəsində 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərləri İslam mədəniyyətinin paytaxtı elan olunub. İƏT-in ən fəal üzvlərindən olan Azərbaycanın İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti addımı isə IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsidir. Həm də elə bir zamanda ki, İslam aləminin, müsəlman dövlətlərinin siyasi birliyə, mənəvi həmrəyliyə və tərəfdaşlığına çox böyük ehtiyac var. Tarixin hazırkı keşməkeşli dövründə Azərbaycan Prezidenti İlham Əliyevin

sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilməsində də əsas məqsəd İslam həmrəyliyində Azərbaycanın rolunu gücləndirməkdir.

Oyunların təşkilati məsələləri böyük diqqətlə, canıyananlıqla, əsl peşəkarlıqla düşünülüb həyata keçirilməkdədir. "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının bütün elementlərində xalqımızın zəngin tarixi, misilsiz mədəniyyəti, eyni zamanda İslam dininə dərin köklərlə bağlılığı təcəssüm olunub. Ölkəmizin paytaxtında keçiriləcək yarışın brendi və loqosu hazırlanarkən, ümumilikdə İslam dövlətlərinin müasirliyi ilə yanaşı, onun böyük mədəni keçmişinə həssaslıqla yanaşılıb. Azərbaycanlı dizaynerlər qrupunun ərsəyə gətirdikləri loqoda İslam dövlətlərinin tarixi, irsi və mədəniyyəti məharətlə əks etdirilib.

Müasir mədəniyyəti, keçmişi və gələcəyi özündə birləşdirən brenddə müsəlman dövlətlərinə xas zəngin mədəni ənənənin tərkib hissəsi olan xalçaçılığın müasir təsviri yer alıb. Brenddə istifadə olunan xalça naxışlarının elementləri Azərbaycan irsini əks etdirir. Həmin elementlər UNESCO-nun Ümumdünya İrs siyahısına daxil edilmiş Qobustan Milli Parkındakı qaya üzərindəki tarixi təsvirlərə ehtiram əlaməti olaraq idman növləri ilə nəfis şəkildə birləşdirilib. Bu, İslam mədəniyyətinin və İslam Həmrəyliyi Oyunlarında nümayiş etdiriləcək idman tədbirlərinin müasir təsviridir.

Azərbaycanda səbirsizliklə gözlədiyimiz İslam Həmrəyliyi Oyunlarının simvolu olaraq su ünsürü götürülüb ki, bu da böyük məna daşıyır. Azərbaycan xalqı həmişə suyu müqəddəs hesab edib. Su aydınlıqdır, su dirilikdir. Susuz dünya məhv olar. Bütün canlılar varlığına görə ona minnətdardırlar. Su həyat deməkdir.

Digər tərəfdən, Yer kürəsinin bugününü təsəvvürümüzdə canlandırmaq belə ağrılıdır. Çünki real mənzərələr XXI əsrin gözləntilərinə qətiyyən uyğun deyil. Dünyanın bir sıra yerlərini müharibələr, terrorlar alovlara bürüyüb, insanları dinc, əmin-amanlıq şəraitində yaşamaqdan, sevincdən, xoşbəxtlikdən məhrum edib. Xüsusilə İslam ölkələrinin çoxunda vəziyyət gərgin olaraq qalmaqdadır. Müharibələrə, terrorçuların hücumlarına düçar edilən həmin ölkələrə hər tərəfdən sanki od yağdırılır. Su həm də İslam ölkələrindəki alovun söndürülməsi simvolu kimi nəzərdə tutulub.

Azərbaycan da bu gün qan-qadadan, ədalətsiz müharibənin gətirdiyi ağır bəlalardan kənarda deyil. Xalqımızın ən ağrılı yeri Qarabağ torpaqlarının erməni təcavüzünə, namərd işğalına məruz qalmasıdır. O qədim yurd yerlərimizə məxsus, Qarabağ adı ilə şöhrətlənən və bizi dünyada tanıdan milli, mənəvi sərvətimiz çoxdur. Onlardan biri də məşhur Qarabağ atlarıdır. "At muraddır", - deyib ulu babalarımız. At qəhrəmanlıq rəmzidir. Azərbaycan şifahi xalq ədəbiyyatında - nağıllarımızda, əfsanələrimizdə, dastanlarımızda da at igidə yoldaş, arxa, dayaq kimi təsvir olunub. Hər zaman at igidin qeyrəti sayılıb. IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsi daha bir uğurlu seçim edib. Belə ki, Azərbaycanın milli sərvəti, gözəlliyi ilə ən yüksək tériflərə layiq Qarabağ atları "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının talismanı olub.

IV İslam Həmrəyliyi Oyunlarının bütün rəmzləri kimi bu da böyük düşüncənin, xalqımıza sevginin, ehtiramın göstəricisidir. Belə mötəbər yarışın rəmzinin Qarabağ atları

olması və tədbirin Qarabağ atlarının gəlişi ilə açılması həm də bütün Azərbaycan vətəndaşlarının böyük arzuya, ümidə yetişəcəyinin təcəssümüdür. Bir daha inamla düşünürsən ki, Qarabağ Azərbaycanın qürurudur və torpaqlarımız bir gün mütləq işğaldan azad ediləcəkdir. O qədim yurd yerlərimizdə igidlərimiz yenə at çapacaqlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının rəmzi hesab edilən Qarabağ atları "İncə" və "Cəsur" adlandırılıblar. "İncə" zəriflik, gözəllik nümunəsi, adət-ənənələrin, milli dəyərlərin, müasirliyin təmsilçisidir. "Cəsur" isə cəsarəti, dəyanəti və mərdliyi təcəssüm etdirir. Ona görə ki, qətiyyətli, iradəli, əzmkar və qorxmazdır.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan səyahət marşrutu artıq öz yolunu uğurla davam etdirməkdədir. Su səyahətinə aprelin 5-də Bakıdakı Daş Salnamə Muzeyində start verilib. Azərbaycan Prezidenti İlham Əliyev, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyev "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə həsr olunmuş mərasimdəki çıxışında qeyd edib ki, bütün qonaqları qəbul etməyə hazırıq, onları səbirsizliklə gözləyirik: "Oyunlarda 57 ölkənin idmançıları iştirak edəcəklər və bu, Oyunların tarixində bir rekorddur. Biz buna çox sevinirik. Eyni zamanda, minlərlə rəsmi nümayəndə, qonaq ölkəmizə gələcək. Əminəm ki, qonaqların ölkəmizlə, onun reallıqları ilə, bizim qədim tariximizlə tanış olmaq üçün kifayət qədər imkanları olacaqdır.

Azərbaycan qədim tarixə, mədəniyyətə malik olan bir ölkədir. Bizim mədəniyyətimiz, tariximiz qürur mənbəyimizdir, milli sərvətimizdir. Qədim tariximizi əks etdirən tarixi-dini abidələrimiz sübut edir ki, Azərbaycan xalqı qədim xalqdır və ta qədim dövrlərdən bu diyarda yaşayıb, qurub-yaradıb. Azərbaycan qədim müsəlman diyarıdır. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi 743-cü ildə tikilmişdir". Ölkə rəhbəri İslam aləminin birliyini vacib hesab edərək xüsusi vurğulamışdır: "Bu il Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilmişdir. Bu da bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirmək üçün tərəfimizdən irəli sürülən önəmli təşəbbüsdür. Bu gün bütün müsəlman ölkələri birlik, həmrəylik nümayiş etdirməlidirlər. Əminəm ki, gələn ay keçiriləcək Oyunlar həm böyük idman bayramı olacaq, həm də bizim dostluğumuzu əks etdirəcək. Bütün müsəlman ölkələri 10 gün ərzində Bakıda öz təmsilçiləri vasitəsilə bir-biri ilə sıx əlaqələr quracaq, bir-birinin əlini sıxacaqlar. Biz Bakıda bütün dünyaya nümayiş etdirəcəyik ki, İslam aləmi birdir və birliyimiz bizim gücümüzü artırır".

Mərasimdə uşaqların əllərində su səhəngləri ilə səhnəyə daxil olması maraqla izlənilib. Azərbaycan Prezidenti İlham Əliyev Xəzər dənizindən götürülmüş suyu özləri ilə aparmaq üçün Azərbaycanın bütün guşələrindən gəlmiş uşaqlara təqdim edib. Ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni və Xəzər də-

nizini əhatə edən su səyahəti 3 min kilometrdən çox məsafəni qət edəcək.

Keçiriləcək "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları artıq Azərbaycanda ümumi bayram əhvali-ruhiyyəsi yaradıb. Çoxları bu böyük tədbirə öz töhfəsini vermək arzusundadır. Oyunların keçirilməsində 8 mindən çox könüllü iştirak edəcək. Prezident onların rolunun xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Ölkə başçısı İlham Əliyev təşkilatçıların misilsiz xidmətlərini, böyük zəhmətlərini də nəzərə çatdırıb, IV İslam Həmrəyliyi Oyunlarının hazırlanmasında xüsusi rola malik olan Təşkilat Komitəsinə, onun bütün üzvlərinə və komitənin sədri Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.

Xatırladaq ki, Mehriban xanım Əliyeva bundan əvvəl I Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi dünya səviyyəli bir idman hadisəsinin təşkilinə rəhbərlik edib. Qədim Şərq mədəniyyətinin əsas mərkəzlərindən biri kimi ölkəmizi beynəlxalq miqyasda tanıtmaq, bütün sahələrdə ənənələrimizi, milli-mənəvi dəyərlərimizi təbliğ etmək yolunda Birinci vitse-prezident misilsiz xidmətlər göstərib. UNESCO və ISESCO-nun xoşməramlı səfirinin həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq, dünyada Azərbaycana rəğbət bəsləyənlərin, onun haqqında daha məlumatlı olmaq istəyənlərin sayı artıb. Ölkəmizi tanıdıqca, tarixinə, mədəniyyətinə bələd olduqca onu sevənlər Azərbaycanın dostlarına çevriliblər. Bütün bunlar xalqımızın haqq səsinin dünyada daha aydın eşidilməsində, mənfur qonşularımızla ideoloji mübarizədə bizim qələbəmizi şərtləndirən böyük əhəmiyyətə malik inkaredilməz həqiqətdir.

Tarixən belə olub. Azərbaycan onu sevən, xoşbəxtliyi yolunda böyük əzmlə çalışan, fədakar vətəndaşlarının sayəsində yüksəlib. Mehriban xanım Əliyevanın da fəallığı, nüfuzu, İslami inanclara, milli-mənəvi dəyərlərə böyük hörmətlə, ehtiramla yanaşması onu yalnız öz xalqının gözündə ucaltmayıb. Respublikamızın hüdudlarından uzaqlarda da ölkənin Birinci vitse-prezidenti yüksək intellektə, yenilməz qətiyyətə malik, ədalətli, humanist mövqeli şəxsiyyət kimi qəbul edilir. O, öz məqsədyönlü fəaliyyəti ilə xalqımızın, ölkəmizin adını hər zaman yüksəklərə ucaldır. Mehriban xanım Əliyevanın dünya qadınları sırasında ilk dəfə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi də bütövlükdə Azərbaycanın sevinci, qüruru və uğurudur.

Respublikamızın ilk Avropa Oyunlarına yüksək peşəkarlıq və məharətlə evsahibliyi etməsində Mehriban xanımın misilsiz xidmətləri, bacarığı danılmazdır.

2015-ci ildə Bakı I Avropa Oyunlarının paytaxtı, Azərbaycan isə bu yarışların vətəni oldu. O vaxt təşkilatçılıq məsələlərində peşəkarlıq, yüksək mədəniyyət və qonaqpərvərlik nümayiş etdirildi. Mötəbər idman tədbiri öncəsi infrastrukturdan tutmuş texniki məsələlərə, viza rejiminədək bütün işlər dəqiqliklə yerinə yetirildi. Ölkədə yeni idman qurğuları inşa edildi, mövcud idman mərkəzləri təmir olundu. Atletlər və Media kəndləri yaradıldı, nəqliyyat infrastrukturu təkmilləşdirildi, viza rejimi sadələşdirildi və digər vacib tədbirlər həyata keçirildi. "Bakı-2015" qitəmizin idman hərəkatında yeni bir dövrə start verdi. Avropanın 50 ölkəsindən gələn 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışı yüksək səviyyəli təşkilatçılığı, möhtəşəm açılış və bağlanış mərasimləri ilə unudulmaz oldu, tarixə əbədi həkk edildi.

"Bakı-2015" ilk Avropa Oyunlarının simvolu nar və ceyran idi. Bunların da öz mənaları var. Azərbaycanın təbiəti üçün unikal sayılan Ceyran və Narın seçilməsi Ana Vətənimizin dəyərli sərvətlərinin bütün dünyaya təqdimatının bir üsulu idi. Ceyran və Nar ölkənin qürurlu tarixini və ümidverici gələcəyini ifadə edir. O, ölkədə təbii gözəlliyin, zərifliyin və saflığın simvolu kimi təqdim olundu.

Respublikamızın əksər bölgələrində və dünyanın bəzi ölkələrində yetişsə də, bizim Göyçay ra-yonunda unikal görünüşü, cənnəti giləlləri, özünəməxsus dadı-tamı ilə tam fərqli olan, adı ilə məşhurlaşan nar isə meyvələrin şahı sayılır. Nar günəşi sevir. Günəş isə nur mənbəyidir.

I Avropa Oyunlarından sonra - 2015-ci il iyunun 29-da Mehriban xanım Əliyeva yüksək komanda işinə, vətən, torpaq, yurd sevgisinə görə ölkə başçısı tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif edildi.

Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinə də əzmlə rəhbərlik edir. Oyunlarla bağlı keçirilən iclaslarda o, dəfələrlə bildirib ki, indiyədək ölkəmiz bir çox irimiqyaslı beynəlxalq tədbirlərə imza atıb.

Bu gün müsəlmanlara, İslam ölkələrinə münasibət birmənalı deyil. Son illər dünyada, xüsusilə Qərbdə baş verən terrorlarda və digər cinayət əməllərində müsəlmanları günahlandırmaq, bunlara İslam adı ilə kölgə salmaq meyilləri çoxalıb. Daha bir acınacaqlı fakt budur ki, dünyanın onlarla ölkəsində davam edən silahlı münaqişələrin, müharibələrin əksəriyyəti ya müsəlman dövlətlərində baş verir, ya da müsəlmanlar həmin münaqişələrdə bu və ya digər şəkildə iştirak edirlər. Prezident İlham Əliyev dünyada İslama qarşı çirkin kampaniya aparanları nəzərdə tutaraq bildirib: "Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir, İslamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər".

Əslində, İslamın ədalət, bərabərlik dini olduğunu bilənlərin də bir çoxu özünü bixəbər kimi göstərir. İslam dünyasında ictimai-siyasi durumun qeyri-sabit olmasının bir səbəbi də dini siyasi alətə çevirmək cəhdləri, təriqətlər, cərəyanlar və məzhəblərarası savaşlar, dini maarifsizlikdir. Bəziləri qəsdən, bəziləri isə bəşəriyyəti sülhə, barışa, insan haqlarına çağıran İslam dini və onun təməlini təşkil edən Qurandan xəbərsiz olduqlarından hansısa müsəlman ölkəsinin vətəndaşının siyasi və digər səbəblərə görə törətdiyi terrorları İslamın adına çıxarırlar. Bütün bunların fonunda vətəndaş müharibələrinin getdiyini, yüzlərlə, minlərlə günahsız müsəlmanın qətlə yetirildiyini müşahidə edirik. Müsəlmanların yaşadıqları bölgələrdə vəhşiliklər və zorakılıqlar tüğyan edir, yaşından, kimliyindən asılı olmayaraq insanlar öldürülür. Belə bir vaxtda dövlət başçımızın bütün dünyaya sülh, birlik, humanizm, barış mesajları verməsi ölkəmizin multikultural dəyərlərin daşıyıcısı olduğunu bir daha sübuta yetirir.

İslam birliyi, həmrəyliyi bütün dünyanı sülhə səsləyir. Azərbaycanda İslam dostluq,

qardaşlıq və həmrəylik dini kimi qəbul edilir. Cəmiyyətdə əxlaqi meyarların, dostluq və humanizm prinsiplərinin formalaşmasında müstəsna rolu olan bu din ölkəmizdə yaşayan xalqları bir-birinə bağlayan ən böyük mənəvi sərvətlərdən, ortaq dəyərlərdən biridir. İndi İslam həmrəyliyinin gücləndirilməsi və müsəlman dünyasının hərəkətə keçməsi, öz dəyərlərinə sahib çıxması, İslam dinini xürafata çevirərək, yanlış qələmə verənləri ifşa etməsi, bu dinin mahiyyətini, gözəlliklərini bəyan etməsi labüddür. IV İslam Həmrəyliyi Oyunları bu istiqamətdə də önəmli bir addımdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, İslam Həmrəyliyi Oyunları böyük siyasi, mədəni tədbirdir, böyük ictimai hadisədir: "Biz istəyirik ki, bütün dünya bilsin və görsün ki, İslam sülh dinidir, mərhəmət dinidir. Bizim qədim mədəniyyətimiz var və biz mədəniyyətimizlə fəxr edirik".

Bu tarixi həqiqətdir ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının və intibahının əsas mərkəzlərindən biri sayılıb, İslam dininin maddi və mənəvi irsinin formalaşmasında yaxından iştirak edib. Sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i keçib. Bu məscidlərin 300-dən çoxu tarixi-mədəni abidələr siyahısına salınıb. Tarixən Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayıb, öz adət-ənənlərini, inanclarını davam etdirib, yaşadıblar. Bu gün istər respublikamızın paytaxtında, istərsə də regionlarda bütün dinlərin nümayəndələrinə öz milli adətlərini, dini ayinlərini sərbəst şəkildə icra etmələri üçün dövlət tərəfindən lazımi şərait yaradılıb, məbədlər, sinaqoqlar, kilsələr tikilib. "İslam həmrəyliyi ili" bir daha bütün dünya dinlərinin nümayəndələrini birləşməyə, qarşılıqlı anlaşmaya və dialoqa çağırır.

"İslam həmrəyliyi ili" yalnız dini öhdəliklərinin təqdimatı məqsədilə deyil, müsəlman ölkələrinin həm sosial-iqtisadi, həm siyasi, həm də mədəniyyət sahəsində bir-birinə dəstək olması, həmrəylik nümayiş etdirməsi ilə səciyyələndirilməlidir. Müsəlman ölkələri arasında İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həyata keçirilən işbirliyi qurumun üzv ölkələri arasında siyasi, iqtisadi, humanitar sahədə münasibətlərə kömək göstərsə də, həll olunmamış çox problemlər var. Dünya siyasətində və müsəlmanlar yaşayan regionlarda cərəyan edən bir sıra proseslər İslam ölkələri arasında sıx əməkdaşlığın vacibliyini ön plana çıxarır. İslam həmrəyliyi bölgənin tərəqqisinə rəvac verəcək. Müsəlman ölkələri arasındakı ayrı-seçkiliyin aradan qaldırılmasını, birliyin yaranmasını təmin edəcək. Mövcud gərgin vəziyyətlərdən çıxış yolu budur. İslam həmrəyliyi siyasi tələbat, siyasi maraq deyil, birlik, dostluq, qardaşlıq, sevgi kimi yüksək insani dəyərlərdir. İslam ölkələrinin dövlət xadimləri, qabaqcıl ziyalıları, din xadimləri müsəlman dünyasında birlik və bərabərlik, sevgi, hörmət, mərhəmət, tolerantlıq mühiti yaratmaq üçün səyləri artırmalıdırlar. İslam dünyası hərbi, siyasi və iqtisadi baxımdan birlik nümayiş etdirməli, həmrəy olaraq problemləri, onları yaradan səbəblərin həlli yollarını birlikdə axtarıb tapmalıdır.

İslam ölkələri ilə hərtərəfli münasibətlərin inkişafı, müsəlman dünyasında qardaşlığın, həmrəyliyin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmiz İslam ölkələrinin bir araya gəlməsində bütün imkanlardan

istifadə edir. IV İslam Həmrəyliyi Oyunları da müsəlman ölkələri arasında qarşılıqlı hörmət və anlaşma əlaqələrinin, birliyin möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin parlaq təntənəsinə çevriləcək.

Ölkəmizdə və bütün dünyada böyük maraqla, həyəcanla gözlənilən mötəbər idman yarışı - IV İslam Həmrəyliyi Oyunları günlərinin ərəfəsindəyik. Təşkilati istiqamətdə həyata keçirilən ilk tədbirlər göz önündədir. Artıq Azərbaycan bu sahədə öz standartlarını yaratmış, imicini formalaşdırmışdır. Mehriban xanım Əliyeva IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclasında bu məsələyə xüsusi toxunmuşdur: "Biz "dünya standartlarına uyğun" kəlməsindən tez-tez istifadə edirik. Mənə elə gəlir ki, biz son illər artıq Azərbaycanın standartlarını yaratmışıq... Biz çalışırıq ki, hər bir tədbiri hərtərəfli hazırlayaq. Bu sahədə bizim artıq böyük təcrübəmiz var. Ölkəmizdə bir çox sahələri əhatə edən beynəlxalq tədbirlər keçirilir. Gələcəkdə də belə tədbirlərin keçirilməsi üçün bir çox müraciətlər var. Yəni, artıq beynəlxalq aləmdə Azərbaycanın bu sahədə imici formalaşıb. Bizə müraciət edən beynəlxalq qurumlar əmindirlər ki, Bakıda, Azərbaycanda keçirilən böyük beynəlxalq tədbirlər doğrudan da bütün tələblərə - həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verəcək. Bir daha deyirəm ki, bu, ilk növbədə, Azərbaycan dövlətinin potensialının və Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir".

Respublikamız təkcə İslam aləmində deyil, ümumən bütün dünyada həmrəyliyin və əmin-amanlığın təntənəsinə xidmət edən bu idman yarışını sülh, sabitlik və yüksək bayram ovqatında keçirməklə beynəlxalq ictimaiyyətə növbəti dəfə müasir şəhər infrastrukturunu, turizm imkanlarını, qlobal tədbirləri yüksək səviyyədə təşkil etmək əzmini, tolerantlığını və qonaqpərvərliyini nümayiş etdirəcək. IV İslam Həmrəyliyi Oyunları müasir Azərbaycanın bütün dünyaya dolğun təqdimatını təmin edəcək.

*İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətləndirərək deyib: "Mən ev sahibliyi edən gözəl ölkənin xalqına və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan idmana çox vurğundur və tədbirə ən yüksək standartlar səviyyəsində ev sahibliyi etməkdə qətiyyətini nümayiş etdirdi. Şübhə etmirəm ki, bu Oyunlar "Bakı-2017"nin təşkilatçılarının və könüllülərinin yorulmaz fəaliyyətininin, sadiqliyinin göstəricisidir və idmançılara öz ustalıqlarını nümayiş etdirmək üçün ən yaxşı şərait yaradılıb".*

# IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib

Mayın 23-də "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri görüşdə iştirak ediblər.

Dövlətimizin başçısı görüşdə nitq söylədi.

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Əziz dostlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunları başa çatdı. Azərbaycan bu Oyunlarda növbəti qələbə qazandı. Bu parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edirəm və sizə yeni qələbələr, yeni uğurlar arzulayıram.

Bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Əlbəttə, biz hamımız yaxşı bilirik ki, bu qələbə təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır.

Bizim son nailiyyətlərimiz də deməyə əsas verir ki, bu qələbə təsadüfi qələbə deyil. Azərbaycan idmançıları 2015-ci ildə Avropa Oyunlarında 56 medal qazanmışlar və komanda hesabında ikinci yerə çıxa bilmişlər. Keçən il Yay Olimpiya Oyunlarında medalların sayı 18-ə çatdı. Bu, bizim Olimpiya Oyunlarında iştirakımızın tarixində ən böyük rəqəmdir və medalların sayına görə Azərbaycan 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdə idi. Yəni, bugünkü qələbənin çox möhkəm təməli var və bu, onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, Azərbaycan dövləti inkişaf edir. Çünki ancaq inkişaf etmiş ölkələrdə idman həm dövlətə, həm xalqa böyük qələbə gətirir. Biz idmançılarımızla fəxr edirik. Mən bütün idmançılarımızı bu böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram.

Bu Oyunlar, eyni zamanda, onu göstərir ki, Azərbaycanda aparılan düşünülmüş siyasət, o cümlədən idman sahəsində öz bəhrəsini verməkdədir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illər ərzində bu istiqamətdə atılmış addımlar, apardığımız siyasət bu gözəl nəticəni bizə verdi.

Bu gün Azərbaycanda idman ictimai proseslərin inkişafında xüsusi yer tutur. İdmançılara cəmiyyətdə çox xoş münasibət var. İdmançılara olan hörmət göz qabağındadır və hər bir vətənpərvər Azərbaycan vətəndaşı idmançılarımızın uğurlarını alqışlayır, bu uğurlarla fəxr edir. Hər dəfə bizim bayrağımız qaldırılanda, dövlət himnimiz səslənəndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Bu 10 gün ərzində idmançılarımız xalqımıza qələbə sevinci bəxş etdilər. Bu 10 gün ərzində Azərbaycan cəmiyyəti bir daha birlik, həmrəylik, vətənpərvərlik göstərdi, tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu, böyük sevgi ilə sizin qələbələrinizi alqışlayırdılar, sizinlə bərabər buna sevinirdilər, bu qələbə sevincini sizinlə bölüşürdülər.

İdman hər bir ölkənin ictimai həyatında xüsusi yer tutur və bu gün idmanın inkişafı, bax, bu gözəl nəticələrə gətirib çıxarır. Biz haqlı olaraq öz qələbələrimizlə fəxr edirik, eyni zamanda, sizin nümunəniz, bu Oyunlarda idmançılarımızın qələbələri, əminəm ki, yaxın gələcəkdə idman bölmələrinə uşaqların axınını daha da sürətləndirəcək. Çünki biz hər dəfə növbəti böyük idman qələbəsindən sonra görürük ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar, yeniyetmələr idman bölmələrinə üz tuturlar, sizin kimi olmaq istəyirlər, sizə oxşamaq istəyirlər. Gənc nəsil, uşaqlar görəndə ki, dövlət idmançıları qiymətləndirir, onları mükafatlandırır, onlara bütün şəraiti yaradır, əlbəttə, idmana daha da böyük maraq olacaq. Bu da nəticə etibarilə Azərbaycan gəncliyinin, xalqının sağlamlığına xidmət göstərəcək. Əlbəttə ki, biz idmançılarımızın uğurları ilə fəxr edirik və bu, bizim ölkəmizin şöhrətini artırır. Ancaq, eyni zamanda, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir. İdman sağlam həyat tərzidir və biz hamımız çox istəyirik ki, Azərbaycanda sağlam həyat tərzi yanaşması üstünlük təşkil etsin. Bu gün bu, belədir, dövlət siyasəti də məhz bu istiqamətdə aparılır və eyni zamanda, sizin qələbələriniz bizim siyasətimizi dəstəkləyir.

Bu Oyunların keçirilməsi əlbəttə ki, ölkəmiz üçün tarixi hadisə idi. Şadam ki, bu qələbəni şərtləndirən, qələbəyə aparan bütün qurumlar çox yaxşı işlədilər. Həm əvvəlki illərdə, həm Oyunlar ərəfəsində Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar, məşqçi korpusu, idman mütəxəssisləri, əlbəttə, idmançılar bir komanda, bir ailə kimi bir amala xidmət edərək, bu qələbəni mümkün etdilər. Bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda bütün idman qurumları çox sıx əlaqədə işləyirlər və hesab edirəm ki, uğurlarımızın təməlində bu amil dayanır. İdmançılar üçün isə biz bütün şəraiti yaratmışıq. Bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi, Bakı şəhərində isə istənilən beynəlxalq yarışı keçirmək üçün ən müasir və gözəl idman obyektləri fəaliyyət göstərir.

Oyunların keçirilməsində Təşkilat Komitəsinin rolunu xüsusi qeyd etmək istəyirəm. Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazır-

lıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın. Ölkəmizə minlərlə xarici qonaq gəlmişdi. Mən Təşkilat Komitəsinin işini çox yüksək qiymətləndirirəm və bu, artıq təbii bir haldır. Çünki Mehribanın rəhbərliyi ilə üçüncü beynəlxalq mötəbər yarışma keçirilir – 2012-ci ildə "Eurovision" mahnı yarışması, 2015-ci ildə Avropa Oyunları, - o, birinci Oyunlar idi, Oyunların standartları yox idi və hazırlıq üçün bizim cəmi iki ilimiz var idi, - və bu dəfə İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir. Əlbəttə, bu, onu göstərir ki, Təşkilat Komitəsi öz vəzifə borcunu ləyaqətlə, şərəflə icra edib. Mən Təşkilat Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Əməliyyat Komitəsi çox fəal işləyib. Bu Əməliyyat Komitəsi Avropa Oyunlarının da təşkilini təmin edibdir və xarici mütəxəssislər də bizə kömək göstəriblər. Oyunların açılış və bağlanış mərasimləri də çox möhtəşəm idi. Mən yaxşı bilirəm ki, Təşkilat Komitəsi bu iki möhtəşəm təqdimatla çox ciddi məşğul olub. Həm açılış, həm bağlanış mərasimi ölkəmizin imkanlarını, xalqımızın istedadını göstərir. Eyni zamanda, onu göstərir ki, Azərbaycan və Azərbaycan xalqı öz milli, dini dəyərlərinə sadiqdir, onları qoruyur.

Biz açılış mərasimində İslam dininin mütərəqqiliyini göstərdik. Göstərdik ki, İslam dini elm dinidir, mədəniyyət dinidir, sülh dinidir, mərhəmət dinidir. Biz Azərbaycan xalqının istedadlı nümayəndələrini açılış mərasimində göstərdik. Azərbaycanın zəngin, qədim tarixini, mədəniyyətini bütün İslam aləminə, bütün dünyaya nümayiş etdirdik. Eyni zamanda, bağlanış mərasimi də Azərbaycanı mütərəqqi, müasir ölkə kimi təqdim etdi. Yəni, bu nadir vəhdət bu gün Azərbaycanı dünya miqyasında əvəzolunmaz ölkəyə çevirir. Biz öz milli, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq və qoruyacağıq. Eyni zamanda, biz dünyaya açığıq, biz müasirik, biz inkişaf edirik və bu önəmli amillər bu gün əslində müasir Azərbaycan dövlətini təcəssüm etdirir. Biz dərin milli-mənəvi köklər üzərində müasir dövlət qururuq, o dövlət ki, indi hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr edir.

Bizim uğurlarımızın təməlində Vətən sevgisidir və idmançılarımızı da qələbələrə aparan əsas amil budur. Biz görürdük ki, idmançılar necə sevinirlər, xalqımız necə sevinir. Bu on gün ərzində biz bir daha gördük ki, xalqımız, cəmiyyətimiz birdir. Bizi birləşdirən bizim əqidəmizdir, tariximizdir və gələcəyə baxışlarımızdır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq olan bir ölkədir. Azərbaycan müsəlman aləmində çox böyük rəğbətə layiq olan bir ölkədir.

Bakıda keçirilmiş Oyunlar sayca üçüncü İslam Həmrəyliyi Oyunlarıdır. Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü isə Azərbaycanda keçirilib. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, İndoneziya müsəlman aləmində əhali baxımından ən böyük ölkədir. Müsəlman aləminin bu iki aparıcı ölkəsindən sonra üçüncü Oyunların, - halbuki bu Oyunların adı dördüncüdür, amma biz bilirik ki, cəmi üçüncü dəfə keçirilibdir, - Azərbaycanda keçirilməsi, əlbəttə, bizə olan böyük hörmətin

və inamın təzahürüdür.

Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında çox sevinirdim ki, elə bil hamı mənə bir fikri çatdırmaq istəyirdi - hamı böyük minnətdarlıq hissi ilə təşkilati məsələlərin yüksək səviyyədə və peşəkarlıqla həll olunduğunu deyirdi. Əlbəttə ki, bu, bizi çox sevindirir. Oyunların bu səviyyədə keçirilməsi ölkəmizin gücünü, qüdrətini göstərir. Göstərir ki, biz istənilən beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil edə və eyni zamanda, öz standartlarımızı da tətbiq edə bilərik və bunu edirik. Avropa Oyunları bundan sonra ancaq Azərbaycan standartları əsasında keçiriləcəkdir. Bilirəm ki, bu standartlara çatmaq çətin olacaq.

Biz İslam Həmrəyliyi Oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu, bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Eyni zamanda, bu, ümumiyyətlə, bizim siyasətimizi göstərir. Çünki biz istəyirik ki, Azərbaycanda hər bir tədbir ən yüksək səviyyədə keçirilsin. Ona görə də ölkəmiz inkişaf edir, ona görə də Bakıya gələn bütün xarici qonaqlar şəhərimizə heyran qalırlar.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Azərbaycana gələn turistlərin sayı milyonlarla ölçülür. Bu Oyunlardan sonra ölkəmizə daha çox turist axını olacaq. Azərbaycanı bu gün nəinki İslam aləmində, dünyada inkişafda olan müasir, mütərəqqi, güclü dövlət kimi tanıyırlar və idmançılarımızın qələbələri bizim gücümüzü daha da artırır. Yəni, bu, daha əyani şəkildə göstərir ki, Azərbaycan güclü dövlətlər sırasındadır.

İdman yarışları, Olimpiya Oyunları, İslam Oyunları, Avropa Oyunları elə bir tədbirdir ki, bu tədbirlərdə həm idmançılar, həm ölkələr rəqabət aparırlar. İqtisadi, siyasi sahələrdə, beynəlxalq münasibətlər sahəsində bəzən birinciliyi müəyyən etmək üçün bəzi qurumlar, təşkilatlar çətinlik çəkirlər. Çünki müəyyən meyarlar olmalıdır. İdmanda isə hər şey açıq-aydındır. Azərbaycan birinci yerdədir, Azərbaycan qalibdir.

Əlbəttə, bu Oyunlar, eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək. Mən Oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar.

Bax, bu Oyunların tarixi əhəmiyyəti məhz bundadır. Azərbaycan apardığı siyasətə idman vasitəsilə əlavə töhfə verdi. Çünki bizim müsəlman aləmində siyasətimiz ondan ibarətdir ki, birlik, həmrəylik güclənsin, müsəlman ölkələri arasındakı bəzi ixtilaflara, müharibələrə son qoyulsun. Müsəlman aləmi birlik nümayiş etdirməlidir. Ancaq bu təqdirdə xalqlarımız gələcəkdə rahat və firavan yaşaya bilərlər. Ona görə, bizim apardığımız siyasət və bu Oyunlarda verdiyimiz töhfə əminəm ki, müsəlman aləminin birləşməsinə gətirib çıxaracaq.

Eyni zamanda, Azərbaycan müsəlman aləmini Qərb aləmi ilə birləşdirən ölkədir. Tə-

səvvür edin, iki il ərzində bir ölkədə, bir şəhərdə Avropa və İslam Oyunları keçirilir. Bu Oyunlarda 100-dən çox ölkə iştirak edir. Heç bir başqa ölkə bax, bu nailiyyətlə öyünə bilməz. Haqlı olaraq fəxr edirik ki, biz bunu edə bilmişik. Ölkəmiz həm Qərb dünyasında, həm müsəlman aləmində etibarlı tərəfdaş, dost və qüdrətli dövlət kimi tanınır.

Bir məsələni də qeyd etmək istəyirəm. Bizim uğurlarımızı əldə edən idmançılar müstəqillik dövründə yetişiblər. Bir çoxları müstəqillik dövründə doğulublar, müstəqillik illərində bu nailiyyətlərə gəlib çıxıblar. Bu, bir daha onu göstərir ki, müstəqillik bizim ən böyük sərvətimizdir. Bizim xalqımızın çox böyük tarixi var. Ancaq müstəqillik tariximiz müasir dövrdə o qədər də böyük deyil. Biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq və idman sahəsində, iqtisadi, sosial və digər sahələrdə görün, nə qədər böyük uğurlar əldə etmişik. İdman isə ölkələrin gücünü, siyasətini göstərir, xalqların gücünü göstərir. Sovet dövründə heç vaxt bizim ağlımıza gələ bilməzdi ki, Azərbaycan idmançıları bu qədər medal qazanacaqlar, Olimpiya Oyunlarında bu qədər qələbələr qazanacaqlar, müsəlman aləmində birinci, Avropa ölkələri arasında ikinci olacaqlar. Bütün bunlar ancaq müstəqillik dövründə mümkün olub. Ona görə, bu qələbə bir daha onu deyir və göstərir ki, ancaq müstəqillik dövründə xalqımız uğurla inkişaf edə bilər. Ancaq taleyimiz öz əlimizdə olduğu təqdirdə Azərbaycan xalqı sürətlə inkişaf edə bilər.

Biz müstəqillik gününün ərəfəsindəyik. Bir neçə gündən sonra Respublika Gününü qeyd edəcəyik. Bu qələbə əlbəttə ki, müstəqilliyimizə, müstəqilliyimizin möhkəmlənməsinə verilən növbəti töhfədir.

Eyni zamanda, biz mübarək Ramazan ayının başlaması ərəfəsindəyik. İslam Həmrəyliyi Oyunlarının Ramazan bayramının başlaması ərəfəsində başa çatması, Azərbaycan üçün böyük qələbə ilə sonuclanması hesab edirəm ki, təbiidir. Bu, təsadüfi deyil, bu, təbiidir.

Bir daha qayıdıram çıxışımın əvvəlinə. Bütün bu qələbələri bizə idmançılar bəxş ediblər. Ona görə, mən onları bir daha təbrik edirəm, onları qucaqlayıram, bağrıma basıram və onlara yeni qələbələr, uğurlar arzulayıram.

# İƏT-in Baş katibi: 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi beynəlxalq ictimaiyyətə mühüm mesajdır

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif Əl-Osaymin AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.

**-Cənab Baş katib, Siz "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının mayın 12-də keçirilən açılış mərasiminin iştirakçıları arasında idiniz. İlk növbədə bu mərasimlə bağlı təəssüratlarınızı bölüşmənizi istərdik. Ümumiyyətlə, İslam Həmrəyliyi Oyunlarının əhəmiyyəti haqqında nə deyə bilərsiniz?**

-Hər şeydən əvvəl məni bu möhtəşəm tədbirə dəvət etdiyi üçün Zati-aliləri Prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Mən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanı açılış mərasiminin və ümumiyyətlə, bütün tədbirin uğurla keçməsi münasibətilə təbrik edirəm.

Açılış mərasimi möhtəşəm idi. Mən musiqiyə, rəqslərə, kreativliyə heyran qaldım, hər şey heyrətamiz idi. Mən tarixin və müasirliyin harmoniyasını, müsəlman dünyası üçün bu gün çox güclü mesaj olan həmrəylik mövzusunu çox bəyəndim. İslam Həmrəyliyi Oyunları təkcə müsəlman dünyasından olan idmançıları yarışmaq üçün deyil, həmçinin tamaşaçıları və kütləvi informasiya vasitələrini müsəlman dünyasının həmrəylik və dəstəyini göstərmək və öz zəngin mədəniyyəti və fərqli adət-ənənələri olan xalqları bir araya gətirmək üçün çox vacib tədbirdir. Bizim gənclərimizə ilham vermək və onları ruhlandırmaq da çox vacibdir. Düşünürəm ki, bizim müsəlman dünyasını enerji, istedad və tolerantlıq dolu göstərən bu cür istər idman, istər mədəniyyət tədbirlərimiz daha çox olmalıdır.

**-Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. İslam aləminin bir çox problemlərlə, çağırışlarla üzləşdiyi bir zamanda Sizcə, Azərbaycan Prezidenti İlham Əliyevin bu təşəbbüsü müsəlman dünyası üçün nə kimi müsbət nəticələr verəcək?**

-Bu gün müxtəlif problemlərlə, münaqişələrlə üzləşən müsəlman dünyasının əvvəlkilərdən daha çox həmrəyliyə ehtiyacı var. Buna görə də biz Zati-aliləri Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi kimi müdrik qərarını həm İslam dünyası ictimaiyyətinə, həm də beynəlxalq ictimaiyyətə mühüm mesaj və Azərbaycanın İƏT-ə üzv dövlətlər arasında həmrəylik və əməkdaşlığı genişləndirmək marağının təcəssümü hesab edirik. Buna görə də "İslam Həmrəyliyi İli"nin elan olunması bizim dinimizin prinsipləri və ənənələrinə əsaslanan bütün ideyalarına töhfə verəcək və dünyanın qalan hissəsinə İslam ümmətinin sülh və həmrəylik yolu ilə necə edilə biləcəyinə dair əhəmiyyətli mesaj göndərir. Bu yaxınlarda Bakının ev sahibliyi et-

diyi, üç mindən çox idmançının bir araya gəldiyi, İslam dünyasını birləşdirən maraqlı multiidman hadisəsi – IV İslam Həmrəyliyi Oyunları da bunun konkret nümunəsidir.

Yeri gəlmişkən, qeyd edim ki, İslam Həmrəyliyi Oyunları yalnız idman tədbiri deyil, bu, həmçinin "İslam Həmrəyliyi İli"nin arxasındakı idealları gerçəkləşdirməyə xidmət edir. Bu, insanları müsbət və konstruktiv şəkildə birləşdirən bir hadisədir. Bizim İslam dünyasında bu birliyə ehtiyacımız var. İƏT-ə üzv dövlətlərdən olan idmançılar və onların nümayəndələri Bakıda bir-biri ilə sıx əlaqələr qurdular və bütün dünyaya bizim həmrəyliyimizin əhəmiyyətini nümayiş etdirdilər. Onu da xatırlatmaq lazımdır ki, Oyunlar "Həmrəylik bizim gücümüzdür" devizi altında keçirildi.

**-Siz Bakıda, həmçinin Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxışınızda xalqlar arasında birliyin gücləndirilməsində mədəni müxtəlifliyin vacib rol oynadığını vurğuladınız. Azərbaycan bu baxımdan da dünyaya nümunə kimi göstərilir. Artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb. Bununla bağlı fikrinizi eşitmək istərdik. Ümumiyyətlə, sivilizasiyalararası dialoqun inkişafında Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?**

-Sualınızda bildirdiyiniz kimi, əlbəttə ki, xalqlar arasında birliyin gücləndirilməsində mədəni müxtəlifliyin rolunun əhəmiyyəti böyükdür. Biz düşünürük ki, bir-birini tanıması və onlar arasındakı əlaqələri inkişaf etdirə bilməsi məqsədilə müxtəlif xalqları və nəsilləri dialoq üçün bir platformada bir araya gətirməyin böyük əhəmiyyəti var. Bu kontekstdə, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları dünya gündəliyində vacib məsələlərdən olan mədəniyyətlərarası dialoq baxımından mühüm platformadır. İƏT Azərbaycanın xalqlar arasında dialoqun gücləndirilməsində və inkişafında rolunu yüksək qiymətləndirir. Bu təşəbbüsə dəstəyin təzahürü olaraq, Baş Katiblik 2011-ci ildən bəri keçirilən dörd forumumun hamısında iştirak edib. Bundan əlavə, Azərbaycan ötən il maraqlı tərəfdaşların mədəniyyətlərarası dialoq üçün toplaşdığı BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna də uğurla ev sahibliyi edib. Bütün dünyaya qucaq açan bu tədbir sivilizasiyalar arasında dialoqu irəli aparmaqda Azərbaycanın açıq-aydın rolunu nümayiş etdirən başqa bir fəaliyyətdir. Biz yaxşı məlumatlıyıq ki, Azərbaycan tarixən sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan olub. Azərbaycan əsrlərdən bəri bütün etnik qrupların və dinlərin nümayəndələrinin sülh və ahəngdarlıqda yaşadığı multietnik, çoxkonfessiyalı ölkədir. Onun coğrafiyası, tarixi və inkişafı göstərir ki, mədəniyyətlərarası dialoq ölkənin tarixinin ən mühüm aspektlərindən biridir. Həmçinin Azərbaycan tərəfindən bu davamlı səylər sülh şəraitində birgəyaşayışa, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa müsbət töhfələr verir.

**-Son zamanlar ərəb ölkələrindən Azərbaycana gələn turistlərin sayında xeyli artım müşahidə olunur. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında turizm sahəsində əlaqələrin inkişafı ilə bağlı gələcəkdə hər hansı bir strategiyanın, yaxud qlobal layihənin hazırlanması nəzərdə tutulurmu?**

-İƏT-ə üzv dövlətlər arasında turizm sektorunun inkişafı təşkilatın müxtəlif proqramlarının məqsədlərinə nail olunmasına yönələn birbaşa kursu ilə möhkəm bağlıdır. 2000-

ci ildə keçirilən turizm nazirlərinin birinci İslam Konfransından bəri turizmin inkişafı ilə bağlı nazirlərin doqquz konfransının, bir çox ekspert qruplarının görüşlərinin, seminarların təşkili İƏT-in gündəliyində turizm sahəsində əməkdaşlıq fəaliyyətlərinə daha böyük əhəmiyyət qazandırıb. Azərbaycan üzv dövlətlər arasında turizm sektorunun inkişaf etdirilməsində də böyük rol oynayır. Azərbaycan Respublikası 2006-cı ildə İƏT-ə bütün üzv dövlətlərin turizm potensialının təqdim edildiyi turizm nazirlərinin beşinci İslam Konfransına ev sahibliyi edib. Eləcə də İƏT-ə üzv dövlətlər arasında turizmin inkişafı və bu sahədə əməkdaşlıq üçün çərçivənin qəbul edilməsi üzv dövlətlər arasında turizm sektorunun yüksəlişi üçün mühüm plandır. Adıçəkilən çərçivə İƏT məkanında turizmin inkişafının təşviqi və bu sahədə birgə regional layihələrə üstünlük verilməsi məqsədini daşıyır. Bu mexanizm İƏT-ə üzv dövlətlər arasında turizm infrastrukturunun inkişafının vacib sahələrində insan kapitalının inkişafını və standartları göstərməklə həmrəyliyi gücləndirmək məqsədi daşıyır. Sevindirici haldır ki, İƏT Şəhər Turizm Mükafatı üzv dövlətlərin turizm sektoru arasında getdikcə daha da populyarlaşır. Mən Azərbaycanın müvafiq qurumlarını yeni turizm istiqamətlərinin yaradılması, eləcə də həmin şəhərlərə investisiyanın cəlb edilməsi məqsədilə 2019-2020-ci il üçün namizəd şəhərlərini Şəhər Turizm Mükafatına təqdim etməyə dəvət edirəm.

**-Bu ay ərzində iki dəfə Azərbaycanda səfərdə oldunuz. Sizdə ölkəmiz, onun insanları barədə nə kimi təəssüratlar yarandı?**

-Azərbaycan İƏT-in əsas üzv dövlətidir və füsunkar təbiəti, gölləri, dağları ilə çox gözəl ölkədir. Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malikdir, insanları qonaqpərvərdir. Ölkədə müasir otellər, restoranlar fəaliyyət göstərir. Böyük turizm potensialına malik bu ölkədə ənənələrə və İslam irsinə dəyər verilir.

## "Bakı-2017": dünyaya idman dili ilə ötürülən sülh, tolerantlıq və həmrəylik mesajları

Azərbaycan tolerant ölkədir. Tolerantlıq və multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Müasir Azərbaycanın tolerantlıq modeli dünyanın diqqətini cəlb edir, bir sıra ölkələrdə bir təlim və elm kimi öyrənilir, universitetlərdə tədris olunur.

Bu, artıq günümüzün qürur, bəlkə də qibtə doğuran reallığıdır. Diqqətçəkən daha bir məqam: bizim tolerantlıq modelimiz daim yeni-yeni çalarlarla zənginləşir. Bir neçə gün əvvəl Bakıda böyük uğurla başa çatan İslam Həmrəyliyi Oyunları tarixə sıradan idman hadisəsi kimi deyil, eyni zamanda, birlik və həmrəyliyin təntənəsi kimi yazıldı. Bakı bu ılıq yaz günlərində İslam dünyasının 3000-dək idmançısına, sözün həqiqi mənasında qucaq açdı, onların doğma evi oldu. Bakı bir daha dünyaya idman dili ilə dövrümüz üçün çox vacib olan bu mesajı ünvanladı: tolerantlıq və multikulturalizmin alternativi yoxdur, bəşəriyyətin nicat yolu birlik və həmrəylikdən keçir.

### *İdman bayramını tamamlayan və zənginləşdirən məntiqi addım*

Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etməklə, əsl dostluq və həmrəylik mühiti yaratmaqla tarix yazdı. Oyunlar milyonların yaddaşına möhtəşəm idman bayramı kimi yazıldı, Azərbaycanın gücü və qüdrətini, xoş məramını, istənilən beynəlxalq tədbiri yüksək səviyyədə təşkil etmək bacarığını nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Oyunlar ərəfəsində müdrik və məntiqi addım atdı - 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etdi. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının "OIC Journal" nəşrində dərc olunmuş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsində etnik və dini tolerantlığı "irəliyə doğru inamla getməyin ən optimal yolu" adlandıraraq vurğulayır: "Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. "İslam Həmrəyliyi İli"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaqdır".

Yaşadığımız 10 gün Prezidentin bu fikrində yanılmadığını təsdiqlədi: Oyunlar və "İslam Həmrəyliyi İli" bir-birini üzvi surətdə tamamladı, "Bakı-2017"ni yeni məzmunla zənginləşdirdi.

2015-ci ildə Bakı ilk Avropa Oyunlarına, bundan iki il sonra isə IV İslam Həmrəyliyi

Oyunlarına eyni dərəcədə uğurla və inamla ev sahibliyi etdi. Bir tərəfdə islamofobiya ruhuna köklənən, müsəlmanları potensial terrorçu hesab edən Köhnə Dünya və digər tərəfdə terrorizmdən ən çox əziyyət çəkən, qan çanağına çevrilən İslam Dünyası - iki əks qütb. Belə təzadlı və mürəkkəb, qanlı qarşıdurmalar yaşandığı bir vaxtda Bakıda Avropa və İslam Həmrəyliyi Oyunlarının bir-birini əvəzləməsi rəmzi məna daşıyır və möhtərəm Prezidentimizin təbirincə desək, "Azərbaycanın sivilizasiyaların, dinlərin dialoq məkanına, iqtisadi və mədəni körpüyə çevrildiyini göstərir". Azərbaycan bu nadir mövqeyindən dünyada sülhün, multikulturalizmin, dözümlülüyün bərqərar olması naminə istifadə edir.

Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları bu xoş məramın növbəti parlaq təzahürü oldu. "Bakı-2017"nin tarixi əhəmiyyəti daha nə ilə xarakterizə edilə bilər?

## *"Bakı-2017": güclü siyasi iradə və yüksək təşkilatçılıq məharəti*

Azərbaycan rəhbərliyi istənilən beynəlxalq tədbirin keçirilməsini üzərinə götürmək üçün yetərincə siyasi iradəyə malikdir: istər siyasi-iqtisadi, humanitar forumlar olsun, istərsə də mədəni və idman tədbirləri. Yaxın tariximizdə bunun istənilən qədər sübutu var. Hamıya məlum olan bu faktları sadalayıb vaxt almaq istəməzdim. Yalnız onu deməklə kifayətlənirəm ki, yeni əsrdəki yeni liderimiz İlham Əliyev Azərbaycanı dünyaya öz müstəqil mövqeyi olan ölkə kimi təqdim edə bilib, onu nüfuz sahibinə çevirib. Azərbaycan məlum xarici dairələrin basqılarını dəf edərək möhkəmlənib. Artıq ona inanır və etibar edirlər. Prezident İlham Əliyevin sarsılmaz siyasi iradəsi, qətiyyətli qərarları Azərbaycanın çox mühüm irimiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etməsini şərtləndirən ilkin və əsas amildir.

Digər tərəfdən, hər belə tədbirin təşkili barədə ən yüksək rəylər eşidirik. Bunun ən yeni sübutu olaraq İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al Nasserin sözlərini misal gətirmək istərdim: "Bakı İslam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələri qeyd etmək məqsədilə gözəl şəraiti təmin etdi. Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu".

Yaxud, ümumi rəyə görə, Bakıda keçirilən birinci Avropa Oyunları qitənin idman tarixinə parlaq səhifə kimi yazılıb və Azərbaycan onu Olimpiya Oyunları səviyyəsində təşkil edib. Bakı bu uğurunu İslam Həmrəyliyi Oyunları zamanı da təkrarlayaraq, bir qədər əvvəl qeyd etdiyim kimi, tarix yaza bildi.

İstər Avropa, istərsə də İslam Həmrəyliyi Oyunlarının təşkilati işlərinin mərkəzində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dayanır. Hər iki mötəbər idman

tədbirinin təşkilat komitələrinə sədrlik edən Mehriban xanımın qüvvələri çox qısa müddətdə səfərbər etmək məharətinin nəticəsi olaraq bütün infrastruktur, o cümlədən idman arenaları tam qüsursuz, demək olar, saat mexanizmi kimi işlədi. Hamı Bakıdan zəngin təəssüratla ayrıldı, Azərbaycan dünyanın gözündə bir daha ucaldı.

Yenə ümumi rəyə əsaslanıb deyə bilərik ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın yaxından iştirakı və dəstəyi olmadan bu uğur səhifələrini yazmaq qeyri-mümkün idi. "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsi, birinci Avropa Oyunları, İslamiada kimi mötəbər tədbirlərin təşkilat komitələrinin rəhbərinin məhz qadın olması faktının özü dünyaya ünvanlanmış daha bir siyasi mesajdır, öz "fobiyalarına" uyaraq İslamı "qeyri-bərabərlik dini" və "gender bərabərliyindən uzaq din" kimi təqdim etməyə çalışan nadan qüvvələrə tutarlı cavabdır.

Qərbə bu mesajlar yenə Azərbaycan tərəfindən - təxminən bir əsr bundan əvvəl İslam dünyasında ilk demokratik respublika yaratmış xalq tərəfindən göndərilib. Həmin respublikada qadınlara hətta bu gün bəzən başqalarına demokratiya və insan hüquqları mövzusunda "mühazirələr oxuyan" bir sıra Qərb ölkələrindən də əvvəl bərabər vətəndaş hüquqları verilmişdi. Belə qüvvələrə onu da xatırlatmaq yersiz olmaz ki, Mehriban Əliyeva UNESCO-nun "xoşməramlı səfiri" kimi fəxri rütbə ilə yanaşı, ISESCO-da da analoji rütbə daşıyır. Başa düşənlər bilirlər ki, bunun çox böyük rəmzi mənası var.

Xatırlatmaq yerinə düşər ki, birinci xanım Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünya miqyaslı bir çox təşəbbüslərin, layihələrin reallaşdırılmasına, tədbirlərin təşkilinə yaxından dəstək verir. Buna, həmçinin ötən ilin noyabrında Bakıda uğurla keçirilən və geniş əks-səda doğuran Dünya Xəbər Agentliklərinin V Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyası misal ola bilər. Məhz Heydər Əliyev Fondunun yaxından köməyi və dəstəyi ilə dünyanın informasiya siyasətini müəyyənləşdirən nüfuzlu media rəhbərlərini və nümayəndələrini Azərbaycanda bir araya gətirmək mümkün oldu. Onlar Bakıdan zəngin təəssüratla ayrıldılar.

Mehriban xanım İslamiadanın açılış mərasimindəki çıxışında bütün dünyaya çox vacib bir mesaj göndərdi: gənc, dinamik inkişaf edən və demokratik dövlət olan Azərbaycan İslam mədəniyyətinin tərkib hissəsi olduğuna və bu xəzinəyə öz töhfəsini verdiyinə görə hədsiz qürur duyur. "Biz İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərlərini bölüşməkdən fərəhlənirik", - deyən Mehriban xanım vurğulayıb ki, "biz minillikləri əhatə edən mədəniyyətə və güclü İslam ənənələrinə malik qədim diyarıq".

Deyilənlərə onu da əlavə edə bilərik ki, Azərbaycan nəinki Qərbdə bəzi təbəqələrin iddialı mentorluğuna ehtiyac duymur, hətta o özü elə həmin Avropaya çox şeyi öyrədə bilər. Multikulturalizmin perspektivsiz və hətta uğursuz olması barədə avropalı siyasətçilərin açıq bəyanatları fonunda Azərbaycan hər il Bakı Qlobal Forumu, Bakı Beynəlxalq Humanitar Forumu kimi aktual tədbirlərə inamla ev sahibliyi edir. Bu tədbirlərin başlıca yekunu ondan ibarətdir ki, Azərbaycanda multikulturalizm yaşayır və sivilizasiyalararası dialoqun alternativi yoxdur.

## *"Bakı-2017": Oyunlardan əvvəl və sonra*

Yadıma birinci Avropa Oyunları ərəfəsində bəzi dairələrin qızışdırdığı antiazərbaycan kampaniyası düşür. Bədxahlarımız Avropa Olimpiya Komitəsini tənqid atəşinə tuturdular: qitə miqyaslı ilk Oyunlar niyə Azərbaycana həvalə olunub? Bakının irimiqyaslı idman tədbirinin öhdəsindən gələ biləcəyinə inanmayan skeptiklər də az deyildi. Deyə bilmərəm, bu fikirdə olanlar sonradan xəcalət çəkdilər, ya yox? Amma bəziləri susdu, bəziləri isə etiraf etməyə məcbur oldu ki, heç bir digər ölkə bu Oyunları Azərbaycan qədər yüksək səviyyədə, belə möhtəşəmliklə təşkil edə bilməzdi.

Prezident İlham Əliyevin, birinci xanım, Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın hələ Oyunlardan əvvəl səsləndirdikləri fikirlər bu idman və həmrəylik bayramının uğuruna böyük inamdan xəbər verirdi: İslam Oyunları, ilk növbədə, İslam həmrəyliyini gücləndirəcək, həm İslam aləminə, həm dünyaya bir daha göstərəcək ki, İslam dini sülh, mərhəmət və qardaşlıq dinidir. Eyni zamanda, dünyaya göstərəcək ki, Azərbaycan böyük imkanlara malik olan ölkədir və ən mötəbər beynəlxalq yarışları keçirməyə qadirdir.

Doğrudan da "Bakı-2017" tarixə həm böyük idman bayramı, həm də dostluğun təntənəsi kimi yazıldı. Bütün müsəlman ölkələri 10 gün ərzində Bakıda öz təmsilçiləri vasitəsilə bir-birinin əlini sıxdılar. Azərbaycan dünyaya nümayiş etdirdi ki, İslam aləmi birdir və bu birlik bizim güc mənbəyimizdir.

Bakı misilsiz və unudulmaz 10 gün yaşadı. Bu 10 gün ərzində İslam dünyasının atletləri idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Dörd qitə sanki can deyib, can eşitdi.

Azərbaycanın Birinci vitse-prezidenti, Oyunların Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva bağlanış mərasimindəki çıxışında keçirdiyi qürur hisslərini dilə gətirərək deyirdi: "Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar".

## *Azərbaycan: idman ölkəsi və tolerantlıq məkanı*

Hələ müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyevin idmana necə böyük önəm verdiyini yaxşı xatırlayıram. Deyirdi ki, idman ölkəni dünyaya tanıtmağın ən təsirli vasitəsidir və bu mənada onun yerini heç nə verə bilməz. O vaxt Azərbaycan idmanı beynəlxalq arenaya hələ yeni-yeni ayaq açdığı illər idi və çox keçmədən Ulu Öndərimizin bu arzusu da çin oldu.

Bir qədər əvvəl vurğuladığımız kimi, Azərbaycan artıq bütün dünyada idman məkanı

kimi tanınır. Hansı ölkədə dövlət idmana Azərbaycanda olduğu qədər diqqət ayırır, dəstək göstərir? Çox maraqlandım, çox araşdırdım, amma bunun bənzərini görmədim. Əlbəttə, aparılan siyasət öz real nəticəsini idmançılarımızın nailiyyətlərində göstərir və bu yerdə statistikasız keçinmək mümkün deyil. Ötən il Rio Yay Olimpiya Oyunlarında Azərbaycan 18 medal qazanaraq medalların sayına görə dünyada 14-cü, Avropada 7-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu. Birinci Avropa Oyunları zamanı komandamız 56 medal qazanaraq ikinci oldu. Nəhayət, IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları xalqımıza yeni qələbə sevinci bəxş edərək, yarışları birinci pillədə başa vurdular. Atletlərimiz hamıdan çox - 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazandılar.

Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlmişdi və indiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb. Azərbaycan bu 10 gündə onların hamısının doğma evi oldu. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləməsi və qaliblərə medalları şəxsən təqdim etməsi Oyunlara marağı daha da artırdı, onu yeni məzmunla zənginləşdirdi.

Daha bir diqqət çəkən fakt: "Bakı-2017"ni 58 ölkədə 1,3 milyard tamaşaçı izləyib. Yarışları 1000-dək media nümayəndəsi, o cümlədən Oyunların rəsmi media tərəfdaşı olan AZƏRTAC-ın 70-dək əməkdaşı işıqlandırıb.

Bakı bundan əvvəl ilk Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula-1 kimi mötəbər yarışlara uğurla ev sahibliyi edib. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri Azərbaycanın idman ölkəsi olduğunun daha bir parlaq nümayişidir.

Azərbaycan Oyunların açılış mərasimində İslam dininin mütərəqqi, elm, mədəniyyət, sülh və mərhəmət dini olduğunu göstərdi. Azərbaycanın tolerantlıq məkanı, xalqımızın multikultural ruhun daşıyıcısı olduğunu bir daha ortaya qoydu. Qədim və zəngin tariximizi, mədəniyyətimizi bütün İslam aləminə, bütün dünyaya nümayiş etdirdi. Bağlanış mərasimində isə dünya Azərbaycanı mütərəqqi, müasir ölkə kimi gördü. Qürur mənbəyimiz olan Vətənimizi dünya miqyasında əvəzolunmaz ölkəyə çevirən məhz bu nadir vəhdətdir.

Prezident İlham Əliyev "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüşündə İslamiadanın tarixi əhəmiyyətini belə səciyyələndirib: "Bu Oyunlar, eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək. Mən Oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar".

Şərəfli estafet davam etməkdədir. Bizi qarşıda Formula-1 Azərbaycan Qran-Pri turniri, qadınlar arasında voleybol üzrə Avropa çempionatı və futbol üzrə Avropa çempionatının oyunları gözləyir.

Bütün bunları Azərbaycanın multikulturalizm modelinin uğur hekayəti adlandırmaq olar.

## *Bəs bu model UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilə bilərmi?*

Mən İslam Həmrəyliyi Oyunları ərəfəsində UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının üzvlərinin iclasında qurumun baş katibi İrina Bokovaya bu sualla müraciət etdim. Xanım baş katibin cavabı belə oldu: "Çox maraqlı məsələdir və bu ideyanın üzərində çox işləmək lazımdır. Azərbaycan dünyanın mədəni müxtəlifliyinin qovuşduğu nadir ölkədir. Azərbaycan müxtəlif mədəniyyətlərin bir araya gəlməsi istiqamətində çox faydalı təşəbbüslərin müəllifidir".

Bu təşəbbüslər sırasında "Bakı prosesi" xüsusi qeyd edilməlidir. Məhz iki aparıcı beynəlxalq təşkilatın - Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının arasında fəal dialoq 2008-ci ildə "Bakı prosesi" ilə başlayıb. Həmin il Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri də dəvət edildi. Bir il sonra isə Bakıda Avropa dövlətlərinin mədəniyyət nazirlərinin iştirakı ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısı təşkil olundu. Beləliklə, Azərbaycanın təşəbbüskarı olduğu "Bakı prosesi" sivilizasiyalararası dialoq üçün çox faydalı platformaya çevrildi.

Bu təşəbbüsdən qaynaqlanan yeni ideyalar 2015-ci və 2017-ci illərdə reallaşdı. Tam əminliklə demək olar ki, çox yüksək səviyyədə keçirilən ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın multikulturalizm modelinin fəlsəfəsini yeni dəyərlərlə zənginləşdirdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi "iki il müddətində eyni şəhərdə Avropa Oyunları ilə yanaşı, İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim siyasətimizin və niyyətimizin göstəricisidir. Oyunlar sadəcə idman tədbirləri deyil, bu, insanları birləşdirən hadisədir". Məhz bu amillərə görə Azərbaycanın multikulturalizm modeli UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilə bilər. Əlbəttə, İrina Bokovanın vurğuladığı kimi, bu ideyanın üzərində çox işləmək lazımdır.

## *İslam Həmrəyliyi Oyunları fonunda bəzi düşüncələr*

Oyunların gedişi, bir-birindən maraqlı yarışlar, qazanılmış medalların sayı, qələbə sevinci, məğlubiyyət acısı, fədakar könüllülər, idman ruhuna sadiq azarkeşlər və əlbəttə,

idmançılar üçün əhəmiyyətli olan digər təfərrüatlar barədə çox yazmaq, çox danışmaq olar. Təbii ki, bu detallar biz jurnalistlər üçün də çox vacibdir, çünki biz də doğma Vətənimizin övladları kimi idmançılarımıza ürəkdən azarkeşlik edirik və hər dəfə bayrağımız yüksələndə, dövlət himnimiz səslənəndə qürur hissi keçiririk.

Lakin məqsədim Oyunlara sırf idman, yaxud vətənpərvərlik prizmasından deyil, siyasi nöqteyi-nəzərdən baxmaq, bu fonda bəzi düşüncələrimi bölüşməkdir.

Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi və eyni vaxtda ölkəmizdə eyniadlı Oyunlar keçirilməsi təsadüfi deyildi. İslam həmrəyliyi mövzusu bir gündə, bir ayda, bir ildə yox, qərinələr boyu gündəmdə olub. Nəyə görə məhz İslam həmrəyliyi, nəyə görə məhz idman vasitəsilə və nəyə görə məhz Bakıda?

İlk baxışda sadə görünən bu suallar özündə dünyada cərəyan edən dərin və mürəkkəb prosesləri ehtiva edir. Təəssüf ki, son vaxtlar silahlı münaqişələr, terrorçuluq dünyanı başına götürüb. Sanki dünya iki barışmaz, antaqonist qütbə bölünüb. Azərbaycan bu qütbləri yaxınlaşdırmaq, Qərb-Şərq dialoqu qurmaq üçün platforma rolunu oynayır və zamanın bu çağırışına güclü reaksiya verir. Bakının bir-birinin ardınca həm Avropa, həm də İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi doğrudan da nadir, dünyanın heç bir ölkəsində rast gəlinməyən hadisədir. Azərbaycan islamofobiya, millətlər və dinlər arasında ayrı-seçkilik hallarına kəskin etiraz səsini ucaldır, eyni zamanda, dünyaya sivilizasiyaların dinc yanaşı, qarşılıqlı anlaşma şəraitində yaşamasının heç də xəyal olmadığını göstərir.

Qərbdə "İslam terrorizmi" kimi yanlış mif yaranıb və KİV başda olmaqla, təbliğat maşını bunu hər vasitə ilə körükləyib şişirdir. Nəticəsi nə olur? Bu gün bir çox Qərb siyasətçiləri özləri də etiraf edirlər ki, onların ölkələrində vəziyyət ehtiyatsızlıq üzündən şüşədən buraxılmış cin kimi artıq nəzarətdən çıxıb. Bu ölkələrdə neonasist əhval-ruhiyyə getdikcə güclənir: miqrantlara küçələrdə hücum edilir, hicablı qadınlar təhqirə məruz qalır, müharibələr səbəbindən ata-baba yurdlarını tərk etməyə məcbur olmuş qaçqınların sığınacaqlarına od vurulur.

Dünyada sanki XXI əsrin səlib yürüşləri baş qaldırır. Fərqli dinlərə dözümlülük, başqa xalqların mədəniyyətinə hörmət, ehtiyacı olanlara yardım dini olan İslama bu hücumların arxasında bəzi açıq və gizli niyyətlərin dayandığı artıq heç kəs üçün sirr deyil. Qərbin "Ərəb baharı" adlandırdığı dolayı müdaxilə ərəb ölkələrinə soyuq ruzigardan savayı nə gətirdi? Bu gün İraqda, Suriyada, Liviyada, Yəməndə... qara yellər əsir. Yüz minlərlə dinc insan - uşaq, qadın və qocalar silahlı münaqişələrin, terrorun qurbanı olur. Artıq həmin ölkələrdə terror halları o qədər adiləşib ki, qərb KİV-ləri buna ikinci dərəcəli xəbər kimi yanaşırlar.

İŞİD-i kim yaradıb? Terror qruplaşmalarını kim silahlandırır, kim maliyyələşdirir? Suallar çoxdur.

Dünən Türkiyə qəzetlərinin əksəriyyəti bu manşetlə çıxıb: "ABŞ-dan PYD/PKK-ya 100 tır silah"...

Bumeranq effekti yaranır və bu, qaçılmazdır. Qərb İkinci Dünya müharibəsindən sonra ən böyük mühacir böhranı ilə üzləşib, terror xofu bütün Avropanı lərzəyə salıb. Nyu-York, Madrid, Paris, Brüssel, Berlin, London, Mançester... Növbə kimindir, hansı şəhərin, hansı ölkənindir? Dünyada heç bir ölkə terrordan sığortalanmayıb: nə Skotlend-Yard kimi güclü xəfiyyə şəbəkəsi olan Böyük Britaniya, nə FTB kimi məşhur təhqiqat sisteminə malik ABŞ, nə polisinin sayıqlığı ilə öyünən Fransa, Belçika və digər Avropa ölkələri.

İki gün əvvəl Bakıda uğurla başa çatmış, müsəlman aləmində böyük əks-səda doğurmuş sülh, mədəni müxtəliflik və dözümlülük bayramı - IV İslam Həmrəyliyi Oyunları bu xoşagəlməz proseslər və insan faciələri, bəzi Qərb dairələrinin riyakar siyasəti ilə tam təzad təşkil edir. Təsadüfi deyil ki, bu həmrəylik, dostluq çağırışları dünyaya məhz idman dili ilə və məhz tolerantlıq məkanı olan Azərbaycanın paytaxtından ünvanlanır. Bütün dövrlərdə Olimpiya məşəli yandırılanda müharibələr dayandırılıb. 2017-ci il İslamiadasının rəmzi su oldu. Bu da təsadüfi deyil. Su - həyat və əbədiyyət mənbəyidir.

Azərbaycan bəşəriyyətə tolerantlıq və multikulturalizm brendi təqdim edir və İslamiada bunun daha bir nümunəsi oldu. Narahat dünyamızın digər nicat və qurtuluş yolu varmı?

*Aslan Aslanov,*
*AZƏRTAC-ın Baş direktoru*

## MÜNDƏRİCAT


M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................3

Prezident İlham Əliyev: Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır ....................4

Birinci vitse-prezident Mehriban Əliyeva: Prezidentin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam ....................6

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya ....................7

Mehriban Əliyeva bu etimadı da şərəflə doğruldur ....................8

Mehriban xanım Əliyevanın adı dünyanın görkəmli lider qadınları sırasındadır ....................10

Mehriban Əliyeva xalqın inam, etimad ünvanıdır ....................17

Həştərxan Mehriban Əliyevanı təbrik edir ....................24

Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin təməlini formalaşdırdı ....................29

Allahı sevən və Allahın sevdiyi insanların missiyası ....................34

Azərbaycana fədakar xidmət məramı ....................42

Mehriban xanım Əliyeva fəaliyyəti ilə xalqımızın böyük inamını qazanmışdır ....................47

Nəcib və xeyirxah insan ....................52

Mehriban xanım Əliyeva görkəmli siyasi xadimdir ....................57

Vətənə, dövlətə və xalqa
layiqli xidmət missiyası ....................................................................62
Xalq və dövlət naminə şərəfli missiya ................................................66
Xalqımın ləyaqətli təmsilçisi ..............................................................72
Şərəfli missiya .....................................................................................75
İstiqlalımızın mərhəmət təcəssümü ....................................................80
Xalqa və dövlətə
layiqli xidmət nümunəsi ......................................................................87
Rusiya mədəni həyatında
Azərbaycan təntənəsi ...........................................................................96
Heydər Əliyev Fondu təhsillə bağlı
layihələri uğurla həyata keçirir .........................................................100
Birinci vitse-prezident Mehriban Əliyeva
Bakının Ramana qəsəbəsində məcburi köçkün
ailələri üçün inşa edilən yeni bina ilə tanış olub ...............................102
Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyeva:
"Bütün arzularımıza nail olacağıq. Çünki bunun
bütün amillər - müstəqil siyasət, xoş niyyət, iqtisadi
potensial və ən əsası xalqın inamı və dəstəyi var" ............................104
Heydər Əliyev Fondu çoxlarının
ümid yerinə çevrilib ..........................................................................114
Heydər Əliyev Fondunun daha bir töhfəsi .........................................117
Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü
Azərbaycan, budur bizim əsas prinsipimiz .......................................119
Azərbaycan-Fransa münasibətlərinin möhkəmlənməsinə
Heydər Əliyev Fondundan böyük töhfə .............................................125
Birinci vitse-prezident Mehriban Əliyeva Yaponiyanın
xarici işlər nazirinin parlamentari müavini ilə görüşüb .....................130
Birinci xanım Mehriban Əliyevaya Veliko
Tırnovo şəhərində fəxri vətəndaş və fəxri
doktor diplomları təqdim edilib .........................................................131
"Əl-Fəcr" qəzetində Azərbaycanın birinci
xanımının çoxşaxəli fəaliyyətinə həsr
olunmuş məqalə dərc edilib ...............................................................135
İlham Əliyev Azərbaycanın
İslamiada zəfərinin baş müəllifidir ....................................................138
Mehriban ƏLİYEVA:
"Azərbaycan növbəti tarixi qələbəyə imza atdı" ................................143

Azad Rəhimov:
İslamiada Azərbaycanın mötəbər tədbirləri yüksək
səviyyədə keçirməyə qadir olduğunu göstərdi ....................................151
İslam həmrəyliyinin təntənəsi ..............................................................153
IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları,
onların məşqçiləri və idman ictimaiyyətinin
nümayəndələri ilə görüş keçirilib Azərbaycan
Prezidenti İlham Əliyev görüşdə iştirak edib .......................................161
İƏT-in Baş katibi:
2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan
edilməsi beynəlxalq ictimaiyyətə mühüm mesajdır 166
"Bakı-2017": dünyaya idman dili ilə ötürülən sülh,
tolerantlıq və həmrəylik mesajları ......................................................169

**Asəf Novruzov**
**"Azərbaycanın birinci vitse prezidenti"**

*Dizayn:* **Dönməz Abbasov**
*Operator:* **Sevda Əlizadə**

**Kitab satılmır, pulsuz paylanır.**

Yığılmağa verilmişdir: 21.10.2017
Çapa imzalanmışdır: 10.11.2017
Nəşrin formatı: 64x82 1/8
Fiziki çap vərəqi: 11,5
Tiraj: 1000 nüsxə